İxtisas: Təhsildə sosial-psixoloji xidmət/ Məktəbəqədət təlim və tərbiyə
Kafedra: Psixologiya, pedaqogika və sosial fənlər
Fənn:Etnopsixologiya
Müəllim: A.V.Kosayeva
Mühazirə.

1.Etnik psixologiyanın predmeti, məqsədi və vəzifələri

Plan:

1.Etnopsixologiyanın bir elm kimi yaranması tarixi

2.Etnik psixologiyanın predmeti

3.Etnik psixologiyanın əsas problemləri

ƏDƏBİYYAT:

1. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
2. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
3. Əliyev R. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
4. Əliyev R. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000
5. Стефаненко Т.Г. Этнопсихология. М.: 1999

Mövzu ilə bağlı elektorn resurslar:

https://superinf.ru/view_helpstud.php?id=275
http://elibrary.udsu.ru/xmlui/bitstream/handle/123456789/13295/2015223.pdf?sequence=1

1. Etnopsixologiyanın bir elm kimi yaranması tarixi.

Əsrimizin 60-70-ci illərindən başlayaraq dünya miqyasında xalqların özbənzərsizliyini,orijinallığını, mədəni münasibətlərini və psixoloji həyat tərzini qorumaqla xarakterizə olunan proseslər geniş vüsət almağa başlanmışdır.

Ümumiyyətlə, etnopsixologiya nəyi öyrənir sualına əksər insanlar qısa şəkildə xalqların psixoloji və mədəni inkişaf xüsusiyyətlərini qarşılıqlı əlaqədə, sistemli şəkildə öyrənən bir elm sahəsidir. Təbii ki, psixoloq və etnoloqların cavabı

bu qədər sadə olmamalıdır. Bu mənada etnopsixologiyanın predmeti ilə bağlı problemləri bir neçə amillə əlaqələndirmək olar. Ilk növbədə onu qeyd etmək lazımdır ki, "etnos" termininin birmənalı istifadə olunmadığı faktına əsasən demək olmaz ki, etnopsixologiya məhz etnosu öyrənir. Digər qrup tədqiqatçılar hesab edirlər ki, etnopsixologiya birbaşa etnosla deyil, mədəniyyətlə bağlı psixoloji xarakteristikaları tədqiq edir. Buna görə də əvvəlcə mədəniyyət nədir? Sualına cavab tapılmalıdır. Etnospixologiyanın predmetinin dəqiq müəyyənləşdirilməsindəki problemlərdən biri də onunla bağlıdır ki, etnopsixologiya termininin birmənalı şəkildə hamı tərəfindən qəbul edilən tərifi yoxdur. Əksər mütəxəssislər onu "xalqların psixologiyası", "psixoloji antropologiya", "müqayisəli-mədəni psixologiya" və s. terminləri ilə eyniləşdirmişlər.

Etnopsixologiyanın müxtəlif terminlərlə adlandırılması təsadüfi deyildir. Çünki o, həm də bir sıra elm sahələrini özündə birləşdirir. Etnopsixologiyanın daha sıx və ya nisbətən uzaq bağlılığı olan elm sahələri mövcuddur ki, bura sosiologiya, linqvistika, biologiya, ekologiya, tarix və s. aid etmək olar. Etnoqrafiya, etnologiya, antropologiya və psixologiya isə etnopsixologiyanın birbaşa bağlı olduğu elm sahələridir.

Ilk etnopsixoloji fikirlərə hələ eramızdan əvvəl Herodot, Hippokrat, Strabon və digər alimlərin əsərlərində rast gəlmək mümkündür. Antik yunan həkimi və tibbi coğrafiyanın yaradıcısı Hippokrat ətraf mühitin insanların psixoloji xüsusiyyətlərinin formalaşmasına təsiri ilə bağlı fikirlər söyləmişdir. Onun fikrincə, xalqlar arasındakı fərqlər, o cümlədən, davranış və vərdişlər təbiət və iqlim şəraitinin müxtəlifliyi nəticəsində meydana çıxır. Herodot isə müxtəlif xalqların xarakteri və həyat tərzi ilə maraqlanmış, müxtəlifliyin səbəbini təbii mühitdə axtarmışdır.

Xalqların psixoloji müşahidələrin predmetinə çevrilməsi isə XVIII əsrdən başlamışdır. Burada da xalqlar arasındakı müxtəlifliyin başlıca amili kimi mühit və iqlim şəraiti götürülmüşdür.

Belə ki, XVIII əsr fransız maarifçiləri "xalq ruhu" terminini işlətmiş və problemi yenə də coğrafi faktorlar baxımından şərh etməyə çalışmışlar. Fransız filosofu Ş.Monteskye (1689-1755) hesab edirdi ki, insanı çox şey: iqlim şəraiti, din,

qanunlar, idarəetmə prinsipləri, adət-ənənələr idarə edir və nəticədə xalqın ümumi ruhu yaranır. O da çoxsaylı amillər içərisindən iqlim şəraitinin təsirini birinci yerə qoyur. Məsələn, onun fikrincə, isti iqlim şəraitində yaşayan xalqlar bir qayda olaraq tənbəl, ətalətli, güclü təxəyyülə malik olmayan və qorxaq insanlardır. Şimal xalqları isə cəsur və az hissiyyatlı olur, həzz almağa çox meyl etmirlər.

Xalq ruhu ideyası XVIII əsr alman filosoflarından da diqqətini cəlb etmişdir. Onların tanınmış nümayəndələrindən biri İ.Q.Herder (1744-1803) xalq ruhu anlayışına musiqini, dili və s. aid edirdi. O, psixikanın formalaşmasında iqlim şəraiti və landşaftın, eləcə də ictimai quruluş, həyat tərzi və tərbiyənin mühüm rol oynadığını göstərirdi. Herderə görə, xalqın ruhunu başa düşmək üçün onun işini, dilini, eləcə də həyat tərzini öyrənmək lazımdır. Ilk yerə isə xalq yaradıcılığını qoyurdu. Hesab edirdi ki, xalqın ruhunu xalq yaradıcılığı qədər dəqiq heç nə əks etdirə bilməz.

Ingilis filosofu D.Yum, alman mütəfəkkirləri İ.Kant və Hegel xalq ruhu ilə bağlı yalnız faktları göstərməmiş, həm də onların bəzilərinin "psixoloji portretini" vermişlər.

Bir sıra elmlərin, xüsusilə, etnoqrafiya, psixologiya və dilçiliyin inkişafı XIX əsrin ortalarında müstəqil bir elm sahəsinin – etnopsixologiyanın yaranmasına səbəb oldu. Onun yaradıcı isə alman alimləri M.Latsarus (1824-1903) və X.Şteyntal (1823-1893) oldular. Onlar 1859-cu ildə "Xalqların psixologiyası və dilçilik" jurnalının nəşrinə başladılar. Jurnalın ilk nömrəsində onların "Xalq psixologiyası haqqında düşüncələr" adlı məqaləsi çap olundu. Elmi etnopsixologiyanın yaranması tarixi də bu vaxtdan götürülür.

Bir xalqın bütün üzvləri "oxşar hiss, arzu və meylin" daşıyıcılarıdır. Onların hamısı özündə xalqın ruhunu əxz etmişdir. Oxşar cəhətlər xalqın düşüncə tərzində də əksini tapır. Şteyntala görə, məhz xalq ruhu ilk növbədə öz əksini onun dilində, daha sonra adət və ənənələrində, mahnılarında tapır. Latsarus və Şteyntal yeni elm sahəsinin vəzifələrinə aşağıdakıları aid edirdilər:

1) Xalq ruhunun psixoloji mahiyyətinin dərk olunması;

2) Xalqın psixoloji xüsusiyyətlərinin onların həyat tərzində, incəsənət və elmində öz əksini necə tapmasının müəyyənləşdirilməsi;

3) Hər hansı bir xalqın inkişafı və ya məhv olmasının etnopsixoloji səbəblərinin öyrənilməsi;

Bu vəzifələrin qarşıya qoyulması göstərir ki, Latsarus və Şteyntal xalqların psixologiyasına onların dili, dini, elmi, mədəniyyəti kontekstindən yanaşmışlar.

XIX əsrin 70-ci illərindən başlayaraq etnopsixologiya məsələləri öyrənilməyə başlandı. Onun ilk təşəbbüskarı K.D.Kavelin (1818-1885) olmuşdur. Kavelin sadəcə olaraq faktların sadalanmasını yox, mədəniyyət abidələrinin, adətlərin, folklorun və s-nin öyrənilməsini də zəruri hesab edirdi. Onun fikrincə, xalqların psixologiyasının öyrənilməsi vəzifəsinə onların psixi inkişaf qanunları və ictimai – tarixi proseslərin təhlili də daxil olmalıdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində etnopsixologiya ilə bağlı bir neçə konsepsiya yarandı. Onların sırasında ilk növbədə, alman psixoloqu V.Vundtun (1832-1920) adını çəkmək vacibdir. Vundtun etnopsixologiya ilə baölı ilk məqaləsi 1886-cı ildə çap olunmuşdur. Ömrünün son iyirmi ilini isə o, demək olar ki, on cildlik "Xalqlaırn psixologiyası" əsərinə həsr etmişdir. Vundt Latsarus və Şteyntaldan fərqli olaraq göstərirdi ki, fərdlərin birgə həyatı, qarşılıqlı münasibətləri yeni, özünəməxsus qanunauyğunluqlar yaradır.

Etnopsixologiya ilə bağlı məşhur sinalardan biri də fransız almi Qustav Lebondur. Lebon etnopsixologiyaya irq, irqin psixoloji xüsusiyyətləri kontekstindən yanaşmışdır. O, özünün məşhur "Xalqların və kütlələrin psixologiyası" əsərində göstərir ki, irq ümumi irsi morfoloji və fizioloji əlamətlərə, vahid kökə malik olan, tarixən formalaşan insanlar birliyidir.

Irqi mənsubiyyətə görə yaranmış insan birliyi daim dinamik inkişafda olmaqla əsasən özünün davamlı xüsusiyyətlərini hifz edib qoruyur.

Xalqın ruhi varlığının məcmusu olan əxlaqi və intellektual xüsusiyyətləri onun keçmişinin, əcdadından keçən və özünün davranışının sintezidir. Müşahidələr göstərir ki, ayrı-ayrı fərdlərdə çoxsaylı ümumi psixoloji oxşarlıq vardır.

Insanın davranışı və düçar olduğu təsirləri Lebon üç kateqoriyaya ayırır. Onlardan birincisi və ən mühümü əcdadların, ikincisi valideynlərin, üçüncüsü və ən az təsir edəni isə mühitin təsiridir.

Mühit insanı əlbəttə ki, fiziki və mənəvi cəhətdən dəyişdirir. Bütün bunlar isə tərbiyə ilə birgə insanın həyat tərzindən asılı olaraq az təsir gücünə malikdir. Mühit o zaman real təsir gücünə malik olur ki, irsiyyətin təsiri uzun müddət eyni istiqamətli olsun. Elə bu səbəbdən də xalqın psixoloji xüsusiyyətləri daim mövcuddur, zamanın təsiri ilə dəyişmir. Xalqın xarakter, fiziki və psixoloji əlamətlərinin dəyişməsi üçün onun digər bir xalqla çarpazlaşması, qarışması lazımdır.

Məşhur rus psixoloqu V.M.Bexterev isə xalqın psixologiyasının formalaşmasında mühitin rolunun yüksək olmasını göstərir. O qeyd edir ki, eyni mühit və şərait xalqlar aarsında heyran olunacaq dərəcədə oxşarlığa səbəb olur.. V.M.Bexterevə görə, oxşar həyat tərzi, şərait xalqların da oxşar yolla sosial inkişafına səbəb olur.

Rusiyada XX əsrin əvvəllərində Q.Q.Şpet (1879-1940) etnik psixologiyanın yaradılması ilə bağlı növbəti cəhd göstərdi. Onun etnopsixoloji görüşləri !9270ci ildə çap olunan “Etnik psixologiyaya giriş” əsərində öz əksini tapmışdır.

Vundt göstərirdi ki, mənəvi-mədəni məhsul psixolojidir. Şpet isə onunla polemikaya girərək bildirirdi ki, xalqın mədəni tarixi həyatı psixoloji ola bilməz. Psixoloji olan mədəniyyətə, mədəniyyət məhsullarına münasibətdir. Şpetə görə, dil, miflər, adət, din, elm – bütün bunlar hamısı onların daşıyıcıları olan insanlarda mədəni hisslər formalaşdırır. Insanlar nə qədər fərqli olsalar da onların hamısı üçün ümumi olanlar da var. Mədəniyyət məhsullarını təhlil edərkən etnik psixologiya ilk növbədə, kollektiv hisslərə cavab tapmalıdır. Yəni xalq nəyi sevir? Nədən qorxuq? Nəyə etiqad göstərir?

Şpetə görə insanın hansısa xalqa mənsub olması bioloji amillərə görə deyil, şüurlu mənsub olmadır. Fərd mədəniyyət məhsullarını, mənəvi dəyərləri mənimsəməklə ümumi hisslərə, xalqa mənsub olur.

Xalq termini dedikdə, tarixən müəyyən ərazidə yaşayan, ümumi, əsasən sabit adət-ənənə, mədəniyyət və psixi xüsusiyyətləri olan, eyni zamanda özlərinin oxşar şüur daşıyıcıları olduğunu dərk və qəbul edən, digər insan birliklərindən fərqli olmalarını anlayan insan birliyi başa düşülür. Son vaxtlar isə müxtəlif elm sahələrində, o cümlədən, psixologiya elmində də "etnos" termini daha çox işlədilir. Etnosun formalaşması uzun tarixi birliyin, mürəkkəb ierarxiyanın, sistemin nəticəsi olmaqla öz əksini etnik şüurun birliyində tapır. Etnos dedikdə, eyni ərazidə yaşayan insanların etnik birliyindən başqa həmin ərazidə yaşamayan, lakin oxşar adət-ənənə, dil, mədəniyyət daşıyıcıları olan insanlar birliyi də başa düşülür.

Etnik sistem və ya etnik çoxluq dedikdə eyni mədəniyyətə, ümumi dilə, psixikanın səciyyəvi əlamətlərinə, vahid ərazi və mənlik şüuruna malik olan, tarixi proses nəticəsində yaranmış insanlar çoxluğu başa düşülür. Belə bir çoxluğun üzvü, yəni etnik xassələrin daşıyıcısı etnofor adlanır.

Etnik çoxluğun psixi xüsusiyyətləri onun mədəniyyətində təzahür edir, onu formalaşdırır və mədəniyyətlə qarşılıqlı təsirdə təşəkkül tapır.

L.N.Qumilev etnosun formalaşmasında 3 əsas amili ayırd edirdi: 1) bioloji amil; 2) coğrafi amil; 3) tarixi amil (sosial amil nəzərdə tutulur).

Ayrı-ayrı kiçik qrupların və ya fərdlərin bu etnososial mühitlə qarşılıqlı təsiri nəticəsində etnik qrup yaranır. Hər bir etnik qrup yerləşdiyi etnososial mühitdən asılı olaraq müxtəlif psixi xüsusiyyətlər kəsb edir. Çünki etnosun sosial çoxluq kimi aktuallaşmış tələbatları etnososial mühiti əmələ gətirən amillərdir. Bundan asılı olaraq etnosla mühit arasındakı tarazlığın yaranması üçün həmin mühitə uyğunlaşma prosesi baş verir ki, bu da etnosun psixi fəaliyyətinin məzmununu müəyyən edir. Etnosun formalaşmasının əsasında bioloji amil durur. Yəni orqanizmlə mühit arasında onun tələbatını ödəmək lazımdır. Bioloji tələbatın ödənilməsi müəyyən bir coğrafi mühitdə baş verir.

Ümumiyyətlə, etnik və milli xarakterin təşəkkülü, formalaşması çox mürəkkəb psixoloji hadisə olub, qrup üzvlərinin rəftar və davranışında, fəaliyyət və ünsiyyətində, ümumən münasibətlər sistemində özünəməxsus şəkildə təzahür edir.

Hər bir xalqın özünəməxsus xarakter əlamətləri var. Məsələn, alman xalqı təmizlik, fransız xalqı nəzakətlilik və s. kimi xarakter xüsusiyyətləri ilə seçilirlər.

Məsələn, bitkiləri qorumaq və gülləri, çiçəkləri qırmamaq üçün Alp çəmənliklərində lövhələr asılmışdı. Fransız dilində yazılmışdı: "Bu gözəl çiçəklərdən zövq alın, onları nə üçün qırırsınız?". İngilis dilində yazılmışdı: "Zəhmət olmasa, çiçəkləri qırmayın!" Almanlar üçün artıq bu xahiş deyil, qadağanı bildirirdi: "Çiçəkləri qırmaq qadağandır".

Məsələn, ingilislər sabitliyi xoşlayırlar. Onlar özünü ələ almağı, öz hisslərini biruzə verməməyi bacarırlar. Lakin onlar milli bayramlarda və ya futbol yarışlarında son dərəcə hərəki və çılğın olurlar.

İngilislər özünü ələ almağı insan xarakterinin ən yüksək keyfiyyəti sayırlar. "Özünü ələ almağı öyrən və bacar". Bu sanki ingilislərin başlıca devizidir. Alman xalqı keçmiş nəsillərdən qalma adət-ənənələrə hörmətlə yanaşırlar. Bayramlarda milli geyimlər geyinirlər. Temperament tipinə görə almanları daha çox fleqmatikə aid etmək olar. Onlar üçün soyuq mühakimə, məqsədyönlü, ardıcıl fəaliyyət, çətinlikləri dəf etmək qabiliyyəti daha xarakterikdir. Bir qayda olaraq sintetik ağıl, işə dözümlü və xaeyrxah münasibət özünü göstərir. Onlar xon dərəcə ciddi, az danışan olurlar. Heç bi xalq almanlar qədər həmrəylik göstərə bilməz. Onlar son dərəcə dəqiq və səliqəlidirlər. Almanlar heç vaxt küçəni sarı və qırmızı işıqda keçməzlər. Hətta küçə boş olsa belə, o, yaşıl işığı gözləyirlər.

Məşhur alman filosofu Hegel öz xalqının mühüm bir etnik-psixoloji xüsusiyyətini belə ifadə edirdi: Mənim xalqım arxivariusdur (və ya arxivarius xalqdır). Arxiv öz taxçalarında tarixi hadisələri və faktları hifz etdiyi kimi, alman xalqı da öz yaddaşında öz tarixini hifz edib, qoruyub, saxlayaraq gələcək nəsillərə verir. Yəni alman xalqı ilk növbədə öz tarixini yaxşı bilməklə seçilir. Deməli, öz xalqının tarixinə dərindən bələdlik onun üçün süzgəc rolu oynayır.

Xarakter əlamətlərinin ən başlıcası başqa adamlara, qrup və etnoslara, xalqlara, millətlərə münasibətdə ifadə olunur.

Etnik xüsusiyyətlərin öyrənilməsi bir sıra elm sahələrinin, o cümlədən, psixologiya elminin də başlıca problemlərindən biridir. Təbii ki, həm müxtəlif

elmlər, həm də eyni elm sahəsinin özündə milliyyət, millət, xalq anlayışlarına bir çox hallarda fərqli şəkildə yanaşılır.

2. Etnik psixologiyanın predmeti: Obyektiv aləmin subyektiv inikası olan psixikanın faktları, mexanizmləri və qanunauyğunluqları haqqında elm olan psixologiyanın müasir dövrdə 60-dan artıq sahəsi vardır. Onların əksəriyyəti də insan psixologiyasını tədqiq edir. Lakin onların hər biri insan psixologiyasının məhz müəyyən bir cəhətini özünə tədqiqat mövzusu edir. Psixologiyanın insan psixologiyasının müəyyən cəhətlərini öyrənməklə məşğul olan sahələrindən biri də etnopsixologiya və ya etnik psixologiyadır. Etnik psixologiyanın predmetinin etnos və xalqların psixologiyasını öyrənməkdən ibarət olması haqqında fikir çox sadə və ibtidaidir. İlk əvvəl ona görə ki, bu elmin anlayışları məsələsinə dair yekdil fikir yoxdur. Bunun üçün əvvəlcə etnos anlayışının dəqiq məzmunu və mahiyyəti aydınlaşdırılmalıdır. Digər tərəfdən bəzi müəlliflər psixologiyanın etnosla deyil, mədəniyyətlə əlaqəsini tədqiq etməyə üstünlük verirlər. Üçüncü problem isə etnik psixologiya anlayışının dünya elmində hamı tərəfindən eyni dərəcədə qəbul edilməməsindədir. Bir çox mütəxəssislər etnik psixologiya hesab edilən elm sahəsində aparılan tədqiqatları "xalqlar psixologiyası", "psixoloji antropologiya", "müqayisəli mədəniyyət psixologiyası" hesab etməyə meyllidirlər.

Etnik psixologiya (yunan dilində ethnos – xalq, tayfa deməkdir) əvvəllər sosial psixologiyanın mühüm bir sahəsi kimi müəyyən qrupda insanların etnik ümumiliyi və milli mənsubiyyəti ilə şərtlənən psixi xüsusiyyətlərini, davranış və rəftar tərzini öyrənmişdir. Hazırki dövrdə isə etnik psixologiya fənlərarası bilik sahəsi olub insanların psixikasının etnik xüsusiyyətlərini öyrənən bir elm sahəsidir. Yəni milli, irqi, etnik mənsubiyyəti nəzərə almaqla insanların psixoloji xüsusiyyətlərini öyrənən bir elm sahəsidir. İnsanların etnik psixoloji xüsusiyyətləri isə çox müxtəlif və rəngarəngdir. Belə ki, buraya bu və ya digər xalqa məxsus olan etnik stereotip və yönümlər, adət və ənənələr, milli xarakterlər, hisslər, etnik özünüdərketmə və qiymətləndirmənin xüsusiyyətləri və s. daxildir. Bu cəhətdən hər bir etnos və xalq özünəməxsus etnik psixoloji xüsusiyyətlərə malik olur və həmin xüsusiyyətlər onların davranış və rəftar tərzində, münasibətlər sistemində, adət -

ənənələrində, sərvət meylində və s. özünü aydın surətdə biruzə verir. Təsadüfi deyildir ki, etnik psixologiyanın ilk ünsürlərinə məhz çox qədim tarixi və coğrafi əsərlərdə, folklor və bədii ədəbiyyat materiallarında rast gəlinir. Bu mənbələrdə xalqların, qəbilə və tayfaların yəni etnik qrupların xaraktereoloji psixoloji əlamətləri təsvir edilir.

Lakin, həmin təsəvvürlər və onlara istinad edən ilkin ümumiləşdirmələr daha çox ixtiyari səciyyə daşıyırdı, bəzən də adi şüurun stereotip təsəvvürlərinin güzəran psixologiyası səviyyəsində sistemləşdirilməsinə istinad edirdi. Çünki etnosun sosial-psixoloji mahiyyəti lazımınca açılmırdı. Nəzərə almaq lazımdır ki, "etnos" anlayışı etnik psixologiyanın xüsusi sosial və psixoloji məzmuna malik olan əsas anlayışıdır. Lakin onun əsas mahiyyəti, xarakteri və quruluşu barədə vahid fikir yoxdur. Amma onun real qrup olması fikri inkar edilmir. Bəziləri etnosu sosial deyil, coğrafi və təbii hadisə hesab edir.

Etnos - əhalinin etnogenezi prosesində, yəni etnik birliklərin və onun özünüdərkinin formalaşması prosesində yaranır. Etnogenez qlottogenez (dilin formalaşması) və kulturogenezlə (mədəniyyətin yaranması) bağlıdır. Birliyin etnogenezinin əsas xüsusiyyəti onun etnonimi, yəni istənilən etnosun adının yaranmasıdır.

Etnosun fərqləndirici əlaməti öz qrupunu başqa qrupa qarşı qoyan etnik şüurudur ("biz - onlar"). Etnik şüur ictimai şüurun bir hissəsidir, milli özünəməxsusluğun əlamətlərini özündə birləşdirir. Onun tərkibinə etnik özünüdərketmə (insan və insanlar qrupunun özlərinin müəyyən etnik birliyə mənsub olmasını dərk etməsi) və başqa etnosların qavranılması daxildir. Etnosun formalaşmasının əsasında komplementarlıq (həyat ustanovkalarının oxşarlığı) və davranış stereotipləri durur ki, bunlar da birgə həyat və tarixi inkişaf prosesində yaranır.

Etnosun tərkibinə ona daxil olan insanların fiziki və psixi quruluşunun biososial xüsusiyyətləri, sosial-iqtisadi şərtlər (yaranma ərazisi, "inkişaf yeri"), məişət vərdişləri və sosial-mədəni amillər (dil, din və mənəvi ənənələr, xalq yaradıcılığı və incəsənəti, epos) daxildir.

Etnos üçün ərazi, dil və mədəniyyət birliyi ilə yanaşı psixi xüsusiyyətlərin bütövlüyü də vacib əlamətdir.

Bundan başqa millət anlayışı da fərqləndirilir. Millət anlayışı çoxmənalıdır. Müasir rus alimlərinin fikrincə millət inkişaf etmiş cəmiyyətə xas etnosun bir növüdür. Millətlər homogen və ya heterogen olurlar. Homogen millətlər bir etnosun əsasında (məsələn, polyaklar), heterogen millətlər isə bir neçə etnosun əsasında (məsələn, bütün latın amerika xalqları) formalaşırlar. Buna görə də milli birliklər üçün etnik birliklərdən fərqli olaraq sosial-iqtisadi (hər şeydən əvvəl bütün ölkə ərazisində vahid bazarın olması) və siyasi (hökumətin, vahid dilin və s. olması) əlamətlər xarakterikdir.

Etnik və ya milli psixologiya spesifik şəkildə təşəkkül etmiş maddi həyat şəraitinin, məişətin, etnoslararası münasibətlərin, coğrafi mühitin təsiri ilə formalaşır; bir-biri ilə qarşılıqlı əlaqədə və bir-birindən asılı olan etnik xarakter, mənəvi-əxlaqi keyfiyyətlərin, hiss və emosiyaların, temperamentin, adət-ənənələrin, stereotip və ustanovkaların, zövqlərin, xürafatın və s. müəyyən koloritini təşkil edir. Bununla da etnik psixologiyanın problemləri, yəni onun tədqiq etdiyi, öyrəndiyi məsələlərin diapozonu çox genişlənmiş olur.

Deməli, etnik psixologiya fənlərarası bilik sahəsi olub, insanların psixikasının etnik xüsusiyyətlərini, milli xarakteri, etnik stereotiplərin, adət-ənənələrin, milli şüurun formalaşmasının qanunauyğunluqlarını və funksiyalarını öyrənən elmdir.

3. Etnik psixologiyanın əsas problemləri: Etnik psixologiyanın müstəqil bir psixoloji fənn kimi formalaşması prosesində nəinki onun öyrəndiyi əsas problemlər barədə müxtəlif fikir və mülahizələr söylənmiş, həm də etnik psixoloji xüsusiyyətlərin səbəbləri, təşəkkül mexanizmi barədə də bir-birindən ciddi surətdə fərqlənən ideya və fikirlər irəli sürülmüşdür.

Müxtəlif etnopsixoloji cərəyanların, bu sahədə tədqiqat aparan ayrı-ayrı müəlliflərin fikir və mülahizələri bu cəhətdən bir neçə istiqamətdə ümumiləşdirilə bilər. Belə ki, onların bir qismi xalqın, millətin etnopsixoloji xüsusiyyətlərinin

səbəbini etnosun, eləcə də etnik ümumiliyə daxil olan fərdlərin fitri xüsusiyyətləri ilə, ya da dəyişməz hesab edilən mühitlə izah edirlər.

Digər bir qismi isə etnik xüsusiyyətləri ya ictimai münasibətlərdən törəyən, ya da anadangəlmə, bioloji cəhətdən irsən verilən, başqa sözlə irsən keçən bir fenomen kimi izah edirlər və ya onlara bu nöqteyi-nəzərlərdən yanaşırlar. Belə yanaşma tərzi bəzən şişirdilir və mahiyyət etibarilə etnik psixoloji xüsusiyyətlərin təşəkkülü və formalaşmasına tarixən dəyişən dinamik sosial mühitin təsirini inkar edir. Nəzərdən qaçırılır ki, etnik xüsusiyyətlər müəyyən ictimai tarixi şəraitdə insanların qarşılıqlı münasibətlərinin xarakterindən asılı olaraq formalaşır.

Etnik psixologiya (sosial psixologiya kimi) belə bir fakta istinad edir ki, insan başqa insanlarla qarşılıqlı əlaqə, rabitə və münasibətlərə girərkən onun davranış və rəftarında ayrıca bir fərd üçün səciyyəvi olmayan xüsusiyyətlər əmələ gəlir. Bu və ya digər etnik qrupa daxil olan insanlar arasında ünsiyyət və qarşılıqlı münasibətlər sayəsində elə psixoloji xüsusiyyətlər təşəkkül edir ki, onları yalnız həmin qrupun etnik psixoloji xüsusiyyətlərini araşdırmaq sayəsində izah etmək mümkündür.

Buna görə də etnik psixologiyanın qarşısına bir sıra problemlər çıxır. Həmin problemlər etnik psixologiyanın tədqiq etdiyi, öyrəndiyi əsas məsələlərdir. Bunları bir neçə mühüm sahəyə bölmək olar:

1. Etnik özünüdərketmənin xüsusiyyətləri, mexanizmi, etnik özünüduyumun və mənlik şüurunun formalaşması, təzahür formaları və səviyyələri problemi. Həmin problemlə əlaqədar olaraq etnik inkişafın xüsusi pilləsi kimi özünüdərketmənin, milli şüurun təşəkkülü, formalaşması, inkişaf səviyyələri, etnos üzvlərinin rəftar və davranışına, özünə və başqalarına olan münasibətlər sisteminə, özünüduyumuna təsir mexanizmi və təzahür xüsusiyyətləri də araşdırılır.

2. Müxtəlif səciyyəli etnik qrupların psixoloji xüsusiyyətlərinin araşdırılması

problemi. Bu problemlə əlaqədar olaraq etnik psixologiya, sosial psixologiyada olduğu kimi, etnik qrupların müxtəlif parametrlərini nəzərə almaqla orada baş verən etnik psixoloji hadisələrin mahiyyətini, xarakter xüsusiyyətlərini, etnos üzvlərinin rəftar və davranışlarına təsiretmə dərəcəsini və s. araşdırır. Böyük etnik qruplarda, xalq və millət səviyyəsində müəyyən mərasimlərin, adət-ənənələrin, modanın, şayiələrin, ictimai əhvalların, dini mərasim və ayinlərin yayılmasının, təzahürlərinin qanunauyğunluqları, başqa sözlə böyük etnik qrup kimi xalqın, millətin psixoloji problemləri araşdırılır.

3. Etnik stereotip və yönümləri problemləri. Burada etnik stereotip və

yönümlərin mahiyyəti, təşəkkül etmə mexanizmi, təzahür xüsusiyyətləri, şəxsiyyətlərarası və etnoslararası münasibətlər sistemində yeri şərh edilir.

4. Etnik (milli) xarakter problemi. Etnik və milli xarakterin təşəkkülü,

formalaşması çox mürəkkəb psixoloji hadisə olub, qrup üzvlərinin rəftar və davranışında, fəaliyyət və ünsiyyətində, ümumən münasibətlər sistemində özünəməxsus şəkildə təzahür edir. Tipik etnik və ya milli xarakter əlamətlərinin formalaşması, ona şəxsiyyətin yetişdiyi sosial şəraitin, təlim-tərbiyə sisteminin, eləcə də təbii xüsusiyyətləri və imkanlarının təsiri məsələlərinin araşdırılması həmin problemin həlli üçün ciddi əhəmiyyət kəsb edir. Belə araşdırmalar əsas etnik-milli xarakter tiplərinin, eləcə də hər bir ayrıca halda onların təzahür xüsusiyyətlərinə görə belə tiplərin müəyyənləşdirilməsinə, tanınmasına imkan verər.

5. Etnik adət-ənənələr, milli hisslər problemi. Məlumdur ki, etnik adət-ənənə etnos üzvlərinin tarixən yaranmış və nəsildən-nəsilə keçən fəaliyyət və davranış formaları, rəftar qaydaları, onlarla bağlı olan anlamlar və təsəvvürlərdir. Müsbət etnik adət və ənənələrinin təşəkkülü ilə yanaşı tarixi prosesdə onların dəyişilməsi, təbəddülata uğraması və ya pozulması da yalnız ayrı-ayrı şəxslərin deyil, həm də etnik qrupun davranış və rəftarına ciddi təsir göstərir, onu bəzən poza bilir.

Deməli, etnik psixologiya insanların müəyyən etnik qrupda, xüsusi etnik mühit və şəraitdə formalaşması ilə əlaqədar olaraq onların psixi simasında, psixoloji xüsusiyyətlərində baş verən dəyişikliklərin qanunanuyğunluqlarını, təzahür xüsusiyyətlərini öyrənən elm sahəsidir.

Mövzu 2. Etnik psixologiyanın inkişaf tarixi

Plan:

1. İlk etnik-psixoloji tədqiqatların aparılması və ilk etnik nəzəriyyələrin yaranması haqqında
2. Avropada etnopsixologiyanın inkişafı
3. Rusiyada və Azərbaycanda etnopsixologiyanın inkişafı

ƏDƏBİYYAT:

1. Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
2. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
3. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
4. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
5. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

Mövzu ilə bağlı elektorn resurslar:

https://psy.wikireading.ru/24036

1. İlk etnik-psixoloji tədqiqatların aparılması və ilk etnik nəzəriyyələrin yaranması haqqında

Etnopsixologiyanın bilik sahəsi kimi uzun keçmişi, elm kimi isə qısa tarixi var. Onun elm kimi tarixi XIX əsrdən başlamışdır və hal-hazırda inteqrativ bilik sahəsi kimi inkişaf edir. Etnop-sixologiya XIX və XX əsrlərin qovşağında sosial psixologiya, sosi-ologiya, etnoqrafiya, antropologiya, tarixi psixologiya, linqvistika, dinşünaslıq, fəlsəfə kimi çoxsaylı elmlərin hüdudunda əmələ gəlib və fənlərarası bilik sahəsi kimi inkişaf edir. Etnopsixologiyanın elm sahəsi kimi dünyanın tərəqqi etmiş (Almaniya, Fransa, İngiltərə,

ABŞ, Rusiya və b.) ölkələrində yaranması və təşəkkül tapması heç də təsadüfi deyildir. Belə ki, həmin ölkələrədə gedən ictimai-tarixi inkişaf prosesi, siyasi və iqtisadi iddiaların güclənməsi yaxın və uzaq ölkələrdə yaşayan etnos və xalqların etnik-milli xüsusiyyətlərini öyrənmək zərurətini yaratmışdır. Çünki, inkişaf etmiş dövlətlər digər ölkə və xalqların, millətlərin etnik psixoloji xüsusiyyətlərinə bələd olmadan, onlarla istər dövlətlərarası, istərsə də xalqlar və millətlərarası münasibətlər sistemini optimal şəkildə qurmaqda cidi çətinlik və maneələrlə rastlaşmış olurlar. Tarixi təcrübə göstərir ki, hər bir millətin, xalqın nəinki özünün , eləcə də müəyyən əlaqə və münasibətdə olduğu etnos və xalqların etnik xüsusiyyətlərini vaxtında öyrənib düzgün qiymətləndirməsi həm özünüdərkinə, həm də başqlarının düzgün dərk edib adekvat surətdə qiymətləndirməsinə yaxından kömək edir. Elə öz millətimizin tarixi təcrübəsi, onun qonşularının ona qarşı qısqanc, qərəzli və düşmən münasibəti nəticəsində düçar olduğu müsibətlər, ərazi itgiləri bu cəhətdən çox ibrətlidir. Qonşu etnosların psixoloji xüsusiyyətlərinə lazımınca bələd olmamağın və onlarla ünsiyyət zamanı nəzərə almamaığın acı nəticələrini bu gün də dadırıq.

Etnopsixologiyanın elm sahəsi kimi ilk yaradıcıları alman filosofu M.Latsarus (1824-1903) və dilçi Q.Şteyntal (1823-1899) hesab olunur. Onlar 1859-cu ildə "Xalqların psixologiyası və dilçilik" adlı jurnalın nəşrinə başladılar. Onlar "Xalqların psixologiyasına aid mülahizələr" adlı məqaləsində ayrı-ayrı fərdlərin yox, həm də birliyin "xalq ruhu" həyatını da öyrənməyin lazım olduğunu qeyd etmişlər. M. Latsarus və Q. Şteyntal "xalq ruhu" deyəndə fərddən asılı olmayaraq mövcud olan və fərdlərin psixi oxşarlığını təmin edən əlamətlər nəzərdə tutulduğunu göstərmişlər. Xalq deyəndə insan birliyi nəzərdə tutulur.Və hər bir nəfər özünü ora aid edir və özünə həmin xalqın nümayəndəsi kimi baxır. Ruh yaxınlığı, ruh qohumluğu isə irsi şəkildə yaxud dil vasitəsilə müəyyən edilmir. Hər bir insan özü, özünün hansı xalqa aid olduğunu subyektiv olaraq müəyyən edir. M.Latsarus və Q.Şteyntal belə hesab edirlər ki, etnopsixologiyanın predmeti "xalq ruhu" nun öyrənilməsindən ibarətdir. Onlar xalq ruhu anlayışında fərddən asılı olmayaraq, substansional özəyin, ilkin əsasın varlığını irəli sürürdülər. Onlar hər cür ictimai hadisələrə "xalq ruhu"nun məhsulu kimi baxırdılar. Alman mütəfəkkirlərini "xalq ruhu" adlandırdıqları, müasir etnopsixologiyada etnik identiklik anlayışına uyğun gəlir. M.Latsarus və Q.Şteyntal xalqlarn psixologiyasını, individual psixologiyanın davamı kimi qəbul etməyi təklif edirdilər. Çünki, xalq ruhu, ayrı-ayrı fərdlərdə yaşayır və fərdi psixologiya onları öyrənir. Lakin fərdlərin çoxluğu o zaman xalq adlandırıla bilər ki, xalq ruhu onları birləşdirsin. M. Latsarus və Q. Şteyntalın ən

böyük xidməti etnopsixologiyaya gətirdikləri "xalq ruhu" anlayışı olmuş-dur.

2. Avropada etnopsixologiyanın inkişafı

Avropada etnopsixologiyanın inkişafında böyük xidməti olan alman alimlərindən biri Vilhelm Vundt olmuşdur. V.Vundt elmi fəaliyyətinin son 20 ilini etnopsixologiya məsələlərinə həsr etmiş və 10 cildlik "Xalqların psixologiyası" əsərini hazırlamışdır. V.Vundt "xalq ruhu" anlayışını M.Latsarus və Q.Şteyntaldan fərqli formada izah edirdi. Belə ki, o xalq ruhunu fərddən asılı olmayan müstəqil substansiya hesab etmirdi. Ona görə xalq ruhu adamların birgə yaşayışının və qarşılıqlı əlaqələrinin məhsulu olan psixoloji hadisələrin müəyyən toplusudur və eyni zamanda fərdi ruh kimi gerçək mənaya malikdir. V.Vundta görə "xalqların psixologiyası"nın başlıca vəzifəsi "xalq ruhu"nun məhsulu olan dil, mif və adət kimi proses və hadisələri öyrənməkdir. Çünki, dil, mif və adət xalq ruhunun yaradıcılıq fraqmenti deyil, onun özüdür. Etnopsixoloji tədqiqatlar dil, mif və adətlərdə özünü göstərənən psixoloji qanunauyğunluqları izah etməlidir.Əgər psixoloq hər hansı bir xalq üçün səciyyəvi olan kultu (məsələn, ruslar üçün meşə və ya ağ ayı kultu movcuddur) öyrənirsə, o, hökmən bu kultun əsasında hansı psixoloji səbəblər dayandığını açıb göstərməlidir. Dünya xalqlarının həyatından, mənşəyindən, coğrafi məkanında yerdəyişməsindən, adət ənənlərindən və xalqa məxsus xarakterik xüsusiyyətlər haqqında ensklopedik məlumata görkəmli alman alimi Fridrix Ratselin iki cildlik "Xalqşünaslıq" əsərində rast gəlinir. Hər iki cildi birlikdə 1641 səhifə materialdan ibarət olan bu əsər üçüncü və sonuncu nəşrlə, 1902-ci ildə Sankt-Peterburqda rus dilinə tərcümə edilərək nəşr olunmuşdur. Əsərdə demək olar ki, Avstraliya qitəsi istisina olmaqla bütün dünya xalqalrının həyatı və adət ənənləri, tarixi-coğrafi həyatı və mədəniyyəti (ailə daxili münasibətlərdən tutmuş, geyim, məişət və ovçuluq mədəniyyəti və s. də daxil olmaqla) haqqında maraqlı məlumat verilir.

Fransa etnopsixologiya məktəbinin kökündə E.Dürkheymin (1858-1917) adı ilə bağlı olan fransız sosiologiya məktəbi dayanır. E.Dürkheym öz konsepsiyasında iki əsas anlayışdan istifadə etmişdir. O, hesab etmişdir ki, cəmiyyəti "sosial faktlar" əsasında öyrənmək lazımdır. Sosial faktlar deyəndə sosial həyat hadisələri nəzərdə tutulur. E.Dürkheym hesab edir ki, cəmiyyətdəki stabillik onun tərkib hissələrinin funksional inteqrasiyası və üzvlərinin "sosial həmrəyliyi" ilə təmin olunur. Ona görə də ictimai

strukturda hər hansı radikal dəyişiklik cəmiyyət üçün fatal xarakter daşıyır. E.Dürkheym konsepsiyasının ikinci əsas kateqoriyası "kollektiv təsəvvür" anlayışıdır. İnsan şüuru iki, fərdi və ictimai formada mövcuddur. Fərdi şüur konkret olaraq ayrıca götürülmüş fərdə aiddir və onun psixikasının xüsusiyyətləri ilə təyin olunur. Kollektiv şüur isə öz əksini "kollektiv təsəvvürdə" dini inanclarda, əfsanələrdə, xurafatda, əxlaq və hüquq normalarında tapır.

L.Levi-Bryül, M.Moss, M.Qrane və başqaları E.Dürkheymin ardıcılları olmuş və etnopsixologiya sahəsində maraqlı tədqiqat işləri aparmışlar. M.Qrane (1884-1940) qədim Çin tarixi və ənənəvi mədəniyyəti ilə bağlı maraqlı tədqiqat işlərinin müəllifi olmuşdur. L.Levi-Bryül (1857-1939) isə ibtidai insanlar üçün səciyyəvi olan "məntiqsiz təfəkkür" (пралогическое мышление) konsepsiyasını irəli sürmüşdür. O, bu zaman E.Dürkheymin "kollektiv təsəvvür" anlayışından istifadə etmişdir. L.Levi-Bryül hesab edir ki, praloqik təfəkkür yalnız kollektiv təsəvvürlə əlaqəli olan hallarda özünü biruzə verir. Primitivlərin şüurunda diferensiasiyanın zəif olması nəticəsində obraz, təsəvvür hiss və hərəkətdən ayrılmır. Ona görə də primitiv qartal lələyini başına taxmaqla qartala məxsus olan bütün keyfiyyətlərə malik olacağına şübhə etmirdi. Primitivlərin kollektiv təsəvvrü partisipasiya qanununa istinad edir. Çünki təbiət vəhdət təşkil edir. Ona görə də belə bir sofizmə uyğun düşünürdülər: Post hoc erqo propter hoc (nədən sonra oldusa, deməli səbəb odur). Fransa etnopsixologiya məktəbinin görkəmli nümayəndələrindən Ş.Monteskyö, Qüstav Le Bon və K.Levi-Strosu xüsusilə qeyd etmək olar. Fransız filosofu Ş.Monteskyö (1689-1755) coğrafi determinizm tərfdarı kimi hesab etmişdir ki, insanlar iqlim, din, qanun, keçmiş adət-ənənənin təsirinə məruz qalır və bütün bunlar xalqın ümumi ruhunu əmələ gətirir. Bu faktorlar arasında iqlim əsadır. Məsələn, isti iqlim sakinləri qocalar kimi cəsarətsiz, tənbəl, lakin zəngin təxəyyülə malikdirlər. Şimal xalqlar isə gənclər kimi, cəsur və soyuqqanlı olurlar. Ş.Monteskyö hesab edirdi ki, tarixi inkişaf prosesində iqlimin təsiri azalır, digər faktorların təsiri isə güclənir. Qüstav Le Bon "İrq ruhu" anlayışından istifadə etmişdir. Q.Le Bona görə "irq ruhu" sabit kateqoriyadır və bütün ictimai hadisələr "irq ruhunun" müxtəlif vəziyyətləri ilə əlaqədardır. "Xalqın taleyi onun xarakteri ilə bağlıdır. İnsanların fərdi taleylərini, irqin dəyişməz ruhu toxuyur. Nə inqilablar, nə konstitutsiya, nə də despotizm, heç bir xalqa olmayan xarakteri verə bilməz. Eyni zamanda ala bilməz. Hər bir xalq yalnız özünə layiq olan idarəetmə forması əldə edir. Millət öz irqi xüsusiyyətlərindən doğan bəlalardan əl çəkə bilsəydilər və

idrakın səsini əcdadların amiranə səsi boğmasaydı, xalqlar və insanlar nə qədər səhvlərdən və fəlakətli çevrilişlərdən xilas ola bilərdilər". Q. Le Bonun əsərində ən çox istifadə istifadə etdiyi "irq ruhu" anlayışı, müasir psixologiyada "xarakter" anlayışına uyğun gəlir. Görkəmli psixoloqun "Kütlə psixologiyası" əsərində "irq ruhunun", yəni milli, etnik xarakterin xalqın həyatında oynadığı rolu belə ifadə edir: Xalqın ağlı yox, xarakteri onun tarixdə inkişafını müəyyən edir. Mənəviyyat şüurun yox, xarakterin törəməsidir.

Klod Levi-Strossun konsepsiyası təfəkkürün strukturunun universallığı haqqında olmuşdur. Ona görə də o, etnoloji struturalizm məktəbinin yaradıcısı hesab olunur. Levi Stross xalqların ekzotik xüsusiyyətləri deyil, ümumiləşmiş keyfiyyətləri maraqlandırırdı. Onun fikrinə görə hər bir zahiri müxtəliflik, xarici bənzərsizliyin əsasında universallıq, eynilik, oxşarlıq dayanır. Bu mənada insan təfəkkürünün strukturu universaldır. K.Levi-Stross hesab edir ki, "obyekti dərk etməni insanın universal tələbatıdır. Fransız antropolqu qeyd edir ki, istənilən cəmiyyətdə dünya fikir obyekti olduğu qədər, həm də tələbatları ödəmə vasitəsidir. K.Levi-Stross ikinci universal keyfiyyət olaraq insan təfəkkürünün nizamlılığı, kateqoriyallaşdırmanı tələb etməsidir. Yəni, insan təfəkkürü həmişə nizamlanma, təsnifat aparmağı tələb edir, ona meyillidir. Məsələn, neqritos, onun üçün heç bir iqtisadi əhəmiyyəti olmayan 600 yaxın bitki adını bilir. Yaxud navaho hindliləri canlıları danışan və danışmayan olmaqla iki qrupa bölürdülər.

3. Rusiyada etnopsixologiyanın inkişafı

Rusiyada etnopsixologiyanın inkişafı əsasən K.D.Kavelin, Q.Q.Şpet, Q.İ.Çelpanovla bağlıdır. Rus Coğrafiya cəmiyyəti Rusiyada etnopsixologiyanın yaranmasında böyük rol oynamışdır. Etnoqrafiyanın bir şöbəsi olan "Psixi etnoqrafiya" şöbəsinin əsas vəzifəsi insanların mənşəyi, əqli, əxlaqi təbiətini, xarakter və iradəsini öyrənmək olmuşdur. 1874-ci ildə Rusiya quberniyalarında məskunlaşan xalqların xüsusiyyətlərinin öyrənilməsi ilə bağlı proqram qəbul olundu. Bu işlə müxtəlif adamlar məşğul oldular. Etnoqrafik tədqiqatlar aparan filosof K.D.Kavelin XIX əsrin 40-cı illərində etnopsixoloji laboratoriya yaratmaq təşəbbüsü ilə çıxış etdi. Lakin, bu məsələ ilə bağlı onunla İ.Seçenov arasında olan diskusiya etnopsixologiyanın elm kimi yaranmasını ləngitdi. Seçenov hesab edirdi ki, mənəvi mədəniyyət məhsulları vasitəsilə, psixikanı öyrənmək obyektiv deyil.

Almaniyada etnopsixologiya aid nəzəri tədqiqatlar Rusiyada da öz əksini tapdı. Etnik psixologiyanın yaradılmasına ilk təşəbbüs XX əsrin 20-ci illərində Q.Q.Şpet (1879-1937) tərəfindən edilmişdir. O, Q.İ.Çelpanovla birlikdə MDU-da tarix-filologiya fakültəsinin nəzdində "Etnopsixoloji laboratoriya" yaratdılar. 1927-ci ildə Q.Q.Şpet "Etnik psixologiyaya giriş" kitabını nəşr etdirmişdir. O, da etnopsixologiyanı "xalq ruhu"nu öyrənən elm kimi səciyyələndirmişdir. Q.Şpet "xalq ruhu"nu kollektivin təbiətdə və sosial həyatda baş verən hadisələrə subyektiv reaksiyası kimi izah edirdi. Bu mənada Q.Şpet xalqın münasibətini onun ruhu, canı və xarakteri hesab edirdi.

Rusiyada etnopsixologiyanın inkişafında A.A.Potebnyanın xidməti çox böyükdür. Onun "Fikir və dil", "Dil və xalq", "Milliyətçilik haqqında" elmi əsərləri yeni fikirlərlə bu gün də tədqiqatçıların diqqət mərkəzindədir. A.A.Potebnya dili xalqın, etnosun mövcudluq əlaməti hesab edir və psixoloji xüsusiyyətləri, xalqa aid olan xarakter əlamətlərinin dildə axtarmağı təklif edir. Onun nəzəriyyəsinin əsas müddəası belə idi ki, milli xüsusiyyətlər dildə nəyin ifadə olunmasında yox, necə ifadə olunmasında özünü göstərir. A.A.Potebnya öz fikirlərini əsasən "народ" və "народность" anlayışları əsasında izah etmişdir. Bu anlayışlar onun izahında bir xalqı digərindən fərqləndirən milli xüsusiyyətlər kimi başa düşülür.

ABŞ-da xalqların etnopsixoloji xüsusiyyətlərini etnik psixologiya deyil, mədəni psixoloj antropologiya öyrənir. ABŞ etnopsixologiyasının banis F.Boas (1858-1942) olmuşdur. O, V.Vundtun şagirdi olmuş, onun ideyalarını Amerikaya gətirmiş və ətrafına çoxlu tədqiqatçılar cəlb edə bilmişdir. Onlardan R. Benedikt, M.Mid, A. Kardiner, R.Linton və b. göstərmək olar. ABŞ-da etnopsixologiya etnologiyanın psixoloji istiqaməti hesab olunur və müasir dövrdə mədəni psixoloji antropologiya adı ilə təqdim olunur. Amerikan etnopsixoloqları öz tədqiqatlarında Z.Freyd, K.Yunq, E.Fromm, K.Xorni və A.Maslounun psixoloji konsepsiyalarına istinad edirdilər. Müasir Amerikan etnopsixologiyasının kökündə "Mədəniyyət və şəxsiyyət " konsepsiyası dayanmışdır. Bu konsepsiyanın özü isə F.Boasın mədəni determinizm (insan xarakteri tərbiənin məhsuludur) və neofreydizm cərəyanlarının yəni, mədəni antropologiya ilə psixologiyanın vəhdəti əsasında yaranmışdır və hər iki sahəni özündə birləşdirir. Yeni konsepsiya ilə bağlı 1932-ci ildə R.Benediktin (1887-1948) "Mədəniyyətin konfiqurasiyası" adlı ilk məqaləsi çap olunmuşdur. ABŞ-da yaranan yeni nəzəri-metodoloji istiqamətə A.Kardiner rəhbərlik etmişdir. Mədəniyyət və şəxsiyyət konsepsiyasının əsas

müddəası belə idi ki, hər bir xalq, millət və etnos üçün "əsas xarakter qurluşu" var və o nəsildən-nəsilə ötürülərək onun tarixini müəyyən edir. Sonradan "şəxsiyyətin əsas strukturu" anlayışı "modal şəxsiyyət" anlayışı ilə əvəz olundu.

Amerikan psixoloji antropologiyası əsasən biheviorizm nəzəriyyəsinə istinad edir və bu konsepsiya əsasında inkişaf etmişdir.

Müxtəlif xalqların həyatına və tarixinə, eləcə də onların sosial həyatının müxtəlif cəhətləri Şərq ölkələri alimlərinin də diqqət mərkəzində olmuşdur. Məsələn, orta əsrlərin böyük səyyahı İbn Battuta (1304-1369) "Rihlet-ü İbn Battuta" adlı topluda Afrika xalqlarından bəhs etmişdir.

İslam tarixçisi İmam əl-Buxari (hicri tarixi ilə 194-256) "Əl-Cami əs-Səhih" əsərində ərəb tayfaları (müşrklər, qureyşilər və b.) eləcə də türklər, yəhudilər və başqa xalqlar haqqında məlumatlara rast gəlinir. Məsələn, Əbu Hureyra rəvayət edir ki, Peyğəmbər demişdir: "Siz qıyıq gözlü, qırmızı sifət, yastı burun, üzləri də döymə qalxana bənzər türklərlə vuruşmayınca Qiyamət qopmayacaq. Həmiçinin qıldan qayırılmış səndəllər geyinmiş adamlarla vuruşmayınca Qiyamət qopmayacaq".

Türk səyyahı Evliya Çelebinin on cilddən ibarət olan "Səyahətnamə" əsəri tarixi-coğrafi səciyyə daşıyan əsər olmaqla yanaşı, həm də həmin ölkə ərazisində yaşayan xalqların mədəniyyəti o cümlədən xarakteri və başqa psixoloji xüsusiyyətləri haqqında geniş məlumat verir.

4. Azərbaycanda etnopsixoloyanın inkişafı

Azərbaycanda etnopsixologiyanın uzun keçmişi, lakin qısa tarixi var. İlk etnik-psixoloji təssəvürlərin təşəkkülü xalqın qədim adət-ənənə, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlıdır. Xalqın müşahidə əsaında əldə etdiyi etnopsixoloji biliklər, şifahi xalq yaradıcılığında və bədii ədəbiyyat nümunələrində öz əksini tapmışdır. Azərbaycan şifahi xalq ədəbiyyatında olan obrazlar (keçəl, kosa, Molla Nəsrəddin, və s.) xalqın sosial etalon və stereotiplərini ifadə etmişlər. Lətifələrdə etnik psixoloji hadisələr haqqında ictimai rəy öz əksini tapmışdır. Dastanlarda isə tayfadaxili və tayfalararası münasibətlərin psixoloji təhlilinə rast gəlinir. Etpopsixologiyanın bilik sahəsi kimi tarixini təhlil edəndə, onun ilk səhifələrinə bir tərəfdən güzəran psixologiyasında, digər tərəfdən, Azərbaycan fəlsəfəsi, ədəbiyyatı və incəsənəti materiallarında, səyahətnamələrdə, coğrafiyaçıların əsərlərində, tarixi və etnoqrafik yazılarda və abidələrdə rast gəlinir. Azərbaycan ədəbiyyatı bütün janrları ilə birlikdə azərbaycan xalqın ruhunu, düşüncəsini, ümumən isə psixi simasını özündə əks etdirdiyi üçün, Azərbaycan psixoloji fikir tarixinin ilk mənbəəsi kimi götürülməlidir. Qeyd

etdiyimiz mənbələrdə, yalnız azərbaycan xalqı ilə yanaşı, dünyanın başqa xalqlarının da müxtəlif xüsusiyyətləri haqqında müşahidələrə rast gəlmək olur. Şərqdə xalqların, ölkələrin tarixinə olan maraq orada yaşayan xalqların həyatına, məişətinə, mədəniyyətinə bir sözlə xalqların xarakterinə maraqla birləşir.

XI əsrdən etibarən etnopsixoloji ideyalara fəlsəfə və bədii ədəbiyyat əsərlərində rast gəlinir. Bəhmənyar, Nəsirəddin Tusi, Nizami Gəncəvi, İmaddədin Nəsimi, M.Ə.Sabir, Ü.Hacıbəyov, M.F.Axundov, A.Bakıxanov, səyyahlardan Z.Şirvani və b.əsərlərində etnopsixoloji qeydlərə rast gəlinir.

Azərbaycan haqqında, onun ərazisində yaşayan xalqlar haqqında etnopsixoloji və etnoqrafik məlumatlara həmin dövrlərdə ölkəmizə səyahət edən səyyahlar, elçilər, tarixçilər və başqalarının əsərlərində rast gəlinir. Həmin yazılarda ölkənin tarixi, coğrafiyası, təbiəti, yerüstü və yeraltı sərvətləri, eləcə də xalqların adət-ənənəsi, yaşayış tərzi, xarakteri haqqında məlumat verilir. Onlardan yunan coğrafiyaçı və tarixçisi Strabonun (e.ə. 64- b.e.24) "Coğrafiya" əsərini misal göstərmək olar. Strabon yazır: Orada adamlar gözəlliyi və hündr boyu ilə seçilirlər, eyni zamanda onlar ürəyiaçıqdırlar, xırdaçı deyillər. Albanlar qocalığa, nəinki valideynlərinə, həm də yad (qoca) adamlara həddindən artıq hörmət edirlər. Mərhumun dərdini çəkmək və hətta onu yada salmaq şərəfsizlik sayılır. Mərhumla birlikdə onun bütün əmlakını basdırırlar və buna görə də ata malından mərhum olub, kasıb yaşayırlar. Antik dövr Qafqaz Albaniyası və onun xalqları haqqında II əsrin tanınmış coğrafiyaçı və astronomu Klavdi Ptolomeyin (70-147) "Coğrafiya" dərsliyində də məlumat verilir.

XVI əsrdə ingilis səyyahı Antoni Cenkinsonun Azərbaycana səfəri və Şamaxı şəhəri və yerli xalqın həyatından bəhs edən "Gündəliyindəki" qeydləri diqqəti cəlb edir. Şamaxı hakiminin qonağı olan Antoni Cenkinson yerli xalqın yüksək mədəniyyətindən heyran olduğunu qeyd edir və onun şərəfinə verilən ziyafət masasını belə təsvir edir: nahar vaxtı gəlb çatdıqda döşəməyə süfrələr salındı və müxtəlif yeməklər gətirildi; yeməklər çeşidinə görə sıra ilə düzülmüşdü. Mən apardığım sayıma görə 140 növ yemək verilmişdir.Onları süfrələr ilə birlikdə, yığışdırdıqdan sonra yeni süfrələr salıb meyvələrdən və başqa qonaqlıq yeməklərindən ibarət 150 növ bulud gətirdilər, beləliklə iki dəfəyə 290 yemək növü verilmişdi". Misal üçün, hələ XVI əsrdə Azərbaycan xalqının mətbəxt mədəniyyəti nə qədər zəngin olduğunu ingilis səyyahını dili ilə bir daha sübut edir. Bu ilk növbədə Azərbaycan xalqının nə qədər qöonaqpərvər olduğunu,

onun yadelli xalqlara nə qədər diqqət, qayğı göstərdiyini və mehribançılıqla qarşıladığını sübut edir. Misal həm də Azərbaycan qadınlarının zəngin təxəyyülə və şəhər mədəniyyətinə sahib olduqlarını sübut edir. Çünki, köçəri xalq heç də bu qədər zəngin mətbəx yarada bilməz.

Azərbaycan və azərbaycanlılarla bağlı daha bir xatirə isə alman alimi, riyaziyyatçısı, astronomu, filosof və coğrafiyaşünası Adam Olearinin "Moskoviya və Moskoviyadan keçməklə İrana, oradan da geriyə səyahətin təsviri" adlı əsərində verilmişdir. 1636-1638-ci illərdə Azərbaycanda olan Adam Oleari Şamaxıda olmuş və orada mədrəsədə tələbələrə astronomik cihazlardan (qlobus və bucaqölçən (üstürlab) istifadə etməklə elmlərin sirlərini, o cümlədən Evkilid həndəsəini öyrətdiklərini yazır. Digər bir xatirə isə holland səyyahı Yan Streysin "Səyahət" əsərində verilir.Onun səfəri 1670-1672-ci illərdə Dərbənd, Şamaxı və Ərdəbil şəhərlərinə olmuşdur.

Hacı Zeynalabdin Şirvani (1780-1838) Azərbaycanın ən görkəmli səyyahı (Azərbaycan Çələbisi) olmuş və 40 illik səyahət əsasında əsasən Şərq ölkələrində olmuş və orada yaşayan xalqların həyatını əks etdirən dörd əsər yazmışdır: "Riyazüs-səyahə", "Kəşfül-Maarifin", "Hədaiqüs-səyahəni", "Büstanüs-Səyahəni". Nəsirəddin Tusinin etnopsixoloji fikirləri və müşahidələri əsasən "Əxlaqi-Nasiri" əsərində toplanmışdır. N.Tusi Şərq xalqlarından bəzilərininxarakterik xüsusiyyətləri haqqında mövcud olan stereotipləri belə təsvir edir:Ərəb: natiqlik, bəlağət və fəsahətdə üstünlük qazanıblar, lakin tünd xasiyyət və şəhvətpərəstlikdə ad alıblar;Əcəm: ağıl, fərasət, təmizlik və zirəklikdə ad alıblar;Rumi: vəfa, əmanət, kömək və qənaətdə üstünlük qazanıblar, lakin paxıllıq və xəsislikdə ad alıblar;
Hindli: tizfəhimlikdə və hazırcavablıqda üstünlük qazanıblar, lakin tələskən, bədbinlik, məkr və şayiədə ad alıblar;

Türk: şücaət, xidmət və xoş surətlikdə üstünlük qazanıblar, lakin qəddarlıq, kobudluq və özlərini saxlaya bilməməkdə ad alıblar.

Respublikamızda etnopsixologiya problemlərinin ilk dəfə elmi planda tədqiqi, istedadlı psixoloq Fuad İbrahimbəyovun yaradıcılığı ilə bağlıdır. O, öz əsərlərində göstərmişdir ki, etnik-mədəni amillər etnik psixoloji xüsusiyyətlərin formalaşmasında çox mühüm rol oynayır. Bunula da Fuad müəllim etnik psixoloji xüsusiyyətləri sırf biolji amillərlə izah edənlərə qarşı çıxmışdır.

Müasir dövrdə Azərbaycanda etnopsixologiya sahəsində tədqiqat aparan psixoloqlardan Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, S.İ.Seyidov, B.H.Əliyev, R.Qədirova, R.Qaragözov, G.Hüseyn-ovanın pedaqoqlardan Ə.Həşimov, Y.Talıbov etnoqraflardan Q.Qeybullayev, R.Babayev H.Quliyevin və b. adlarını qeyd etmək

olar. Etnik psixoloji problemlərin təhili ilə bağlı Ə.S.Bayramovun əsərlərindən "Etnik psixologiya", "Psixoloji düşüncələr", "Etnik psixologiya məsələləri", "Kitabi-Dədə Qorqud" dastanlarında etnik psixoloji xüsusiyyətlərin inikası və başqa əsərlərini göstərmək olar. Ə.Ə.Əlizadənin "Azərbaycan güzəran psixologiyası məsələləri", "Xəmsə"də yaş və pedaqoji psixologiya məsələləri", "Azərbaycan etnopsixologiyasına giriş", R.Əliyevin "Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması", "Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları", "Etnopsixologiya: qloballaşma və millilik" əsərlərini qeyd etmək olar. Rəna Qədirovanın "Azərbaycanlı uşaq və yeniyetmələrin milli identikliyinin inkişafının sosial-psixoloji problemləri" adlı doktorluq dissertasiyasını, G.Hüseynovanın "Müasir gənclərdə etnik stereotiplərin təzahür xüsusiyyətləri" adlı metodik tövsiyyəsini göstərmək olar. Etnopsixoloji məsələlər ədəbiyyatçılardan N.Cəfərov, K.Vəliyev, A.Nəbiyev, P.Xəlilov, tarixçilərdən M.Seyidov, Q.Qeybullayev, filosoflardan A.Əsədov, A.Şükürov, A.Şirinov və başqalarının əsərlərində bədii, tarixi-etnoqrafik və fəlsəfi aspektdən araşdırılmışdır.

Müstəqillik əldə etdikdən sonra respublikamızda etnopsixoloji problemlər psixologiya sahəsində aparılan tədqiqatların prioritet istiqamətlərindən birinə çevrilmişdir.

Mövzu 3. Etnopsixologiyanın tədqiqat metodları

Plan:

1. Etnik-psixoloji problemlərin öyrənilməsində istifadə edilən metodlar
2. Müasir etnopsixologiyada tədqiqatların nəzəri istiqamətləri
3. Kross-mədəni tədqiqatlar

ƏDƏBİYYAT:

6. Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
7. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001

8. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
9. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
10. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

Mövzu ilə bağlı elektorn resurslar

https://studme.org/61929/psihologiya/osnovnye_metody_etnopsihologicheskih_issledovaniy

https://works.doklad.ru/view/Ewm_NeuiVZ0/all.html

1.Etnik-psixoloji problemlərin öyrənilməsində istifadə edilən metodlar

Hər bir elmdə olduğu kimi etnik psixologiyanın da tədqiqat metodları onun metodologiyası ilə bağlıdır. Müasir dövrdə elmi idrakın metodologiyası və metodikasında elmi yanaşmanın üç səviyyəsini ifadə edirlər: 1. Ümumi metodologiya; 2. Xüsusi metodologiya; 3. Metodologiya - konkret metodik priyomların məcmusu kimi.

Ümumi metodologiya dedikdə tədqiqatçının istinad etdiyi ümumi fəlsəfi yanaşma, ümumi idrak üsulu nəzərdə tutulur.

Xüsusi metodologiya dedikdə müvafiq elm sahəsində, bizim misalımızda, etnik psixologiyada tətbiq edilən metodoloji prinsiplərin məcmusu nəzərdə tutulur.

Metodologiyanı konkret metodiki prinsiplərin məcmusu kimi nəzərdən keçirdikdə adətən etnik psixoloji tədqiqat prosesində tətbiq olunan konkret tədqiqat metodlarını aydınlaşdırır. Konkret tədqiqat metodlarının spesifik cəhəti, hər şeydən əvvəl, onların köməyi ilə həll edilən elmi vəzifənin və öyrənilən etnik-psixoloji hadisənin xarakteri ilə müəyyən olunur.

Konkret tədqiqat metodikasının işlərkən onun elmi xarakter daşımasına xüsusi diqqət yetirmək lazımdır. Bunun üçün etnik psixologiyanın prinsipləri ilə yanaşı elmi idrakın metodikasından irəli gələn və tədqiqatın səmərəli olmasını şərtləndirən meyarları – metodun əsaslı olması (validliyi), mötəbərliliyi, reprezentativliyi, informasiyanın dəqiqliyi və s. nəzərə alınmalıdır.

Etnopsixologiyanın tədqiqat metodları dedikdə, həmin elmin öz predmetini tədqiq etmək üçün istifadə etdiyi yol və vasitələrin məcmusu nəzərdə tutulur. Etnik psixologiya, psixologiyanın bir sahəsi olduğu üçün ümumi və sosial psixologiyada istifadə edilən əsas metodlardan ümumi şəkildə burada da istifadə olunur.Etnik psixologiya sahəsində aparılan tədqiqatlar, başqa sahələrdə olduğu kimi aşağıdakı paradiqmaya əsaslanmalıdır: nəzəriyyə-eksperi-ment-praktika. Etnopsixoloji tədqiqatlar zamanı aşağıdakı elmi prinsiplərin nəzərə alınması zəruridir: coğrafi determinizm, şüur və fəaliyyətin vəhdəti , psixikanın fəaliyyətdə inkişafı, tarixilik və sistemlilik. Etnopsixologiya inteqrativ elm sahəsi olduğuna görə öz obyektini tədqiq edərkən əsasən ümumi və sosial psixologiyanın istifadə etdiyi, bəzən isə etnoqrafiyanın tədqiqat metodlarından istifadə edir. Etnopsixologiyanın tədqiqat metodlarına müşahidə, çöl eksperimenti, korrelyasiya, kontent-analiz, rəsm testi, sosio-metriya, intervyu, anket, söbət və s. daxil edilir. Bu metodlarla yanaşı etnopsixoloqlar etnopsixoloji məsələləri öyrənmək üçün etnoqrafiyanın istifadə etdiyi qalıqlar (survival method), həyat hadisələri (case study method) və müqayisəli-tarixi (cross-cultural) metodlarını da tətbiq edirlər. Qalıqlar metodu tədqiqat üsulu kimi rus etnoqrafı K.D.Kavelin tərəfindən hazırlanmışdır və ingilis etnoloqu E.Teylor tərəfindən daha da təkmilləşdirilmişdir. Qalıqlar metodunun əsas ideyasına görə hər bir xalqın mədəniyyətində onun tarixi və psixoloji keçmişinin izləri olur və həmin izlərə əsasən müəyyən nəticə çıxarmaq mümkündür. E.Teylor hesab edir ki,

qalıqlar üç mənanı ifadə edə bilər: 1) hər şeyin olduğu kimi qaldığını; 2) adət və ənənələrin, baxışların, münasibətlərin yeni şəraitə uyğunlaşması üçün dəyişildiyini; 3) adət və təsəvvürlərin bərpası, canlandırılması. Məsələn, toyu olan bəyin "oğurlanması", gəlinin evə daxil olarkən ayağı ilə qab sındırması və s. tarixi keçmişin izləridir. Lakin, özlüyündə etnosun, xalqın psixoloji və sosial keçmişi və təcrübəsi haqqında məlumat daşıyır.

Həyat hadisələri metodu etnosun və xalqın adət və ənənələri, əmək və məişət həyatı ilə bağlı yerli sakinlərin söhbətini əks etdirir. Xalqın psixoloji keçmişi onun yazılı və şifahi ədəbiy-yatında, fəlsəfəsində yaşayır.

Şifahi xalq yaradıcılığının, folklor materiallarının təhlil də etnopsixologiya-da istifadə olunan tədqiqat metodlarından hesab olunur. Şifahi xalq ədəbiyyatında olan əfsanələr, rəvayətlər,

nağıllar, dasanlar, tapmacalar, atalar sözləri, sınamalar və s. xalqın təfəkkür tərzini, ideallarını, əxlaqi və mənəvi dəyərlər sistemini, rəğbətləndirmə və cəzalandırma, qadağalar sistemini, alqış və qarğışını bir sözlə xalqın ruhu, onun psixologiyası haqqında maraqlı və zəngin materiallarla doludur. Xaqın həyatı ilə bağlı olan folklor nümunələri insanların xarakterini, onların əməyə, başqalarına, özünə, dünyaya, var-dövlətə, qonşuya, təbiətə, təbiət hadisələrinə olan münasibətini, qadın-kişi münasibətlərini, uşaqların tərbiyəsi, cinsi seqreqasiya və ümumiyyətlə ictimai münasibətlərin geniş spektri haqqında əvəzolunmaz materialları özündə əks etdirir. Bu materialların yozumu isə tədqiqatçının istifadə etdiyi yanaşmadan asılı olur.

Folklorun öyrənilməsində 3 yanaşmadan istifadə olunur:

Birincisi yanaşmada folklor materialının məzmunu Freyd və ya Yunqun metodu ilə psixoanalitik simvolizm yönümündə izah olunur. Bu tip tədqiqatçılar üçün obraz və süjetin konkret sosial-tarixi məzmunu elə bir əhəmiyyət kəsb etmir.

İkinci yanaşma daha çox obyektiv məzmun kəsb edir və burada bir neçə mədəniyyətlər (oxu: xalq, millət) paralel olaraq tədqiq olunur. Məsələn, bir neçə etnik qrup götürülür və onların

folklorunda uşaq tərbiyəsində hansı üsulun üstünlük təşkil edildiyi paralel şəkildə öyrənilir (məsələn, fərdi uğur əldə etməyə olan meyl). Sonra formal nəticələr müqayisə edilir və yekun rəyə gəlinir ki, bir xalq fərdi uğur qazanmağa, digər xalqla müqayisədə daha çox meyl göstərir. Bununla da bu və ya digər etnik qrupun müqayisəli şəkildə xarakter xüsusiyyəti haqqında nəticə əldə edilir.

Üçüncü növ yanaşma daha çox ənənəvi xarakter daşıyır və müasir dövrdə də öz əhəmiyyətini qoruyub saxlayır. Burada xalqın psixoloji portretini və mədəniyyətinin sintetik obrazını yaratmaq üçün onun keçdiyi tarix, yaratdığı folklor nümunələri təhlil olunaraq ümumiləşdirilir. Qeyd etmək lazımdır ki, hər hansı xalqın xarakteri haqqında onun folklor materialları əsasında qəti fikir söyləmək çox risklidir. Ona görə ki, zaman amilini, eləcə də sosial-iqtisadi dəyişiklikləri nəzərə almaq lazımdır. Xalqa məxsus olan hər hansı əfsanə, dastan, rəvayət və sərvət dəyərləri həmin qrupun məhz həmin tarixi dövrünü əks etdirir, ola bilsin ki, hazırkı vəziyyətə qətiyyən uyğun gəlmir. Digər tərəfdən razılaşmaq lazımdır ki, şifahi xalq ədəbiyyatı nümunələrindəki qəhrəmanlar, pesonajların adları fərqli olsa da bütün xaqlarda onların yaranma

motivləri və süjet xətti eynidir. Ona görə ki, bu materiallar ağızdan ağıza ötürülərək bütün xalqlara yayılmışdır və onun yaradıcısının konkret olaraq hansı xalq olduğu mübahisəli məsələdir. Üçüncüsü, folklor materiallarında təkrarlanan mövzular həqiqətənmi real insan davranışını əlamətlərini əks etdirir yoxsa onların arzusunu, istəyini, cəhdini və yaxud onların müdafiə reaksiyasını?

Xalqın etnik psixoloji xüsusiyyətlərinin tədqiq olunub araşdırılması üçün onun musiqisini, rəqsini, geyim mədəniyyətini, istifadə etdikləri bəzək-düzək vasitlərinin, məişət əşyalarının, kulinar mədəniyyətinin öyrənilməsi kimi vasitələrdən istifadə etmək olar. Müasir dünyada elə bir xalq, millət tapılmaz ki, onun ifadə etdiyi milli rəqs olmasın. Xaqlar bir-birindən fərqləndiyi kimi rəqslər də bir-birindən ritminə, musiqisinə, melodiyasına görə fərqlənir.

2. **Müasir etnopsixologiyada tədqiqatların nəzəri istiqamətləri**

Müasir etnopsixologiyada tədqiqatların üç əsas nəzəri istiqaməti var. Bunlar aşağıdakılardır: relyativizm; absolyutizm; universalizm. Relyativizm (latınca relativus nisbi deməkdir) insan idrakının, biliyinin obyektiv məzmuna malik olduğunu inkar edən, onun subyektiv, şərti və nisbiliyi haqqında olan idealist təlimdir. Mədəni relyativizm əsasən XIX əsrdə etnoqraf və səyyahların qeyri avropa xalqlarını varvar, geridə qalan xalq kimi qiymətləndirməsinə, yəni avropa etnosentrizminə qarşı olan reaksiya kimi əmələ gəlmişdir. Relyativist yanaşma texnoloji inkişafı xalqın əqli və mənəvi inkişafı ilə bərabərləşdirməyin əleyhinə çıxırdı və hesab edir ki, hər bir mədəniyyətin mövcud şəraitə özünəməxsus uyğunlaşama üsulu var. Relyativistlər belə hesab edirlər ki, bütün mədəniyyətlər bərabərdir, lakin müxtəlifdir. Onlar, etnosu öz dili ilə, öz mənəvi dəyərlər aspektindən yanaşmağı və dərk etməyi daha düzgün hesab edirlər. Relyativistlərə görə, bütün psixoloji hadisələr mədəniyyətlə şərtlənir. Relyativist yanaşma XIX əsrdə səyyah və etnoqrafların böyük əksəriyyətinin qeyri avropa xalqlarında hər şeydən əvvəl varvarlıq və gerilik əlamətlərini qabartaması və görməsinə cavab reaksiyası kimi meydana gəlmişdir. Yeni konsepsiyanın tərəfdarları hesab edirlər ki, texnoloji inkişaf heç də xalqın, millətin və ya etnosun əqli və mənəvi inkişafının göstəricisi kimi götürülə bilməz. Yaxud əksinə, texniki tərəqqinin olmaması əqli və mənəvi gerilik, varvarlıq əlaməti hesab olunmamalıdır. Relyativistlər etnopsixologiyada *emic* tədqiqatların aparılmasını

vacib hesab edirlər. Çünki, bu yanaşma ilə tədqiqatçı hətta, kannibalizmin və ya uşaqların diri-diri basdırılmasının həmin mədəniyyət üçün hansı məna daşıdığını başa düşməyə kömək edəcəkdir. Relyativistlər çalışırlar ki, xalqı, milləti və ya müəyyən etnik birliyi onların öz dili ilə onların dəyərlər sisteminə istinad etməklə başa düşsünlər.

Məsələn: çinlilər intellektə sosial cavbdehlik və təqlidetmə keyfiyyətlərini də daxil edirlər. Halbuki, avropa mədəniyyəti üçün bu yaddır. Azərbaycanlılar üçün övlad borcu anlayışı, amerikanların adekvat anlayışından fərqli məzmun daşıyır.

Absolyutizm tam fərqli nəzəri istiqamətdir və mədəniyyətlərarası fərqləri mütləqləşdirir. Absolyutizm tərəfdarları belə hesab edirlər ki, mədəniyyətlər eynidir, amma bərabər deyildir. Onlar etnosentrizmin mövcudluğunu qəbul etmir və mədəniyyətin tədqiqatçıya etdiyi təsiri qəbul etmirlər. Ona görə də müqayisəli-mədəni tədqiqatlar aparan zaman ABŞ və Qərbi Avropada istifadə olunan metodikalardan istifadə edirlər. Ən yaxşı halda həmin metodikaların linqvistik ekvivalentliyi yoxlanılır. Belə olan halda intellektə eyni fenomen kimi baxmağı tövsiyyə edirlər. Əgər belə olan halda etnomədəni fərqlər meydana çıxırsa, onda həmin faktı həmin xalqa aid edirlər. Belə ki, bir mədəniyyətə mənsub olanlar daha ağıllı və qabiliyyətli olurlar. Bu yanaşmada tədqiqatçı öz mədəniyyətinin normalarına istinad etməklə tədqiqat aparırı və nəticəyə gəlir. Elə bu yanaşmanın ən nöqsanlı cəhəti odur ki, mədəniyyət fərqləri nəzərə alınmır. Absolyut (mütləq) yanaşma əsasında çox asanlıqla bir xalqı ağıllı, bacarıqlı, xeyirxah digərini isə geridə qalmış, tənbəl, avam göstərmək olar.

Universalizm etnopsixologiyada üçüncü nəzəri istiqamətdir. Bu yanaşmanın tərəfdarları hesab edir ki, təməl psixoloji proseslər hər yerdə və bütün xalqlarda, mədəniyyətlərdə eynidir, lakin psixi və sosial inkişafa təsir isə hər yerdə müxtəlifdir. Mədəniyyətlər bərabərdir, zahirən müxtəlifdir, əsasına görə isə eynidir. Universalistləri mədəniyyətin hansı yolla insanların daxili aləminə təsir göstərməsi məsələləsi maraqlandırır. Bu suallara cavab tapmaqla müəyyən etmək olar ki, hansı psixoloji fenomenlər universaldır və onun köməyi ilə istənilən mədəniyyətdə insanın davranış və fəaliyyətini təsvir etmək olar.

Etnopsixologiyada müxtəlif dövrlərdə müxtəlif nəzəri istiqamətlər dominant mövqeydə olmuşdur, amma universalizmə meyl daha güclüdr

XX əsrdə dünya etnopsixologiyasında iki mühüm istiqamət əmələ gəlmişdir. Onlardan biricisi mədəni-psixoloji antropologiya, ikincisi isə müqayisəli, mədəni və ya kross-kultural psixologiya kimi yaranıb. Kross-kultural psixologiya müqayisəyə söykənir, iki və daha çox xalqların psixologiyasını müqayisəli ölçülərlə araşdırır, onların mədəniyyətində üniversal cəhətləri və mədəniyyətlərarası fərqləri ayırd edir. Mədəni-psixoloji antropologiya isə xalqların psixologiyasını, yəni obrazlı desək, xalqın psixoloji "tərcümeyi-halını", milli mentalitetin konkret xalqın, məsələn Azərbaycan mədəniyyəti ilə şərtlənən psixoloji kəmiyyətlərini öyrənir.

Kross-mədəni tədqiqatlar əsasən iki yönümdə aparılır:

a) müxtəlif mədəniyyətlər axarında müqayisəli araşdırmalar təşkil olunur. Bu müqayisələrin ana xətti oxşarlığına görə, müxtəlif olan xalqların psixoloji durumunda universal məziyyətlərin müəyyənləşdirilməsi ilə bağlıdır.

b) hər bir xalq üçün səciyyəvi olan özünəməxsus olan xüsusiyyətlər müəyyənləşdirilir. Əsas psixoloji proseslərin formalaşmasına və inkişafına mədəniyyət hansı ölçülərlə təsir göstərir?

Kross-kultural tədqiqatlarda bu sual əsaslı təhlil olunur. Psixi xüsusiyyətlərin formalaşmasında mədəniyyət faktoru əsas rol oynayır. Məsələn: N.Gəncəvinin "Yeddi gözəl", M.F.Axundzadənin "Müsyö Jordan və ya dərviş Məstəli şah" əsərində xalqların müqayisəsi verilmişdir. Fransız yazıçısı A.Düma "Qafqaz səfəri" əsərində azərbaycanlıları ermənilərılə müqayisə edərək yazır: "Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdır, bu ehtiyatsızlıq onu iflas edər, dilsizə və sxtakara çevrilər, dünənki himayədarı bu gün bərk ayaqdadırsa, ona nankorluq edər."

Etnopsixoloji tədqiqatlar apararkən çətinlik ondadır ki, mədəniyyətin təsirinə məruz qalmayan tədqiqat metodu tapmaq çətin məsələdir. Bu mənada amerikan kulturantropoloqu Triandis qeyd edir ki, kross-mədəni tədqiqatlar zamanı biz psevdo-etik yanaşmadan istifadə edirik.Çünki, onu aparanlar heç də öz təfəkkürlərini aid olduqları mədəniyyətin təsirindən azad edə bilmirlər. Triandis bu faktı izah etmək üçün avropalı tədqiqatçılarda yapon "qeyşa"sı ilə bağlı yaranan "yüngül əxlaqlı qadın" asossasiyasını misal göstərir. Etnopsixoloji tədqiqatlar zamanı yadda saxlamaq lazımdır ki, obyektiv (müşahidə edənin nöqteyi-nəzəri) və subyektiv (müşahidə olunanın nöqteyi-nəzəri) faktlar bəzən bir-birini tamamlayır, bəzən isə uyğun gəlmir

Mövzu 4. Etnik özünü dərk və etnik identikliyin xüsusiyyətləri

Plan:

1.Etnik özünüdərk və özünüqiymətləndirmənin mahiyyəti

2.Etnik identiklik haqqında

3.Etnik identikliyin formalaşması mərhələləri

Ədəbiyyat:

11.Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020

1. Ə.S.Bayramov. Etnik psixologiya.Bakı,2001.
2. R.İ.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000.
3. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
4. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007

- **Mövzu ilə bağlı elektorn resurslar**
- http://intangible.az/front/az/aboutExample/1656?type=1
- http://medeniyyet.az/page/news/12943/Milli-adetenenelerimizde-exlaqi-deyerler-ve-varislik.html
- http://www.clb.az/files/mv/Menevi_irs.pdf

Sual 1. Etnik özünüdərk və özünüqiymətləndirmənin mahiyyəti. Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi-psixoloji keyfiyyətlərə, adət-ənənələrə,

stereotip və yönümlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etnik-psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir. Odur ki, xalqın etnik-psixoloji xüsusiyyətlərinin köklərini araşdırmaq üçün həmin xalqın etnogenezinə, xüsusən də etnik-psixoloji tarixinə, orada baş verən etnik proseslərə xüsusi diqqət yetirilməlidir. Nəzərə almaq lazımdır ki, xalqa məxsus etnik-psixoloji xüsusiyyətlərin məcmusu, ilk növbədə həmin xalqın folklor və bəddi ədəbiyyat materiallarında əks olunur. Həmin yazılı abidələrin psixoloji təhlili xalqın etnik-psixoloji xüsusiyyətlərinin təşəkkül prosesini izləməyə imkan verir. Bu cəhətdən xalqımızın qədim tarixə malik olan "Kitabi-Dədə Qorqud" dastanları xüsusi əhəmiyyətə malikdir. Həmin eposda Azərbaycan xalqının əcdadlarına məxsus etnik xarakter əlamətləri, stereotip və yönümlər, hisslər, davranış tərzi, adət-ənənələr və s olduqca canlı şəkildə öz əksini tapmışdır.

Etnik psixoloji xüsusiyyətlər içərisində ilk növbədə diqqəti cəlb edən cəhət etnosun özünüdərketməsi və etnik şüur səviyyəsidir. Yəni özünüdərketmə və etnik mənsubiyyətin anlamı etnik əlamətlər sırasında başlıca yer tutur. "Kitabi-Dədə Qorqud" dastanlarının sosial-psixoloji və etnopsixoloji təhlilindən aydın olur ki, dastanda təsvir olunan oğuz etnosunda özünüdərketmə, yəni müəyyən etnosa mənsubiyyətin anlaşılması aydın surətdə nəzərə çarpır. Başqa sözlə, oğuz etnosunun formalaşması sosial-psixoloji mexanizm etibarilə "Biz" və "Onlar" münasibətlərinin dərk edilməsi və qiymətləndirilməsi səviyyəsində cərəyan edir. Burada etnosun özü haqqında biliyi ilə başqa etnos haqqında biliyi, şüur səviyyəsini isə özü ilə bərabər daha çox başqaları, yəni digər etnos haqqında bilik kimi xarakterizə edilir. Deməli, etnik özünüdərketmə əsasən öz birliyi haqqında, etnik şüur isə həm də başqa birliklər haqqında olan bilikdir.

Etnik özünüdərketmə etnos üzvlərinin və etnik birliklərinin davranış və rəftarı, münasibətlər sistemi, xarakteri, mənəvi keyfiyyətləri, nailiyyət və nöqsanları haqqında təsəvvür və mülahizələrlə ayrılmaz surətdə əlaqəlidir. Məlumdur ki, etnik psixoloji xüsusiyyətlərin təşəkkülünün əsasının "biz" və "onlar" qarşıdurması, yəni öz etnosunu başqa etnoslara qarşı qoymaq, onları qarşılaşdırmaq əsasında

aralarındakı oxşar və fərqli cəhətlərin dərk edilməsi təşkil edilir. Etnik qruplar arasında belə qarşıdurma, qarşılaşdırma varsa deməli, özünüdərketmə də vardır. Bu cəhət etnik ümumiliyin və etnik fərqin dərk edilməsi və qiymətləndirilməsi üçün çox vacibdir. Deməli, etnik qrupun özü haqqında xüsusi bir reallıq kimi aydın təsəvvürü onun özünü başqa qruplardan və etnoslardan fikrən ayrılmasını tələb edir.Yəni etnik özünüdərketmə qabiliyyəti məhz etnik özünüdərketmədə təcəssüm edir və bu etnik özünüdərketmə isə etnosun dilində, xalq adət-ənənələri sistemində rəvayətlərdə, əfsanələrdə, miflərdə, müxtəlif inamlarda, rituallarda, milli zövqlərdə, üslublarda və s. obyektivləşir.

Etnik özünüdərketmə çox mürəkkəb fenomen kimi bir-biri ilə qarşılıqlı əlaqə və münasibətdə olan bir sıra komponentlərdən ibarətdir. Buraya daxildir:

a)etnofərqləndirici əlamətlər və təsəvvürlər sistemi;

b) etnik avtostereotiplər;

c) etnik hisslər;

d) fərdlərin müəyyən etnik birlik və identifikasiyası (özünü etnos üzvləri ilə eyniləşdirməsi, onlara bənzətməsi) və s.

Dastanların psixoloji təhlilindən aydın olur ki, bütün bu cəhətlər etnosda özünü aydın surətdə biruzə verir. Etnik özünüdərketmənin təşəkkülü ümumən etnosun tərəqqisi üçün böyük əhəmiyyətə malikdir. Çünki etnosun özünüdərketməsi səviyyəsi bir tərəfdən xalqın, millətin obyektiv şəkildə fəaliyyətdə olan əlamətlərinin xüsusiyyətlərinin inikasıdır və müvafiq avtostereotiplərdə etnik identifikasiyalarda, tarixi keçmişi, ərazi birliyi haqqında təsəvvür və anlayışlarda təsbit olunur.

Etnosun formalaşması və özünüdərki etnos üzvlərində psixoloji stabillik yaradır. Çünki etnik ümumilik nəsillərarası birlik sayəsində yaranır və zamanca davamlıdır.

Deməli, etnos üçün üçün, yəni onun mövcudluğu və özünüdərketməsi üçün nəsillərarası əlaqənin, öz adət-ənənəsini, öz identikliyini hifz etməsi zəruridir.

Nəzərə almaq lazımdır ki, xalqın milli birliyini hifz edib saxlamaq üçün onun sosial və etnik identikliyinə xüsusi diqqət yetirilməlidir.

Etnosun özünüqiymətləndirməsi mürəkkəb proses olub, onun özünü necə dərk etməsi ilə əlaqədardır. Yəni etnosun özünü dərk etməsi onun özünü, öz imkanlarını, öz keyfiyyətlərini və başqa etnoslar içərisində öz yerini və mövqeyini qiymətləndirmə onun davranış və rəftarının tənzim olunmasını təmin edir.

Etnosun ətraf aləmə, başqa etnoslara münasibəti onun özünüqiymətləndirməsindən asılıdr. Bunula da etnosun özünü necə qiymətləndirməsi onun inkişafına, tərəqqisinə, fəaliyyətinin səmərəliliyinə təsir edir. Burada heç şübhəsiz ayrı-ayrı şəxslərdə olduğu kimi, etnosun iddi səviyyəsi də mühüm rol oynayır. Yəni etnos öz qarşısına nə dərəcədə çətin və ya asan məqsəd və ya vəzifə qoyur, onları necə yerinə yetirir, bunun üçün intellektual imkanlarını, iradi səyininə dərəcədə səfərbər edə bilir. Yəni etnosun iddia səviyyəsi ilə real imkanları arasında ziddiyyətin artması onun özünü düzgün qiymətləndirməsinə ciddi təsir edir və nəticədə onun davranış və rəftarı qeyri-adekvat olur, bunun da sayəsində etnosda emosionallıq, həyəcanlılıq artır. Etnosun qeyri-adekvat özüünqiymətləndirməsi onunla digər etnoslar arasında konfliktlərin yaranmasına da səbəb ola bilər.

Əlbəttə, etnosun özünüqiymətləndirməsi dinamik bir proses kimi, yəni inkişaf edən, dəyişilən, yeni keyfiyyətlər kəsb edən bir sosial-psixoloji fenomendir və bir sıra amillərlə şərtlənir.

Məlumdur ki, etnosda milli mənlik şüurunun formalaşması ilk növbədə, xalqın özünü düzgün dərk etməsi və adekvat qiymətləndirməsi ilə əlaqədardır. Sokratın hikmətli fikrini yada salmaq faydalı olardı: “Sən özün özünü dərk et, əgər özün özünü dərk edərsənsə, bütün dünyanı, kainatı dərk etmiş olarsan”. Bu fikir ümumən xalqa aid olmaqla yanaşı, etnosun hər bir fərdinə də eyni dərəcədə aiddir.

Sual 2. Etnik identiklik haqqında. Vahid identifikasiya prosesi sosial identikliyin yaranmasına səbəb olur. Teşfelə görə sosial identiklik “fərdin Mən-konsepsiyasının özünün sosial qrupa üzvlüyünün və bu üzvlüyə verilən dəyər və emosional əhəmiyyətin dərkindən dərkindən yaranan hissəsidir”. Bundan başqa ən ümumi mənada sosial identiklik öz qrupunun digər sosial birliklərlə müqayisəsinin nəticəsidir.

Etnik identliklik – şəxsiyyətin sosial identikliyinin tərkib hissəsidir, özünün müəyyən etnik birliyə mənsubiyyətinin dərki ilə şərtlənən psixoloji kateqoriyadır. Burada ilk növbədə etnik identikli və etniklik anlayışlarının fərqləndirmək lazımdır. Etniklik müəyyən obyektiv əlamətlər hesabına (valideynlərin etnik mənsubiyyəti, doğum yeri, dil, mədəniyyət) etnik mənsubiyyyəti bildirən sosial kateqoriyadır. Qeyd etmək lazımdır ki, real həyatda heç də həmişə etnik identiklik rəsmi etnikliklə üst-üstə düşmür.

Etnik identiklik ilk növbədə özünü müəyyən etnosun nümayəndəsi kimi dərk etməyin koqnitiv-emosional prosesinin nəticəsidir.

Etnik identikliyi sosial identikliyin tərkib hissəsi hesab etməklə yanaşı tədqiqatçılar onun özünəməxsus xüsusiyyətlərini də fərqləndirməyə çalışmışdırlar. Amerikan etnoloqu J.Devosa görə etnik identiklik identikliyin indiki zamana və gələcəyə orientasiya olunmuş digər formalarından fərqli olaraq mədəni ənənələrə və keçmişə əsaslanan formasıdır. Q.U.Soddatov isə etnik identikliyin daha bir xüsusiyyəti kimi mifolojili fərqləndirmişdir.

Etnik identikliyin strukturunda əsasən iki komponenti fərqləndirirlər: koqnitiv (öz qrupu haqqında biliklər, təsəvvürlər və etnodifferensasiya olunmuş əlamətlər üzrə öz üzvlüyünün dərk olunması) və affektiv (öz qrupunun keyfiyyətlərinin qiymətləndirilməsi, ona üzvlüyə münasibət və bu üzvlüyün əhəmiyyəti). Bəzi müəlliflər əlavə olaraq etnik identikliyin davranış komponentini də fərqləndirirlər və onu müəyyən qrupa üzvlüyün yalnız dərk olunması kimi deyil həm də təzahürü kimi başa düşürlər.

Müxtəlif tədqiqatçılar tərəfindən etnik identikliyin koqnitiv komponentinin əsas tərkib hissələri etnik orientasiya, qrup konsepsiyası və s. kimi terminlərdə ifadə olunmuşdur. Lakin onlardan ən mühümü birinci, etnik qrup haqqında biliklərdən təşkil olunmuş etnik məlumatlılıq, ikincisi isə etnik adlandırmadır.

Sual 3. Etnik identikliyin formalaşması mərhələləri. İnsanın həyatında onun hansı etnik birliyə mənsub olması məsələsinin mərkəzi mövqe tutması fikri mühüm əhəmiyyət kəsb edir. İnsanların əksəriyyəti üçün gündəlik məişət problemləri daha mühümdür. Lakin qrup mənsubiyyəti ilə bağlı psixoloji məsələləri

də diqqətdən kənar qoymaq olmaz. Həyatın müəyyən mərhələsində hər bir insan və ya birlik üçün "mən kiməm?" ("biz kimik?") sualı əhəmiyyətli problemə çevrilə bilir.

Belə problemlər adətən uşaqlıqda, etnik identikliyin formalaşması prosesində yaranır. Məsələn, valideynləri hələ o doğulmamış Özbəkistandan Moskvaya köçən oğlan rusların əhatəsində yaşayır, rus dilində danışır və öz həmyaşıdları ilə arasında heç bir fərq hiss etmir. Lakin məktəbdə asiyalı görkəminə görə dostlarının ona müəyyən ləqəblər verməsinin səbəbini ilk öncə anlamasa da sonradan çox şeyi dərk etdikcə "milliyyətcə sən kimsən?" sualına "özbək" cavab verir. Yaxud da ABŞ-da yaşayan rus immiqrant ailəsində doğulmuş qız, uşaqlıqdan amerikanların əhatəsində böyüyür, dili gözəl bilir, amerikan dostları ilə çox vaxt keçirdir və amerikan olması ilə fəxr edir. Lakin böyüdükcə o, öz individuallığını nümayiş etdirmək istəyir. Özünün "rus amerikanlı" olmasını biruzə verməyə çalışır.

Bu uşaqların özlərini hansı etnik qrupa mənsub hesab etmələri və ətrafdakıların onları hansı etnik birliyə aid etmələri sualına cavab vermək üçün etnik identikliyin formalaşması qanunauyğunluqları ilə tanış olmaq lazımdır.

Etnik identikliyin formalaşması prosesi uşağın psixi inkişafına müvafiq bir neçə mərhələdən keçir. Uşağın özünü etnik birliyə mənsubiyyətini dərk etməsi ilə bağlı ilk inkişaf konsepsiyalarından biri Jan Piajenin adı ilə bağlıdır. J.Piaje etnik identikliyin inkişafını "vətən" anlayışı ilə bağlı koqnitiv modellərin qurulması kimi nəzərdən keçirmiş, etnik hissləri isə etnik hadisələr haqqında biliklərə özünəməxsus cavab hesab etmişdir. Piaje etnik identikliyin formalaşamasının 3 mərhələsini fərqləndirmişdir:

1. 6-7 yaşında uşaq öz etnik mənsubiyyəti haqqında ilk qeyri-sistematik ve fraqmental biliklərə yiyələnir. Bu yaşda uşaq üçün ən əsas ölkə və etnik qrup yox, ailə və vasitəsiz sosial mühitdir.
2. 8-9 yaşında uşaq artıq özünü etnik qrupu ilə dəqiq identifikasiya edir, identifikasiyanın əsaslarını dərk edir – valideynlərin milliyyəti, yaşayış yeri, doğma dil. Milli hisslər oyanır.

3. kiçik yeniyetmə yaşında (10-11) etnik identiklik tam həcmdə formalaşır, müxtəlif xalqların xüsusiyyətləri qismində onlar tarixin unikallığını, ənənəvi məişət mədəniyyətinin spesifikliyini qeyd edirlər.

Etnosun özünüdərki və adekvat qiymətləndirməsi üçün sosial identikliklə yanaşı, etnik identiklik də vacibdir. Deməli, etnik identiklik sosial identikliyin bir hissəsidir. Lakin etnik identiklik insanın müəyyən etnik ümumiliyə aid olmasını aydın surətdə anlamaqla bağlıdır.

Bir sıra hallarda sosial şəraitin xarakterindən etnosun davranış və rəftarının məzmun və istiqamətindən asılı olaraq xalqın müəyyən şəxslərində və hətta sosial qruplarında belə neqativ etnik identiklik formalaşa bilər. Burada, əlbəttə stereotipləşdirmə mexanizmi, yəni kimə və ya kimlərəsə mənfi münasibətin bütün xalqa aid edilməsi hallarına da rast gəlinir.

Müasir dövrdə etnik identiklik getdikcə güclənir. Bu da elmi-texniki tərəqqi və iqtisadi amillərlə yanaşı, sosial-psixoloji amillərdən də asılıdır. Məlumdur ki, psixoloq üçün etnos hər şeydən əvvəl psixoloji birlik, psixoloji ümumilikdir. Bu halda etnos üzvlərində ümumi mənəvi sərvətlər formalaşır və onların hər birinin öz etnosu tərəfindən müdafiə olunmasına inam güclənir. Başqa sözlə, etnosun formalaşması və özünüdərki etnos üzvlərində psixoloji stabillik yaradır. Çünki etnik ümumilik nəsillərarası birlik sayəsində yaranır və zamanca davamlıdır.Bunun üçün etnik tərkibin stabilliyi mövcuddur və etnosun hər bir üzvü davamlı etnik statusa malikdir, onu etnosdan "xaric etmək" mümkün deyildir. Burada ümumi etnik psixoloji xüsusiyyətlərin, ümumi mədəniyyətin mövcudluğu əsas şərtdir. Hər bir etnosun mədəniyyəti öz əcdadlarına və tarixi ənənələrinə köklənmiş olur. Bu mənada amerikan etnoloqu Marqaret Mid haqlı olaraq qeyd edir ki, etnosda yaşlı nəslin keçmişi hər bir yeni nəslin gələcəyidir. Yəni yaşlıların həyat tərzi – onların övladları üçün gələcəyin sxemidir.

Mövzu 5. Etnik milli adət və ənənələr

Plan:

1. Etnik adət və ənənələrin psixoloji mahiyyəti
2. Etnik adət-ənənələrin hisslərlə qarşılıqlı əlaqəsi

Ədəbiyyat

1. .Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
2. Ə.S.Bayramov. Etnik psixologiya.Bakı,2001.
3. Ə.S.Bayramov. Etnik psixoloji məsələlər.Bakı,1996.
4. ƏR.İ.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
5. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı, 2004
6. Əliyev R.I. Etnopsixologiya: qloballaşma **və millilik. Bakı, 2007**

Mövzu ilə bağlı elektorn resurslar

http://intangible.az/front/az/aboutExample/1656?type=1

http://medeniyyet.az/page/news/12943/Milli-adetenenelerimizde-exlaqi-deyerler-ve-varislik.html

http://www.clb.az/files/mv/Menevi_irs.pdf

Sual 4. Etnik adət və ənənələrin psixoloji mahiyyəti.

Görkəmli amerikan etnoloqu Marqaret Mid adət-ənənələrdəki nəsillər arasındakı əlaqənin mahiyyətini izah etmək üçün ibrətamiz bir fakt gətirir. O, göstərir ki, babalar körpə nəvələrini qucağına alarkən onlar üçün onların öz keçmişindən fərqli olan heç bir gələcək təsəvvür etmirlər. Yəni yaşlı nəslin keçmişi hər bir yeni nəslin gələcəyidir, başqa sözlə, onların gələcək həyat nümunəsidir (sxemidir).

Deməli etnik adət dedikdə, müəyyən etnosda və ya ictimai qrupda təkrar edilən və onun hər bir üzvü üçün adi hala çevrilən, nəslən keçmiş eyni davranış və rəftar qaydası nəzərdə tutulur.

Adət termini çox zaman “ənənə” və “mərasim” (ayin) terminləri ilə eyniləşdirilir, lakin ənənə daha geniş mənalıdır. Mərasim isə ayinin yalnız bir növüdür. Adət-ənənə müəyyən etnos və ya xalqda insanlar arasında münasibətlərin əsas tənzimçisi kimi çıxış edir. Bu, etnosun və ya xalqın həyatında nisbətən sabit və az dəyişən münasibətlərdə özünü biruzə verir. Onun rolu əsasən daxil olduğu ictimai münasibətlər sistemi ilə müəyyən olunur. İctimai münasibətlər, tarix, sosial şərait dəyişdikdə adət-ənənələrdə də müəyyən dəyişiklik baş verir. Tarixi şərait dəyişdikdə, adət-ənənələr ictimai proseslərə təsirinin xarakterinə görə ya mütərəqqi, ya mürtəce və ya da köhnəlmiş, vaxtı keçmiş ola bilər.

Milli yaxud etnik adət dedikdə, icrası müəyyən sosial və ya etnik qrup üçün tələbata çevrilən mənimsənilmiş davranış və rəftar qaydaları, iş və hərəkətlər sistemi nəzərdə tutulur.

Adət-ənənə hər bir xalqın və ya etnosun təlim-tərbiyə sistemi ilə təyin edilir. Etnik milli irsə etinasızlıq isə xalqın sosial və mədəni inkişafıda varisliyin pozulmasına, xalqın öz tarixi inkişafı prosesində qazandığı nailiyyətlərin itirilməsinə gətirib çıxarır.

İnsanların mənəviyyatı, əxlaqi normaları və baxışları ilə bağlı olan mütərəqqi adət-ənənələrin yaradıcısı xalqdır. Hər bir yeni nəsil bu hazır adət-ənənələrlə, xüsusən bunların ailə-məişət, birgəyaşayış əlaqələrini tənzim edən hisslərlə hələ uşaq yaşlarında qarşılaşır, bu tələblər ruhunda tərbiyə alır. Hər kəs uşaq yaşından mənimsədiyi adət-ənənələrə riayət etməyi özünə borc sayır. K.Marks deyirdi ki, bütün ölüb getmiş nəsillərin adət-ənənələri bir kabus kimi canlıların zehnini məşğul edir.

Adətlərin icrası müəyyən mərasimlərlə bağlı olmuşdur. Elə buna görə də ilk mərhələdə ictimai davranış qaydası kimi yaranan adət-ənənələr müəyyən bir nəslin maddi və mənəvi həyatını özündə təcəssüm etdirmişdir. Həmin nəslin maddi və mənəvi səviyyəsi, estetik zövqün dərəcəsi, habelə təbiət və cəmiyyət haqqında təsəvvürləri adət-ənənələrində öz əksini tapmışdır.

Milli adət-ənənələrdə təsbit olunmuş norma və qaydalar insanlar tərəfindən şüurlu surətdə mənimsənildikdən sonra, şəxsiyyətin daxil olduğu etnos və ya xalq

qarşısında mənəvi vəzifəsinə çevrilmiş vərdiş halı alaraq nəsillərdən nəsillərə çatdırılmışdır. Tarixi inkişafın müəyyən mərhələsində vahid ərazi, dil və mədəniyyət əsasında xalqın və millətin formalaşması sayəsində adət-ənənələr ümumxalq, ümummilli xarakter almışdır. Elə buna görə də hər bir xalqın, millətin özünəməxsus adət-ənənələri vardır. Bu cəhətlər xüsusən də mərasim və ayinlərdə aydın surətdə nəzərə çarpır. Hətta eyni etnos və ya xalqın daxilində belə ayrı-ayrı bölgələrdə bir-birindən fərqli olan müəyyən adət-ənənələrə rast gəlmək olur.

Hər bir xalqın tarixi inkişafının müəyyən dövründə yaranan milli adət-ənənələr uzun ömürlü olur. Həmin proses bəzən şüurlu, bəzən də kortəbii surətdə baş verir. Hüquqi, qanuniləşdirilmiş qaydalardan və normalardan, dövlət aktlarında və qanunlarında qeyd edilmiş əxlaq normalarından, birgəyaşayış və intizam qaydalarından fərqli olaraq, tarixən yaranmış adət-ənənələr xüsusilə insanların rəftar və davranışında özünü göstərməklə yanaşı, əsasən etnik milli şüurlarda yaşayır. Buna görə də həmin adət-ənənələr obyektiv və subyektiv səbəblərə görə tarixi vərəsəliyi uzun zaman özündə saxlayır. Başqa sözlə, hər hansı etnos, xalq və ya millət özünəməxsus milli xüsusiyyətləri, o cümlədən milli hissləri, adət-ənənələri ilə başqa millətlərdən, xalqlardan seçilmiş olur.

Sual 2. Etnik adət-ənənələrin hisslərlə qarşılıqlı əlaqəsi. Etnik adət-ənənələr bu və ya digər etnosa, xalqa xas olan hisslərlə üzvi surətdə əlaqədardır. Bir tərəfdən, xalqın adət-ənənələri emosiya və hisslərin ən mühüm obyektlərindən biridir və bu mənada adət-ənənələr müxtəlif etnik-milli hisslərin mənbəyini təşkil edir. Yəni həmin ənənələrə riayət edilib-edilməməsi müxtəlif çalarlı emosiya və hisslərin baş qaldırmasına səbəb olur.

Digər tərəfdən, adət-ənənələrdə baş verən dəyişiklik etnik-milli hisslərdə öz əksini tapır. Sanki bunlar bir-biri üçün şərt olur və hər ikisi etnosun, xalqın və millətin psixi simasını, psixoloji xüsusiyyətlərini müəyyənləşdirmək üçün mühüm əhəmiyyətə malikdir.

Deməli, xalqın etnik psixoloji xüsusiyyətləri içərisində adət-ənənələrin öz yeri vardır, yəni onlar xalqın psixi simasının mühüm tərkib hissələri kimi insanların psixologiyasında möhkəmlənərək nəsildən-nəslə keçir. Bu və ya digər xalqa məxsus etnik-psixoloji xüsusiyyətlər daha bariz şəkildə, ilk növbədə məhz adət-ənənələrdə əks olunur.

Çünki hər bir xalqın adət-ənənəsi tarixən təşəkkül edən, nəsildən-nəslə verilən fəaliyyət və davranış forması və onlara uyğun olan qayda, təsəvvür və mənəvi sərvətlərdir. Bu mənada adət-ənənə elə fəaliyyət və iş qaydaları əsasında təşəkkül edir ki, onlar dəfələrlə özünün ictimai faydalı və müsbət cəhətlərini sübut etmişdir. Yəni ondan ayrıca bir şəxs də xeyir götürə bilir. Bu mənada adət-ənənələr insanların həyat fəaliyyətinin tənzimində mühüm rol oynayır və etnik-milli tərbiyənin əsasını təşkil edir.

MÖVZU 6. Etnik milli hisslər

Plan:

3. Etnik milli hisslərin mahiyyəti.
4. Etnik milli hisslərin formalaşmasına təsir edən amillər
5. Mədəniyyət və emosiya

Ədəbiyyat:

12..Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020

7. Ə.S.Bayramov. Etnik psixologiya.Bakı,2001.
8. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000
9. İ.M.Ağayev . MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİLLİ-ETNİK PROSESLƏR, Bakı,2006

10. R.İ.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.

Mövzu ilə bağlı elektorn resurslar

https://journal.edu.az/files/2016/%E2%84%964/Rasmiyya_Allahverdiyeva.pdf
http://www.elibrary.az/docs/jurnal/jrn2016_1035.pdf

Sual 1. Etnik milli hisslərin mahiyyəti.

Etnik milli hisslərin mahiyyətini yaxşı başa düşmək üçün emosiya və hisslərin psixoloji xüsusiyyətlərinə bələd olmaq lazımdır. Bu zərurət iki cəhətlə şərtlənir. Əvvəla, ayrıca bir fərdə xas olan emosiya və hisslər özlərinin yaranma, təşəkkül mexanizminə, məzmununa və təzahüretmə xüsusiyyətlərinə görə əsasən etnik milli hisslərdə də özünü biruzə verir. Bu cəhət onları yaxınlaşdıran ümumi cəhətlərdir.

İkinci tərəfdən, emosiya və hisslər ayrı-ayrı fərdlərdə özünəməxsus xüsusiyyətlərə malik olduğu kimi, yəni hər bir şəxsdə onların təzahüretmə xüsusiyyətləri, davamlılığı, intensivliyi, fəaliyyətinə, rəftar və davranışına təsir istiqamətlərinə, xarici təxahürlərinə görə fərqləndiyi kimi, hər bir etnos və ya millətin də emosiya və hissləri həmin cəhətlərə görə bir-birindən fərqlənir. Bu cəhət də onların fərqləndirici xüsusiyyətidir. Hisslərin obyekti ətrafındakı cisim və hadisələr, başqa adamlar (başqa etnos və xalqlar), onun subyekti isə şəxsiyyətin (millətin, xalqın) özüdür. Çünki hər bir şəxs, o cümlədən etnos və millət, ətrafdakı cisimlərə, adamlara başqa-başqa münasibət bəsləyir.

Etnik milli hisslər ilk növbədə özünüdərketmə ilə sıx surətdə bağlıdır. Yəni öz milli mənsubiyyətinə, özünün, eləcə də digər etnos və xalqların milli maraqlarına emosional münasibəti ifadə edir. Ümumən etnik milli hisslər xalqın, artıq formalaşmış millətin həyat fəaliyyətini, tarixi keçmişini, gələcəyini və bu gününü əks etdirir. Deməli, etnik milli hisslər etnik psixologiyanın mühüm tərkib hissəsi olan etnik özünüdərketmənin məxsusi cəhəti kimi özünü göstərir.

İnsan ətraf aləmdə baş verən hadisələri sadəcə olaraq qavramaqla, yadda saxlamaqla kifayətlənmir. O eyni zamanda həmin cisim və hadisələrə, insanların davranış və hərəkətinə, fikir və istəyinə müəyyən münasibət göstərir və müəyyən hisslər keçirirlər. Hiss və emosiya da real dünyanın əks etdirilməsinin bir formasıdır. Insanın keçirdiyi hiss və emosiyaların müxtəlif və

rəngarəng çalarları var. Xalqa, millətə məxsus olan makromühit adekvat milli hisslərin yaranmasına təsir göstərir. Etnik-milli hisslər ilk növbədə özünüdərketmə ilə bağlıdır. Etnik-milli hisslər xalqın, artıq formalaşmış millətin həyat fəaliyyətini, tarixi keçmişini, gələcəyini və bu gününü əks etdirir.deməli, etnik-milli hisslər etnopsixologiyanın mühüm tərkib hissəsi olan etnik özünüdərketmənin məxsusi cəhəti kimi özünü göstərir.çünki etno-sun, xalqın, millətin formalaşması uzun tarixi inkişafın, xüsusilə etnosun, xalqın psixologiyasının özünəməxsusluğunu təyin edən başlıca amil kimi çıxış edir. Elə bu mənada xalqın və ya millətin hər bir fərdini müəyyən etnik-milli mühitdə yaşaması və tərbiyə alması onda özünəməxsus hiss və emosiyaların yaranması üçün əsas zəmin olur. Etnik-milli hisslər özündərketmə ilə əlaqədar olduğu üçün onların əmələ gəlməsində millətin özünütəhlil, özünümüqayisə, özünümüşahidə, özünüqiymətləndirmə və özünə-nəzarət kimi psixoloji mexanizmlərdən istifadəsi zəruridir. Əks təqdirdə nə etnik özünüdərk, nə də müvafiq etnik-milli hisslər yaranmayacaqdır. Etnik-mili hisslər, etnik xarakter əbədi və dəyişməz deyildir. O, dinamik prosesdir xalqın həyat tərzinin, sosial-iqtisadi şəraitin dəyişilməsilə o da müəyyən dəyişikliyə məruz qalır. Etnik-milli hisslər əsasən xalqın və millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi, dini etiqadı, inamı və qadağalar sistemi əsasında formalaşır.

Milli hisslər *çox mürəkkəb, sosial-psixoloji hal olub, insanların bilavasitə daxil olduqları qrupun həyatında baş verən hadisələrə bəslədiyi emosional reaksiya ilə bağlıdır.* Milli hisslərin formalaşmasına müxtəlif xarici və daxili amillər təsir göstərir. Milli hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məh-dudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.

Milli hisslərin formalaşmasının əsas mərhələsi xalqın, əhali səviyyəsindən çıxıb millət səviyyəsinə keçə bildikidən sonra başlayır. Onu da qeyd etmək lazımdır ki, milli hisslərin, milli şüurun formalaşması bir qədər ləng baş verir. Xalqın, əhalinin, toplumun millət səviyyəsinə yetişməsi onun inkişafının göstəri-cisidir. Əgər insanlar məkan mənsubiyyətini, milli mənsubliy-yatdan ön plana keçirirsə deməli, həmin bölgənin insanlarında "biz" hissi hələ də formalaşmayıb və özlərini millət səviyyəsində hələ də dərk etmirlər. Insanları bir millət daxilində regional mənsubiyyətə görə "özünkülərə" və "özgələrə" bölmək və fərqli münasibət bəsləmək, yerliçilik, məhəlləçilik, tayfabazlıq kimi neqativ hisslərin mövcudluğu milli özünüdərkin zəif formada cərəyan etdiyini əks etdirir, millətin isə hələ də tayfa, qəbilə səviyyəsində düşündüyünü və hərəkət etdiyini göstərir. Millətin bütün tarix boyu ağılı, zəhməti və əməyi ilə əldə etdiyi və ya yaratdığı maddi və mənəvi dəyərlər, coğrafi ərazi, adət və ənənəsi, dili, dini, məişəti, ədəbiyyatı, fəlsəfəsi idarəetmə üslubu, sosial-iqtisadi birliyi ilə milli birlik insanların milli hisslərinin predmeti

kimi çıxış edir. Etnik milli hisslər bir qayda olaraq xalq, millət üçün səciyyəvi olan etnik stereotiplər, adət və ənənələr, sərvət dəyərlərinin icrası ilə əlaqədar olaraq baş verir. Məsələn, 2013-cü ildə Fransada eynicinslilərin nigahı haqqında qanun qəbul edildikdən sonra nigaha girən 18-20 yaşlı iki "oğlanın" valideynlərinin bu hadisəni qarşılaması çox böyük sevinclə və öz oğlanları ilə fəxr etməsi və bütün bunların "Avronyus" kanalına çıxarılması mədəniyyət və ya milli xarakter məsələsidir. Çətin ki, Azərbaycanda, hətta Rusiyada da bu cür "oğulları" ilə fəxr edən hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məhdudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.

Formalaşmş olan milli hisslər daima onun ödənilməsini tələb edir, yəni insanlarda həmin hisslərin yaşanılmasına tələbat yaradır. Milli hisslərlə bağlı tələbatın ödənilməsi milli hisslərin daha da güclənməsinə və daha da inkişaf etməsinə səbəb olur. Milli hisslər ödənilməzsə bəşəri hisslər də əmələ gəlmir. Milli hisslərin yüksək səviyyədə inkişafı heç də millətçiliyə deyil, bəşəriliyə, beynəlmiliyə aparır. Milli hisslərin yaranması, formalaşması və inkişafı psixikanın qanunlarına uyğun olaraq bəşəri hisslərin meydana gəlməsi üçün zəmin hazırlayır.

Etnik-milli hisslər mürəkkəb sosial təbiətli mürəkkəb hisslərdəndir və milli gerçəkliyin emosionalcasına əks etdirən genetik idrak formasıdır. Milli özünüdərk milli hisslərdən yaranır. Milli hisslər (milli mənsubiyyət hissi, milli qürur və ləyaqət hissi, milli fəxr) olmadan milli özünüdərk prosesi baş vermir. "Özünüdərk-etmənin" məzmunu özü və öz rolunun dərk edilməsi ilə bağlı biliklər təşkil edir.

Milli hisslər kompleksinə daxil olan hisslər arasında **milli qürur hissi** daha çox inkişaf etmişdir. Milli-etnik qürur hissinə daxil olan mənəvi-psixoloji xüsusiyyətlərdən özünəhörmət, milli qürur, milli ləyaqət, özünün tarixdəki yeri, ona verdiyi töhfə, dünyanın mədəniyyət, elm və incəsənət xəzinəsinə verdiyi töhfə, özünün milli dəyərlərə sadiqliyi ilə əlaqəlidir. Xalqın, millətin maddi və mənəvi sərvəti, onun əldə etdiyi naliyyətlər, tarixin səhnəsindəki rolu və yeri, bəşəriyyətin tərəqqisi yolunda atdığı addımlar, elm, mədəniyyət və incəsənət sahəsindəki uğurları onun milli qürur hissinin obyektini təşkil edir. Milli qürur hissi həm də xalqın, millətin öz müstəqilliyi, azadlığı uğurunda apadığı mübarizə tarixi ilə, dövlətçilik ənənəsilə bağlıdır. Ona görə də milli qürur hissi-milli-etnik hisslərdən ən yüksəyi və güclüsü olduğu üçün millətin şüurunun dərin qatlarına daxildir.

Milli hiss bir qayda olaraq milli maraqla vəhdət təşkil edir. Milli hiss, milli özünüdərk, milli identiklik olmadan insan özünün milli marağını dərk edə və onu müdafiə edib qoruya bilməz. Milli hiss və milli maraq çox güclü psixoloji amildir həmrəylik, birlik hissinin yaranmasına təsir göstərir. Bu hisslər ətrafında insanlar

tezliklə birləşir və özlərinin milli maraqlarını müdafiə etməkdən zövq alırlar.

Milli hisslər və millətçilik hissləri anlayışlarını fərqləndirmək lazımdır. Milli hisslər daha çox vətənpərvərliklə əlaqəlidirsə, millətçilik daha çox şovinizmə, xudbinliyə yaxındır. ***Millilik və vətənpərvərlik*** öz vətənini, dövlətini xalqını, millətini sevmək, onun inkişafı yolunda xidmət göstərməklə asossasiya olunursa, ***millətçilik*** öz millətindən savayı bütün başqa xalqlara, onun mədəniyyətinə neqativ münasibət bəsləməklə əlaqəlidir. Vətənpərvərlikdən fərqli olaraq millətçilik daha çox əməldə yox, sözdə vətəni, milləti sevməkdir.

Millətçilik özündə bir neçə neqativ hiss və emosiyalar kompleksini birləşdirir:

- Milli antipatiya hissi
- Milli eqoizm hissi
- Milli ədavət, nifrət və kin hissi
- Milli şovinizm, hegemonluq, lovğalıq hissi

Sual 2.Etnik milli hisslərin formalaşmasına təsir edən amillər.

Etnosun, xalqın, millətin formalaşması uzun tarixi inkişafın, xüsusilə etnosun, xalqın psixologiyasının özünəməxsusluğunu təyin edən başlıca amil kimi çıxış edir. Elə bu mənada etnosun və ya xalqın hər bir fərdinin müəyyən etnik-milli mühitdə yaşaması və tərbiyə alması önda özünəməxsus hisslər və emosiyaların yaranması üçün əsas zəmin olur.

Mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, coğrafi şərait müəyyən dərəcədə etnik psixologiyaya təsir edir, yəni istehsalatda, təsərrüfatda və nəhayət milli mədəniyyətdə, incəsənətdə öz izini qoyur, bu da ümumən millətin psixologiyasında, xüsusən də onun emosiyalar və hisslər aləmində öz əksini tapır. Bu mənada etnik milli hisslər etnosun, xalqın, millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi, dini etiqad və inam ümumiliyi əsasında formalaşır.

Deməli, etnik milli hisslərin formalaşmasında sözün geniş mənasında mühit (ictimai tarixi şərait, sosial şərait və coğrafi mühit), etnogen amillər (milli gen, valideynlərdən keçən gen və fərdi genlər), təlim-tərbiyə amili (ailə tərbiyəsi, təhsil ocaqları, məktəbdənkənar amillər) təsir göstərir. Yəni şəxsiyyətin müəyyən etnik milli mühitdə yaşaması və tərbiyəsi onlarda özünəməxsus hisslər və emosiyalar yaradır. Həmin amillər əsasən sosial-psixoloji iqlimi təşkil edir.

Həmin iqlimin xüsusiyyətlərindən asılı olaraq ayrı-ayrı xalqlarda müxtəlif məzmun və istiqamətli milli hisslər təşəkkül və inkişaf edir.

Etnik milli hisslərdə bir cəhət xüsusi olaraq diqqəti cəlb edir. Etnosu, xalqı, milləti bir-birinə yaxınlaşdıran, onları birləşdirən, onlar arasında ünsiyyəti, münasibətləri asanlaşdırır.

Bu cəhətdən etnoslar, millətlər bir-birindən ciddi surətdə fərqlənir. Belə ki, bəzi, bəzi etnos və xalqlarda onları yaxınlaşdıran, birləşdirən mühüm əlamətlər ön plana keçir. Məsələn, eyni millətə xas olmaq, eyni vətənə malik olmaq, eyni inam və əqidəyə, eyni mənəvi-mədəni sərvətlərə malik olmaq və s. Bu əsas cəhətlər digər xırda amillərin təsirini heçə endirir. Məsələn, xalqın rus və ya gürcü, ya alman, ya fransız və s. olması, yəni vahid millətə aid olması onların hamısını yaxınlaşdırır. Burada vahid vətən, vahid din, vahid dil və s. kimi amillər, yəni formalaşmış ümummilli şüur zəminində vahid milli hisslər ön plana keçir.

Sual3. **Mədəniyyət və emosiya**

İnsanlar üçün həm universal, həm də fərqli emosiyaların olması etnopsixoloji mədəniyyət faktrı ilə bağlıdır. Mədəniyyət, etnopsixoloji fərqlə insana təsir göstərir və onun emosional-iradi sferasını formalaşdırır. Bunula oxşar və fərqli hisslər yaşanılır. İnsan emosiyalarının tədqiqi ilə aparılan krosskultural tədqiqatların bir qismi emosiyaların ifadə olunması (mimika) ekspressiyası ilə bağlıdır.

İnsan emosiyaları heç də təməl emosiyalarla məhdudlaşmır. Sadəcə olaraq digər emosiyalar həmin emosiyalar əsasında formalaşır və mədəniyyətin təsirindən asılı olaraq fərqli şəkildə təzahür edir. Ekman və Frizen ziddiyətli suallara aydınlıq gətirmək üçün emosiyaların ifadəsinin mədəni qaydaları konsepsiyasını təklif etdilər. Onlar qeyd edir ki, mədəni fərqlər universal emosiyaların ifadə olunması ilə bağlı irəli sürülən qayda və şərtlərdə özünü göstərir. Öz fərziyyələrini yoxlamaq üçün Ekman və Frizen yoxlanılanlara güclü stres yaradan film nümayiş etdirmiş və onların reaksiyasını videolentə çəkmişlər. Ekspremention birinci mərhəlləsində yoxlanılanlardan başqa zalda heç kim olmamışdır. İkinci seriyada isə yoxlanılanlardan eksperimentatorla birlikdə filmə baxmaq təklif olunur. Çəkilişin nəticələrinin təhlili əsasında məlum oldu ki, amerikanlardan fərqli olaraq yaponlar, başqaların iştirakı şəraitində neqativ emosiyalarını gizlətmiş və yalnız

gülümsəmişlər. Deməli, mədəni dəyərlərin təsiri olmadığı mərhələdə, həm amerikanlar, həm də yaponlar eyni formada yaşadıqları emosiyaları göstərmişlər.Yəni güclü stresə uyğun olaraq qəzəb, qorxu hissini ekspresiya etmişlər. İkinci mərhələdə isə mədəni fərqlər dərhal özünün təsiri göstərmiş və yaponlar yalnız təbəssümlə reaksiya vermişlər. Ona görə ki, özündən yaşlı şəxsi kədərləndirmək, ümumən başqasına neqativ emosiyanı nümayiş etdirmək yapon əxlaqına görə olmaz. Göründüyü kimi, birinci mərhələdə emosiyaların universallığı, ikinci mərhələdə isə mədəni fərqlər özünü göstərdi.

"Keep smiling" amerikanların gündəlik həyatda qarşılıqlı münasibətlərin tənzimlənməsi üçün istifadə etdiyi etiket qaydasıdır. İslam əxlaqında gülüş, təbbəsüm sədəqə səviyyəsində dəyərləndirilməsinə baxmayaraq, bu etiket qaydası hal-hazırda amerikanlar tərəfindən daha çox istifadə olunur. Bu gün amerikanların gündəlik ünsiyyət zamanı istifadə etdikləri amerikansayağı təbbəsüm, heç də ondan istifadə edən şəxsin əhvalının göstəricisi deyil. Bu sadəcə olaraq işgüzar təbəssümdən başqa bir şey deyil. Ona görə də ilk dəfə amerikanlı ilə rastlaşan emiqrant elə başa düşməsin ki, qarşı tərəf onu gördüyü üçün sevinir.

MÖVZU 6. Etnik milli hisslər

Plan:

6. Etnik milli hisslərin mahiyyəti.
7. Etnik milli hisslərin formalaşmasına təsir edən amillər
8. Mədəniyyət və emosiya

Ədəbiyyat:

13..Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020

11. Ə.S.Bayramov. Etnik psixologiya.Bakı,2001.
12. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000
13. İ.M.Ağayev . MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİLLİ-ETNİK PROSESLƏR, Bakı,2006
14. R.İ.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.

Mövzu ilə bağlı elektorn resurslar

https://journal.edu.az/files/2016/%E2%84%964/Rasmiyya_Allahverdiyeva.pdf
http://www.elibrary.az/docs/jurnal/jrn2016_1035.pdf

Sual 1. Etnik milli hisslərin mahiyyəti.

Etnik milli hisslərin mahiyyətini yaxşı başa düşmək üçün emosiya və hisslərin psixoloji xüsusiyyətlərinə bələd olmaq lazımdır. Bu zərurət iki cəhətlə şərtlənir. Əvvəla, ayrıca bir fərdə xas olan emosiya və hisslər özlərinin yaranma, təşəkkül mexanizminə, məzmununa və təzahüretmə xüsusiyyətlərinə görə əsasən etnik milli hisslərdə də özünü biruzə verir. Bu cəhət onları yaxınlaşdıran ümumi cəhətlərdir.

İkinci tərəfdən, emosiya və hisslər ayrı-ayrı fərdlərdə özünəməxsus xüsusiyyətlərə malik olduğu kimi, yəni hər bir şəxsdə onların təzahüretmə xüsusiyyətləri, davamlılığı, intensivliyi, fəaliyyətinə, rəftar və davranışına təsir istiqamətlərinə, xarici təxahürlərinə görə fərqləndiyi kimi, hər bir etnos və ya millətin də emosiya və hissləri həmin cəhətlərə görə bir-birindən fərqlənir. Bu cəhət də onların fərqləndirici xüsusiyyətidir. Hisslərin obyekti ətrafındakı cisim və hadisələr, başqa adamlar (başqa etnos və xalqlar), onun subyekti isə şəxsiyyətin (millətin, xalqın) özüdür. Çünki hər bir şəxs, o cümlədən etnos və millət, ətrafdakı cisimlərə, adamlara başqa-başqa münasibət bəsləyir.

Etnik milli hisslər ilk növbədə özünüdərketmə ilə sıx surətdə bağlıdır. Yəni öz milli mənsubiyyətinə, özünün, eləcə də digər etnos və xalqların milli maraqlarına emosional münasibəti ifadə edir. Ümumən etnik milli hisslər xalqın, artıq formalaşmış millətin həyat fəaliyyətini, tarixi keçmişini, gələcəyini və bu gününü əks etdirir. Deməli, etnik milli hisslər etnik psixologiyanın mühüm tərkib hissəsi olan etnik özünüdərketmənin məxsusi cəhəti kimi özünü göstərir.

İnsan ətraf aləmdə baş verən hadisələri sadəcə olaraq qavramaqla, yadda saxlamaqla kifayətlənmir. O eyni zamanda həmin cisim və hadisələrə, insanların davranış və hərəkətinə, fikir və istəyinə müəyyən münasibət göstərir və müəyyən hisslər keçirirlər. Hiss və emosiya da real dünyanın əks etdirilməsinin bir formasıdır. Insanın keçirdiyi hiss və emosiyaların müxtəlif və rəngarəng çalarları var. Xalqa, millətə məxsus olan makromühit adekvat milli hisslərin yaranmasına təsir göstərir. Etnik-milli hisslər ilk növbədə özünüdərketmə ilə bağlıdır. Etnik-milli hisslər

xalqın, artıq formalaşmış millətin həyat fəaliyyətini, tarixi keçmişini, gələcəyini və bu gününü əks etdirir.deməli, etnik-milli hisslər etnopsixologiyanın mühüm tərkib hissəsi olan etnik özünüdərketmənin məxsusi cəhəti kimi özünü göstərir.çünki etnosun, xalqın, millətin formalaşması uzun tarixi inkişafın, xüsusilə etnosun, xalqın psixologiyasının özünəməxsusluğunu təyin edən başlıca amil kimi çıxış edir. Elə bu mənada xalqın və ya millətin hər bir fərdini müəyyən etnik-milli mühitdə yaşaması və tərbiyə alması onda özünəməxsus hiss və emosiyaların yaranması üçün əsas zəmin olur. Etnik-milli hisslər özündərketmə ilə əlaqədar olduğu üçün onların əmələ gəlməsində millətin özünütəhlil, özünümüqayisə, özünümüşahidə, özünüqiymətləndirmə və özünənəzarət kimi psixoloji mexanizmlərdən istifadəsi zəruridir. Əks təqdirdə nə etnik özünüdərk, nə də müvafiq etnik-milli hisslər yaranmayacaqdır. Etnik-mili hisslər, etnik xarakter əbədi və dəyişməz deyildir. O, dinamik prosesdir xalqın həyat tərzinin, sosial-iqtisadi şəraitin dəyişilməsilə o da müəyyən dəyişikliyə məruz qalır. Etnik-milli hisslər əsasən xalqın və millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi, dini etiqadı, inamı və qadağalar sistemi əsasında formalaşır.

Milli hisslər *çox mürəkkəb, sosial-psixoloji hal olub, insanların bilavasitə daxil olduqları qrupun həyatında baş verən hadisələrə bəslədiyi emosional reaksiya ilə bağlıdır.* Milli hisslərin formalaşmasına müxtəlif xarici və daxili amillər təsir göstərir. Milli hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məhdudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.

Milli hisslərin formalaşmasının əsas mərhələsi xalqın, əhali səviyyəsindən çıxıb millət səviyyəsinə keçə bildikidən sonra başlayır. Onu da qeyd etmək lazımdır ki, milli hisslərin, milli şüurun formalaşması bir qədər ləng baş verir. Xalqın, əhalinin, toplumun millət səviyyəsinə yetişməsi onun inkişafının göstəricisidir. Əgər insanlar məkan mənsubiyyətini, milli mənsubliyyatdan ön plana keçirirsə deməli, həmin bölgənin insanlarında "biz" hissi hələ də formalaşmayıb və özlərini millət səviyyəsində hələ də dərk etmirlər. Insanları bir millət daxilində regional mənsubiyyətə görə "özünkülərə" və "özgələrə" bölmək və fərqli münasibət bəsləmək, yerliçilik, məhəlləçilik, tayfabazlıq kimi neqativ hisslərin mövcudluğu milli özünüdərkin zəif formada cərəyan etdiyini əks etdirir, millətin isə hələ də tayfa, qəbilə səviyyəsində düşündüyünü və hərəkət etdiyini göstərir. Millətin bütün tarix boyu ağılı, zəhməti və əməyi ilə əldə etdiyi və ya yaratdığı maddi və mənəvi dəyərlər, coğrafi ərazi, adət və ənənəsi, dili, dini, məişəti, ədəbiyyatı, fəlsəfəsi idarəetmə üslubu, sosial-iqtisadi birliyi ilə milli birlik insanların milli hisslərinin predmeti kimi çıxış edir. Etnik milli hisslər bir qayda olaraq xalq, millət üçün səciyyəvi olan etnik stereotiplər, adət və ənənələr, sərvət dəyərlərinin icrası ilə əlaqədar olaraq baş verir. Məsələn, 2013-cü

ildə Fransada eynicinslilərin nigahı haqqında qanun qəbul edildikdən sonra nigaha girən 18-20 yaşlı iki "oğlanın" valideynlərinin bu hadisəni qarşılaması çox böyük sevinclə və öz oğlanları ilə fəxr etməsi və bütün bunların "Avronyus" kanalına çıxarılması mədəniyyət və ya milli xarakter məsələsidir. Çətin ki, Azərbaycanda, hətta Rusiyada da bu cür "oğulları" ilə fəxr edən hisslər yalnız bir millətin başqa millətə olan münasibəti ilə məhdudlaşmır, bu bütövlükdə millətin daxili strukturudur. Milli hisslər millətlərarası qarşılıqlı münasibətlərin, eləcə də siyasi və iqtisadi şəraitin təsirinə məruz qalır. Milli hisslər özünün predmetliliyi, sosial-etnik təmayüllüyü, incəliyi və yüngüllüyü, az və ya çox dərəcədə dərk olunanlığı, həmçinin emosionallığı və ardıcıllığı ilə digər sosial hisslərdən fərqlənir.

Formalaşmş olan milli hisslər daima onun ödənilməsini tələb edir, yəni insanlarda həmin hisslərin yaşanılmasına tələbat yaradır. Milli hisslərlə bağlı tələbatın ödənilməsi milli hisslərin daha da güclənməsinə və daha da inkişaf etməsinə səbəb olur. Milli hisslər ödənilməzsə bəşəri hisslər də əmələ gəlmir. Milli hisslərin yüksək səviyyədə inkişafı heç də millətçiliyə deyil, bəşəriliyə, beynəlmiliyə aparır. Milli hisslərin yaranması, formalaşması və inkişafı psixikanın qanunlarına uyğun olaraq bəşəri hisslərin meydana gəlməsi üçün zəmin hazırlayır.

Etnik-milli hisslər mürəkkəb sosial təbiətli mürəkkəb hisslərdəndir və milli gerçəkliyin emosionalcasına əks etdirən genetik idrak formasıdır. Milli özünüdərk milli hisslərdən yaranır. Milli hisslər (milli mənsubiyyət hissi, milli qürur və ləyaqət hissi, milli fəxr) olmadan milli özünüdərk prosesi baş vermir. "Özünüdərk-etmənin" məzmunu özü və öz rolunun dərk edilməsi ilə bağlı biliklər təşkil edir.

Milli hisslər kompleksinə daxil olan hisslər arasında **milli qürur hissi** daha çox inkişaf etmişdir. Milli-etnik qürur hissinə daxil olan mənəvi-psixoloji xüsusiyyətlərdən özünəhörmət, milli qürur, milli ləyaqət, özünün tarixdəki yeri, ona verdiyi töhfə, dünyanın mədəniyyət, elm və incəsənət xəzinəsinə verdiyi töhfə, özünün milli dəyərlərə sadiqliyi ilə əlaqəlidir. Xalqın, millətin maddi və mənəvi sərvəti, onun əldə etdiyi naliyyətlər, tarixin səhnəsindəki rolu və yeri, bəşəriyyətin tərəqqisi yolunda atdığı addımlar, elm, mədəniyyət və incəsənət sahəsindəki uğurları onun milli qürur hissinin obyektini təşkil edir. Milli qürur hissi həm də xalqın, millətin öz müstəqilliyi, azadlığı uğurunda apadığı mübarizə tarixi ilə, dövlətçilik ənənəsilə bağlıdır. Ona görə də milli qürur hissi-milli-etnik hisslərdən ən yüksəyi və güclüsü olduğu üçün millətin şüurunun dərin qatlarına daxildir.

Milli hiss bir qayda olaraq milli maraqla vəhdət təşkil edir. Milli hiss, milli özünüdərk, milli identiklik olmadan insan özünün milli marağını dərk edə və onu müdafiə edib qoruya bilməz. Milli hiss və milli maraq çox güclü psixoloji amildir həmrəylik, birlik hissinin yaranmasına təsir göstərir. Bu hisslər ətrafında insanlar tezliklə birləşir və özlərinin milli maraqlarını müdafiə etməkdən zövq alırlar.

Milli hisslər və millətçilik hissləri anlayışlarını fərqləndirmək lazımdır. Milli hisslər daha çox vətənpərvərliklə əlaqəlidirsə, mil-

lətçilik daha çox şovinizmə, xudbinliyə yaxındır. ***Millilik və vətən-pərvərlik*** öz vətənini, dövlətini xalqını, millətini sevmək, onun inkişafı yolunda xidmət göstərməklə asossasiya olunursa, ***millət-çilik*** öz millətindən savayı bütün başqa xalqlara, onun mədəniy-yətinə neqativ münasibət bəsləməklə əlaqəlidir. Vətənpərvərlikdən fərqli olaraq millətçilik daha çox əməldə yox, sözdə vətəni, milləti sevməkdir.

Millətçilik özündə bir neçə neqativ hiss və emosiyalar kompleksini birləşdirir:

- Milli antipatiya hissi
- Milli eqoizm hissi
- Milli ədavət, nifrət və kin hissi
- Milli şovinizm, hegemonluq, lovğalıq hissi

Sual 2.Etnik milli hisslərin formalaşmasına təsir edən amillər.

Etnosun, xalqın, millətin formalaşması uzun tarixi inkişafın, xüsusilə etnosun, xalqın psixologiyasının özünəməxsusluğunu təyin edən başlıca amil kimi çıxış edir. Elə bu mənada etnosun və ya xalqın hər bir fərdinin müəyyən etnik-milli mühitdə yaşaması və tərbiyə alması önda özünəməxsus hisslər və emosiyaların yaranması üçün əsas zəmin olur.

Mütəxəssislər haqlı olaraq qeyd edirlər ki, coğrafi şərait müəyyən dərəcədə etnik psixologiyaya təsir edir, yəni istehsalatda, təsərrüfatda və nəhayət milli mədəniyyətdə, incəsənətdə öz izini qoyur, bu da ümumən millətin psixologiyasında, xüsusən də onun emosiyalar və hisslər aləmində öz əksini tapır. Bu mənada etnik milli hisslər etnosun, xalqın, millətin ərazi, dil, iqtisadi və mənəvi həyat birliyi, dini etiqad və inam ümumiliyi əsasında formalaşır.

Deməli, etnik milli hisslərin formalaşmasında sözün geniş mənasında mühit (ictimai tarixi şərait, sosial şərait və coğrafi mühit), etnogen amillər (milli gen, valideynlərdən keçən gen və fərdi genlər), təlim-tərbiyə amili (ailə tərbiyəsi, təhsil ocaqları, məktəbdənkənar amillər) təsir göstərir. Yəni şəxsiyyətin müəyyən etnik milli mühitdə yaşaması və tərbiyəsi onlarda özünəməxsus hisslər və emosiyalar yaradır. Həmin amillər əsasən sosial-psixoloji iqlimi təşkil edir.

Həmin iqlimin xüsusiyyətlərindən asılı olaraq ayrı-ayrı xalqlarda müxtəlif məzmun və istiqamətli milli hisslər təşəkkül və inkişaf edir.

Etnik milli hisslərdə bir cəhət xüsusi olaraq diqqəti cəlb edir. Etnosu, xalqı, milləti bir-birinə yaxınlaşdıran, onları birləşdirən, onlar arasında ünsiyyəti, münasibətləri asanlaşdırır.

Bu cəhətdən etnoslar, millətlər bir-birindən ciddi surətdə fərqlənir. Belə ki, bəzi, bəzi etnos və xalqlarda onları yaxınlaşdıran, birləşdirən mühüm əlamətlər ön plana keçir. Məsələn, eyni millətə xas olmaq, eyni vətənə malik olmaq, eyni inam və əqidəyə, eyni mənəvi-mədəni sərvətlərə malik olmaq və s. Bu əsas cəhətlər digər xırda amillərin təsirini heçə endirir. Məsələn, xalqın rus və ya gürcü, ya alman, ya fransız və s. olması, yəni vahid millətə aid olması onların hamısını yaxınlaşdırır. Burada vahid vətən, vahid din, vahid dil və s. kimi amillər, yəni formalaşmış ümummilli şüur zəminində vahid milli hisslər ön plana keçir.

Sual3**. Mədəniyyət və emosiya**

İnsanlar üçün həm universal, həm də fərqli emosiyaların olması etnopsixoloji mədəniyyət faktrı ilə bağlıdır. Mədəniyyət, etnopsixoloji fərqlə insana təsir göstərir və onun emosional-iradi sferasını formalaşdırır. Bunula oxşar və fərqli hisslər yaşanılır. İnsan emosiyalarının tədqiqi ilə aparılan krosskultural tədqiqatların bir qismi emosiyaların ifadə olunması (mimika) ekspressiyası ilə bağlıdır.

İnsan emosiyaları heç də təməl emosiyalarla məhdudlaşmır. Sadəcə olaraq digər emosiyalar həmin emosiyalar əsasında formalaşır və mədəniyyətin təsirindən asılı olaraq fərqli şəkildə təzahür edir. Ekman və Frizen ziddiyətli suallara aydınlıq gətirmək üçün emosiyaların ifadəsinin mədəni qaydaları konsepsiyasını təklif etdilər. Onlar qeyd edir ki, mədəni fərqlər universal emosiyaların ifadə olunması ilə bağlı irəli sürülən qayda və şərtlərdə özünü göstərir. Öz fərziyyələrini yoxlamaq üçün Ekman və Frizen yoxlanılanlara güclü stres yaradan film nümayiş etdirmiş və onların reaksiyasını videolentə çəkmişlər. Ekspрementin birinci mərhəlləsində yoxlanılanlardan başqa zalda heç kim olmamışdır. İkinci seriyada isə yoxlanılanlardan eksperimentatorla birlikdə filmə baxmaq təklif olunur. Çəkilişin nəticələrinin təhlili əsasında məlum oldu ki, amerikanlardan fərqli olaraq yaponlar, başqaların iştirakı şəraitində neqativ emosiyalarını gizlətmiş və yalnız gülümsəmişlər. Deməli, mədəni dəyərlərin təsiri olmadığı mərhələdə, həm amerikanlar, həm də yaponlar eyni formada yaşadıqları emosiyaları göstərmişlər.Yəni güclü stresə uyğun olaraq qəzəb, qorxu hissini ekspresiya etmişlər. İkinci mərhələdə isə mədəni

fərqlər dərhal özünün təsiri göstərmiş və yaponlar yalnız təbəssümlə reaksiya vermişlər. Ona görə ki, özündən yaşlı şəxsi kədərləndirmək, ümumən başqasına neqativ emosiyanı nümayiş etdirmək yapon əxlaqına görə olmaz. Göründüyü kimi, birinci mərhələdə emosiyaların universallığı, ikinci mərhələdə isə mədəni fərqlər özünü göstərdi.

"Keep smiling" amerikanların gündəlik həyatda qarşılıqlı münasibətlərin tənzimlənməsi üçün istifadə etdiyi etiket qaydasıdır. İslam əxlaqında gülüş, təbbəsüm sədəqə səviyyəsində dəyərləndirilməsinə baxmayaraq, bu etiket qaydası hal-hazırda amerikanlar tərəfindən daha çox istifadə olunur. Bu gün amerikanların gündəlik ünsiyyət zamanı istifadə etdikləri amerikansayağı təbbəsüm, heç də ondan istifadə edən şəxsin əhvalının göstəricisi deyil. Bu sadəcə olaraq işgüzar təbəssümdən başqa bir şey deyil. Ona görə də ilk dəfə amerikanlı ilə rastlaşan emiqrant elə başa düşməsin ki, qarşı tərəf onu gördüyü üçün sevinir.

Mövzu 7. Etnik-milli xarakter,etnosun davranış və rəftarında onların təzahürləri

Plan:

1. Milli xarakter anlayışının mahiyyəti.
2. Milli xarakterin interpretasiyasına olan yanaşmalar.
3. Etnik-milli xarakterin təzahür xüsusiyyətləri.
4. Ayrı-ayrı xalqların etnik-milli xarakter xüsusiyyətləri.

Ədəbiyyat

1. Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
2. Əliyev R.İ. İ.M.Ağayev . MÜASİR ŞƏRAİTDƏ AZƏRBAYCANDA MİLLİ-ETNİK PROSESLƏR, Bakı,2006
3. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000

Mövzu ilə bağlı elektorn resurslar

https://studfile.net/preview/3833699/page:13/

http://edu.rgazu.ru/file.php/1/vestnik_rgazu/data/20140519153858/25.html

Sual 1. Milli xarakter anlayışının mahiyyəti .

Milli xarakterin mövcudluğu haqqında ehtimallar həmişə həm adi şüurun, həm də sosial elmlərin gizli mövqeyini əks etdirmişdir. Bunu Q.D.Qaçev çox dəqiq ifadə etmişdir:

"Xalqın milli xarakteri, fikirləri və ədəbiyyatı çox "hiyləgər" və çətin anlaşılan materiyadır. Onun mövcudluğunu hiss edirsən, lakin onu sözlərlə ifadə etməyə çalışarkən sanki buxarlandığını, əhəmiyyətsiz şeylərdən danışdığını və ona müncər etdiyin xüsusiyyətlərin yalnız ona deyil, bütün xalqlara aid olduğunu görürsən. Bu təhlükədən yayınmaq mümkün deyil, lakin onu daima xatırlamaq və onunla mübarizə aparmağa cəhd etmək olar."

Bu anlayışlardan ilk vaxtlar ədəbiyyatda səyyahlar gəzdikləri ölkələrdə yaşayan xalqların həyat tərzini ifadə etmək üçün istifadə edirdilər. Bəzi müəlliflər milli xarakter anlayışına xalqın temperamentini, bəziləri şəxsiyyətə məxsus olan keyfiyyətləri, digərləri isə sərvət dəyərlərini, xalqın hakimiyyətə, əməyə olan münasibətini aid edirdilər.

Ümumiyyətlə, milli xarakterin olub olmaması haqqında fikirlər çox ziddiyyətlidir. Bəzi tədqiqatçılar, ümumiyyətlə milli xarakterin olmadığını iddia edirlər. Onlar belə hesab edirlər ki, hər hansı bir fərdə aid olan əlaməti dünyanın digər xalqları nümayəndələri arasında da müşahidə olunur. Əgər bu belədirsə onda, həmin xüsusiyyəti yalnız ayrıca götürülmüş bir xalqa aid etməyə ehtiyac yoxdur.

Deməli, tədqiqatçının xalqın davranış, fikir və münasibətlərində, eləcədə hiss və emosiyasında təzahür edən psixi xüsusiyyətlərdən hansıların milli xarakter hesab etməsi sırf nəzəri və metodoloji məsələdir. Bu məsələ ilə bağlı bəzi prinsiplərin nəzərə almaq lazımdır:

1) Milli xarakter ayrı-ayrı fərdlərdə özünü göstərən əlamətlərin cəmi deyil, o əhalinin böyük əksəriyyəti üçün səciyyəvi olan fikir, hiss və davranış birliyidir. İ.S.Kon yazır "xalqın xarakterini başa düşmək üçün ilk növbədə onun tarixini, ictimai həyatını və mədəniyyətini öyrənmək lazımdır. Bu prosesdə fərdi-psixoloji metodlar kifayət deyil".

2) Hər hansı bir əlaməti ayrıca götürülmüş etnik birliyiə aid etmək olmaz. Əlamətin nə özü, nə də ki cəmi maraqlı deyil. Əsas məsələ onun psixi keyfiyyətlərin stukturunda təzahür etmə xüsusiyyətidir. Məsələn, qonağa qarşı olan qayğı heç şübhəsiz qonşu ruslarda və farslarda da var. Amma, azərbaycanlı folklorunda, məişətində qonağı tərənnüm edən saysız-hesabsız nümunələr daha çoxdur. Yalnız qonağa aid olan məişət avadanlıqları saxlamaq, heç şübhəsiz qonaqpərvərliyin azərbaycanlıların milli xarakter olmasını sübut edir. Yaxud, spirtli içki qəbul etmək bir çox xalqlarda elə azərbaycanlılarda var. Amma, rus dilində içki

məclisini səciyyələndirən, müvafiq durumu ifadə edən sözlük yaratmaq hələlik ruslara nəsib olmuşdur.

3) Xarakter əlamətləri millətin ümumi dəyətlər sistemi ilə əlaqəli şəkildə, onun sosial, iqtisadi, siyasi, coğrafi, dini faktorları ilə sırf əlaqəlidir. Məsələn, əməksevərlik ümumbəşəri keyfiyyətdir. Lakin, tarixi şəraitdən asılı olaraq əməyin mənası bu və ya digər mədəniyyətdə fərqli məzmun kəsb etmişdir. Uzun müddətli Avropa istisimarı afrika xalqlarının əməyə münasibətini dəyişdirmişdir. Uzun müddət avtoritar şəraitdə yaşayan xalqlar düz söz deməkdə çətinlik çəkirlər.

Fransız sözü olan mentalitet azərbaycan dilində işlənən dünyagörüşü, dünyanı dərketmə sözlərinə uyğun gəlir. Mentaltet daha çox kollektiv şüursuzluqdan qidalanır və təfəkkürdə, hiss və hərəkətlərdə gerçəkləşir. Etnosu qrup kimi səciyyələndirdikdə mentalitet xalqların sosial-mədəni xüsusiyyətlərini öyrənmək üçün ən yaxşı kateqoriyadır.Əksər hallarada "siyasət", "sosial-iqtisadi münasibətlər", "qanun", "ənənə" analyışları ilə izah edilməyən fikri, hadisəni, hərəkəti və hissləri mentalitet anlayışının səlahiy-yətinə aid etməklə izah etməyə çalışırlar. Bu anlayışdan istifadə etməklə xalqın tarixində və mədəniyyətində özünü göstərən qəribə və aydın olmayan sosial hadisələri aydınlaşdırmağa çalışırlar. Dərk olunmayan psixi fəaliyyəti mentalitetin əlaməti hesab edirlər.

"Mentalitet" latın sözü olan "mens", "mentis" ağıl, ruh, bilik mənasını verir. Bu sözün özü isə sanskrit dilində olan "manas" ağıl, ruh, bilik deməkdir. Etnosun mentaliteti uzun tarixi inkişaf prosesində formalaşır. *Mentalitet* milli xarakteri və milli sosial davranış modelini müəyyən edir. *Mentalitet* xalqın, millətin istər bütövlükdə, istərsə də ayrılıqda, onun hər bir üzvünün dünya və insan haqqında olan təsəvvürü və dəyərlər sistemidir. Biz hesab edirik ki, mentalitetin psixi miqyası daha genişdir. Hər bir xalqın, millətin milli xarakteri təşəkkül tapıb, formalaşdıqdan sonra *mentalitetə* çevrilir. Mentalitet qrup psixologiyası ilə şərtlənir və sosial məkanda daha qabarıq şəkildə özünü göstərir. Mentalitet emosional cəhətdən müəyyən tona malik olan sosial təsəvvürdür.

Mentalitet sosial qrup üzvlərinin sosial dünya haqqında sosial təsəvvürüdür. Biz hesab edirik ki, polietnik ölkə vətəndaşlarının hamısı üçün səciyyəvi olan psixoloji xüsusiyyətlərini mentalitet anlayışı ilə, monoetnik ölkə vətəndaşlarının xüsusiyyətlərini isə milli xarakter anlayışı ilə ifadə etmək olar. Məsələn, ABŞ polietnik ölkə olduğu üçün amerikan mentaliteti, Ermənistan isə daha çox monoetnik ölkə olduğu üçün erməni milli xarakteri işlətmək daha düzgün olar. Ümumiyyətlə, bizim fikrimizə görə milli xarakter anlayışı müasir dövrdə uğurlu istilah deyildir və ölkə, dövlət ərazisində onun işlədilməsi diskonyuktiv hisslərin oyanmasına, etnik dirçəlişə rəvac verir. Milli xarakter və yaxud etnik identifi-kasiyanın güclənməsi fərdin sosial mühitə adaptasiya qabiliyyətini zəiflədir. Bu da onun inkişafına mənfi təsir göstəırir (J.Piaje).

Azərbaycan psixoloqu Ə.Bayramov milli xarakteri insanın makromühiti ilə əlaqələndirir və milli psixologiya, sosial münasibətlər, iqtisadi birlik, məkan vahidliyi, dil birliyi, dini inam və əqidə yaxınlığı, təbiətə münasibət, tarixi birlik forması kimi

xalqda müəyyən dövr ərzində formalaşmış milli əxlaqi ənənə keyfiyyəti almış cəhətlər, həyata, insana, vətənə, yaxın adamlara, qohum-əqrabaya münasibətdəki eyniyyət milli xarakterin əsas təyinedici amillərini təşkil ediyini qeyd edir. Daha sonra göstərir ki, həmin amillərin təsiri ilə etnik və milli ümumilik əsasında adamlarda elə psixoloji xüsusiyyətlər formalaşır ki, onlar etnik və milli xarakterin nüvəsini təşkil edir. O, belə hesab edir ki, qrup, etnos və xalq üçün ümumi olan cəhətlərin olması milli xarakterin mövcudluğu ilə bağlıdır. Milli xarakter heç də fərdi xarakterlərin məcmusu kimi götrülə bilməz. Milli xarakter milli psixologiyanın ən əsas struktur komponenti, etnik simanı müəyyən edən başlıca əlamətdir. Prof.Ə.S.Bayramov etnik xarakterə belə tərif vermişdir: "**Etnik xarakter** dedikdə ayrıca bir fərddən asılı olmayan, ümumiləşmiş psixoloji keyfiyyət, etnosun hər bir üzvünün davranış və rəftarında, münasibətlər sistemində bu və ya digər dərəcədə təcəssüm edən psixi xüsusiyyət başa düşülür". Milli, etnik xarakter xalqın sosial tarixi və təbii mühiti ilə bağlı olaraq təzahür edən dinamik psixoloji xüsusiyyətdir. Milli xarakter sosial şəraitin dəyişilməsi ilə əlaqədar olaraq dəyişikliklərə məruz qala bilər. Bu tarixi təcrübə ilə də təsdiqlənir. Amma, dəyişikliyin məzmun və istiqaməti müəyyən qədər millətin özünün öz taleyinə olan münasibətdən, o cümlədən öz xarakter əlamətlərindən asılıdır.Yəni sosializasiya institutları xalqda, millətdə hansı keyfiyyətləri formalaşdırmaq istəyir? Xalqı, milləti necə görmək istəyirlər? Çin filosofu Konfutsinin belə bir fikri var: "Xalq ot, hakimiyyət isə küləkdir. Xalqı hansı tərəfə istəsə, o tərəf də istiqamətləndirə bilər". Etnik xarakter, milli xarakter, psixi sima, mentalitet anlayışları dilimizdə daha çox sinonim sözlər kimi işlədilir. Bu cəhət həmin anlayışların xalqa, millətə məxsus olan sabit psixi xüsusiyyətləri, nisbətən dəyişməz keyfiyyətləri ifadə etməsilə bağlıdır. Xüsusilə, güzəran psixologiyası səviyyəsində daha da yaxınlaşdırılır və çox zaman məhz sinonim kimi də işlədilir.

Alman filosofu İ.Kanta görə insan iki aləmə mənsubdur. Təbiətə mənsubluq baxımından "təbiət insanı dəyişir", mənəviyyat cəhətdən azadlığına görə isə "insan özü-özünü dəyişir".

Qənaətcillik və səliqəli olmaq almanların milli xarakteridir. Amerikalıların bir-birinə sadəcə olaraq adları ilə müraciət etməsi heç də yaxınlıq əlaməti hesab olunmur. Halbuki, bir çox ölkələrdə belə müraciət həmin şəxslər arasında müəyyən yaxınlığın olmasını bildirir.

Milli xarakter millətin musiqi melodiyalarında, rəqslərində də öz əksini tapır. Bu cür müxtəliflik xalqların xarakteri, həyat tərzi, məşğuliyyət növü, sosial və təbii mühitə olan fərqli münasibətindən irəli gəlir. Milli azərbaycan rəqslərində kollektivizim, ispan rəqslərində isə individualizm elementləri diqqəti cəlb edir. Ərəb rəqslərində erotik hərəkətlər üstünlük təşkil etdiyi halda, azərbaycan rəqslərində əksinə geyimdən tutmuş, musiqi ritmlərinə qədər hər şey bədənin konturlarının gizlədilməsinə xidmət edir. Dirsəklərin çiyin səviyyəsində saxlanılması milli azərbaycan qadın rəqsinin atributu sayılır. Bu detal azərbaycan rəqsinin fərqləndirici əlamətlərindən biri hesab oluna bilər.

Milli xarakter insanların mimikasında, ekspressiyasında aydın surətdə nəzərə çarpır. Məsələn, yaponların ən bəd xəbəri

gülə-gülə başqasına çatdırması bizi təəcübləndirir. Bu cəhət onların fərqli psixoloji xüsusiyyətlərə malik olduğunu, dünyanı başq cür qavradıqlarını sübut edir. Yapon filmlərinin əksəriyyətində qəhrəman sonda məhv olur. Hollivud filmlərində isə əksinə qələbə çalır və sağ qalır. Yapon dünyaduyumuna görə faciəvi sonluq həm də fərəhli sonluq kimi qavranılır, çünki öz borcunu nəyin bahasına olursa-olsun yerinə yetirən adamların iradə gücünü təsdiq edir. Yaponların qənaətinə görə xarakterin gücü valideynlərin iradəsinə qarşı çıxmaqda yox, bu iradəyə tabe olmaqda özünü göstərir. Milli xarakter övlad tərbiyəsində də özünəməxsus şəkildə təzahür edir.

Azərbaycan ailəsində oğlan uşaqlarının təbiyəsi iradi keyfiyyətlərin, qızların tərbiyəsi isə daha çox analıq vərdişlərinin formalşdırılması istiqamətində həyata keçirilir. Ailə və uşaq azərbaycanlı xarakterinin affektiv mərkəzində dayanır. Təsadüfi deyildir ki, "Kitabi Dədə Qorqud" dastanında oğlu olanı ağ, qızı olanı qızılı, oğlu-qızı olmayanı isə qara çadıra dəvət etməsi milli mentalitetimizdən qaynaqlanır.

Hər bir xalq ilk növbədə özünü yaxşı dərk etmıək üçün özünə xas olan etnik, milli xarakterin yaxşı öyrənməli, onun müsbət və mənfi cəhətlərini özü üçün ayırd etməli, mənfi cəhətlərdən uzaqlaşmağı, müsbət tərəflərini isə inkişaf etdirməyi özü istəməli və bacarmalıdır. Hər bir millət özü-özünü inkişaf etdirməlidir. Elə xalqlar vardır ki, özü öz lətifəsində gülüş obyekti kimi təqdim olunur. Çox təəsüf ki, biz özümüzə gülə bilmirik. Əksər hallarda lətifə "qəhrəmanlarımız" özümüz olmur. Xalqın, millətin özünün-özünə gülə bilməsi çox mühüm psixoterapevtik effekti olan profilaktik tədbirdir. Heç şübhəsiz bu hərəkət psixoloji cəhətdən sağlamlığa aparan yoldur. İkinci mənfi xüsusiyyət tənqidi münasibət bəsləməkdən çəkinməyimiz və bunu etməyi münasibətlərin pozulması kimi qavramağımızdır. Belə hesab etmək olar ki, xalqın hal-hazırkı durumu onun psixoloji keçmişindən xəbər verir. Psixoloji keçmiş və gələcək milli xarakterlə bağlıdır.

Heç də hər bir hərəkət, davranış və hiss millətə, xalq aid olan xarakter əlaməti hesab oluna bilməz. Milli, etnik xarakter o halda götürülür ki, həmin əlamət xalqın həm şifahi, həm yazılı mədəniyyətində öz yerini yusun və əks olunsun. Məsələn, qonağa olan hörmət əksər dünya xalqalarının məişətində yer tutur. Ruslarda da evin otaqlarının birinə "qonaq" otağı adı vermişlər. Amma, Azərbaycan folklorunda qonağı tərənnüm edən, onunla bağlı çoxlu sayda bayatı, lətifə, tapmaca, dualara, atalar sözü, sınamalara digər xalqların folklorunda rast gəlinmir. Hətta, azərbaycanlı evində qonaq üçün xüsusi olaraq nəzərdə tutlan qab-qacaq və yatacaq dəstinin olması fikrimizi sübut edir. Azərbaycanlı adətinə görə qonağın el-obada toxunulmamazlıq statusu olur və hamının onu gözləməsi vacibdir. Hətta qonaq gedəcəyi evin adını deməsi bəs edir ki, o, elə yolda ikən müəyyən imtiyaz əldə etmiş olsun.

İlk etnik birliyə nəsili misal göstərmək olar. Nəsil ailələrdən əmələ gəlir və qan qohumluğuna əsaslananır.Bir neçə nəsl birliyi əsasında əmələ gələn böyük insan qrupu tayfa adlanır. Ailələr nəsildə birləşən kimi , iki və daha çox nəsil də tayfanı əmələ

gətitrir. Bir kökdən olan, lakin sonralar ayrılmış nəsillər birliyi tayfa adlanır. Nisbətən daha böyük sosial birlik xalqdır. Bu birlik, artıq, qan qohumluğuna deyil, eyni sosial əraziyə, qonşuluq əlaqələrinə əsaslanır, ona görə də, xalqı sırf etnik birlik kimi səciyyələndirmək olmaz. Buraya etnik cəhətdən bir olmayan başqa adamlar da daxil olduğundan, o, sosial-etnik birlik adlandırılmalıdır. *Xalq* insanların tarixən yaranmış və dil, ərazi, müəyyən mədəniyyət birliyinə əsaslanan insan birliyidir. Bu birliyin möhkəmlənməsi və dərinlşməsi nəticəsində xalq özünün yeni inkişaf mərhələsinə keçir və yeni birlik olan millətin yaranması baş verir. **Millət üçün** xarakterik olan əlamətlər bunlardır: insanların tarixən yaranmış sabit birliyi, ərazi birliyi, iqtisadi həyat birliyi, dil birliyi; din, inanc və etiqad birliyi; adət - ənənə yaxud mədəniyyət birliyi.

Şəxsi mənafeyin ön planda olması, "Mən" hissinin "Biz" hissindən üstün tutulması insan birliyinin xalq, əksinə "Biz" hissinin "Mən" hissini üstələməsi isə milli mənafeyin ön planda dayanması qrupun millət səviyyəsində formalaşdığını göstərir. Millət səviyyəsində təşkkül tapmış sosial qrup üzvlərinin bir-birinə qarşı tələbkarlığı, xalq səviyyəsində təşəkkül tapan qruplardan əsaslı şəkildə fərqlənir. Xalq səviyyəsinə insanlar arasında mövcud olan qarşılıqlı münasibətlərdə bir-birinə qarşı laqeydlik, etinasızlıq, ictimai mülkiyyətə yad münasibət müşahidə olunur. Millət səviyyəsində isə ictimai qınağ, ciddi münasibət, adət-ənənlərə hörmət ünsiyyət və fəaliyyət zamanı qarşılıqlı münasibətlərdə tələbkarlıq, ictimai mülkiyyətə sahiblik hissi özünü göstərir.

Azərbaycan filosofu, prof. A.Əsədov etnosu köçəri və icma tayfalarının təkamül prosesinin məhsulu sayır və onun yaranmasını dövlətin əmələ gəlməsi ilə əlaqələndirir. O, yazır ki, dövlətin yaranması ilə köçərilərin və icmaçıların vahid bir etnosa doğru təkamülü başlayır və bu təkamül vahid xalqın formalaşması ilə başa çatır. Dillərin genetik qohumluğu, xalqların genetik qohumluğundan xəbər vermir, xalqların haçansa vahid bir dövlətin ərazisində yaşadıqlarından xəbər verir.

Canlıların əksəriyyətindən fərqli olaraq insan nə sürü, nə də ayrıca yaşayan növ adlandırıla bilməz. İnsan yanaşma növündən asılı olaraq, gah sosium, gah da etnos kimi nəzərdən keçirilən kollektivdə yaşayır. Daha dəqiq desək, hər bir insan eyni zamanda həm cəmiyyət üzvü, həm də xalqının nümayəndəsidir. Amma bu iki anlayış bir müqayisəyə gəlmir və müxtəlif təbəqələrə aiddir.

Kollektiv daxilində olan insan iqtisadi formasiyalar vasitəsilə daxili səbəblər üzündən inkişafı etməsi, onun bioloji strukturu ilə əlaqəli deyil.

Bir şey heç kimdə şübhə doğurmur ki, yer üzərində etnos xaricində olan bircə adam belə yoxdur. İstənilən şəxs "Sən kimsən?" sualına bir an belə düşünmədən "türk", "rus", "ərəb" "yapon" və s. cavabını verir. Deməli, şüurda etnik mənsubiyyət - ümumi hadisədir. Görəsən, bu adam¬ların hər biri öz cavabını necə mənalandırır? Öz xalqım, millətim, tayfam dedikdə o nəyi nəzərdə tutur və qonşulardan fərqini nədə görür? Etnik

diaqnostikanın indiyə qədər həll olunmayan problemi də elə budur (L.N.Qumilyov, 2001). Tərifə ehtiyac yaranır, lakin burada fikir çarpazlaşması meydana çıxır. "Etnos ümumi mənşə ilə şərtlənən hadisədir", "etnos dil ümumiliyindən doğan mədəni hadisədir"; "etnos bir birinə bənzəyən insanlar qrupudur"; "etnos bu və ya digər formasiyadan asılı olaraq insanları ümumiləşdirən şərti təsnifdir" (bu o deməkdir ki, etnos kateqoriyası qeyri-realdır); "etnos ümumi özünüdərk əsasında birləşmiş insan toplusudur";

"etnos sosial kateqoriyadır". Təbiətlə ictimai insanın mütənasibliyinə dair baxışlarının təfərrüatlarına görə fərqlənənləri ümumiləşdirdikdən sonra onlardan üçünü qeyd etmək olar:

1. "Vahid" coğrafiya insanın bütün fəaliyyətini təbii qanunauyğunluqlara çevirir.
2. Bəzi tarixçi və etnoqraflar bəşəriyyətlə ilgili bütün fenomenləri sosial hesab edərək, yalnız anatomiya və qismən də fiziologiyanı istisna sayırlar.
3. Antropogen proseslərdə materiyanın hərəkətinin ictimai və təbii (mexaniki, fiziki, kimyəvi, bioloji) formalarının təzahürləri fərqləndirilir.

Heç də hər bir hərəkət, davranış və hiss millətə, xalq aid olan xarakter əlaməti hesab oluna bilməz. Milli, etnik xarakter o halda götürülür ki, həmin əlamət xalqın həm şifahi, həm yazılı mədəniyyətində öz yerini yuysun və əks olunsun. Məsələn. Qonağa olan hörmət əksər dünya xalqalrının məişətində yür tutur. Ruslarda da evin otaqlarının birinə "qonaq" otağı adı vermişlər. Amma, Azərbaycan folklorunda qonağı tərənnüm edən, onunla bağlı çoxlu sayda bayatı, lətifə, tapmaca, dualara, atalar sözü, sınamalara digər xalqların folklorunda rast gəlinmir. Hətta, azərbaycanlı evində qonaq üçün xüsusi olaraq nəzərdə tutlan qab-qacaq və yatacaq dəstinin olması fikrimizi sübut edir. Azərbaycanlı adətinə görə qonağın el-obada toxunulmamazlıq statusu olur və hamının onu gözləməsi vacibdir. Hətta qonaq gedəcəyi evin adını deməsi bəs edir ki, o, elə yolda ikən müəyyən imtiyaz əldə etmiş olsun. Termin kimi işlədilməsinə baxmayaraq "xalq" "millət", "milliyyət", "mentalitet" sözləri heç də hamı tərəfindən eyni mənada işlədilmir. "Xalq" sözü ilə adətən latıncadan populus, fransızcadan peuple, almancadan Volk, ingiliscədən people sözlərini tərcümə etdikləri halda, millət latın sözü (natio) olmaqla alman, fransız,ingilis dillərində tamamilə eyni cür (nation) yazılır. Almanca "xalq" (volk) sözü ilə adətən bir dövlətin vətəndaşlarının toplumu bildirilir, belə ki, alman xalqı ifadəsi Almaniya dövlətinin vətəndaşı olan hər bir kəsi, yəni almanları, türkləri, polyakları əhatə edir, lakin İsveçrə, yaxud da Avstriya almanlarına aid edilmir. "Millət" termini ilə isə adətən bir dövlətdə birləşməsə də dil, mədəniyyət, tarix, yaxud da heç olmazsa, milli şüur birliyi ilə bağlanan insan toplumu bildirilir. Beləliklə, "türk milləti" dedikdə Türkiyə, Almaniya, Rusiya və okeanın o tayında Amerikanın vətəndaşı olan və özünü türk hesab edən bütün türklər nəzərdə tutlur.

"Xalq" sözü dövlət hüququna aid olduğu halda "millət" sözü daha çox etnoqrafik termindir. "Milliyyət" bu söz işlətmə baxımından "millət" sözündən törəmə termindir və hər hansı ayrıca bir şəxsin, yaxud bütöv bir millətin psixoloji mənsubluğunu

bildirir. Fransız və ingilis dillərində “xalq” “millət” terminləri adətən əks mənalarda işlədilir. “Fransız milləti” ifadəsi Fransada yaşayan bütün vətəndaşların toplumunu bildirir. Fransızca “millətlər” arasında müqavilə, saziş və müharibələrdən danışılır, alman dilində isə bu cür hallarda “xalqlar” haqqında danışmağa üstünlük verirlər.

Məşhur arxeoloq və xəzərlərin tarixinin görkəmli araşdırıcısı M.İ.Artamonovun fikrinə görə, “sinif kimi etnos da sosial təşkilat deyil, hal, vəziyyətdir. Bu zaman insanın mədəni səviyyəsi nə qədər yüksək olarsa, onun təbiətdən asılılığı da bir o qədər az olar. Bu, hamıya məlum həqiqətdir”. Millətlər, xalqlar arasında özünü göstərən etnopsixoloji fərqlər başqa amillərlə yanaşı həm də hər hansı bir anlayışa həmin xalqın nəyi daxil etməsindən asılı olaraq yaranır. Məsələn, xeyirxahlıq anlayışında bizim əsas hesab etdiyimiz keyfiyyətlər ingilislərin həmin anlayışla bağlı əsas əlamət kimi götürdükləri keyfiyyətdən fərqlənir. Təfəkkür sözlə vəhdət təşkil edir. İnsan dünyanı həm birinci (duyğu üzvləri) həm də ikinci siqnal sistemi, yəni nitq və dil vasitəsilə dərk edir, onun köməyi ilə qavrayır, ünsiyyətə girir, münasibət bəsləyir və müvafiq hisslər keçirir. Hər bir anlayış onun əsas əlamətlərinin götürməklə möhkəmləndirilməlidir. Burada problem ondadır ki, eyni bir anlayışa ola bilsin xalq və millətlərdən bir-birindən fərqli şəkildə müxtəlif əlamətlər əsasında möhkəmləndirə bilərlər. Elə etnik fərqlər də məhz bu prosesdə özünü göstərir. Yəni bir xalqın bir anlayışa daxil etdiyi keyfiyyətlər başqa bir xalqın həmin anlayışa daxil etdiyi keyfiyyətlərdən fərqlənirsə onda onlar arasında qarşılıqlı münasibətdə problem yaranır. Əgər bir anlayış eyni əlamətlər əsasında formalaşırsa və həmin əlamətlər əsasında möhkəmləndirilirsə onda problem yaranmır.

Əsas məsələ xalqın, etnosun şüurunda, təfəkküründə anlayışın hansı əlamətlər əsasında formalaşması və yaddaşda möhkəmləndirilməsidir. Onun hesabına biz bir-birimizi düzgün başa düşür, düzgün qavrayır və eyni intellektual platformada qarşılıqlı təsirdə olur, ünsiyyət və fəaliyyət göstəririk. Məsələn, boşanma anlayışını necə başa düşür, qavrayır, qiymətləndiririk?

Məsələn, “xoşbəxtlik” anlayışı azərbaycan dilində iki sözdən “xoş” və “bəxt” sözlərinin birləşməsindən yaranmışdır. Yapon dilində isə xoşbəxtlik sözü “sıavase” deməkdir və iki sözün “suru”-etmək və “avaseru” qoşulmaq, uyğunlaşmaq; avase tərəf müqabilə uyğunlaşmaq, “müstəqillikdən” azad olmaq kimi sözlərin birləşməsindən əmələ gəlmişdir . Yaponlarda “xoşbəxtlik” həyatın zahiri, görünən tərəfinin ətrafdakıların baxış və qiymətləri ilə razılaşdırılması kimi dərk olunur. Göründüyü kimi yaponlarda xoşbəxtlik şəxsiyyətin özündən asılı olduğu halda, azərbay canlılarda xoşbəxtlik daha çox taleyin qisməti kimi qavranılır və insandan asılı olmayan anlayış kimi izah olunur. Yapon təfəkküründə insanın xoşbəxt olması onunun özünün iradəsindən yəni, başqaları ilə uyğunlaşa bilməkdə, onların fikir və qiymətlərini nəzərə almaqda azərbaycanlı təfəkküründə isə xoşbəxtlik onun iradəsindən kənardadır yəni, özgəsindən, daha dəqiq ifadə etsək alın yazısından asılıdır.

Beləliklə, etnik və ya milli xarakter dinamik xüsusiyyət kimi təbii və sosial mühitin, eləcə də dilin təsiri altında formalaşır. Xüsusilə, dildə olan söz və anlayışların necə başa düşülməsi, şərh və izah olunması əsas məsələdir. Etnik və ya milli fərqlərdə məhz bu məsələdə olan fərqlərdən irəli gəlir.

Milli xarakter *millətin tarix boyu formalaşan davamlı psixoloji xüsusiyyətlərin birliyi olub, insanların tipik həyat və adəti davranış tərzini müəyyən edən, eləcə də onların əməyə, başqa xalqlara, millətlərə, öz mədəniyyətinə münasibətində ifadə olunan psixoloji xüsusiyyətdir.* Mili xarakterdə şüur, ideologiya, mənəvi mədəniyyət və ictimai psixika birləşir. Ətraf aləmə münasibət inlanların milli şüurunun istiqamətini səciyyələndirir.

Milli xarakter heç də sabit psixoloji xüsusiyyətlərin məcmusu deyil. Milli xarakter də həyat şəraitinin, siyasi, iqtisadi və sosial vəziyyətdən asılı olaraq, eləcə də ideoloji təsirdən asılı olaraq dəyişir.

Milli xarakter əməyə, başqa xalqlara, özünə və ətraf aləmə bəslənən münasibətdə özünü təzahür etdirir. Məsələn, 2013-cü ildə Fransada eynicinslilərin nigahı haqqında dövlət qanun qəbul edildikdən sonra nigaha girən 18-20 yaşlı iki "oğlanın" valideynlərinin bu hadisəni çox böyük sevinclə qarşılaması və öz oğlanları ilə fəxr etməsini "Evronyus" kanalı ilə bütün dünyaya elan etməsi mədəniyyət və ya milli xarakter məsələsidir.

Xarakter o cümlədən etnik və ya milli xarakter -fərdin və ya qrupun sosial və ya təbii mühitə adaptasiya olunmasının ən əlverişli üslubudur.

Sual 2.Milli xarakterin interpretasiyasına olan yanaşmalar.

Milli xarakterin interpretasiyasına olan yanaşmalar içərisində ən aparıcısı kimi sosial-tarixi yanaşmanı göstərmək olar. Milli xarakterin daha çox işlənmiş sosial-tarixi interpretasiyası "Mədəniyyət və şəxsiyyət" konsepsiyasının da məzmununu təşkil edir. Məsələn, Kardinerin "təməl şəxsiyyət" ideyası müxtəlif mədəni mühitlərin təsirilə yaranan köklü şəxsiyyət fərqləri haqqında təsəvvürlərə əsaslanır.

Misal kimi "gizli rus ruhu" tədqiqatını göstərə bilərik. Məlum səbəblərə görə ikinci dünya müharibəsindən sonraki ilk illərdə rus milli xarakteri qərb antropoloqlarının maraq dairəsinə daxil olmuşdur.

Bəzi alimlərin fikrincə Rusiyada məhz uşaqların tərbiyəsindəki möhkəm sıxışdırılma çarizm və stalinizm avtokratik siyasi institutlarının əsas səbəbi olmuş və ya məhz bu amil rus xalqının maniakal – depressiv təməl şəxsiyyətinin formalaşmasına gətirib çıxarmışdır.

A.Erikson möhkəm sıxışdırılmanın bütün dünya mədəniyyətləri üçün universal ənənə olduğunu bildirərək bunun məhz Rusiyada uşaqların erkən sosializasiya xüsusiyyətlərinin rus mədəniyyətinin digər elementləri ilə sinxronizasiyası hesabına daha da gücləndiyini xüsusi qeyd etmişdir. O, rus mədəniyyətində eyni formaya

malik bir neçə çaları fərqləndirir – tam passivliklə çılğın emosionallığın növbələşməsi. Beləliklə, onun fikrincə rus insanın şəxsiyyətinin formalaşmasına soyuq iqlimdə kəndli həyatının ritmi – uzun qış aylarında nisbi fəaliyyətsizlik və passivliklə yazda periodik iş dövrünün növbələşməsi təsir göstərmişdir. Rus və qərb mədəniyyətini müqayisə edərkən filosoflar rus ruhunun əsasına provaslaviyanın xüsusi təsirini də qeyd etmişlər. "Rus ruhunda orta hal yoxdu. Onlara iki kənar həddi ortaq məxrəcə gətirmək xas deyil. Rus insanın kontrastlardan ibarətdir – burada həm kobudlu, həm zəriflik, həm qəddarlıq, həm sentimantallıq, həm günahkarlıq, həm müqəddəslik var."

Psixoloji antropologiyada uşaqların tərbiyə üsullarının və uşaq təcrübəsinin xüsusiyyətlərinin təhlili əsasında yalnız rus xalqı tədqiq olunmamışdır. İkinci dünya müharibəsi ərəfəsində və ondan sonrakı dövrlərdə ABŞ-da yapon və alman milli xarakterlərinin tədqiqinə həsr olunmuş bir çox işlər yaranmışdır.

Belə ki, Benedikt yapon xarakterindəki ziddiyyətləri - onlara məxsus gözəllik hissi və hakimiyyətə, xüsusilə də imperatora fanatik sadiqliyi izah etməyə çalışmışdır. O, yapon qanunlarının sərtliyinin səbəbini uşaqlıqdan insanların öz istəklərinin qrupun maraqlarına tabe olmasını dərk etməsi və nəyin bahasına olursa olsun ailəsinin və özünün biabırçılığından qaçması kimi sosializasiya xüsusiyyətlərində görür.

Antropoloqlar da psixoloqlar kimi milli xarakterin tədqiqi zamanı "obyektiv metodlar"dan (intervyu və testlər) istifadə edərkən xalqın xarakteri haqqında tam təsəvvürləri təhrif etmiş və əlamətlər "dəsti" tərtib etmişlər.

Son zamanlarda milli xarakter anlayışı da modal və təməl şəxsiyyət anlayışları kimi psixoloji və antropoloji ədəbiyyatları tərk edir. Onu etnik birliklərin psixoloji xüsusiyyətlərini bildirən anlayış kimi mentallıq əvəz edir. Bu terminin müəllifi olan fransız tədqiqatçılarına görə mentallıq – insanın dünya və bu dünyada öz yeri haqqında təsəvvürlərinin əsasında duran obrazlar sistemidir və o, insanların davranış və hərəkətlərini tənzimləyir.

Sual 4. Ayrı-ayrı xalqların etnik-milli xarakter xüsusiyyətləri. İngilislər özünü ələ almağı insan xarakterinin ən yüksək keyfiyyəti sayırlar. "Özünü ələ almağı öyrən və bacar". Bu sanki ingilislərin başlıca devizidir. Hələ körpəlikdən uşaqlara soyuğa və aclığa dözməyi, sakit yanaşmağı, antipatiya və simpatiyasını biruzə verməməyi öyrədirlər. öz hisslərini açıq şəkildə biruzə verməyi onlar tərbiyəsizlik hesab edirlər. Onlar komfortu və səliqəni xoşlayırlar, intellektual fəaliyyətə üstünlük verirlər. İngilislər zəngin kitabxana, yaxşı nəqliyyat, təzə palları xoşlayırlar. Onlar çətinlikləri dəf etməyi bacarırlar. Dünyada heç bir xalq ingilislər

kimi vaxtını və pulunu dəqiq bölə bilməz. İngilis harada olur, olsun ingilisdir. Heç vaxt heç bir yerdə özünün ingilis xarakterini dəyişmir. Onlar pul qazanmağa çalışırlar, lakin buna baxmayaraq xəsis deyillər.

Fransızlar rasional düşüncəli sentimental insanlardır. Fransızlar uşağa qarşı da ürəyiyumşaq deyillər. Onlar uşağın erkən qabiliyyətini daha çox qiymətləndirirlər. Hələ körpəlikdən uşağa öyrədirlər ki, boşqabdakı yeməyi axıra qədər yemək lazımdır. Anaya hörmət birinci dərəcəli vəzifədir. Böyük uşaqlar ev işlərində anaya kömək edirlər.

Yaponlar əməksevər, səliqəliliyi sevən, ənənəyə sadiq, birgə işləməyi bacaran, hər şeylə maraqlanan xalqdır. Onlar üçün yüksək dərəcədə mütəşəkkillik və özünütənqid xarakterikdir. Yaponlar üçün ailənin çox mühüm funksiyalarından biri də qocalığın sığortalanmasıdır. Ailə başçısı qocalarkən ailənin idarə olunmasını böyük oğula təhvil verir, özü isə passiv həyat tərzinə keçir.yaponlar üçün hədiyyə hökmən bağlamada olmalıdır. Hədiyyəni heç vaxt ağ rəngli bağlamada vermirlər. Ağ rəng yaponlarda matəm rəmzi sayılır. Hədiyyəni hər iki əllə verir və qəbul edirlər.

Misirlilər tənhalıqdan qorxurlar. Çünki tək adam cəmiyyətdə heç bir mövqe tuta bilmir. Qrup daxilində isə onun təhlükəsizliyi təmin olunur, özünü daha inamlı hiss edir. Özünütənqid yox dərəcəsindədir. Misirli ya haqlıdır, ya da günahkar başqasıdır. Onlarda düz və ya yalan ölçüsü yoxdur. Buna görə də lazım olanda yalan danışmaq məqbul sayılır. Hətta din xadimləri də vəziyyətdən haqlı olaraq yalan danışa bilərlər.

Alman xalqı keçmiş nəsillərdən qalma adət-ənənələrə hörmətlə yanaşırlar. Bayramlarda milli geyimlər geyinirlər. Temperament tipinə görə almanları daha çox fleqmatikə aid etmək olar. Onlar üçün soyuq mühakimə, məqsədyönlü, ardıcıl fəaliyyət, çətinlikləri dəf etmək qabiliyyəti daha xarakterikdir. Bir qayda olaraq sintetik ağıl, işə dözümlü və xaeyrxah münasibət özünü göstərir. Onlar xon dərəcə ciddi, az danışan olurlar. Heç bi xalq almanlar qədər həmrəylik göstərə bilməz. Onlar son dərəcə dəqiq və səliqəlidirlər. Almanlar heç vaxt küçəni sarı və qırmızı işıqda keçməzlər. Hətta küçə boş olsa belə, o, yaşıl işığı gözləyirlər. Almanlar üç şeyi xüsusilə sevirlər: heyvanları, musiqini, gülləri. Almanlar həyatlarını pivəsiz təsəvvür edə bilmirlər. Onlar dünyada ən çox pivə içən xalqdırlar.

Mövzu 10. Etnik konfliktlər

Plan:

1. Konflikt və onun növləri
2. Konfliktin psixoloji xüsusiyyətləri
3. Etnik konfliktlər haqqlğında

Ədəbiyyat:

14. Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
15. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
16. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
17. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
18. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

1. Konflikt və onun növləri

Konflikti bəzi müəlliflər ünsiyyətin özünəməxsus növü kimi qəbul edirlər. Sosial psixologiyada yerinə yetirdiyi funksiyaya görə konfliktləri konstruktiv və destruktiv olmaqla iki yerə bölürlər. Konflikt şəraitində insanların davranışı fərqli olur. Belə ki, bəzi insanlar konflikt şəraitinə düşdükdə güzəştə gedir, bəziləri aqressiv olur, bəziləri isə konflikt şəraitdən qaçırlar.

Psixoloji ədəbiyyatlarda konfliktin aşağıdakı növləri qeyd olunur:

- şəxsiyyətdaxili konflikt
- şəxsiyyətlərarası konflikt
- qrupdaxili konflikt
- qruplararası konflikt

Etnopsixologiya elmi əsasən qruplararası konfliktlərlə maraqlanır. Qruplararası konfliktlərin üç növü ayırd edilir:

- siyasi konfliktlər (hakimiyyət uğurunda gedən mübarizə)
- sosial-iqtisadi konfliktlər (əməklə kapital arasında)
- etnik konfliktlər (etnik birliklərin hüquq və marağı uğurunda)

2. Etnik konfliktlər

Etnik konfliktlərin müxtəlif cür təsnifatı mövcuddur. Müəyyən ərazi vahidini əsas götürdükdə konfliktin dövlətlərarası, regionlararası və yerli növləri ayırd edilir. Məsələn, SSRİ-nin tərkibində olanda erməni-azərbaycanlı konflikti regionlararası konflikt kimi səciyyələndirilirdi. İndi isə bu konflikt artıq dövlətlərarası münaqişə kimi qiymətləndirilir.

Etnik konflikt etnopsixologiyanın əsas anlayışlarından biridir. Etnik konfliktlərin öyrənilməsi etnopsixologiyanın nəzəri və praktik problemlərinə aid edilir. XX əsrin sonu və XXI əsrin əvvəli dünyada etnik konfliktlərin çoxalması ilə müşayiət olunur. Bu bir

tərəfdən dünyada gedən sosial-siyasi proseslərlə bağlıdırsa, digər tərəfdən isə iqtisadi və psixoloji amillərlə şərtlənir.

Etnik konfliktlər müxtəlif məqsədlərlə bağlı yaranır. Bir halda etnik konfliktin predmeti kimi sosial-iqtisadi problemlər çıxış edirsə, digər halda mədəniyyət və dillə bağlı olan məsələlər olur. Siyasi xarakterli etnik konfliktlər, əsasən etnik birliklərin milli muxtariyyət hüququ əldə etməsindən tutmuş, tam miqyaslı konfederasiya əldə etməsi ilə əlaqədar olur. Ərazi iddiaları ilə bağlı olan konfliktləri isə dövlət sərhədlərinin dəyişdirilməsi və öz mədəni-tarixi kökünə "doğma" olan dövlətə birləşmə və ya yeni müstəqil dövlətin yaradılması tələbinin irəli sürülməsi ilə bağlı olur.

Onu da qeyd etmək lazımdır ki, konflikt iştirakçıları qarşılarına bir neçə məqsəd də qoya bilərlər: siyasi hüquq, bərabər iqtisadi vəziyyət və dil hüquq və s.

Müasir dünyada polietnik dövlət və cəmiyyətlərin hamısında etnik birliklər arasında etnik gərginlik yaşanılır. Belə bir gərginlik bütün polietnik cəmiyyətlərin hamısında yaşanılır. Məsələn, ABŞ-da ağlarla neqrlər və hindular arasında, Böyük Britaniyada ingilislərlə irlandlar arasında, İranda farslarla azərbaycanlılar arasında, Rusiyada ruslarla çeçenlər, tatarlar arasında, Gürcüstanda gürcülərlə abxazlar arasında, Türkiyədə türklərlə kürdlər arasında və s. Əsasən gərginlik dominant etnik birliklə azlıq təşkil edən etniklər arasında bəzən aşkar, bəzən isə gizli formada cərəyan edir. Bu cür gərginlik çox vaxt sosial konkurensiya (rəqabət) formasında təzahür edir.

Etnik konfliktlər necə yaranır? Psixologiyada etnik konfliktlər dedikdə müəyyən milli qruplar arasındakı ziddiyyət başa düşülür (Ə.S.Bayramov). Mənafeləri uyğun gəlməyən və yaxud mənafeləri qəsdən toqquşdurulan milli qurumlar etnik əlamətə görə bir-biriilə konfliktə düşürlər. Konfliktin yaranmasında heç də hər iki tərəfi eyni dərəcədə günahlandırmaq olmaz. Etnik konfliktin mənbəyi rolunda aşağıdakı ziddiyyətlər çıxış edir:

- sosial-siyasi ziddiyyətlər
- iqtisadi problemlər
- konfliktin yaranmasında marağı olan xarici, kənar qüvvələr
- etnosda etnosentrizmin, şovinizmin və seperatizmin güclənməsi
- millətçilik ideologiyasından qidalanan neqativ etnik stereotip və yönümlərin gücləndirilməsi.

Psixologiyada etnoslararası münasibətləri tədqiq edərkən üç əsas problemə diqqət yetirilir: konfliktlər necə meydana gəlir, necə cərəyan edir və necə tənzimlənir? İngilis dilində səbəbi ifadə etmək üçün *reason* və *causa* sözlərindən istifadə olunur. Reason-konfliktli hərəkət nəyin naminə icra edilir, hərəkətin məqsədi deməkdir. Causa - isə qruplararası rəqabətə və ya düşmənçiliyə nə səbəb olmuşdur? Psixoloqların əksəriyyəti qruplararası konfliktin səbəbini (reason) maraqların toqquşmasında görməyi təklif edirlər. Psixoloqlar konfliktin (causa) səbəbi kimi isə aşağıdakı psixoloji xüsusiyyətləri qeyd edirlər.

1.Qruplararası konflikt universal psixoloji xüsusiyyətin məhsuludur. U.Makduqqal qruplar arasında olan konflikti insanın təbiətində olan "dalaşqanlıq instinkti" ilə bağlı olduğunu qeyd edir.

Bu cür yanaşma konfliktin hidravlik modeli adlanır. U.Makduqqala görə aqressivlik heç də kənar təsirlərlə şərtlənmir, o insanın təbiətində olan impulsdur. Konfliktin hidravlik modelinin əsasında Z.Freydin baxışları dayanır. Z.Freyd hesab edir ki, insanda libido (quruculuq) enerjisi ilə yanaşı mortido (dağıdıcılıq) enerjisi də vardır. Ona görə də konflikt bioloji amillərlə insanın anadangəlmə təbiətində olan aqressiv, destruktiv, dağıdıcı meyllə bağlıdır. Z.Freyd, 1932-ci ildə A.Eynşteynə yazdığı "Müharibə mütləqdirmi?" məktubunda göstərir ki, "İnsanlar arasında konfliktlər, maraqların toqquşması güc vasitəsilə həll olunur. Düşmənin qətli insana xas olan instinktiv qəddarlıq meyli ilə bağlıdır." K.Lorents də aqressiv davranışı bioloji cəhətdən ötrülən aqressivlik instinkti ilə bağlayır. Onun fikrinə görə aqressiya insanın daxili qüvvəsidir və bu da düşmən qonşulara qarşı yönəlmiş olur, özünün aid olduğu qrupu və eyni zamanda özünü qorumağa, hifz etməyə xidmət edir. Bəzən də etnik konfliktləri etnosun frusturasiya (məqsədə nail olmağı əngəlləyən real və xəyali maneələrlə bağlı olaraq insanın keçirdiyi hiss) halәti ilə izah edirlər. Yəni qrupun arzu və istəklərinin boğulması, uzun müddət qarşısı alınması, həyata keçməsinə "imkan verilməməsi" aqressivliyi gücləndirir. Bu da qruplarası konfliktə səbəb olur.

2.Fərdi fərqlər qruplarası konfliktin əsas səbəbi kimi. İnsanın "yad, özgə" qruplara münasibətini təhlil edən yanaşmalardan biri avtoritar şəxsiyyət konsepsiyasıdır. "Berkli qrupu" tədqiqatçılarının II dünya müharibəsindən sonra ABŞ-da həyata keçirdikləri lahiyə antisemit (yəhudilərə nifrət etmə) idelogiyasına həssas olan fərdlərin (potensial faşistlər) müəyyənləşdirilməsinə istiqamətlənmişdir. T.Adorno və onun əməkdaşları Z.Freydin ideyalarına istinad edərək qənaətə gəirdilər ki, özgə qruplara olan münasibəti erkən uşaqlıq dövründə uşağın ailədə keçdiyi sosialzasiya prosesilə, ələxsus ailədə emosional münasibətlərin ambivalent olması ilə bağlıdır. Bu konsepsiyanın mahiyyəti belə izah olunur ki, sərt və formal münasibətlərin hakim kəsildiyi ailədə tərbiyə alan insan özünün aqressiv enerjisini bir hissəsini başqalarına, xüsusilə özü ilə identifikasiya etmədiyi fərdin üzərinə, daha dəqiq desək yad mədəniyyətin daşıyıcılarına yönəldir.

3. Real konflikt nəzəriyyəsinə görə qruplararsı konflikt qrup maraqlarının bir-birinə zidd olması, bir araya sığışmaması nəticəsində baş verir. Tərəflər arasında rəqabət, bir tərəfin qələbəsi digər tərəfin məğlubiyyəti ilə sona çatır, onda maraqlar toqquşur. Bu da konfliktə səbəb olur. Qruplararsı düşmənçilik qarşıya qoyulan məqsədlə bağlı rəqabət hissindən yaranır. Sosial psixologiyada bu istiqamət türk əsilli amerikan psixoloqu Müzəffər Şərifin adı ilə bağlıdır. O, hesab edir ki, iki qrupun rəqabət, yarış formasında funksional cəhətdən qarşılıqlı asılılığı bilavasitə düşmənçiliyə səbəb olur. Bu da neqativ stereotiplərin, əvvəlcədən müəyyən qənaətin əmələ gəlməsində və həmçinin qrup daxilində həmrəylik hissinin güclənməsində özünü göstərir. Heç şübhəsiz, qrup qütbləşməsi "konflikt ocağına benzin tökmək" effektini verir. M.Şərifin boyskautların yay düşərgəsində iki oğlan qruları arasında apardığı çöl eksperimenti sosial-psixoloji effektlə, qruplararası konfliktlə asossasiya olunur. M.Şərifin eksperimentləri sübut edir

ki, qrup şəraitində olduqda yarış iştirakçıları özlərini daha çox rəqib kimi hiss edirlər və mükafat uğurunda mübarizə, maraqların toqquşması tez bir zamanda aqressiv düşmənçiliyə çevrilir. Fərdi qayda da yarışdıqda isə rəqiblik hissi o qədər də güclənmir. Həm də müəyyyən olundu ki, neqativ qiymətləndirilən "yad" qrupla qarşılıqlı təsir, qrupdaxili birlik hissinin güclənməsinə səbəb olur. M.Şərifin tədqiqatları qruplararası münasibətin öyrənilməsində yeni bir sosial-psixoloji istiqamətin əsasını qoydu. Sosail-psixoloji yanaşmaya görə qruplarası konflikt, düşmənçilik ayrı-ayrı fərdlərin aqressivliyindən deyil, qruplararası qarşılıqlı təsirin özünün təbiətindən irəli gələn xüsusiyyətdir.

4. Sosial identiklik nəzəriyyəsi. XX əsrin 60-70-ci illərində ingilis sosial psixoloqu A.Teşfelin rəhbərliyi ilə aparılan tədqi-qatlarda maraqlı nəticələr əldə olundu. Belə ki, qruplar arasında olan maraq müxtəlifliyi heç də qruplararası rəqabətə, konfliktə və düşmənçiliyə səbəb olmur. Əhali arasında sosail kateqoriyalaş-dırmanın aparılması kifayət edir ki, qruplaraarası diskriminasiya baş versin və başqa qrup üzvlərinə pis münasibət yaransın. Böyük Britaniyada aparılan tədqiqatlar göstərdi ki, dominant qrupun üzvləri sosial rəqabətə daha çox meyl göstərirlər. Cəmiyyətdə ictimai mühitə nəzarət edən elitar qruplar isə öz statusuna kifayət qədər inamlı olduqları üçün, digər azlıqlara qarşı bilərəkdən sosial rəqabətə getmirlər.Bununla da onlar qarşı tərəfə pozitiv identik-liklərindən "həzz almasına" imkan verir. Məsələn, ABŞ-ın ağ əhalisinin daha yüksək təbəqəsi irqi və etnik azlıqlara daha liberal sosial ustanovka nümayiş etdirirlər. Otra təbəqəyə məxsus olan ağlar isə daha dəqiq etnik inama malikdirlər.

Bu cür yanaşmada məqsəd başqa qruplara, öz gözlərində yaxşı olmaq, görsənmək şansı verməklə, onların pozitiv sosial identikliyini təmin etməkdir.

Etnik konfliktlərin baş verməsi və gedişi prosesində eyni etnos üzvlərinin bir-birinə daha çox bənzəmələri, bir-birinə yaxın olması əks tərəfə qarşı nifrət hissini gücləndirir. Zahiri və daxili oxşarlığın artması, deindividualizasiya (fərdiyyətsizlik) ilə nəticələnir. Deindividualizasiyanın güclənməsi anonimliyə gətirib çıxarır ki. bu da düşmən tərəfə nifrət və aqressiyanı artırır. Hərbi geyim forması deindividualizasiyanı gücləndirir və bu da öz növbəsində döyüşən tərəflər arasında aqressiyanı, nifrəti, qisas və intiqam hissini gücləndirir.

Bununla bərabər, əks etnosla fərqlər daha güclü qavranılır və "düşmən obrazı" formalaşdırılır. Etnik konflikt zamanı qrupdaxili differensasiya güclənir, "özümüzünkü" və "yad, düşmən olan" qarşılaşdırılması artır. Belə bir qarşılaşdırma konfliktdə qələbə çalmaq, daxili birlik yaratmaq, qrupun mübarizə əzmini artırmaq üçün zəruri olur. Yad qrupu neqativ qiymətləndirmə güclənir.

Belə bir şəraitdə düşmən haqında informasiyanın real, həqiqətə uyğun olmasına ehtiyac qalmır və ya əksinə bu cəhət xüsusi olaraq gücləndirilir. Nəticədə əks tərəf haqqında neqativ stereotip yaradılır. Böyük Vətən müharibəsi zamanı Xatun kəndinin yandırılması faşistlər haqqında sovet xalqında neqativ stereotipin yaradılmasına xidmət edirdi. Və yaxud Sumqayıt şəhərində ermənilərin öz həmyerlilərinin qiyamını təşkil etməsi və onu videolentə alaraq lazımi ölkələrdə təbliğ etməsi azərbaycanlılar haqqında

neqativ obrazın yaradılması məqsədinə xidmət etmişdir.

KİV-də düşmən haqqında verilən informasiya real olamamlıdır və şəxsi münasibəti özündə əks etdirməməlidir. Hətta, müharibə dövründə ADR-də qısa dalğalı radioları da satışdan yığışdırılımışdır.

1982-ci ildə Folklend adaları uğurunda Böyük Britaniya ilə Argentina arasında müharibə zamanı BBC- radiosu M.Tetçerin tənqidinə məruz qalmışdır. Müharibə zamanı oğlunu itirmiş argentinalı analardan intervyu aldığına görə BBC kompaniyası maliyyə dəstəyindən məhrum edilmişdir.

Etnik konfliktin yaranmasına səbəb olan amillərdən biri illuzior korelyasiyanın yaradılmasıdır. Mahiyyət ondan ibarətdir ki, bir-biri ilə əslində heç bir əlaqəsi olmayan, yaxud da güman edildiyindən də az əlaqəsi olan iki müxtəlif hadisə bir-biri ilə əlaqələndirilir. İlluzior korelyasiya fenomeni stereotip əsasında işləyir. Konflikt iştirakçılarının qarşı tərəf haqqında malik olduğu stereotip hadisələr arasında əlaqəni tapmaqda insanlara kömək edir və o da öz növbəsində yaranmış stereotipin həqiqiliyin sübut edir.

Psixologiyada etnoslararası münasibətlər üç əsas problem öyrənilir: konflikt necə baş qaldırır, necə cərəyan edir və onları necə tənzimləmək olar. Etnoslararası, millətlərarası konfliktlərin səbəbi və həlli məsələsi psixoloqlarla yanaşı, siyasətçi və sosioloqları da maraqlandırır. Məsələyə sosioloji aspektdən yanaşdıqda əhalinin etnik mənsubiyyəti ilə cəmiyyəin sosial stratifikasiyası (cəmiyyətin təbəqələrə, startlara bölünməsi) arasındakı əlaqəsi təhlil olunur. Politoloji yanaşmada "etik hisslərin, etnoslararası gərginliyin mobilizasiya olunmasında və onun açıq konflikt səviyyəsinə qədər çatdırılmasında, hər şeydən əvvəl siyasi və intellektual qüvvələrin, elitanın rolu öyrənilir". Psixologiyada isə etnik konfliktlərin səbəbləri ümumi nəzəriyyə çərçivəsində araşdırılır. Qeyd etmək lazımdır ki, bütün psixoloji konsepsiyalar qruplararası konfliktlərin sosial səbəblərini və sosial rəqabət və düşmənçiliyin səbəbini hərəkətlərdə və təsəvvürlərdə təzahür edən səbəblərini ayırd etmirlər. Halbuki, ingilis dilində səbəi ifadə edən iki müxtəlif söz var: reason (konflikt hərəkəti, hərəkətin məqsədi) və causa (qruplararası rəqabətə və düşmənçiliyə nə səbəb olmuşdur).

Etnik konfliktlərin makrosəviyyədə həllinə yönəlmiş olan üç əsas həll strategiyasından istifadə olunur: 1) hüquqi mexanizmlərin tətbiqi; 2) danışıqlar; 3) informasiya yolu.

Mövzu 8. Etnik stereotip və yönümlər

Plan:

1. Sosial stereotiplər haqqında.
2. Şəxsiyyətin yönəlişləri .
3. Etnik stereotip. Etnik yönümlər.

Ədəbiyyat:

5. Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020

6. Ə.S.Bayramov. Etnik psixologiya.Bakı,2001.
7. Ə.S.Bayramov. Etnik psixoloji məsələlər.Bakı,1996.
8. Ə.S.Bayramov. Psixoloji düşüncələr.Bakı,1994.
9. Ə.Əlizadə. Azərbaycan güzaran psixologiyası məsələləri.
10. Ə.S.Həsənov., F.B.Sadıqov. Azərbaycan xalq pedaqogikası.Bakı.
11. R.İ.Əliyev. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı,2000.

Mövzu ilə bağlı elektorn resurslar

http://gubadli.cls.az/front/files/libraries/1780/books/350699375.pdf
https://psyera.ru/4906/etnicheskie-stereotipy-i-process-stereotipizacii

Sual 1. Sosial stereotiplər haqqında. İnsanların bir-birini qavraması prosesində sosial stereotiplərin (yunanca stereos – möhkəm, tupos – ad deməkdir) də rolu vardır. Stereotiplər müəyyən bir irqə, millətə, peşəyə və s. mənsub olan adamlar, qruplar haqqında adi şüur üçün səciyyəvi olan təsəvvürlər kimi meydana çıxır. Bu təsəvvürlər sadə, sxematik, hətta bəzən təhrif olunmuş xarakter daşısa da, stereotipləri təkcə bilik kimi təhlil etmək olmaz. Başqa mənada sosial stereotip dedikdə, sosial obyektlərin (qrupun, ayrı-ayrı insanların, hadisələrin və s.) haqqında nisbətən davamlı təsəvvürlər, mülahizələr sistemi başa düşülür. Bəs hər hansı sosial obyektin sosial stereotip zamanı davamlı təsəvvür və ya obrazının yaranmasını şərtləndirən cəhətlər hansılardır? Əvvəla, sosial obyekt haqqında kifayət qədər məlumatın olmaması şəraitində hər hansı fərdin öz şəxsi təcrübəsi və idrak səviyyəsindən asılı olaraq hasil etdiyi məlumata istinad etmək.

İkincisi, müəyyən qrup daxilində qəbul edilmiş, bəzən də qərəzli səciyyə daşıyan təsəvvür və mülahizələrə istinad etmək.

Psixologiya elminin, xüsusilə onun sosial və etnopsixologiya sahələrində istifadə edilən əsas analyışlardan biri də stereotip, sosial stereotip və etnik stereotip analyışlarıdır. *İlk növbədə onu qeyd edək ki, stereotip sözü yunan dilində* ***stereos möhkəm + tupos iz*** *deməkdir.* **Sosial stereotiplər** *hər hansı bir hadisə, qrup, tarixi şəxsiyyət, peşə, xalq haqqında yalnız müvafiq sosial məkanda yaşayan insanlar üçün səciyyəvi olan təsəvvürlərdən ibarət olan psixi hadisədir.* İnsanlar sosial stereotiplərə sosializasiya prose- sində yiyələnirlər. "Sosial stereotip" termini ilk dəfə amerikan sosioloqu ***U.Lipman*** tərəfindən **1922-ci ildə** "İctimai fikir" əsərində işlədilmişdir. U.Lipmana görə, stereotiplər mədəniyyətlə deter- minasiya olunan, nizamlanan "dünya təsviridir" və onun köməyi ilə mürəkkəb sosial obyektlərin qavranılması üçün göstərdiyimiz səylərə qənaət edir və dəyərləri, mövqeyimizi və hüququmuzu mü- dafiə edirik. Başqa sözlə ifadə etsək, stereotiplər sosial informasiya axınında insanı istiqamətləndirir və ona özünü qiymətləndirməsini qorumağa kömək edir. Stereotiplər sadə, ümumiləşmiş və bəzən də təhrif olumuş şəkildə olduğu üçün o qədər də etibarlı deyildir. Hər bir stereotipdə sosial obyektlər haqqında müəyyən biliklər öz əksini tapır, lakin onların əsas funksiyası heç də bunula bağlı deyildir. Stereotiplər əsasən sosial obyektlərə (peşə, xalq, qrup, müəyyən sinif, əhali təbəqəsi və s.) müəyyən münasibət yaradır, eləcə də fərdin sosializasiyasına kömək edir. *Stereotiplər insanların şəxsi təcrübəsinin ümumiləşdirilməsi əsasında formalaşdırılr. Adətən tamaşa etdiyimiz filmlər, oxuduğumuz müxtəlif ədəbiyyat nümu- nələri, eşitdiyimiz əhvalatlar və söhbətlər, eləcə də şahidi oldu- ğumuz hadisələr müəyyən sosial obyekt haqqında müvafiq stereo- tipin yaranmasına eləcə də olan stereotipin daha da möhkəm- lənməsinə səbəb olur.* Sosial stereotiplər bir tərfdən insanların, xalqların bir-birini yaxşı başa düşməyə, digər təfrəfdən də düzgün dərk etməsinə mane olur. Deməli, əsas məsələ sosial stereotipin adekvatlıq dərəcəsindən çox asılı olur. Sosial stereotipin yaranması bir tərəfdən müvafiq sosail obyektə olan münasibətdən, digər tərəfdən həmin obyekt haqqında əldə etdiyimiz məlumatın nə dərəcədə həqiqəti əks etdirməsindən asılıdır.

Müasir dövrdə qloballaşma şəraiti, dünya xalqları arasında inteqrasiyanını güclənməsi, xalqlar haqqında əsassız şəkildə formalaşmş olan neqativ stereotiplərin aradan qalxmaslına köməklik göstərir.Lakin, bəzi hallarda xalqlar, millətlər arasında olan konfliktlər, maraqların toqquşması və yaxud qarşıdurmanın olmasında marağı olan daxili və xarici qüvvələr qəsdən neqativ stereotiplərin yayılmasına səy göstərirlər. Dünyada siyasi balansın tənzimləyiçisi rolunda çıxış edən SSRİ-nin süqutundan sonra bəzi xristian ölkələri, dünyaya təkbaşına hakimlik etmək üçün "müsəlman" stereotipi yaratmış və islam, yaxud müsəlman ölkələrində, islam mədəniyyəti üçün səciyyəvi olan xüsusiyyətlər haqqında neqativ heterostereotiplər formalaşdırmaqla, həmin xalqlar qarşı təhdidlər edirlər.

Stereotiplərdə sosial obyektlər haqqında müəyyən biliklər öz əksini tapır, lakin onların əsas funksiyası heç də bununla bağlı deyildir. Məs: mühasibat işçiləri haqqında stereotiplərdə onlar xəsis, quru adamlar kimi təqdim olunurlar.

Sosial stereotip bəzən müsbət, bəzi hallarda isə mənfi rol oynaya bilər. Yəni, sosial stereotip bir sıra hallarda isə mənfi rol oynaya bilər. Yəni, sosial stereotip bir sıra hallarda subyekt tərəfindən sosial sosial gerçəkliyi dərk etməyi, onu qiymətləndirməyə köməklik göstərir, çünki dəyişən şəraiti ətraflı dərk etmək, ona dəqiq reaksiya göstərmək mümkün olmadığı halda, mövcud fikir və mülahizələrə istinad etmək "idraka qənaət prinsipi" nöqteyi-nəzərindən əhəmiyyətlidir. Bir sıra hallarda sosial stereotiplər subyektin qavrayışının düzgünlüyünə və dəqiqliyinə xələl gətirə bilir, yəni "hazır mülahizələrə, təsəvvürlərə" əsasən gerçəkliyi əks etdirmək və qiymətləndirmək qeyri-adekvatlığı ilə diqqəti cəlb edir. Başqa sözlə, sosial stereotiplə qavranılan, dərk edilən obyekt haqqında məhdud informasiyaların olması şəraitində başqalarını yaxşı tanımadan onun haqqında fikir yürütmək, onu bu və ya digər nöqteyi-nəzərdən qiymətləndirmək səhv nəticələrə də gətirib çıxara bilər. Odur ki, sosial stereotipin həqiqi və yanlış olması konkret şəraitin və faktların təhlili əsasında təyin edilə bilər. Bir cəhət də nəzərə alınmalıdır ki, istənilən sosial stereotip bir halda həqiqi olarsa, başqa halda tamamilə yanlış, hətta yalan ola bilər. Yəni o, şəxsiyyətin ətraf mühitdə öz mövqe və istiqamətini təyin etmək üçün səmərəsiz və

ya əlverişsiz yol seçə bilər. Deməli, burada stereotipləşdirmə adekvat şəkildə baş verməmişdir.

Psixoloji cəhətdən stereotipləşdirmə oxşar əlamət və keyfiyyətləri hər hansı sosial qrupun və ya etnik birliyin bütün üzvlərinə aid etməkdə özünü biruzə verir. Sanki bu halda onlar arasında heç bir fərq qoyulmur və belə bir fərqin olması hətta kifayət qədər aydın dərk edilmir. Amma buna baxmayaraq stereotipləşdirmə psixoloji cəhətdən bir sıra mühüm funksiyaları yerinə yetirir. Bunlar, ilk növbədə, şəxsiyyətin və qrupun identifikasiyasını (bənzərliyini, oxşarlığını, eyniyyətini) təsdiq etmək, başqa qruplara neqativ münasibətin olması imkanlarına bəraət qazandırmaq və s.-dir.

Sual 2. Şəxsiyyətin yönəlişləri. Stereotip sosial yönümlə sıx surətdə əlaqədardır və əmələgəlmə mexanizminə görə bunlar çox yaxın olduğu üçün çox zaman onları birlikdə, başqa sözlə yanaşı işlədilir, sosial stereotip və yönümlər, yaxud etnik stereotip və yönümlər.

Yönüm və ya yönəliş anlayışının psixoloji mənasını açdıqda bu cəhət aydın surətdə nəzərə çarpır. Sosial yönəliş subyektin bu və ya digər obyektə münasibətdə təzahür edən fəaliyyətinin davamlı və məqsədəyönəlmiş şəkildə cərəyanını təmin edən daxili hazırlıqdır. Bu daha çox insanın keçmiş təcrübəsinə istinadən və ya ondan asılı olaraq fəaliyyət göstərməsini (yəni bu və ya digər şəkildə hərəkət etməyə hazır olmağı) bildirir. Başqa sözlə, sosial yönəliş fərdlərin müəyyən qrup və ya birlik üzvü kimi hər hansı sərvətlərə subyektiv istiqaməti kimi təzahür edir, yəni sosial cəhətdən qəbul edilmiş davranış normasına uyğun olaraq hərəkət etməsinə daxilən hazır olmasını ifadə edir.

Elmdə yönəlişlik anlayışı ilk dəfə 1862-ci ildə Herbert Spenser tərəfindən işlənmişdir. XIX əsrin sonları XX əsrin əvvəllərində müxtəlif psixi prosesləri və s. təsvir etmək üçün müxtəlif psixoloqlar (Q.Miller, T.Simon, Ax.Tomas, F.Znanetski) və b. həmin anlayışlardan müxtəlif mənalarda istifadə etmişlər.

Yönəlişlik haqqında ümumi nəzəriyyəni isə 20-ci illərin sonu 30-cu illərin əvvəllərində gürcü psixoloqu D.N.Uznadze yaratmışdır.

Yönəlişlik fərdin fəallığının əsasını təşkil edir. Bunu sxematik olaraq aşağıdakı şəkildə göstərə bilərik:



Deməli, yönəliş müəyyən şəraitdə şəxsiyyətin davranışının necə olacağını qabaqcadan müəyyənləşdirməyə imkan verir.

Yönəliş fəaliyyətdə mühüm rol oynayır və bir sıra funksiyaları yerinə yetirir:

a)Yönüm və yönəliş fəaliyyətin davamlı, ardıcıl və məqsədyönlü xarakterdə cərəyan etməsini təyin edir, onun fasiləsiz olaraq dəyişən şəraitdə stabilləşdirilməsi mexanizmi kimi çıxış edir.

b)Yönəliş və yönüm subyekti əvvəllər rast gəldiyi, standart şəraitlərdə fəaliyyətin cərəyanı ilə bağlı ixtiyari qərar qəbul etmək və ona nəzarət etmək zərurətindən azad edir, çünki işin gedişi və başvermə şəraiti artıq ona bəllidir və onda bu məsələyə artıq müəyyən daxili hazırlıq mövcuddur.

c)Yönüm yaxud yönəliş eyni zamanda fəaliyyətin gedişinə bəzən özünün mühafizəkarlığı, ifrat adətkarlığı ilə maneçilik də törədə bilər. Yəni, ola bilər ki, iş şəraitində, onun icra mexanizmində, alət və vasitələrində müəyyən dəyişiklik baş vermiş olsun, lakin əvvəl yaranmış adətkarlıqdan əl çəkməməyə yaranmış yönüm və ya yönəliş təzə qaydada işləməyə mane olur. Bu da subyektin yeni şəraitə uyğunlaşmasını çox çətinləşdirir. Digər tərəfdən, sosial yönüm şəxsiyyətin oxşar şəraitlərdə eyni cür hərəkət etməsi üçün təsirli zəmin yaradır. Yəni subyekt hər dəfə hər şeyi özü üçün "yenidən kəşf etmək" zərurətindən xilas olur. Məqsədlə bağlı yönümlər şəxsiyyətin məqsədinin xarakteri ilə təyin edilir. Məqsədə münasibətdən, məqsədin xarakterindən asılı olaraq belə yönəlişlər nisbətən davamlı olur, yəni işin, hərəkətin davamlı cərəyanına ciddi təsir göstərir. Odur ki, qarşıdakı məqsədin keçici

və davamlı olması şəxsiyyətin fəaliyyətinə münasibətinə ciddi təsir göstərir. Davamlı məqsəd olduqda və fəaliyyətə yönüm yarandıqda iş, fəaliyyət kənar qüvvələrin təsiri ilə dayandırılırsa belə, subyektdə, həmin işi axıra çatdırmağa xüsusi cəhd özünü biruzə verir. Bu da "bitməmiş iş effekti" adlanır. Həmin effekt məhz yönümün – onu axıra çatdırmağa daxili hazırlığın yaranması ilə şərtlənir.

Sual 3: Etnik stereotip. Etnik yönümlər.

Etnik stereotip və yönüm də sosial stereotip və yönümün tərkib hissəsidir. Etnik stereotip və yönümlər nəsildən-nəslə verilərək, həmin etnos üzvlərinin əxlaqi adət və baxışlarında, inam və əqidələrində, davranış və rəftar tərzində, başqalarına, eləcə də, özünə münasibətdə təzahür edir. Onlara bələd olmadan etnosla əlaqə və münasibətlər sisteminin, rəftar tərzinin optimal yollarını müəyyənləşdirmək çətin olur.

Etnik stereotiplər bir halda fərdin özünün müşahidəsi nəticəsində, əksər hallarda isə sadəcə olaraq nəsildən-nəsilə ötürülmək yolu ilə mənimsənilir. Müasir dövrdə stereotiplərin yaranması və məhkəmləndirilməsində KİV və ölkə ərazisində aparılan sosial siyasət, eləcə də qonşu etnoslar , xalqlara, qruplara olan münasibət əsas rol oynayır. Məsələn, ermənilər türklər haqqında daima mənfi stereotip, ruslar haqqında isə müsbət stereotip yaratmaqla əhalidə müvafiq münasibətin əmələ gəlməsinə nail olurlar.

Etnik stereotiplər milli özünüdərkə, etnik identifikasiyaya təsir, millətdə "biz" hissini qoruyub saxlayan və inkişaf etdirən etnopsixoloji hadisədir.

Paternalizm siyasi ideologiya kimi inkişaf etməkdə olan ölkələrə və xalqlara göstərilən "atalıq qayğısı", bu məqsədlə kömək göstərmək, xeyirxahlıq etmək. Əslində isə bu "qayğıkeşlik" ölkənin siyasi və iqtisadi cəhətdən asılı vəziyyətə salmaq üçündür. Paternalizm həm də sahibkarın, özünün istisimarçı münasibət və fəaliyyətini gizlətmək üçün həyata keçirdiyi xeyriyyə tədbirləridir.

Ruslar yaxşı içki içən olurlar. Ailədə qısqanc deyillər. Yəhudlilər çox xəsis və varlı olurlar. İngilislər sabit insanlar deyil, hər şeydə öz xeyirlərini güdür və varlı olurlar. Afrikalılar temperamentli, almanlar dəqiq və yığımcıl, ingilislər soyuqanlı, fransızlar modabaz, qafqazlılar qanar təbiətli, azərbaycanlılar qonaqpərvər olurlar.

Avtostereotiplər əksərən müsbət, hetereostereotiplər isə həm müsbət, həm də mənfi olur. Etnik stereotiplər iki yerə bölünür: avtostereotiplər və heterosteretiplər.

Stereotip sözü yunan dilində stereos möhkəm + tupos-iz deməkdir.

Sosial stereotiplər hər hansı bir hadisə, qrup, tarixi şəxsiyyət, peşə, xalq haqqında yalnız müvafiq sosial məkanda yaşayan insanlar üçün səciyyəvi olan təsəvvürlərdən ibarət olan psixi hadisədir.

Etnik stereotiplər iki yerə ayrılır:

-avtostereotiplər;

-heterostereotiplər.

Autostereotiplər (auto stereo types) fərdin daxil olduğu qrupa (etnos, xalq, millət) aid olan ümumiləşmiş təsəvvürdür. Etnosun nümayəndələrinin öz etnosu haqqında olan fikir, mülahizə və qiymətlər sistemi nəzərdə tutulur. Bir qayda olaraq, avtostereotiplər müsbət qiymətləndirmə kompleksini əks etdirir.

Heterostereotiplər (hetero-stereotypes) başqa, yad qrupa (etnos, xalq, millət) aid olan ümumiləşmiş təsəvvürdür. Heterostereotiplər dedikdə həm də başqa etnoslar haqqında olan qiymətləndirmə və rəylər məcmusu nəzərdə tutulur. Bu etnosların qarşılıqlı münasibətlərinin tarixi təcrübəsindən, xarakterindən asılı olaraq həm müsbət, həm mənfi ola bilər.

Etnik stereotiplərin hər birisi ictimai-tarixi şəraitdən asılı olaraq ayrı-ayrı etnoslarda özünəməxsus psixoloji məzmun kəsb edir. Vundtun dediyi kimi, şəxsiyyət müəyyən mədəniyyətə xas olan tipik tərbiyə üsulları vasitəsilə formalaşır. Həmin tərbiyə üsulları etnik ümumiliyi, etnik stereotip və yönümləri də formalaşdırır. Belə tipik tərbiyəvi təsir sayəsində Azərbaycan etnosunda böyüyə hörmət, ailəyə bağlılıq, qonaqpərvərlik, ədalət hissi, ocağa bağlılıq, rəhmdillik, tez bağəşlamaq, kin və məkrdən uzaqlıq, başqa millət və xalqlara hörmət və s. kimi müsbət stereotiplər tarixən formalaşmışdır.

Haqlı olaraq qeyd edilir ki, ümumiyyətlə insanla, etnosla təbiət arasında daxili, fitri bağlılıq və harmoniya vardır. Hələ keçən əsrin əvvəlində hind və alman fəlsəfəsi etiraf edirdi ki, bizim təfəkkürümüzün səciyyəsi coğrafi şəraitlə təyin

olunur. Başqa sözlə, milli təfəkkür, fərdi səciyyə və əxlaq – bunların hamısı təbii relyef və mühitlə şərtlənir.

Əlbəttə, hər bir etnosun həm müsbət, həm də mənfi stereotip və yönümləri, etnik xüsusiyyətləri olur. Lakin bir cəhət nəzərdən qaçırıla bilməz ki, mütləq mənada mənfi və ya müsbət etnik xüsusiyyət yoxdur. Bu daha çox həmin etnik xüsusiyyətin istiqamətindən və təzahüretmə səviyyəsindən asılıdır. Məsələn: millətçilik öz mahiyyəti etibarı ilə millətini sevməyi, onun tərəqqisi naminə var gücünü istifadə etməyi, başqa etnik qurum və ya etnoslara hörmət və ehtiramı da özündə ehtiva edirsə, müsbət etnik keyfiyyət kimi təzahür edir. Amma millətçilik hüdudu etnosentrizm, şovinizm səviyyəsinə enirsə, yalnız öz millətini sevməyə, başqalarına isə yuxarıdan aşağı baxmağa xidmət edirsə, hətta onların mənafeyini tapdalayırsa, onda mənfi xüsusiyyətə çevrilir. Deməli, etnik xüsusiyyətlərin, eləcə də etnik stereotip və yönümlərin müsbət və mənfi olması arasında qəribə bir dialektik əlaqə var.

Ethik stereotiplərin digər mühüm xüsusiyyəti onların *davamlı* olmasıdır. Yəni formalaşmış olan stereotip uzun müddət işləyir, qarşılıqlı münasibətə təsir göstərir. Stereotipin dəyişməsi, yenisi ilə əvəz olunması xeyli müddət tələb edən, çətin prosesdir. Etnik stereotiplərin digər xüsusiyyətləri onların razılaşdırılmış və qeyri dəqiq olmasıdır. A.Teşfel etnik stereotiplərin razılaşdırılmış əlamət olmasını vacib şərt hesab edir və qeyd edir ki, qrup üzvlərinin böyük əksəriyyətinin fikir, hiss və davranışında özünü göstərdiyi halda, həmin hadisəni etnik stereotip kimi qəbul etmək olar. Etnik stereotipərin qeyri-dəqiq olması qarşılıqlı münasibətlərin düzgün qurulmasına, şəxsiyyətlərarası qavrayışda konfliktlərin yaranmasına səbəb olur. 50-ci illərdən başlayaraq amerikan psixoloqu O.Klaynberq "həqiqət rüşeymi" fərziyyəsinin irəli sürdü və bu fərziyyəyə görə stereotiplərdə həqiqi biliklər, yalançı məlumatlardan həmişə çox olur. Beləliklə, etnik stereotilər gerçəkliyi nə qədər təhrif olunmuş şəkildə əks etdirsə də, biz onu real həyatdan alırıq. Beləliklə, etnik stereotiplər, əksər hallarda stereotipləşdirilən qrupun real xüsusiyyətlərini əks etdirir.

Atribusiya (attribution) özümüzün və ya başqasının davranışının səbəbi haqqında hasil etdiyimiz qənaətdir.

Sosial kauzal atribusiya dedikdə başqasının davranış və hərəkətinin səbəbinin izah edilməsi başa düşülür. Etnik birliklər, ayrı-ayrı qruplar arasında konflikt,

problem bəzi hallarda iştirakçıların bir-birinin davranışının səbəbini düzgün başa düşə bilməməsi ilə bağlıdır. Müəyyən edilmişdir ki, adətən qrup üzvləri əldə etdikləri naliyyətləri, yaxşılıqları, müsbət hərəkətləri, xeyirxahlığı öz adlarına çıxır, daxili keyfiyyət hesab edir, uğursuzluqları, koflikti, mübahisəni, neqativ davranışı, aqressiv hərəkəti isə başqaları ilə onların pis hərəkəti ilə şərtləndiyini göstərirlər. Aparılmı tədqiqatlarla bir daha təsdiq olundu ki, insanlar öz qruplarının pozitiv, başqa qrup üzvlərinin, yəni başqa xalqların isə neqativ hərəkətlərinin səbəbini daxili amillərlə, yəni xalqın və etnosun daxili keyfiyyətlərilə əlaqəli olduğunu sübut etmişlər. Özünkülərinin pis hərəkətlərini, başqalarının isə yaxşı hərəkətlərini xarici səbələrlə əlaqəli baş verdiyini göstərirlər. Öz və başqa qrupunu uğur və uğursuzluğunu bu cür izahı etnosentrik atribusiya adlanır. Sosial atribusiyanın ən əsas funksiyası-pozitiv qrup identikliyini formalaşdırmaq, ona nail olmaq və gücləndirməkdir.

Etnik stereotiplər sosial mühitin heykəltaraşı kimi qrupun və ya fərdin davranışında "artıq" olanı yonub "təmizləyir, onu müvafiq mühitə daha asanlıqla uyğunlaşmasını təmin edir.

Etnik stereotiplərin məzmununda emosional qiymətləndirmə var. Belə ki, stereotiplərin həm koqnitiv, həm də emosional aspekti var. İnsanların başqa qruplara olan münasibəti, onlarla bağlı formalaşan stereotipdə özünü göstərir. Bu mənada stereotiplər həm müsbət, həm də mənfi emosional yükə malik olur.

S.Fisk stereotiplərin dörd növünü ayırd etmişdir:

- *nifrət stereotipi bu stereotip adətən "yad, özgə" aşağı statuslu və mötəbər olmayan qruplara münasibətdə özünü göstərir, "soyuq" kimi qiymətləndirilir;*

- *heyranlıq stereotipi bu stereotip özünkülər hesab etdiyi qruplara münasibətdə təzahür edir və onlara mötəbərlilik, yüksək status və "istilik" aid edilir.*

- *həsəd stereotipi bu stereotip yüksək statuslu, yad, özgə, mötəbər, lakin "soyuq" qruplara münasibətdə özünün göstərir;*

- *paternalist stereotipi isə aşağı statuslu, mötəbər olmayan lakin, "isti" olan qruplara qarşı münasibətdə özünü göstərir.*

Mövzu 9. Etnofəqrləndirici əlamətlər-etnosnetrizm

Plan:

1. Etnosentrizmin mahiyyəti haqqında
2. Etnosentizmnin növləri haqqında

Ədəbiyyat

1. .Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
2. Bayramov Ə.S.Etnik psixologiya.Bakı, 2001
3. Bayramov Ə.S. Etnik psixologiyanın məsələləri. Bakı,1996
4. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik, Bakı,2007
5. Əliyev R.İ. Psixologiya.B.: Nurlan,2008.
6. Bayramov Ə.S. Psixoloji düşüncələr.Bakı,1994

- **Mövzu ilə bağlı elektorn resurslar**
- https://sesqazeti.az/news/kivdf/199807.html
-
- http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Sosial%202015%203/125-133.pdf
- http://www.elibrary.az/docs/JURNAL/jrn2018_688.pdf

1. Etnosentrizmin mahiyyəti haqqında

Etnosentrizm (yun. Ethnos tayfa, qrup, xalq; lat.centrum mərkəz, cəmləşmə) etnopsixologiyanın təhlil vahidi olub, onun istifadə etdiyi əsas anlayışlardan biridir. Etosentrizm anlayışını elmə ilk dəfə 1883-cü ildə avstriya sosioloqu İ.Qumploviç

gətirmişdir, amerikan alimi U.R.Semner isə 1906-cı ildə həmin anlayışdan geniş surətdə istifadə etmişdir. U.R.Semner hesab edir ki, etnosentrizm fərdin hər şeyin mərkəzində öz qrupunu qoyması və ətrafda baş verən hadisələri onunla ölçməsi və ona istinad edərək qiymətləndirməsi meylidir. Etnosentrizm fərdin və ya qrupun ətraf mühitdə baş verən sosial hadisələri aid olduğu qrupun norma və dəyərləri əsasında qavraması, qiymətləndirməsi və münasibət bəsləməsindən ibarət olan hadisədir. Bu zaman fərd aid olduğu mədəniyyətin dəyər və normalarını ideal və daha düzgün hesab edir, ona uyğun gəlməyənləri isə gerilik, elmdən, mədəniyyətdən uzaqda olan, vəhşilik kimi qiymətləndirir. Etalon kimi müxtəlif vasitələr götürülə bilər: din, dil, ədəbiyyat, geyim, mətbəx, oyunlar və s.

Etnosentrizm sosial-psixoloji hadisə olub qruplararası münasibəti əks etdirir. Əksər hallarda bu termin neqativ məna kəsb edir və bir insanın təsirinə məruz qaldığı sosial mühitin diktəsinə uyğun olaraq başqa insanı başa düşməmək kimi izah olunur. Sovetlər dönəmində sovet tədqiqatçıları etnosentrizmi-neqativ sosial hadisə hesab etmiş və onu millətçilik və rasizimlə eyniləşdirmişlər. Etnosentrizmi yalnız neqativ aspektdən qavramaq və izah etmək heç də düzgün deyildir. Çünki, etnosentrizm normal psixoloji funksiyadır və insan psixikasına xas olan xassədir. O, bir halda etnos üçün pozitiv identikliyin qorunub saxlanılmasına kömək edən sosial-psixoloji hadisədir. Etnosentrizm insanın psixi həyatının ayrılmaz tərkib hissəsidir. Etnosentrizm insanlar üçün mədəniyyət süzgəci funksiyasının yerinə yetirir.

Hər bir fərdin sosial mühiti, daxil olduğu mədəniyyət fərqlidir. Insan ətraf aləmdə baş verən hadisələri, insanların fikir, hiss və hərəkəırtlərini daxil olduğu mədəniyyətin qanunlarına uyğun olaraq qavramağa və qiymətləndirməyə meyilli olur. Amerikan psixoloqu D.Matsumoto etnosentrizmi belə izah edir: "Etnosentrizm-insanın məxsusi mədəniyyət süzgəclərindən istifadə etməklə dünyanı qiymətləndirmək meylidir". Mədəniyyət süzgəci dedikdə, insanların sosializasiya vasitəsilə davranış və əxlaq normaları, sərvət dəyərləri və s. sosial həyat haqqında olan bilikləri başa düşülməlidir, yəni, insanlar yaşadıqları cəmiyyət haqqında biliklərə yiyələnməklə, müvafiq süzgəclərə sahib olur.

Etnosentrizmi insan psixikasının səciyyəvi xüsusiyyəti olduğu üçün birmənalı şəkildə müsbət və ya mənfi adlandırmaq mümükün deyil. Bu xüsusiyyətləri vəhdətdə götürmək lazımdır.

Etnosentrizm fərdin öz mədəniyyətinə qovuşmağının və sosializasiyasının normal nəticəsidir. İnsan sosial mühitdə davranış normaları ilə əvvəlcə tanış olur, sonra isə onları mənimsəyir və əməl edir. Sosial psixi həyatın əvvəl interpsixi, sonra isə intrapsixi kökə malik olması psixoloji müntəxəbatdır. Mədəniyyət, insanların davranışını tənzim edən və ona nəzarət edən çoxsaylı qaydalardan ibarətdir. Məsələn, öyrənirik ki, ictimai nəqliyyatda qadınlara, yaşlılara və uşaqlara yer vermək lazımdır. Bu qaydalar bizim müvafiq mühitdə davranışımızı formalaşdırır, tənzim edir. Onlara əməl etmədikdə isə ən azı ictimai qınaqla rastlaşır, bəzən isə tənbeh olunuruq. Məsələn, əgər oğlan uşağı ağlağan olursa, o, öz yaxınlarının, ailə üzvlərinin ya da həmyaşıdlarının gülüş və tənqid obyektinə çevrilir. Ya da bu hərəkətinə görə ona müəyyən ləqəb verirlir. Nə qədər ki, balacayıq, mövcud davranış normalarını mənimsəməliyik və onları xarakterimizdə möhkəmləndirməliyik.

Valideynlər, dostlar, yaxınlar və digər sosial institutlar daima bizə həmin normaları xatırladırlar. Digər sosializasiya institutları da həmin müvafiq normaları təbliğ edir və davranışda möhkəmləndirməyə çalışırlar. Artıq yaşa dolduqdan sonra həmin qaydaları bizə heç də heç kim xatırlatmır.

Qəbul edilmiş davranış normalarına münasibət bütün yaş dövrlərində eyni olmur. Müşahidələr göstərir ki, həmin qaydalar ən çox yeniyetməlik dövründə pozulur. Bir növ yeniyetmələr həmin normalara şübhə ilə yanaşır və onların hakimiyyətini qəbul etmək istəmirlər.Bu səbəbdən də onlar həmin yaş dövründə yeni davranış modeli və nümunəsi axtarırlar. Bu yaş dövrü ötüb keçdikdən sonra, yeniyetmələrin böyük əksəriyyətində reakkulturasiya (öz mədəniyyətinə yenidən daxil olma) baş verir. Reakkulturasiya bir tərəfdən sosial mühitlə, digər tərəfdən isə fərdi-psixoloji xüsusiyyətlə bağlı olaraq baş verir. Bəzən elə olur ki, reakkulturasiya yeniyetməlik yaşının sonunda, bəzən də elə olur ki, fərdin yaşlılıq mərhələsində baş verir. Adətən bu proses, yəni fərdin akkulturasiyası əmək fəaliyyətinə başladıqda özünü göstərir. Insanlar müvafiq mədəniyyət normalarının mənimsəməklə kifayətlənmirlər, həm də ətrafdakı insanların da hərəkətlərini qiymətləndirir və onların müvafiq normalara uyğun olub-olmadığını müəyyən edirik.

Beləliklə, öz mədəniyyətimizə daxil olmaqla təkcə müvafiq davranış normalarını mənimsəmirik, həm də başqa insanların da hərəkətlərini necə qavramağı və şərh etməyi öyrənirik. Mədəniyyət

hər bir insanda psixoloji qaydalar, ustanovka, attiyudların özünəməxsus birliyi kimi mövcuddur. Bu qaydalar bizim insan, şəxsiyyət və əxlaqi dəyərlər haqqında olan fikir və hisslərimizlə bağlıdır.

2. Etnosentrizmin növləri

Etnosentrizm-hər bir insan üçün səciyyəvi olan psixi hadisədir. Sadəcə olaraq, insanların bir qsmi onun olduğunu dərk etdiyi üçün etiraf edir, digər qismi isə fərqli şərh və izahın olmasını qəbul etmir. Müasir psixoloji ədəbiyyatlarda (D.Matsumoto, 2008) etnosentrizmin 2 növü göstərilir: çevik və qeyri-çevik etnosentrizm.

Çevik etnosentrizm aşağıdakı xüsusiyyətlərdə təzahür edir.

a) İnsan dərk edir ki, onun daxil olduğu mədəniyyət ətrafda baş verən hadisələri öz süzgəcindən keçirməklə həmin hadisələrə özünəməxsus rəng və ya emosional boya bəxş edir.

b) Daxil olduğumuz mədəniyyət, fərqli şəkildə münasibət bəsləməkdə, hərəkətlər etməkdə, qavramağımıza, qiymətləndir-məyimizə və ya həmn hadisəni müvafiq formada izah etməyimizə təsir göstərir.

c) Fərqli mədəniyyətin nümayəndəsi, fərqli şəkildə münasibət bəsləyir və hərəkət edir.

Qeyri-çevik etnosentrizm isə qeyd olunan bu xüsusiyyətlərdən uzaq olan etnosentrizmdir. Çevik etnosentrizm, hər hansı etnopsixoloji hadisə ilə bağlı "onları belə öyrədiblər", "onlar belə adət ediblər", "biz deyə bilmərik ki, yaxşıdır yoxsa pis" və s. kimi fikirlərlə izah edirlər. Qeyri-çevik etnosentrizmdə isə hadisələr və ya onlara olan münasibət "onlar dəhşətdirlər", "heç belə şey olar", "bax elə buna görə də onlara nifrət edirik", "doğurdan bu belədir? " və s. sözlərlə şərh olunur.

Etnosentrizm (etnosentrizm) insanın ətrafda baş verən hadisələri yalnız öz mədəniyyəti süzgəcindən keçirməklə qavraması və qiymətləndirməsidir. Etnosentrizm müxtəlif ifadə dərəcəsinə malikdir. Bəzi tədqiqatçılar onun səbəbini etnosun, xalqın mənsub olduğu mədəniyyət tipi ilə əlaqələndirirlər. Belə bir fikir mövcuddur ki, öz qrup üzvləri ilə daha sıx bağlı olan kollektivist mədəniyyətin nümayəndələri, individualistlərlə müqayisədə etnosentrizmə daha çox meyilli olurlar. İsənilən halda etnosentizmin təzahür dərəcəsi daha çox sosial amillərlə, sosial struktur və etnoslararası münasibətin xarakterindən asılıdır.

Azlıqların nümayəndəsi (say və statusa görə az və aşağı olan) öz qruplarına daha çox üstünlük verir etnosentrizmə meyl edə bilər.Etnik birliklər arasında münaqişə olduqda və digər arzuedilməz sosial şəraitdə etnosentrizm daha kəskin formada təzahür edir. Bu cür etnosentrizm davakar etnosentrim adlanır. Davakar etnosentrizm nifrət, inamsızlıq və qorxudan və ya öz uğursuzluğa görə başqa qrupları günahlandırmaqda ifadə olunur. Etnosentrizm həm də güzgülü qavrayış analmı ilə da bağlıdır. Güzgülü qavrayış münaqişə edən tərəflər, pozitiv əlamətlərlə özünü, neqativ əlamətlərlə isə qarşı tərəfi qiymətləndirilir. Buna görə də öz qrupunu yüksək əxlaq və mənəvi əlamətlərlə, sülhpərvər, insansevər və altruist, əks tərəfi isə qəsbkar, insanlığın düşməni ona qənim kəsilən və yalnız isə özünün eqoist marağını ifadə edən sosial-psixoloji hadisədir.

Müasir dövrdə dünya daha çox avropasentrizm və ya amerikansentrizm adlı psixoloji fenomenlə qarşılaşmışdır. Bu meyarlardan kənarda qalan hər şey antidemokratik və qeyri-humanist adlandırılır. Etnosentrizmin ən sadəlöhv forması, onun daşıyıcılarının öz dəyərlərini bütün planet sakinləri üçün universal hesab etmələridir. Məsələn, avropasentrizm görə eynicinsli insanlar arasında nigahın qadağan olunması antidemokratik və qeyri-humanist hərəkətdir. Avropada əhalinin 70% vətəndaş nigahı əsasında ailə qurur. Bu ideyanın dünyanın digər ölkə və xalqlarına təqdim və təbliğ olunması da müvafiq etnosentizmdən qaynaqlanır. Etnosentrizmin məzmunu belədir: “biz”, “onlardan” yaxşıyıq; bizim qrup, etnos, xalq, millət başqalarından daha xeyirxah, sülhpərvər, humanistdir. Ona görə də biz daha yaxşı yaşamağa layiqik, hamı bizimlə hesablaşmalı və hörmət etməlidir.Ona görə də ehtiyatlı olmalıyıq ki, başqaları bizim əraziyə soxulmasınlar, çünki bura yalnız bizə aiddir. Əgər kim isə bura gələrsə, onu çıxartmaq lazımdır. Burada etnosentrizm ərazi instinkti ilə bağlıdır”. Bu fikrə istinadən demək olar ki, monoetnik tərkibli ölkə vətəndaşlarında etnosentrizm, polietnik ölkələrlə müqayisədə daha güclüdür. Buna misal olaraq müasir Ermənistanı qeyd etmək olar. Hal-hazırda Ermənistan polietnik ölkə olduğu üçün, orada ermənilərdən başqa demək olar ki, heç bir xalqa rast gəlinmir.

Hesab etmək olar ki, etnosentrizm sosial-psixoloji fenomen olduğu üçün o əsasən, etnoslararası münasibətdən, sosial-siyasi şəritdən, dövlətin milli siyasətindən, aparılan ideolji təbliğatdan

asılıdır. İnsan qavrayışı həmişə keçmiş qavrayış materiallarına istinad edir. Hər bir millət, xalq öz mühitindən kənarda olan hadisələri qavrayarkən öz normalarını etalon kimi götürür ona əsaslanaraq qavrayır və qiymətləndirir. Qavradıqlarını necə qiymətləndirməsi isə həm də həmin xalqa olan münasibətdən asılıdır. Amma, onu da bilmək lazımıdr ki, hər hansı xalqa aid etdiyimiz milli xüsusiyyət müəyyən tarixi şəraitlə və mədəniyyətin təsirinin nəticəsidir.

Etnosentrizmin mahiyyətində heç də başqa xalqlara düşmən münasibət bəsləmək dayanmır. Onun mənfi istiqamət alması ölkədə aparılan milli siyasətlə əlaqədardır. Etnosentrizm heç də millətçilik, şövinizm demək deyildir. Etnosentrizm, müxtəlif millətlərin, sosial qruplarının maraqları toqquşduğu halda isə millətçiliyə və şövinizmə çevrilir. Etnosentrizmin milli ideologiya və psixologiya alətinə çevrilməsi millətlərarası ünsiyyətin yaradılmasında ən əsas əngələ çevrilir. Xalqın təfəkküründə başqa etnik qrupun obrazı hər şeydən əvvəl həmin etnik qrupla olan qarşılıqlı münasibətin tarixi xarakteri ilə müəyyən olunur. İki etnik qrup arasında qarşılıqlı münasibət əməkdaşlıq və qarşılıqlı anlaşma şəraitində olduqda, münasibət müsbət yönümlü olur və movcud fərqlərə tolerant münasibət formalaşır. Etnik qruplar arasında həyati maraqlar bir-birinə zidd gəlmirsə onda ustanovka maraq hiss ilə birləşir.(onlar bizə oxşamırlar mənasında) Etnik qruplar arasında konflikt, düşmənçilik olduğu halda isə vəziyyət tamamilə fərqli olur. Etnosentrizm insanın onu əhatə edən gerçəkliyi, özünün aid olduğu və etalon kimi götürdüyü etnik birliyin mövqeyindən qiymətləndirməsi və qavraması meylidir. Etnosentrizmin ən ifrat forması delegitimizasiyadır. Delegitimizasiya qrup və qrupların superneqativ sosial ölçülərlə kateqoriyalaşdırılması deməkdir.

Etnofərqləndirici əlamətlər (dil, din, adət-ənənələr, zahiri görkəm, musiqi, irq xüsisiyyətləri) delegitimizasiyanı asanlaşdırır. Delegitimizasiyanın həyata keçirilməsində məqsəd həmin etnosa qarşı, öz etnosunda nifrət hissinin aşlanılmasıdır. Delegitimizasiya, nəticə etibarı ilə deindividualizasiya ilə nəticələnir. Buna nail olmaqla düşmən etnosu ilə mübarizə aparmaq çox asan olur.

Delegitimizasiyada son məqsəd başqa qrup üzvləri haqqında "vəhşi" obrazının yaradılmasına nail olmaqdır. Çünki, belə təsəvvürün yaradılması, həmin xalqa qarşı daha rahat mübarizə aparmağa psixoloji əsas verir. Bütün bu cəhdlər onları öldürərkən

özünü günahkarlıq hissindən uzaq olmağa və törədilən qətl hadisələrinə görə bəraət almağa xidmət edir. Etnosentrik deliqitimizasiyaya misal olaraq Amerikanın aborigen əhalisinə (hindulara) qarşı "mədəni" avropalıların ilk dövrlərdə bəslədikləri münasibəti qeyd etmək olar. Bundan başqa ermənilər öz uşaqlarına təbliğ edirlər ki, guya azərbaycanlılar Novruz şirniyyatı hazırlayarkən, şəkərbura və paxlava xəmirini erməni qanı ilə yoğururlar.

Etnosentrizm insan psixologiyası üçün səciyyəvi xüsusiyyətdir və əgər o başqa xalqların mədəniyyətinə, həyat tərzinə, adət ənənələrinə hörmətlə, səbrlə yanaşırsa onda buna müəyyən mənada mənəvi cəhətdən haqq qazandırmaq olar.

11.Etnopsixologiyada mədəniyyət amili

Plan:

1. Mədəniyyət eynopsixoloji fenomen kimi
2. Mədəniyyət və şəxsiyyətlərarası cəlbetmə: məhəbbət və qarışıq nigahlar

3.Sosial davranışın tənzimlənməsinin mədəni müxtəlifliyi

3. Mədəniyyət və aqressiya
4. Mədəniyyət və dil

Ədəbiyyat:

19.Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020

20.Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001

21.Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004

22.Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007

23.Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

1. Mədəniyyət etnopsixoloji fenomen kimi

Mədəniyyətlərarası fərqlər özünü sosial davranışda göstərir: insanların qrupda münasibəti, şəxsiyyətlərarası cazibədarlıq, məhəbbət və qarışıq nigahlar, aqressiya və s.

Özününkü və özgələr qrupunda münasibətlərin struktur və formasında mədəniyyət fərqləri

Qrup psixologiyası sosial psixologiyanın ən qədim və məşhur sahələrdən biridir. Əksər insanlar öz qrupuna mənsubluğunu intuitiv olaraq hiss edirlər və özgələrini, yəni onların qrupuna mənsub olmayan insanları dərhal tanıyırlar.

Qrup təsnifatı ikili xarakter daşıyır və bütün insanları iki kateqoriyaya bölməyə imkan verir: özününkilər və özgələr qrupuna. Özününkilər qrupunda münasibətlər etibarlılıq, daxili yaxınlıq və sıx təmasla xarakterizə olunur. Özününkilər qrupunda münasibətlər dostluq sahəsində inkişaf edir.

Özgələr qrupunda münasibətlər başqa cür qurulur. Belə qruplarda sıx tanışlıqlar, etibarlılıq, yaxınlıq münasibətləri yaranmır. Belə qruplarda münasibətlər aqressiya, düşmənçilik, üstünlük və biganəlik hisslərin əsasında yaranır.

Lakin insanların sosial münasibətlərini iki kateqoriya çərçivəsində ölçmək olmaz. Hər bir kateqoriya daxilində müxtəlif dərəcəli yaxınlıq və tanışlıq münasibətləri var. Sosializasiya prosesində və mədəniyyətə qoşulma zamanı insanlar cəmiyyətin və mədəniyyətin standartları, qaydaları ilə tanış olurlar. Öz qruplarına daxil olan insanları fərqləndirməyə başlayırlar. Bütün ölkələrdə və bütün mədəniyyətlərdə qrup fərqləri mövcuddur. Hər bir mədəniyyətin nümayəndələri ünsiyyət saxladığı insanları fərqləndirməyi bacarmalıdırlar. Lakin müxtəlif mədəniyyətlərin nümayəndələri münasibətləri eyni cür qurmurlar. Digər mədəniyyətlərdə insanlar qrupa mənsubluğunu tamamilə başqa cür

müəyyənləşdirirlər. Bu isə qrup münasibətlərinin xarakter, forma və mahiyyətindən asılıdır. Müxtəlif mədəniyyətlərdə insanlar öz qrupa mənsubluğunu və qrupdaxili münasibətlərini müxtəlif cür təyin edirlər. Bir mədəniyyət daxilində bir qrupun üzvü olan insan başqa bir mədəniyyətdə eyni statusa malik olmaya da bilər.

Mədəniyyətlər qrup münasibətlərinin sabitliyinə görə də fərqlənirlər. Şimali Amerika mədəniyyətində qrupa mənsubluq - sabitlik göstəricisidir. Yəni insanların statusu qrupdan qrupa keçdikdə dəyişilmir. Bir qrupda olan dostlar elə digər qrupda da dost olaraq qalırlar. Məs, Asiya mədəniyyətlərində biznesmenlər özlərini müxtəlif qrupların üzvləri hesab edirlər və daxili məsələlərin müzakirəsində özlərini rəqib kimi aparırlar. Lakin beynəlxalq biznes məsələlərində bu insanlar bir qrupun üzvü kimi birləşib fəaliyyət göstərə bilirlər.

Özününkilər qrupuna münasibət

Kollektivist mədəniyyətlərdə insanlar az qrupun üzvüdürlər, amma qrupdaxili əlaqələr burda daha güclüdür. Özlərini qrupla daha çox eyniləşdirirlər və qrup özü şəxsiyyətin ayrılmaz bir hissəsinə çevrilir.

İndividualist mədəniyyətlərin üzvləri isə öz sərbəstliyini qrupun mənafelərinə qurban vermirlər. Onlar qrup üzvləri ilə az kontakda olur və asanlıqla bir qrupdan digərinə keçə bilirlər.

Müəyyən bir qrupda üzvlük belə mədəniyyətlərdə o qədər də böyük əhəmiyyət daşımır, nəinki kollektivist mədəniyyətlərdə.

Kollektivist mədəniyyətlər qrupun üzvlərindən daha çox harmoniya, konformizm və kooperasiya tələb edirlər.

İndividualist mədəniyyətlərdə daha çox fərdin şəxsi keyfiyyətlərinin inkişafına üstünlük verilir.

Özgələrə münasibət

Kollektivist mədəniyyətlərdə özününkilər qrupunda münasibətlər vacibdir. Qrupdankənar dayanan insanlara münasibətləri isə biganə olur. Belə insanlara qarşı onlar soyuq və ayrı seçkilik nümayiş edirlər.

İndividualist mədəniyyətlərdə isə başqa qrupların üzvlərinə

qarşı xoşniyyətli münasibət göstərirlər, qruplararası fərqləri o qədər də vurğulamırlar. Bu fərqlərə pozitiv və konstruktiv yanaşırlar.

Fiziki cazibədarlıq

Cazibədarlığın tədqiqatları göstərmişdir ki, müxtəlif mədəniyyətlərdə şəxsiyyətin qavrama prosesində yalnız fərqlər deyil, həm də oxşarlıqlar mövcuddur. Sosial psixologiyanın bu sahəsi müxtəlif mədəniyyətlərdə stereotip və etnosentrizmin anlaşılması üçün çox vacibdir. Çünki, qruplararası və şəxsiyyətlərarası münasibətlərin əsasını təşkil edir. Xarici görkəm və xüsusilə fiziki cazibədarlıq insan haqqında mülahizələrimizə təsir göstərir. Amerikalılar arasında keçirilmiş tədqiqatlar göstərmişdir ki, xarici görkəmi yaxşı olan insanları daha mehriban, ünsiyyətcil və maraqlı insanlar kimi qiymətləndirmişdilər. Eyni zamanda belə insanları daha ağıllı və səriştəli hesab edirdilər.

Xarici görkəmin digər aspektləri də insanların qavramasına təsir edir. Məs, hündürboy insan cazibədar, rəhbərlik qabiliyyətinə malik olan, səriştəli və yüksək maaş alan insanla assosiasiya olunur. Uşaq cizgilərinə malik insanları mülayim, mərhəmətli, sadəlövh, güzəştə gedən insan kimi qiymətləndirirlər. Üz cizgiləri böyük olan insanları isə güclü, praqmatik və aktiv hesab edirlər.

Gözəllik - nisbi anlayışdır və müxtəlif mədəniyyətlərdə insanlar gözəllik haqqında tamamilə müxtəlif təsəvvürlərə malik ola bilərlər. Cazibədarlıq anlayışının təyin edilməsində də mədəniyyət fərqləri təsəvvürlərin formalaşmasına təsir edə bilər.

Misal üçün yaponlar üçün cazibədar üz cizgiləri iri gözlər, balaca ağız və balaca çənədir. Koreyalılar üçün isə iri gözlər, balaca və gödək burun və balaca incə sifət daha cazibədar sayılır. Koreyalılar bu cizgiləri yetkinlik və qanışirinliklə bağlayırlar. Yaponlar isə bunu etmirlər. Bu nəticələr göstərir ki, yapon və koreya mədəniyyətində gözəlliyin müxtəlif standartları mövcuddur və gözəllik bu iki mədəniyyətdə müxtəlif psixoloji mahiyyət daşıyır.

2. Mədəniyyət və şəxsiyyətlərarası cəlbetmə: məhəbbət və qarışıq nigahlar

Müasir dövrdə digər etnik və mədəniyyət nümayəndələrinə tez-tez rast gəlirik. Mədəniyyətlərin qarşılıqlı təsiri gücləndikcə müxtəlif mədəniyyətlərdən olan insanların bir-birinə vurulması, nigaha daxil olması və ailə qurması ehtimalı artır. Qarışıq nigahlar artıq nadir hadisələr hesab olunmur. Lakin belə nigahlar bəzən

gərginlik, məyusluq kimi hisslər də yarada bilər. Psixologiyada bu problemlərə çoxsaylı tədqiqatlar həsr olunub. Psixoloqlar simpatiya, dostluq, məhəbbət, ehtiras kimi hissləri şəxsiyyətlərarası cəlbetmə anlayışı altında birləşdirmişdirlər. ABŞ-da şəxsiyyətlərarası münasibətlərin vacib hissəsini fiziki cazibədarlıq təşkil edir. Seçim zamanı kişilər qadının fiziki cazibədarlığına daha çox fikir verirlər. Psixologiyada fiziki cazibədarlığın mahiyyətini açmaq üçün bir neçə hipotezalar mövcuddur.

Cütlük fərziyyəsinə görə xarici görkəmi oxşar olan insanlar çox güman ki, bir-birlərini dost, nişanlı kimi seçə bilərlər.

Oxşarlıq fərziyyəsinə görə intim münasibətlərə daha çox eyni din, irq, sosial sinif, təhsil, intellektual səviyyəsi və xarici görkəmi oxşar olan insanlar daxil olurlar. Tərəf müqabillərin oxşarlığı bu münasibətlərə arxayınlıq elementini gətirir.

Qarşılıqlılıq fərziyyəsinə görə insanların o adamlardan xoşları gəlir ki, hansı ki, o adamların onlardan xoşu gəlir.

Məhəbbət nəzəriyyəsi

Hetfild və Berşayd romantik münasibətlərin iki növünü xarakterizə edirlər: ehtiraslı məhəbbət və dostluq-məhəbbət. Ehtiraslı məhəbbət seksual duyğu və güclü emosiyaları nəzərdə tutur. Dostluq sevgisi isə səmimi, etibarlı və tolerant münasibətləri nəzərdə tutur.

Sternberqin məhəbbət nəzəriyyəsinə görə məhəbbət üç komponentdən ibarətdir: ehtiras, səmimilik və sədaqətlilik. Bu komponentlərin olub-olmamasından asılı olaraq məhəbbətin 8 tipini qeyd etmişdir. Bütün komponentləri özündə ehtiva edən məhəbbət ən mükəmməl məhəbbətdir.

Müxtəlif ölkələrdə məhəbbət və romantik münasibətlərdə də mədəniyyətlərarası fərqlər mövcuddur. Məs., ABŞ və Almaniyada daha çox romantik münasibətlərə üstünlük verilir. İndividualist mədəniyyətlərdə romantik münasibətlər daha yüksək qiymətləndirilir, nəinki kollektivist mədəniyyətlərdə. Asiya mədəniyyətlərində məhəbbətdən daha çox dostluğa qiymət verirlər. ABŞ-da hesab edirlər ki, nigah üçün məhəbbət yeganə və zəruri şərtdir, lakin digər mədəniyyətlərdə belə düşünmürlər.

İnsanlar nigaha daxil olduqda müxtəlif konfliktlər qaçılmazdır, çünki iki insanın dünyagörüşündə və baxışlarında həmişə fərqlər mövcuddur. Mədəniyyətlərarası nigahlarda belə bir situasiyada daha da mürəkkəbləşir, çünki iki insan təkcə fərdi deyil, həm də mədəni fərqlərlə üzləşir. Mədəniyyətlərarası tədqiqatlar göstərir ki, belə nigahlarda konfliktlər bir neçə əsas səbəblərə görə yaranır: sevginin və səmimiliyin ifadə olunmasında çətinlik, nigah və uşaqların tərbiyəsinə baxışlarda fərqlilik. Digər potensial səbəb kişi və qadın gender rollarının anlaşılmasında fərqlilik, ailə büdcəsi baxışlarında fərqlilk və s. Müxtəlif mədəniyyətlərdə insanlar öz emosiyalarını müxtəlif cür ifadə edirlər. Müxtəlif mədəniyyətin nümayəndələri nigahla bağlı müxtəlif cür təsəvvürlərə malikdirlər. Amerikalılar üçün nigah iki sevən insanın birgə vaxt keçirməsidir, digər mədəniyyətlərin nümayəndələri üçün bu iqtisadi və sosial mənfəətlər əldə etmək və yaxud nəsil artırmaqdır.

Bəzən mədəniyyətlərarası nigahlarda uşaqlar anadan olandan sonra mədəniyyətlərarası fərqlər daha kəskin özünü göstərməyə başlayır. Burda ən çox mübahisə uşaqların tərbiyəsində yaranır.

Mədəniyyətlərarası nigahlarda bu səbəblərdən yaranan konfliktləri aradan qaldırmaq üçün konstruktiv metodlardan istifadə etmək lazımdır. Holl konfliktlərin aradan qaldırmasının 3 yolunu göstərmişdir: təslim olmaq (kapitulyasiya), kompromiss və yanaşı yaşama.

Təslim olmaq- öz mədəniyyətində qəbul olunmuş davranış vərdişlərindən imtina etmək və yoldaşın vərdişlərini götürməkdir.

Kompromiss- bu baxışlarda oxşarlığın tapılmasıdır.

Yanaşı yaşama- bu prosesdə ər-arvad öz fərqlərini qoruyurlar və bir-birlərini necə var elə də qəbul edirlər.

Kontekstual konstruktivizmdə iki insan arasında olan mədəniyyət fərqləri xüsusi kontekstdə yaranır. Bu fərqləri aradan götürmək üçün hər bir situasiyanın leyhinə və əleyhinə olan fikirləri müzakirə etməli və bundan sonra rasional qərarlar qəbul etməlidirlər.

Eyni zamanda nigahın daha da uğurlu olması üçün cütlük çevik və güzəştə getməyi bacaran olmalıdır.

Mədəniyyət və aqressiya

Uzun müddət aqressiya anlayışı tibbi, bioloji, irsi kateqoira kimi öyrənildiyinə görə psixoloji səhnəyə çıxarılmamışdır. Hal-hazırda isə aqressiya bir çox elm sahələri üçün əsasən də psixologiya elmi üçün həlli vacib olan aktual problemlərdən birinə çevrilmişdir. Elmi ədəbiyyatda aqressiyanın psixoloji mahiyyətinin və mexanizminin öyrənilməsinə bir sıra tədqiqatlar həsr edilmişdir.

Aqressiya başqa adamların və ya qrupların məhv edilməsinə, fiziki və psixoloji zərər yetirilməsinə, xəsarət vurulmasına yönəlmiş fərdi və ya kollektiv davranış və hərəkətlərdir.

Bioloji və fizioloji eksperimentlər göstərir ki, aqressiv davranışın yaranmasında ayrı-ayrı sinir mexanizmlərinin, hüceyrələrin rolu yüksəkdir. Bunun əksi olaraq son illərdə aqressiv davranışla bağlı tədqiqatlar, onun sosial amillərin təsirindən formalaşmasının sübüt edir. Bütün bunlara baxmayaraq aqressiya və aqressiv davranışı öyrənən bir çox nəzəriyyələr, məktəblər mövcuddur ki, onların hər biri lazımi arqument gətirməklə öz ideyalarını təsbit etməyə və vahid sistemə gətirməyə çalışırlar.

Mədəniyyət insanların aqressivliyə meylli olub-olmamasına da təsir göstərə bilir. Bir çoxsaylı kross-mədəni tədqiqatların nəticələrinə görə Venesuela və Braziliyada yanomami etnik qrupu öz aqressiv meyllər ilə məşhurdur. Həm öz qrupuna, həm də yad adamlara qarşı çox aqressivdirlər. Hətta bu qrupa "qəddar insanlar" adı veriblər.

Digər tədqiqatların nəticələrinə görə isti və rütubətli iqlimi

olan ölkələrdə qətllərin sayı yüksəkdir. Başqa bir tədqiqata görə isə estoniyalı iştirakçılar öz aqressiv davranışını hansısa məqsədə çatmaq üçün bir vasitə kimi istifadə etmişdilər. Fin iştirakçıları isə söyləmişdilər ki, aqressiya onları sadəcə əyləndirirdi. Müəllifər belə bir qənaətə gəldilər ki, Finlandiyada aqressiya daha çox qeyri-

normal bir davranışdır, nəinki Estoniyada.

Bond və onun əməkdaşları Hongkonqda və ABŞ-da aqressiv təhqir və tənqidi öyrənmişdilər. Müəlliflər güman etmişdilər ki,

Hongkonqda aqressiv təhqirlər və xüsusilə rəhbərin öz əməkdaşını təhqir etməsi aqressiv davranış kimi qəbul olunmur. Çünki, bu mədəniyyətdə hakimiyyət məsafəsi daha yüksəkdir, nəinki ABŞ-da. Deməli status və hakimiyyət bərabər olmayanda aqressiv davranış daha münasib olacaq. Nəticələr göstərir ki, çinlilər bu cür təhqirləri qanunauyğun hesab etmişdilər.

Aqressiyadakı mədəniyyət fərqləri təkcə müxtəlif ölkələrdə deyil, həm də bir ölkə daxilində də mövcud ola bilər. Bir tədqiqatda ABŞ-nın Şimali və Cənub ştatlarında doğulan ağ dərili kişilərin aqressivliyi müqayisə olunmuşdur. Eksperimentatorun köməkçisi iştirakçıları təhqir edirdi və onların reaksiyaları kameraya yazılırdı. Şimal ştatlarından olan kişilər təhqirə heç bir reaksiya vermirdilər. Cənub ştatlarından olan kişilər isə əksinə, təhqiri öz şərəflərinə bir təhlükə kimi qəbul edirdilər. Onlar həm fiziki, həm də koqnitiv olaraq aqressiyaya hazır idilər və aqressiv davranışa tez-tez keçirdilər. Müəlliflər bunu Cənub mədəniyyətindəki "namus" anlayışının olması ilə izah edirdilər. Buna görə də onlar daha çox aqressiv davranışa hazır idilər.

Digər tədqiqatlar göstərir ki, qruplar daha çox aqressiv olurlar, nəinki ayrı-ayrı fərdlər. Qrupda insanlar daha çox özlərinə güvənirlər və öz aqressiyalarını gizlətmirlər. Əgər qrupda mədəni normalar aqressiya üçün şərait yaradırsa bu halda aqressiv davranış təzahürləri mümkündür. Yox, əgər qrupdakı mədəniyyət normaları aqressiya üçün şərait yaratmırsa, insanların davranışı daha təmkinli olacaq.

Aqressiyanın təzahüründə mədəni fərqlər artıq uşaqlıq yaşlarından görünür. Bir tədqiqatda Finlandiya, Polşa və ABŞ-dan olan səkkiz yaşlı uşaqların aqressiyanın qavranılmasında fərqləri müşahidə etmişdilər. Bu tədqiqatlarda uşaqlar oyuncaqlardan istifadə edərək hekayə danışmalıydılar. Nəticələrə görə, amerikalı uşaqların hekayələri daha çox aqressiv məzmunlu idi, onlar aqressiv sözlərdən daha çox istifadə etmişdilər.

Bəzi alimlər aqressivliyin mədəni fərqlərinin mənbələrini təlim və mühitdə görürlər. Psixoloqlar müəyyən ediblər ki, mədəniyyətə qoşulma və sosializasiya prosesində aqressiyaya qarşı analar öz uşaqlarının yönəlişliklərinə təsir göstərirlər. Bir tədqiqatın nəticəsinə görə, yapon analar aqressivliyi təbii bir hal hesab edirlər və onun həm pozitiv, həm də neqativ elementlərini qəbul edirlər. Lakin başqa adamlara zərər verməməklə aqressiyanı nəzarətdə saxlamaq lazımdır. İsrail anaları isə aqressiyanı təhlükə kimi qəbul edirdilər. Aqressiyanı özünümüdafiə və neqativ emosional halların ifadə etməsi üçün məqbul hesab edirdilər.

3. Sosial davranışın tənzimlənməsinin mədəni müxtəlifliyi

Mədəniyyət anlayışı nəinki çoxaspektlidir, həm də çoxfunksionaldır. Mədəniyyətin bir çox mühüm funksiyaları içərisində ən vacib olanı - tənzimləyici funksiyasıdır, yəni mədəniyyət insanların davranışını bu və ya digər dərəcədə müəyyənləşdirir. İnsanların davranışlarının fərdiləşməsində mühüm mədəniyyətlərarası və şəxsiyyətlərarası fərqlər mövcuddur. Mədəniyyət insanların sosial davranışlarına təsir göstərir və insanların davranışlarını müəyyənləşdirir. Belə davranışları sosiotipik

davranışlar adlandırırlar. Bu davranış müəyyən mədəniyyətin tipik proqramlarını və icmalar üçün standart situasiyalarda olan davranışı tənzimləyir. Və eyni zamanda fərdləri şəxsi qərarların qəbul edilməsindən azad edir.

Sosiotipik davranışının tənzimləyicisi kimi ənənə çıxış edə bilər. Dünya elmində son onilliklər ənənə dedikdə daha geniş proses və hadisələr başa düşülür. Müasir dövrdə ənənə anlayışı mədəniyyət üçün sabit (stereotipik) olan davranış formalarının daxil edilməsinə görə daha da genişlənib. Əvvəllər ənənə və adətlərə həyatın müxtəlif sferalarına aid olan kateqoriyalar kimi baxılırdı: ənənə cəmiyyətin mənəvi həyatına, adətləri isə müşahidə olunan davranışlara aid edirdilər. Buna müvafiq olaraq etnopsixologiyada ənənələr kimi nəsildən nəsilə ötürülən insanın dünyaya münasibətin xüsusiyyətləri dəyərləri, maraqları, əxlaqi normaları öyrənilirdi, adətlər kimi isə davranışın sabit formaları və ya stereotipləri öyrənilirdi.
Mədəniyyət anlayışı daha geniş anlayışdır və ənənə termini onun mərkəzi bir hissəsidir. Müasir etnopsixologiyada ənənələrin məhz dəyərlər və normalar kimi öyrənilməsi daha geniş vüsət almışdır.
Ədəbiyyatın böyük bir həcmini təhlil etdikdən sonra U.Stefan və K.Stefan mədəniyyətin 11 ölçüsünü seçmişlər.
1. İndividualizm və kollektivizm və yaxud fərdi/qrup məqsədlərinə yönəlmə
2. Mədəniyyətdə qəbul edilmiş normaların pozulmasına tolerantlığın dərəcəsi
3. Qeyri-müəyyənlikdən uzaqlaşma dərəcəsi
4. Maskulinizasiya/feminizasiya, yəni mədəniyyətdə qadın/kişi üçün stereotip keyfiyyətlərinin qiymətləndirməsi
5. “Yaxşı”, “pis”, “qarışıq” kimi insan varlığının təbiətinin qiymətləndirilməsi
6. Mədəniyyətin mürəkkəbliyi, onun differensiasiya dərəcəsi
7. Emosional kontrol, yəni emosional ekspressiyanın mümkün ola bilən dərəcəsi
8. Əlaqələrin yaxınlığı, yəni ünsiyyət zamanı mümkün ola bilən məsafə və toxunmalar
9. Fərd və “hakimiyyət” arasında məsafə
10. Yüksək məzmunluq/aşağı məzmunluq, yəni situasi-yadan asılı olaraq davranışda fərqlərin maksimallaşması/ minimizasiyası
11. İnsan/təbiət dixotomiyası, yəni insanın təbiət

üzərində hökmranlığı, təbiətə tabe olması, təbiətlə harmoniyada yaşaması dərəcəsi.
“Mədəniyyət ölçüləri” müxtəlif çoxsaylı elementləri əhatə edir, cəmiyyəti və fərdin davranışını tənzimləyir. Lakin, bütün hallarda ənənələrin elementləri dəyərlər, normalar, adətlər strukturun mərkəzi elementləri kimi təhlil olunmalıdır. Triandis bunları “mədəniyyət sindromları” adlandırmışdır. Məs, individualizmin mədəniyyət sindromu kimi mədəniyyətin ayrıca fərdə yönəlməsidir, kollektivizmin isə mədəniyyət sindromu hər hansı bir kollektivə (ailə, etnos, dini qrup və s.) yönəlməsidir.
Bir çox mühüm tədqiqatçıların fikrincə (Triandis, Berri) mədəniyyətin kollektivə və ya şəxsiyyətə yönəlməsində ən mühüm fərqlər əks etdirilir.

İndividualizm və kollektivizm. Sosial psixoloqlar bu mövzuyla son zamanlar maraqlanmışlar, lakin antropologiyada, sosiologiyada və ümumi psixologiyada bu mövzuya çox ciddi tədqiqatlar həsr olunmuşdur. Ameriakn psixoloqu C.Brunerə görə idraki inkişafa iki əsas mədəni faktorlar təsir göstərir dəyərlərin ya kollektivə və ya fərdə yönəlməsidir. Brunerə görə, individualist yönəlmə daha çox müasir mədəniyyətlər, kollektivist yönəlmə isə ənənəvi mədəniyyətlər üçün xarakterikdir. Bu mədəniyyətlərdə şəxsiyyətin subyektivliyi tətbiq olunmur, əksinə insanın və dünyanın birliyi, reallığı ideyası əsasdır. İnsanın mühit üzərində hökmranlığın olmamasını Bruner kollektivist yönəlməsi ilə əlaqələndirirdi, çünki ənənəvi cəmiyyətdə fərd mühitin şərtlərinə təsir etmək imkanlarına malik deyil. O özünü fiziki reallığdan və başqa fərdlərdən daha az ayırır.

Amerikalı tədqiqatçı individualist və kollektivist yönəlməsini formalaşdıran faktor kimi uşaqların erkən hərəkətlərini böyüklər tərəfindən şərhini əsas tuturdu. Məs, Seneqaldakı uolof tayfasında olan balaca uşaqların hərəki fəallığı özü - özlüyündə izah olunmur. Yalnız tayfanın üzvlərinə münasibəti bildirən nişan kimi izah olunurdu. Brunerin fikrincə, hərəki aktların sosial şərhi uolof uşaqlarının gələcəkdə özünü daha çox qrupla eyniləşdirmə etməsinə səbəb olacaq və onlar fiziki, sosial hadisələri az fərqləndirəcəklər.
İndividualist mədəniyyətlərdə isə uşağın diqqəti fiziki aktivliyin digər tərəfinə yönəldilir. Onun hərəkətləri hərəki aktların uğurlu nöqteyi-nəzərindən şərh olunur, digər insanlar isə bu aktların reallaşması üçün əhəmiyyətsiz olurlar.
İndividualizm/kollektivizm dixotomiyası bir çox digər tədqiqatçıları da maraqlandırmışdır. Amerikalı antropoloq Hsyu amerikalıları və çinliləri müqayisə etmişdir. Onun fikrincə, amerikalıların bütün həyat tərzi ayrıca fərddə mərkəzləşdirilib, çinlilərin isə həyat tərzi daha çox situasiyalarda mərkəzləşdirilib.
Kollektivizm və individualizm mövzusunu Hofstedenin apardığı mühüm empirik tədqiqatlar zənginləşdirmişdir. O, öz tədqiqatlarını 50 ölkədə aparmış və nəticədə ən çox individualizmi ABŞ, Avstraliya, Böyük Britaniya vətəndaşları, ən az isə - Pakistan, Kolumbiya, Venesuela vətəndaşları nümayiş etdirmişlər.
İndividualizmin əsas mənası odur ki, insan ictimai məqsədlərə deyil, öz şəxsi məqsədlərə müvafiq olaraq qərarlar qəbul edir və hərəkət edir. İndividualist mədəniyyətlərdə "Mən" müstəqil, qrupdan kənar da yaşaya bilən bir vahid kimi müəyyənləşdirilir, fərdləri isə sosial qavrayışın əsas vahidləri kimi qavrayırlar. İndividualistlər nuklear ailədən başqa bir çox qrupların üzvüdürlər. Onlar ailə üzvləri ilə az identifikasiya olurlar və onlardan o qədər də asılı olmurlar. Qruplar fərdlərin davranışlarına az təsir göstərirlər. Hətta valideynlər uşaqlarının dostların, işin, yaşayış yerinin seçilməsinə az təsir edirlər. Qrup daxilində mübahisə və münaqişələr münasib hesab olunur. Emosional olaraq individualistlər özlərini başqalarından ayırırlar və təkliyə meyllidirlər.
İndividualist mədəniyyətin əsas dəyərləri əməllərində azadlıq, mülahizələrdə müstəqillik, əhatə üzərində hökmranlıq fərdə özünü hər bir mühitdə və ya təklikdə komfortlu hiss etməyə, başqalarından fərqlənməyə və müstəqil olmağa imkan verir.

İndividualist mədəniyyətlərdə davranış daha çox social yönəlişlərlə tənzimlənir nəinki qrup əxlaqı normalarla. Hətta belə mədəniyyətlərdə normaların pozulmasına normal baxılır orijinallığa, qeyri-adiliyə meyllilik alqışlanır. Mövcud olan normalar qrupdan asılı olmamağı həvəsləndirir pulları və əşyaları borc almaq qəbul olunmur.
Kollektivizmin əsas mənası qrup mənafelərinin şəxsi mənafelərindən üstünlüyü təşkil etməsidir. Kollektivist öz qərarlarının və hərəkətlərinin qəbulunda onun üçün mühüm olan cəmiyyət tərəfindən maraqlıdır. "Mən" qrup üzvlülüyü nöqteyi-nəzərindən müəyyənləşdirilir, sosial eyniləşdirmə daha önəmlidir nəinki, şəxsi eyniləşdirmə. Sosial qavrayışın əsas vahidləri isə qruplardır.
Kollektivistlər özlərini daha az qrupların üzvləri kimi dərk edirlər, lakin onlarla daha sıx bağlı olurlar. Onlar özlərini başqa insanların həyatlarına cəlb edilmiş hiss edirlər, çətin anlarda kömək etmək tələbatı üstündür, bağlılığı göstərmək, seçim situasiyasında məsləhətləşmək və s. xarakterikdir. İnsanlararası əlaqələrdən danışanda bunu qayğı sözü altında ümumiləşdirmək olar.
Fərdlərin davranışına qruplar çox böyük təsir göstərirlər. Ən mühüm qruplar - ailə, qohumlar, iş yoldaşları hesab olunur. Bu qruplarda insanlar başqaları ilə öz daimi statuslarına əsaslanan qarşılıqlı vəzifə və gözləmələrlə bağlıdırlar.
Triandis kollektivizmin iki tipini göstərir: şaquli və üfüqi.
Şaquli kollektivizmdə qrup üzvlərinin iyerarxiyası yüksək vurğulanır. Özünütəyinetmə qrup iyerarxiyasında xüsusi yerlə bağlıdır, fiziki və sosial məkan isə "hörmətli, az hörmətli" terminlərlə müəyyənləşir.
Üfüqi kollektivizmdə isə qarşılıqlı asılılıq və birlik yüksək vurğulanır.
Kollektivizm mədəniyyətin əsas dəyərləri ənənələrə riayət etmə, borc hissi, tabeçilik qrupun birliyinin qorunmasına, onun üzvlərinin qarşılıqlı asılılığına və harmonik münasibətlərə səbəb olur.
Kollektivist mədəniyyətlərdə qrup normaları davranışın daha vacib tənzimləyicisidir. Düzgün davranış, adətlərə görə yaşamaq daha yüksək qiymətləndirilir. Qrupdan asılılıq normativ həvəsləndirilir: pulların və ya əşyaların borc edilməsi münasibətlərin qorunmasına səbəb olur.

4.**Mədəniyyət və dil**

Mədəniyyət dilin strukturuna və funksional istifadəsinə təsir edir və dil özü də mədəniyyətin bir təzahürüdür. Dil də eyni zamanda bizim mədəni dəyərlərimizə və dünyaya baxışlarımıza təsir edir. Dil və mədəniyyət arasında qarşılıqlı münasibətlərin dövrü təbiəti bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, heç bir mədəniyyəti onun dilini anlamadan tam başa düşmək olmaz. Dil-bizim təfəkkür və dünyaya baxışlarımıza təsir etdiyi üçün, mədəniyyətin dilə təsiri anlamı, dünyaya baxışların mədəni fərqliliyin başa düşülməsində cox vacib bir tətbiqi hadisədir.
Linqvistlər dilin 5 əsas xüsusiyyətlərini təsvir ediblər: leksika, sintaksis və qrammatika, fonologiya, semantika və praqmatika.

Leksika (və ya dilin lüğəti) dildə olan sözlərdir. məs: ağac, içmək, yavaş-yavaş və s.
Sintaksis və qrammatika, sözlərin formalarının əmələ gəlməsini və mənalı cümləni yaratmaq üçün sözlərin birləşdirilməsini müəyyənləşdirən qaydalardır. Məs: ingilis dilində sözlərin cəm formasında ismin sonuna "s" əlavə olunur.
Fonologiya dildə sözlərin tələffüzünü tənzimləyən qaydalar sistemidir. Məs: ingilis sözü new (yeni) nyu kimi tələffüz olunur.
Semantika sözlərin mənasıdır.
Praqmatika müvafiq sosial kontekstdə dilin işlənilməsi və anlaşılmasını tənzimləyən qaydalar sistemidir. Məs: "nə isə soyuq oldu" bəyanatını iki cür şərh etmək olar: pəncərəni bağlamaq üçün bir xahiş kimi və ya havanın temperaturuna aid faktın təsdiq edilməsi kimi. Onun şərh olunması fiziki və sosial məzmundan asılıdır.
Dilə yiyələnmə. Dilə yiyələnmə nə dərəcədə anadangəlmə və nə dərəcədə öyrənmə prosesinin nəticəsidir? Bu günə qədər toplanmış sübutlar dilə yiyələnmə prosesinin bəzi aspektlərinin anadangəlmə, bəzilərin isə öyrənmə ilə bağlı olduğunu zənn etməyə imkan verir. Biz öz dilimizdə danışmağa necə öyrənirik? Bir çox mədəniyyətlərdə yayılmış mifə görə uşaqlar öz ana dilinə ətrafda eşidilən səsləri imitasiya edərkən (təkrar edərkən) yiyələnirlər. İndi məlum olub ki, imitasiya ana dilinə yiyələnmə prosesində heç də əsas strategiya deyil.
Cin Berkonun eksperimentləri: fərziyyələrin yaradılması və yoxlanılması
1950-ci ildə keçirilən eksperimentlərdə məlum olub ki, uşaqlar təkcə eşitdiklərini imitasiya etmirlər, həm də dilə aid müxtəlif fərziyyələr yaradırlar və yoxlayırlar. Cin Berko amerikalı uşaqlara xəyali bir varlığın şəklini göstərib və uşaqlara deyib ki, "bu wag"dır. Sonra tədqiqatçı uşaqlara iki "wag"ın şəklini göstərib və uşaqlardan şəkildə nə gördüklərini soruşub. Uşaqların əksəriyyəti burada iki "wag"s var söyləyiblər. "wag"s sözü ingilis sözü deyil və uşaqlar bu sözü əvvəllər eşidə bilməzdilər. Deməli, yeni olan "wag"s sözünü onlar imitasiya vasitəsilə yarada bilməzdilər. "wag"s sözünü cavab vermək üçün uşaqlar əvvəl ingilis dilinin qrammatikası ilə tanış olmalıydılar.
Uşaqlar eşitdiklərini sadəcə imitasiya etmirlər, onlar dilə aid fərziyyələr yaradırlar və yoxlayırlar. Görünün bütün dünyada uşaqlar öz ana dilində danışmağa bu universal strategiyadan istifadə etməklə öyrənirlər.

Mövzu 12. Mədəniyyətlərarası adaptasiyanın xüsusiyyətləri

Plan:

1. Mədəniyyətlərarası adaptasiya probleməri
2. Mədəniyyət sarsıntısı ("mədəni şok") və mədəniyyətlərarası adaptasiyanın mərhələləri.

3. Fərdi və qrup faktorları

4. Qrup və fərdlər üçün mədəniyyətlərarası əlaqələrin nəticələri

5. Mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq

Ədəbiyyat

1. Bayramov Ə.S.Etnik psixologiya.Bakı, 2001
2. Bayramov Ə.S. Etnik psixologiyanın məsələləri. Bakı,1996
3. Əliyev R.İ. Etnopsixologiya: qloballaşma və millilik, Bakı,2007
4. Əliyev R.İ. Psixologiya.B.: Nurlan,2008.
5. Bayramov Ə.S. Psixoloji düşüncələr.Bakı,1994

1. Mədəniyyətlərarası adaptasiya probleməri

Müxtəlif ölkə və millətlərin arasında vasitəsiz əlaqələrin yaradılması onların arasında daha asan və etibarlı münasibətlərə gətirib çıxarar. Bütün miqrantlar yerli əhali ilə qarşılıqlı münasibətlərdə olanda çətinliklərlə rastlaşırlar. Həmin ölkənin adətləri qəribə, ölkə isə sirli gəlir. Bəzən şəxsiyyətlərarası ünsiyyətin çoxalması stereotiplərin daha da güclənməsinə də gətirə bilər. Ona görə müxtəlif ölkə və xalqlar arasında daha etibarlı ünsiyyətin hansı şərtlərlə qurmasını təyin etmək vacibdir.

Tədqiqatçılar müxtəlif mədəniyyət və etnoslarının nümayəndələrinin qarşılıqlı əlaqələrinin əlverişli olması üçün bir neçə dəyişkən kəmiyyətləri nəzərdən keçiriblər:

1. *Qarşılıqlı əlaqələrin müddəti (daimi, uzun və qısa).*
2. *Məqsəd (birgə fəaliyyət, təhsil, asudə vaxt)*
3. *Cəmiyyətin həyatına qoşulma tipi (iştirakdan müşahidəyə qədər)*
4. *Əlaqələrin tezliyi və dərinliyi*
5. *Status və hüquqların nisbi sabitliyi*
6. *Açıq-aşkar fərqli xüsusiyyətlər (dil, din, irq)*

Lakin, ünsiyyətin əlverişli şərtləri olduqda belə miqrantlarda yerləşdikləri ölkənin nümayəndələri ilə ünsiyyətdə çətinliklər və gərginliklər yarana bilər. Çox vaxt miqrantlarda nostalji hisslər baş qaldırır. Alman filosofu və psixiatrı Yaspersin qeyd etdiyi kimi vətən həsrəti insanlara çox qədimdən tanış olan bir hissdir. Ona görə də mədəniyyətlərarası adaptasiyanın öyrənilməsi çox böyük

əhəmiyyət daşıyır. Geniş mənada bu mürəkkəb bir proses sayəsində insan yeni mədəni mühitlə bir uyğunluq tapır. Adətən adaptasiyanın daxili tərəfini qeyd edirlər, hansı ki, məmnuniyyət və həyat dolğunluğu hissləri ilə ifadə olunur. Xarici tərəfi isə fərdin yeni qrupun sosial və mədəni həyatında olan iştirakında ifadə olunur.

Mədəniyətlərarası adaptasiya problemlərinə maraq elm dünyasında XX əsrin əvvəllərinə təsadüf edir. Lakin, uzun müddət ciddi araşdırmaları yalnız etnoloqlar (Redfild, Linton) aparmışdır. İlkin olaraq akkulturasiyaya (mədəniyyətə adaptasiya) qrup səviyyəsində olan bir fenomen kimi baxılırdı. 1950-ci illərdən başlayaraq kütləvi miqrasiya prosesləri mədəniyyətlərarası adaptasiyaya marağın yaranmasını stimullaşdırılmışdır. İlk olaraq insanın yad mədəniyyətə uyğunlaşa bilməmək hadisəsinə psixiatrlar diqqət yetirmişdilər. İsveçrə həkimi Hofer vətən həsrətini nostalgiya (qüssə) adlandırmışdır və bu problem XVII-ci əsrdən öyrənilməyə başlanılmışdır.

2. Mədəniyyət sarsıntısı ("mədəni şok") və mədəniyyətlərarası adaptasiyanın mərhələləri.

Mədəniyyət sarsıntısı anlayışı amerika antropoloqu K.Oberq tərəfindən təqdim olunmuşdur. Oberqin fikrincə, yeni mədəniyyətə daxil olma xoşagəlməz hisslərlə müşayiət olunur dostların və statusun itirilməsi, rədd edilmə, mədəniyyətlərarası fərqləri dərk etmə zamanı narahatlıq və təəccüb, dəyərlərdə, eləcə də sosial və şəxsi identifikasiyada qarışıqlıq.

Mədəniyyət sarsıntısının simptomları çox müxtəlifdir: qida, suyun keyfiyyəti, qabların, yataq dəstlərinin təmizliyi barədə daimi narahatçılıq, başqa insanlarla fiziki kontaktların qorxusu, ümumi narahatçılıq, alkoqol və narkotiklərə aludə, psixosomatik xəstəliklər, depressiya və intihar cəhdləri. Situasiya üzərində kontrolu itirmək hissi, şəxsi səriştəsizlik və ümidlərin doğrulmaması, yerləşdikləri ölkənin nümayəndələrinə qarşı qəzəb, aqressiya, düşmənçilik hisslərində ifadə oluna bilər.

Çox vaxt "mədəni şok" neqativ nəticələrlə müşahidə olunur, lakin onun pozitiv tərəfi də var. Bəzən mədəniyyət sarsıntısı nəticəsində fərdlərdə yaranan ilkin narahatlıq yeni dəyərlər və davranış modellərinin qəbuluna gətirib çıxarır. Bu isə şəxsi inkişaf və şəxsi artım üçün cox vacibdir. Bundan çıxış edərək kanada psixoloqu Berri "mədəni şok" əvəzinə "akkulturasiya stressi" anlayışını təklif etmişdir, çünki "şok" sözü neqativ təcrübə ilə

assosiasiya olunur. Mədəniyyətlərarası əlaqələr nəticəsində isə müsbət təcrübə də əldə olunur, problemlərin qiymətləndirilməsi və aradan qaldırılması.

Triandis adaptasiya prosesinin 5 mərhələsini qeyd edir:

I mərhələ. "Bal ayı" ruh yüksəkliyi, yüksək əhval-ruhiyyə, böyük ümidlərlə xarakterizə olunur. Doğrudanda, çoxlarını xaricdə gözləyirlər (tələbələri, iş adamlarını, qohumları). Onları qəbul edənlər çalışırlar ki, onlar özlərini evdəki kimi hiss etsinlər, hətta müəyyən güzəştlərə gedirlər. Lakin, bu mərhələ tez keçir.

II mərhələ. Bu mərhələdə tanış olmayan mühit artıq öz neqativ təsirini göstərməyə başlayır. Xarici şəraitdən başqa yeni mədəniyyətdə insana psixoloji faktorlar da təsir edir: yerli sakinlərlə qarşılıqlı anlaşılmazlıq hissi və onlar tərəfindən rədd edilmə. Bunlar hamısı frustrasiya, depressiya, ümidsizlik, özünü itirmə kimi emosiyaların yaranmasına gətirib çıxarır. Bu mərhələdə insan reallıqdan qaçmaq istəyir və daha çox öz yerliləri ilə ünsiyyət saxlayaraq öz təəssüratlarını onlarla bölüşür.

III mərhələ. Bu mərhələdə "mədəni şokun" simptomları kritik nöqtəyə çata bilər, bu da müxtəlif xəstəliklər və tam çarəsizlik hissində ifadə olunur. Yeni mühitə uğurla adaptasiya olunmayanlar isə vaxtından əvvəl öz vətəninə qayıdırlar.

IV mərhələ. Lakin çox vaxt yad ölkəyə gələnlər ətraf mühitdən sosial yardım alırlar və onların köməyi ilə mədəni fərqləri aradan qaldıra bilirlər- dili öyrənirlər, yerli mədəniyyətlə tanış olurlar və s. Bu mərhələdə depressiya yavaş-yavaş nikbinliklə, inam və razılıq hissi ilə əvəz olunur. İnsan özünü cəmiyyətin həyatına daha da uyğunlaşmış və inteqrasiya olunmuş hiss edir.

V mərhələ. Bu mərhələ tam və uzunmüddətli adaptasiya ilə xarakterizə olunur, yəni mühitin tələblərinə cavab olaraq fərdin stabil dəyişiklikləri başa düşülür. Uğurlu adaptasiya fərdin öz vətənində adaptasiya səviyyəsi ilə eyni olmalıdır.

Lakin, çox uğurla adaptasiya olunmuş insanların iztirabları vətənə döndükdən sonra da davam edə bilər. Çünki, onlar "re-adaptasiya" dövründən keçməlidirlər, "qayıdış şoku" keçir-məlidirlər. Əvvəl onlar yüksək əhval-ruhiyyədə olurlar, dostların və qohumların görüşlərinə şad olurlar, öz ana dilində danışmaq imkanından sevinirlər, sonralar isə təəccüblə dərk edirlər ki, öz doğma mədəniyyətin xüsusiyyətləri onlara qəribə gəlir.

Çoxsaylı empirik tədqiqatlar bu mərhələlərinin universallı-ğına şübhə ilə yanaşmışdılar. Çünki, insanlar yeni mədəni mühitə

düşdükdə mütləq olaraq bu mərhələlərin hamısından keçmirlər. "Mədəniyyət sarsıntısını" bütün insanlar keçirmir. Bəziləri isə mədəniyyət sarsıntısının simptomlarını hissi edən kimi öz vətəninə dönürlər və vətənə qayıdış da həmişə travmatik olmur.

3. **Fərdi və qrup faktorları**

Yeni mədəni mühitə adaptasiya prosesinə bir çox faktorlar təsir göstərir. Bu faktorları ***fərdi*** *və* ***qrup*** *faktorlara bölmək olar.*

***Fərdi faktorlar*:**

1. ***Fərdi fərqlər - demoqrafik və şəxsi.***

Adaptasiya prosesinə yaş çox güclü təsir göstərir. Balaca uşaqlar daha tez və uğurla uyğunlaşırlar, məktəblilər üçün isə bu proses çətinləşir, çünki sinifdə xarici görünüş, dil, ədaları, hətta fikirləri ilə öz yoldaşlarına oxşamalıdırlar. Mədəni mühitin dəyişilməsi yaşlı insanlar üçün ən ağır bir sınaq olur. Bir çox psixoterapevt və həkimlərin fikrincə, yaşlı mühacirlər yad mədəniyyətə tamamilə uyğunlaşa bilmirlər.

Kişilərə nisbətən qadınlar adaptasiya prosesində daha çox problemlərlə üzləşirlər.

Adaptasiyanın uğurlu olmasına təhsil də öz təsirini göstərir: nə qədər ki təhsil alidir, o qədər də "mədəni şokun" simptomları az olacaq. Demək olar ki, yüksək intellektual və alitəhsilli cavanlar daha uğurla adaptasiya olunurlar.

2. ***Fərdin həyat təcrübəsi.***

Miqrantların dəyişikliyə hazırlığı da çox böyük rol oynayır. Əgər onlarda adaptasiyaya motivasiya varsa bir çox hallarda onlar dəyişikliklərə daha həssas olacaqlar (məs., xaricdə oxuyan tələbələrin məqsədi diplom almaq və vətənə döndükdə yüksək prestijli işə düzəlmək. Bu məqsədə görə onlar müxtəlif çətinliklərə dözə bilirlər).

Hər hansı bir ölkənin tarixi, mədəniyyəti, həyat, yaşam tərzi ilə ilkin tanışlıq da adaptasiya prosesinə təsir göstərir. Uğurlu adaptasiyanın ilk addımı ölkənin dilini bilməkdir. Bu əlacsızlıq və asılılıq hissini azaldır və ölkə "sahiblərinin" hörmətini qazandırır.

Adaptasiya prosesinin uğurlu keçməsinə təsir edən ən vacib faktorlarından biri də yerli sakinlərlə dostluq əlaqələrin yaradılmasıdır. Yerli sakinlər arasında çoxlu dostları olan insanlar daha çox informasiya əldə etmiş olurlar.

Adaptasiya prosesinə təsir edən *qrup faktorları* içərisində qarşılıqlı əlaqədə olan mədəniyyətlərin xüsusiyyətlərini qeyd etmək lazımdır:

1. ***Mədəniyyətlərarası oxşarlıq və fərqlər dərəcəsi.***

Çoxsaylı tədqiqatların nəticələri göstərir ki, mədəniyyət sarsıntısının təzahür dərəcəsi mədəni distansiya (məsafə) ilə əlaqəlidir. Yəni nə qədər ki yeni mədəniyyət öz doğma mədəniyyətə bənzəyirsə, adaptasiya prosesi bir o qədər az travmatik olacaq. Babiker mədəni distansiya indeksini təklif etmişdir. Bu indeksə dil, din, ailə strukturu, təhsil səviyyəsi, iqlim, qida, geyim və s. daxil etmişdir.

Adaptasiya prosesinə obyektiv mədəni distansiyadan başqa digər faktorlar da təsir göstərir:

- iki xalqın münasibətləri arasında münaqişə, müharibə, soyqırımın olub və ya olmaması;

*- ev sahibi ölkənin xüsusiyyətləri ilə tanışlığın dərəcəsi və dil sərişt*əliyi;

- statusların bərabərliyi və ya bərabərsizliyi

*2. **Doğma mədəniyyətin xüsusiyyətləri***

Ənənələri çox güclü olan və davranışları rituallaşmış ölkənin nümayəndələri çətin adaptasiya olunurlar. Bu Yaponiya, Koreya, Çin, Cənub-Şərqi Asiya vətəndaşlarıdır.

Çox vaxt "böyük dövlətlərin" nümayəndələri pis adaptasiya olunurlar, çünki onlara xas olan təkəbbürlük imkan vermir ki, onlar başqalarını öyrənsinlər. Bu ölkələrin sakinləri hesab edirlər ki, onlar yox, başqaları onları öyrənməlidirlər. Məs., rus və amerikalılar öz dillərindən başqa dil öyrənmək istəmirlər, lakin kiçik dövlətlərin sakinləri bir çox xarici dilləri öyrənməyə üstünlük verirlər.

3.Xarici ölkənin xüsusiyyətləri, xüsusilə gəlmələrə təsir etmə üsulları: onları assimillyasiya etməyə və ya mədəni fərqliliyə tolerantlıq nümayiş etdirmək. Məs., yaponlar gəlmələrdən çox vaxt uzaqlaşırlar, qaçırlar.

4. Qrup və fərdlər üçün mədəniyyətlərarası əlaqələrin nəticələri. Mədəniyyət sarsıntısı və mədəniyətlərarası adaptasiya tədqiqatlarına uzun müddət klinik aspekt xas idi. Lakin, son zamanlar dünya sosial psixologiyasında bu problemi etnoslararası və mədəniyyətlərarası münasibətləri nəzərə almaqla dərindən təhlil etmək barəsində də fikirlər söylənilmişdir.

Boçner qrup üçün mədəniyyətlərarası əlaqələrin nəticələrini 4 ümumi kateqoriyaya aid edib:

- *soyqırım*, yəni qarşı qrupun məhv edilməsi

- *assimilyasiya,* yəni dominant qrupun adət, norma və inamların könüllü və ya məcburi, tədricən qəbul edilməsi
- seqreqasiya , yəni qrupların ayrı inkişaf kursu
- *inteqrasiya,* yəni cəmiyyətə birləşmə prosesində qrupların öz mədəni identikliyini qoruyub saxlamaq.

Bu modelin müəllifi fərdlər üçün də mədəniyyətlərarası əlaqələrin mümkün nəticələrini göstərmişdir.

Adaptasiya prosesində "qaçaq" yad mədəniyyətin xeyrinə öz mədəniyyətindən imtina edir; "şovinist" doğma mədəniyyətin xeyrinə yad mədəniyyətindən imtina edir; "marginal" iki mədəniyyət arasında tərəddüd edir; "vasitəçi" iki mədəniyyəti sintez edir.

Oxşar konseptual sxemi Berri də təklif etmişdir. Onun fikrincə, həm fərd, həm də qruplar 4 strategiyadan istifadə edə bilərlər. Bunları akkulturasiya strategiyaları adlandırmışdır.

- *İnteqrasiya*- qarşılıqlı əlaqədə olan qruplar və onların nümayəndələri öz mədəniyyətini qoruyub saxlayırlar, eyni zamanda bir-biri ilə sıx münasibətlər yaradırlar.
- *Assimilyasiya*- qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlə əlaqələri saxlayırlar
- *Separatizm*- qrup və onun üzvləri öz mədəniyyətini saxlamaqla digər mədəniyyətlərdən imtina edirlər.
- *Marginalizasiya*- qrup və onun üzvləri öz mədəniyyətlərini itirirlər, amma digər mədəniyyətlərlə də sıx əlaqə yaratmırlar.

Bu modellərin müəllifləri uğurlu adaptasiya yad mədəniyyətlə assimilyasiya olmaması fikri ilə həmrəydilər. Bu nəinki yeni mühitə sosial və emosional uyğunlaşmadır, çünki insan yeni cəmiyyətdəki həyata yaxşı uyğunlaşmış ola bilər. Mədəniyyətlərarası adaptasiya yeni mədəniyyətə qoşulma, onun norma, dəyərləri və davranış modellərinin tədricən mənimsənilməsidir. Bununla yanaşı əsl adaptasiya hər hansı bir mədəniyyətə öz mədəniyyətinin zənginliyini itirməmək şərtilə sosial və psixoloji inteqrasiyasıdır .

5. **Mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq.**

Fərdlərin mədəniyyətlərarası qarşılıqlı əlaqələrə hazırlıq təlim proqramların hazırlanmasından ibarətdir. Təlim proqramların hazırlanmasına **maarifləndirmə, istiqamətləndirmə, təlimatlandırma və treninqlər** daxil edilir.

Maarifləndirmənin məqsədi, yeni mədəniyyət, etnos haqqında biliklərin əldə edilməsidir (ölkənin tarixi, coğrafiyası, adət-ənənələri və s.).

İstiqamətləndirmənin məqsədi, insanı yeni ölkənin xüsusiyyətləri ilə tez məlumatlandırmaq.

Təlimatlandırma müxtəlif problemlərə geniş baxışı təmin edir və ya hansısa ayrı-ayrı aspektlərə diqqətini cəmləşdirir.

Treninq digər qrup üzvləri ilə vasitəsiz qarşılıqlı əlaqələr yaratmağa kömək edir. Hər hansı bir treninq proqramı bir neçə suallara cavab verir, yeni mühitdə insanlarla əlaqələri necə yaratmaq olar, yad mədəniyyətin norma və dəyərlərini necə mənimsəmək olar və s.

14. Danışıqların aparılmasında etnomədəni xüsusiyyətlər

Plan:

1. Danışıq aparılmasında "milli üslub" anlayışı
2. Danışıqların aparılmasında etnomədəni xüsusiyyətlər

Ədəbiyyat:

24. Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov, S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova, S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
25. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
26. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
27. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
28. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

https://science.gov.az/az/news/open/5909

https://kayzen.az/blog/kulturologiya/9177/qloballa%C5%9Fma-sosio-m%C9%99d%C9%99ni-reall%C4%B1q-kimi.html

1. Danışıq aparılmasında "milli üslub" anlayışı.

İstənilən xalqın öz adətləri, ənənələri, mədəniyyət, dövlət və siyasi quruluşu vardır. Bu, danışıqların aparılmasına müəyyən

dərəcədə təsir edir. “Milli üslub” bütün ölkə nümayəndələri üçün xarakterik olmasa da, ümumilikdə danışıqlar aparılmasının daha geniş yayılmış xüsusiyyətlərini özündə əks etdirir. Bunu daha çox danışıq prosesində davranış tipləri adlandırmaq olar.

Danışıqlar aparılmasında milli üslubun xüsusiyyətlərini müəyyənləşdirmək üçün 3 böyük qrup fakt ayırd edilir. Birinci qrup, qərar vermə mexanizmləri ilə bağlıdır. Bu danışıqlar zamanı rəhbərin özünü sərbəst hiss etməsi və müstəqillik səviyyəsinin göstəricisidir. Eyni zamanda qeyd olunmalıdır ki, rəhbərin sərbəstliyi də öz növbəsində qərar qəbuletmə, şəxsin daha yüksək rəhbərlikdən verilmiş təlimatlardan asılılığı, təlimatların özünün qatılığı ilə bağlıdır. İkincisi, dəyərlər sistemi, ideoloji və dini inanclar, təfəkkür və qavrayış xüsusiyyətləri ilə bağlıdır. Nümunə üçün onu qeyd edə bilərik ki, danışıq aparılmasının milli üslubuna bir tərəfdən fəaliyyətin faktiki tərəfləri arasında üstünlüklər, digər tərəfdən isə etik normalar təsir edir. Üçüncü qrup, bu danışıqların aparılmasında davranış xüsusiyyətləridir ki, bura daha çox hər hansı bir mədəniyyəti təmsil edən nümayəndənin taktiki priyomları aid edilir.

Danışıqlar zamanı milli üslubun digər xüsusiyyəti olaraq ünsiyyətin verbal tərəfinin spesifikliyini, həmçinin verbal təsirin güclülüyü və ya zəifliyini aid etmək olar. Belə hesab olunur ki, verbal amillərin güclü və zəif təsir etdiyi mədəniyyətlər vardır. Fransa istisna olmaqla qərb ölkələrində nümayəndələr üçün danışıqlarda verbal amillərin təsirlərinin aşağı səviyyədə olması xarakterikdir. Belə ki, bu zaman ifadə edilən söz çox az hallarda sətiraltı mənada dərk edilir, bu sözlərdə demək olar heç bir gizli məna olmur.

Bununla yanaşı, bir faktı da nəzərə almaq faydalı olar. Milli üslub dedikdə, milliyyətlərdən daha çox ölkələr üçün müəyyən üslub və tərzlər nəzərdə tutulur. Bu o deməkdir ki, danışıqlarda nümayəndə olacaq çin əsilli amerikan qarşı tərəfə şərq davranış tərzindən çox qərb davranış tərzinin elementləri ilə təsir edəcək. İstənilən halda bu, daha çox təmsilçinin ölkədə nə qədər müddət yaşamasından və həmin ölkə ilə nə dərəcədə assimilyasiyada (uyğunluqda) olmasından asılıdır.

3. Danışıqların aparılmasında etnomədəni xüsusiyyətlər

Danışıqların aparılmasının digər milli xüsusiyyətlərindən biri danışıqlar zamanı ünsiyyətin qeyri-verbal cəhətləri ilə bağlıdır. E.Holla görə mədəniyyətlər aşağı və yüksək kontekstli olmasına görə iki yerə bölünürlər. Fransa istisina olmaqla Qərbi Avropa ölkələri aşağı kontekstli mədəniyyət qrupuna daxildir və burada kontekstin danışıqlar prosesinə təsiri çox aşağıdır. Burada tələffüz olunan, eşidilən hər bir söz hərfi mənada qəbul edilir. Bu sözlərin heç birində sətiraltı məna olmur. Bir məsələni də yadda saxlamaq lazımdır ki, milli üslub deyəndə, millətdən çox ölkə nəzərdə tutulur. Bu o deməkdir ki, azərbaycan mənşəli amerikanlı

danışıqlar prosesinin iştirakçısı olduqda şərq yox, daha çox qərb üslubunu gerçəkləşdirəcək. Bu daha çox hər hansı bir millətin nümayəndəsinin gəldiyi ölkədə assimiliyasiya olunma dərəcəsindən asılıdır.

Son illərdə dünyada danışıqlar zamanı milli sərhədlərin aradan qaldırılması intensivləşmişdir. Danışıqlar praktikasında milli üslubların bir-birinə qarşılıqlı nüfuzu baş verir. Nəticə olaraq tədricən danışıqlarda iştirak edən nümayəndələrin ayrıca davranış qaydalarını özündə birləşdirən xüsusi altquruluş formalaşır. Bununla belə, qeyd olunan faktın mənası və əhəmiyyətini şişirtməyə ehtiyac yoxdur. Bu cür altquruluş adətən mütəmadi olaraq danışıqlarda iştirak edən şəxslərdə, məsələn, diplomatlarda formalaşır. Digər hallarda milli üslubu danışıqlar prosesindən çıxarmaq məqsədəuyğun və doğru olmazdı.

Belə hesab olunur ki, şərq ölәkələri ilə müqayisədə qərb ölkələrinin təmsilçiləri üçün səbəb-nəticə əlaqəsinə əsaslanmış arqumentlər daha əhəmiyyətlidir.

Rusiyalı təmsilçilərinin nöqteyi-nəzərinə əsasən, danışıq prosesində onların Qərbi Avropa partnyorları aşağıdakı xüsusiyyətləri daha çox büruzə verirlər: rus tərəfi alçaltmağa meyl, öz düşüncə və hərəkət tərzini ruslara yeritmək, qərar qəbulu zamanı yalnız öz xeyri üçün çalışmaq, ifrat praqmatizm, sosial məqsədləri görməzlikdən gəlmək.

Latın Amerikasında qadın və kişinin təklikdə hansısa danışıq aparması etik normalara uyğun hesab edilmir.

Şərq danışıq üslubu üçün danışıqların məzmununun razılaşmaya yüksək təsiri xarakterikdir. Burada məzmunun təsiri o qədər güclü olur ki, hətta tamamilə əks təklifə dair razılaşma belə əldə etmək mümkün ola bilər.

Bir çox şərq xalqlarında danışıq qaydalarına əsasən sövdələşmə prosesindən əvvəl partnyor uzun müddət zamanı sırf hazırlıq prosesi və bu zəmində söhbətə ayırmalıdır. Bu müddətdə partnyorlar danışığın əsas mövzusuna keçməzdən öncə bir-birinə öz hörmətlərini bildirirlər

Mövzu 15. Müxtəlif xalqların psixoloji xüsusiyyətləri

Plan:

1. Müxtəlif xalqların etnik psixoloji xüsusiyyətlərinin öyrənilməsi zəruriliyi.
2. Çin xalıqının etnik psixoloji xüsusiyyətləri
3. Yapon xalqının etnik psixoloji xüsusiyyətləri
4. İngilis xalqının etnik psixoloji xüsusiyyətləri
5. Alman xalqının etnik psixoloji xüsusiyyətləri
6. Amerika xalqının etnik psixoloji xüsusiyyətləri.
7. Fransız xalqının etnik psixoloji xüsusiyyətləri

Ədəbiyyat:

29. Ş.Babayeva, C.Alıyev, Ə.Əliyev, M.Məmmədov,
S.Əmirova, H.Zeynalova, K.Babayeva, L.Sadıxova,
S.Fərhatlı, N.Əhmədova, C.Dəmirova, Ə.Qubadova.Etnopsixologiya.Bakı,2020
30. Bayramov Ə.S. Etnik psixologiya. Bakı:2001
31. Əlizadə Ə.Ə. Etnik psixologiyaya giriş. Bakı:2004
32. Əliyev R.I. Etnopsixologiya: qloballaşma və millilik. Bakı:2007
33. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno-psixoloji əsasları. Bakı:2000

Mövzu ilə bağlı elektorn resurslar

https://www.gumer.info/bibliotek_Buks/Psihol/krusko/03.php

http://old.sziu.ru/media/uploads/etnopsikhologicheskie_osnovi_mo.pdf

1. Çin xalıqının etnik psixoloji xüsusiyyətləri

Şərqi Asiyada yerləşən dünyada əhalisinin sayına görə birinci, sahəsinin böyüklüyünə görə isə üçüncü ölkədir. Çin 22 əyalət, beş muxtar bölgə, dörd birbaşa idarə olunan bələdiyyə (Pekin, Tyantszin, Şanxay və Çuntsin) həmçinin Honkonq və Makao xüsusi inzibati bölgələrindən ibarətdir.

1. Çinlilərin işgüzar həyatının xüsusiyyətləri. Çin işgüzar mədəniyyəti milli stereotiplər, zənginliyə qarşı olan motivasiya və münasibət, işgüzar məqsədin reallaşması dərəcəsindən ibarətdir. Çin xalqının spesifikliyi onun işgüzar həyatının xüsusiyyətlərini də müəyyənləşdirir. Yəni işlərin aparılmasının forma və üsulu, biznesmenlərin davranışlarının xüsusiyyətləri, qərar qəbul etmənin xüsusiyyətləri, gəlirlərin əldə etməsinə yönəlişlik bütün bunlar iş adamlarının həyat və fəaliyyətindən və sosial-tarixi şəraitdən asılıdır. Müasir çin iş adamları qeyd edirlər ki, həyatda xoşbəxtliyin əsas ölçüsü həm gəlir, həm də mənəvi məmnunluq gətirən işdir. Çinlilərin düşüncəsində ziddiyyət də yer alır, bir tərəfdən xoşbəxtlik pullda deyil fikri, digər tərəfdən isə pul pul gətirər fikri. Həyatdan pul qazanmaq üçün istifadə edilməlidir, yaxşı yaşamaq üçün isə varlı və zəngin olmaq lazımdır.

Çin biznesinin xüsusiyyətlərindən biri etnik və ya klan xarakterin daşımasıdır. Çox vaxt çinlilər öz gəlirlərindən sadəcə "öz" adamları ilə iş qursunlar deyə imtina edə bilərlər. Çin mentalitetinin xüsusiyyətləri işgüzar həyatda öz əksini tapıb. Çinlilər öz şəxsi dəyər, maraq və mənafelərini özgələrindən üstün tuturlar. Nadir halda başqa insanların fikirlərinə onlar qulaq asırlar və həmişə öz bildiklərini edirlər. Ona görə də çinlilərlə danışıqlar aparmaq çətindir: bir tərəfdən sizinlə razılaşırlar sonda isə öz bildiklərini edirlər. Bu çinlilər üçün normaldır və onların fikrincə rəqabətin bir metodudur. Çinlilər insanlardan öz məqsədlərinə görə istifadə edə bilirlər. İnsanlara baxarkən onların sosial statusunu, əlaqələrini, çevrəsini və texniki vərdişlərini müşahidə edirlər və qiymətləndirirlər. Çində xarici vətəndaş partnyor deyil məhz

sirrlərin alınmasının bir kanalıdır. Çinlilər çox asanlıqla, məharətlə və heç bir əziyyət çəkmədən insanları öz tərəflərinə çəkə bilirlər. Çində uğurlu biznes təşkil etmək üçün çin etnik stereotiplərini və etnik şüurunu bilmək mütləqdir. Bu sahədə uğur əldə etmək üçün ilk öncə çin partnyorla dost olmaq lazımdır.

İşgüzar mədəniyyət üzrə amerikalı mütəxəssislər Çin işgüzar həyatının səkkiz vacib tərkib hissələrini qeyd ediblər.

1. Şəxsi əlaqələrin qurulması (guanxi). Çinlilər işgüzar həyatda şəxsi əlaqələrə çox böyük yer ayırırlar, yəni dost, qohum, tanışlardan istifadə edirlər. Çinlilər unutqan deyillər. Onlar öz keçmişlərini heç vaxt unutmurlar.

2. Vasitəçi. Çində iş qurmaq üçün mütləq vasitəçidən istifadə etmək lazımdır. Çunki Çində özgələrə həmişə şübhə ilə yanaşırlar, etibar etmirlər. Vasitəçi bunu aradan götürə bilər və şəxsi əlaqələrdən istifadə edərkən biznes qurmaq olar.

3. Sosial status. Qərb mədəniyyətin nümayəndələri üçün çinlilərin formal, rəsmi qaydaları anlaşılmazdır, çinlilər danışıqlar zamanı statusa, yaşa çox diqqət ayırırlar.

4. Yaxşı şəxsi münasibətlər. Çinlilər üçün biznes partnyorları arasında isti və harmonik münasibətlər vacibdir.

5. Bütöv təfəkkür. Çinlilər danışıqlar zamanı bütün mövzuları bir-birinə qatırlar, bir məsələni qoyub digərinə keçirlər.

6. Qənaətçilik. Çinin siyasi və iqtisadi qeyri-sabitliyi insanlara öz pullarına qənaətlə yanaşmağı öyrədib.

7. Çin danışıq üslubunun bir xüsusiyyəti də var. Çinli iş adamları eyni zamanda bir neçə iş partnyorlar ilə danışıqlar apara bilərlər. Qərb iş adamları bunu hörmətsizlik kimi qəbul edirlər, lakin çinlilər üçün bu təsir etmə yollarından biridir.

8. Əməksevərlik. Çinlilər məqsdlərinə çatmaq üçün yorulma dan çalışırlar.

2. Çinlilərin sosializasiya məsələrinə münasibətləri. Çində ailə tərbiyəsi sahəsində də çox maraqlı və zəngin ənənələr olmuşdur. Qədimdən başlayaraq ailə tərbiyəsinə çinlilər böyük yer ayırmışdılar. Müasir dövrün estetik tərbiyəsi haqqında ən məşhur "Şan Şu" əsərində imperator ailə tərbiyəsi haqqında öz fikirlərini söyləmişdir. Qeyd etmək olar ki, Çində qədim dövrdən başlayaraq ailə tərbiyəsi nəzəriyyəsi daima inkişaf edirdi. Çin Xalq Respublikası yarandıqdan sonra cəmiyyətin sosial sistemi dəyişildi, lakin ailə tərbiyəsi sahəsində o qədər də dəyişikliklər olmadı. Çinin ailə tərbiyəsinin əsas prinsiplərini nəzərdən keçirək:

1. İmperatordan tutmuş siravı insana qədər hamı "Uşaqların tərbiyəsi valideynlərin vəzifəsidir" fikrilə razılaşırlar. Bütün dövrlərdə hesab olunurdu ki, uşaqları tərbiyə etmək valideynlərin borcudur. Uşaqları yalnız böyüdüb amma tərbiyə etməyən valideyn natamam valideyn hesab olunurdu. Qədim Çin şerində deyilirdi: uşağı böyüdüb, tərbiyə etməmək atanın günahıdır. Hesab olunur ki, Çində insan öz övladını təkcə erkən uşaqlıqda deyil bütün həyatı boyu tərbiyə etməlidir.

2. Ailə tərbiyəsi təkcə uşaqlar və ailə üçün önəmli deyil. Eyni zamanda cəmiyyət və ölkə üçün də vacib məsələlərdən biridir. Çinlilərin fikrincə, ölkə böyük bir ailə kimi yaşamalıdır. Uşaq erkən yaşdan anlamalıdır ki, o təkcə öz ailəsi üçün deyil, bütün xalqın qayğısına qalmalıdır.

3. İlk növbədə uşağa özünü cəmiyyətə layiq aparmağa öyrətmək lazımdır, sonra isə uşağın əsas yerinə yetirəcəyi vəzifələri öyrətmək lazımdır. Çində deyirlər, əgər işdə uğur əldə etmək istəyirsənsə, özünü layiq aparmalısan (insan olmalısan).Konfutsinin nəzəriyyəsinə görə, insan ilk öncə "jen"ə malik

olmalıdır. “Jen” insanlıq, humanistlik, insanlara məhəbbətdir.
4. Uşaqların müstəqilliyi. Çində uşaqlar çox erkən yaşdan müstəqil olmağa başlayırlar. Valideynlər onları erkən yaşdan əməyə alışdırırlar və pullara qarşı düzgün münasibət formalaşırırlar. Valideynlər öz uşaqlarının gələcəyi üçün pul yığmırlar ki, uşaqlar bu pullara arxayın olub, ümidlərini bu pullara bağlasınlar. Həmçinin valideynlər öz uşaqlarına sosial statuslarından istifadə etməyidə qoymurlar.
5. Uşaqlara milli ənənələri ötürmək vacibdir. Çin ənənələrinə görə insanda aşağıdakı müsbət keyfiyyətlər inkişaf olunmalıdır: müstəqillik, əməksevərlik, valideyn və qohumlara qarşı hörmət və sevgi, ölkəyə sadiqlik,cəsarət, işin keyfiyyətli yerinə yetirilməsi, nəzakətlilik, dürüstlük və s. bu keyfiyyətlər uşaqların tərbiyəsində əsas götürülür.
6. Erkən dövrün tərbiyəsi daha məqsədəuyğun hesab olunurdu. Qədim dövrdən başlayaraq məhz məktəbəqədər dövrün tərbiyəsi daha zəruri hesab olunurdu, çünki yenidən tərbiyə həmişə uğursuz və daha çətin olurdu.
7. Uşaqları sevgi və eyni zamanda ciddilik şəraitində tərbiyə etmək lazımdır, onlara düzgün nümünələr göstərilməlidir.
8. Yaxşı ətraf mühit. Tərbiyə ilə bağlı istənilən ədəbiyyatda “Men”adlı ana haqqında təsvirlərə rast gəlmək olar. Bu ana öz uşaqlarının inkişafına müsbət təsir edə biləcək yaxşı qonşuları olsun deyə üç dəfə evini dəyişmişdir. Qədim çin mütəfəkkirləri söyləyirdirlər: ətraf mühit sözsüs tərbiyədir.
9. Dürüstlük. Çinlilər uşaqların dürüst böyümələrinə çox böyük önəm verirlər, uşaqlar böyüklərin həyatını müşahidə etməklə dürüst və ya yalançı olmağı öyrənirlər.
10. Valideynlərin şəxsi nümunəsi. Valideynlərin ardıcıl və daimi müsbət nümunələri uşaqların tərbiyəsinə yaxşı təsir edir.
Müasir Çində uşaqların tərbiyəsinə münasibət bir qədər dəyişilib. Təhsilin dəyəri artıb, oğlanlarla yanaşı qızlar da təhsil almağa meyllidirlər. Məkətəbəqədər təhsil müxtəlif forma, üslub və məzmunda həyata keçirilir. Çində uşaqların tərbiyəsi dövlət qayğısı səviyyəsində həyata keçirilən bir tərbiyədır. Yaş yarımlıq uşağı artıq müstəqilliyə öyrədirlər, onu oxumaq, saymaq , rəsm çəkmək öyrədirlər. çində uşaqlar müstəqil, fəal, ünsiyyətçil, sözə qulaq asan və anlaşıqlı olurlar.Uşaq doğulandan sonra ana bütün ev işlərindən azad olur. O çox gəzməməlidir, hərəkət etməməlidir, çox vaxt yataqda olmalıdır, saçını kəsdirməməlidir, ayaqlarınıisti saxlamalıdır, soyuq əşyalara toxunmamalıdır. Bəzi ərzaqları, meyvələri yeməməlidir, yaşıl çay içməməlidir. Bütün işləri onun əvəziinə qohum qadınlar edir. Uşaqlara çox erkən yaşdan çin çubuqlarından istifadə etməyi öyrədirlər. Bu uşağın kiçik motorikasının inkişafına təsir edərək onu daha ağıllı edir.
Çinin milli adət və ənənələri. Çin milli adət və etiket qaydaların əsasında böyüklərə hörmət, ehtiram hissi, ənənələrə qayğılı münasibət, keçmişə maraq və qəbul olunmuş qayda və ritualların qorunması dayanmışdır.Çində bütün xarici vətəndaşlara çox mehriban yanaşırlar. İctimai yerlərdə onlar diqqət obyektinə çevrilirlər. Çinlilər mehriban və ünsiyyətçil olduqlarına görə tanış olmayan insanlarla asanlıqla əlaqəyə girirlər. Çinlilər ictimai nəqliyyatda, ictimai yerlərdə tanış olmayan insanlarla söhbət etməyə hazırdılar. Çin dövləti dünyada özünün etiketi, mərasimləri, ənənələri ilə tanınır. Bu ənənələr qədin dövrdən müasir dövrdə qədər gəlib çıxıb. Çinlilərin salamlaşma ritualının 2000 ilə yaxın yaşı var. Müasir dövrdə belə salamlaşma ritualından dövlət

səviyyəsində keçirilən rəsmi tədbirlərdə və milli bayramlarda istifadə edilir. İş insanları müasir salamlaşmadan istifadə edirlər amma hörmət əlaməti olaraq mütləq başlarını yavaşca tərpətməlidirlər. Müasir gənclər bir qədər qədim salamlaşma ritualından uzaqlaşıblar təkcə başlarını tərpədirlər. Hətta ünsiyyət zamanı hətta **telefonla danışarkən** belə tez tez baş əyirlər. Yaponlar ***əl ilə görüşməyi*** qəbahət hesab edirlər. Görüşəndə avropasayagı görüşmək, qucaqlaşmaq və öpüşmək qəbul deyil. Çinlilərdə ***ad soyaddan sonra gəlir***, adla müraciət etmə yalnız ən yaxın dostlar və qohumlar arasında olur. "Siz" əvəzliyindən çinlilər yaşlı insanlara və əsasən yad insanlara deyə müraciət edirlər.Çinlilərin ünsiyyətinin vacib hissəsi hədiyyələrin verilməsi təşkil edir. Çin düşüncəsinə görə hədiyyə vermək diqqətçilik əlamətidir. Çox bahalı hədiyyəyə çinlilərin münasibəti birmənalı deyil. Onlar hədiyyəni verərkən və onlardan hədiyyəni alarkən ***iki əllə almaq*** lazımdır. Çin etiket xüsusiyyətlərinə görə onlar hədiyyədən imtina edə bilərlər lakin bir neçə nəzakətli təkidlərdən sonra qəbul edirlər. Çinlilər qonaq getməyə və qonaq qəbul etməyi çox sevirlər. Əgər siz dəvət olunmusunuz gecikmək olmaz əksinə tez gəlmək yaxşıdır. ***Qonaqlıqda uzun müddət oturmaq olmaz, bu nəzakətsizlik hesab olunur.*** Qonaq öz dostu ilə gələ bilər. Çinlilər bütünqonaqlara qarşı xoş və mehriban münasibət göstərirlər və çalışırlar ki, qonaq onlardan razı qalsın.

Çinlilərin milli xarakterinin əsas xüsusiyyətləri:

1. Özünəqapalılıq. Çinlilərin intraversiyaya meylliliyi müxtəlif səviyyələrdə şəxsi səviyyədən başlayaraq dövlət səviyyəsində təzahür olunur. Emosiyaların xarici ekspressiyasının açıq şəkildə göstərilməsi qəbul olunmazdır və hətta bir sıra mürəkkəb etik rituallarla əvəz edilir bu isə avropalıların gözündə ikiüzlülük kimi qavranılır. Əgər təsadüfən iki insan qarşılaşırsa, hər ikisi bir -birinə dərin hörmətlərini nümayiş etdirirlər. Hər ikisi göstərməlidirlər ki, digəri ağıllı, tərbiyəli və inkişaf etmişdir hətta əslində heç də belə olmasa belə. Az tanış olan insanlarla çinlilər özlərini qəribə aparırlar: sifət və bədənlərini heç tərpətmirlər, düz otururlar, dodaqları azca tərpənir və səsləri çox sakit olur, həmsöhbətin düz üzünə baxmaqdan qaçırlar və pıçıltı ilə danışırlar. Düşünürlər ki, belə yalnız düşmən və bir-birinə nifrət edənlər baxırlar. Bəlkə də, məhz bu xüsusiiyyət Çin dövlətini illər ərzində xarici əlaqələrdən uzaq və qapalı saxlamışdır.
2. Sadə məntiqli konstruksiyalara meylilik. Çinlilərin düşuncə tərzini praktik düşüncə tərzi hesab etmək olar. Zəruri olmayan mürəkkəbləşmələrdən uzaq olurlar. Çinli adətən sadə intellektual konstruksiyalara üstünlük verir çünki onları yadda saxlamaq asan olur və həyat və fəaliyyət üçün əlverişli və rasionaldırlar.
3. Təşəbbüskarlıq. Yaponiyada çinli dərzi, bərbərin həyatını bir yapon professor belə təsvir etmişdir: "Onlar yalniz balıqla qidalanırdılar və hər bir yenni qənaət edərək yığırdılar."Əgər çinlinin imkanı bir az yaxşılaşırsa o bir köhnə velosiped alır və rayonları gəzərək alver etməyə başlayır. Sonra özünə inam artanda o motosiklet alır, artıq o nəinki alver edir, malları satır hətta malları

faizlə verir. Sonda çinli özünə mağaza açır və daha yaxşı şərait yaradır.
4. Kollektivizm. Çətin iqlim və təbii şərait, həmçinin təbii fəlakət çinlilərdə ciddi intizam, fərdin qrupdan yüksək dərəcədə asılılığı, qrupun fikirlərinə etibarlılıq, qrupun üzvlərinə qarşılıqlı köməketmə kimi xüsusiyyətlər formalaşdırır.
5. Praqmatiklik. Qida resurslarında məhdudiyyət çinlilərdə ifrat dərəcədə qənaətçiliyə, praqmatizm və hər şeyi hesaba almağa xüsusiyyətləri formalaşdırdı. Praqmatik çinlilər öz məqsədlərinə çatmaq üçün sərfəli yolu detallara qədər hesablayırlar.
6. Qəddarlıq. Əgər siz gülümsəyən çinli ilə rastlaşsaz fikirləşməyin ki, o sizə səmimi şəkildə gülümsəyir.Bu yalnız nəzakətlilik təbəssümü də ola bilər. bəzən çinlilərdə təbəssümdəm aqressiyanı bir addım ayırır.
7. Yazı sistemi. Çinlilərin milli xarakterinin formalaşmasında yazı sisteminin xüsusi və böyük rolu olub. Çin yazı sistemi onları başqa xalqlardan sanki təcrid etdi özünü başqa ölkələrin təsirindən və müdaxiləsindən sanki qorudu.
8. Çin mentaliteti. Çinlilər avropalı mentalitetindən tamamilə fərqlidir. Çinlilərin davranışı avropalıların davranışından fərqlidir.

2. Yapon xalqının etnik psixoloji xüsusiyyətləri

Yaponların milli xarakterinin əsas xüsusiyyətləri. Yaponiya sirli şərq ölkəsidir. Onun ənənələri minillik tarixə malikdir və bu günə kimi yaponlar tərəfindən saxlanılır. Yapon mədəniyyəti cəmiyyətdə davranış tərzi, ailə münasibətləri ilə daima diqqət mərkəzində olan xalqlardan biridir. Yaponiya elə bir dövlətdir hansı ki, orada cəmiyyət aydın strukturlaşdırılmışdır.Burada ənənələrdən və xalqın mədəniy yətindən kənar və ayrıca yaşayan ailələr tapmaq demək olar ki, mümkün deyil. Bütün yaponlar tərbiyə və təlimdə, eyni zamanda cəmiyyətdə və ailədə eyni qanunlara tərəfdardırlar.
Yapon psixologiyasında qrup heç vaxt insanı təhdid etmir, əksinə ona kömək olur. Mahiyyət etibarı ilə yapon cəmiyyəti kollektivizmə, ittifaqa, birgə yaşayış qaydalarına əsaslanan qapalı cəmiyyətdir. Yapon nadir halda ola bilər ki, qrup daxilində razılaşmadan hansısa qərar qəbul etsin. Böyük firma və şirkətlərdə az adam olur ki, yapon cəmiyyəti üçün xarakterik olan adət və ənənədən kənara çıxmaq və müstəqil qərar qəbul etmək hüququnda olsun. Bəzən əcnəbilər bu xüsusiyyətə görə yaponları məkirli, hiyləgər hesab edirlər. Ünsiyyət partnyorunun xətrinə dəyməmək üçün, nəzakətli olsun deyə edilmiş təklifə "yox" deyə bilməyən yaponu əcnəbilərin hiyləgər, bic adlandırması sadəcə olaraq yapon mədəniyyətinin bilməmək səbəbindən irəli gəlir. Bu zaman yapon belə bir zehniyyətdən çıxış edir ki, onun susması, heç də bizlərdə olduğu kimi, "susmaq razılıq əlamətidir" kimi yox, imtina kimi yozulacaq. Yaponiyada insan özünü sosial qrupdan kənarda təsəvvür edə bilmir və ona görə də burada cəmiyyətdə gərginlik heç də başqa ölkələrdə olduğu kimi yüksək deyil. İnsanın davranışı sanki, ana südü ilə mənimsənilən nəzakət qaydaları, sosial qadağalarla ciddi şəkildə reqlamentləşdirilmişdir. Yaponiyada doğulub boya başa çatan, yapon dilindən başqa heç bir dil bilməyən, hətta əcdadları belə bu ölkədə yaşayan əcnəbi yaponlunun gözündə heç vaxt əsl yapon olmayacaq. Əsl yapon olmaq üçün gərək genetik olaraq yapon olmaq lazımdır. Əcənbi qadınla evlənmiş yaponun nigahı yalnız, onun xanımı özünə yapon adı götürdükdən sonra rəsmi olaraq qəbul olunur. Məlumdur ki, uzun müddət əcnəbi ölkədə yaşamış yapon diplomatlarının uşaqları

öz vətənlərinə qayıtdıqdan sonra adaptasiya problemi ilə qarşılaşırlar. Buradan belə nəticə çıxarmaq olmaz ki, yaponlar rasistdirlər. Sadəcə olaraq onlar üçün dünya iki hissədən yapon və qeyri-yapondan ibarətdir. Yaponlarda nəsil şəcərəsinə, soykökə çox həssaslıq göstərirlər. Ukrayina mənşəyli emiqrant Berequvanın oğlu Fransanın baş nazir olması, yaxud yapon Fuximorinin Peru prezidenti olması nə fransızları, nə də perulular təəccübləndirmədi. Amma, hətta ulu babası VII əsrdən Yaponiyaya gəlmiş olan emiqrantın iticəsinin Yaponiyanın baş naziri olmasının təsəvvür etmək qeyri mümkündür. ətraf aləmlə, başqa xalqlarla əlaqədə, ünsiyyətdə olduqda yaponlar özlərinin bənzərsizliyi haqqında olan fikirləri təkzib etməyə yox, əksinə onu təsdiq etməyə çalışmırlar. ***Yaponlar vizit kartını-Meyşi*** adlandırırlar.

Psixologiya hesab edir ki, insan biopsixososial varlıqdır. Yəni, insan xarakterinin bəzi cəhətləri bioloji olaraq genetik amillərlə şərtlənirsə, bəziləri həyatda qazanılır. Insanın düşdüyü sosial və təbii mühit də insan xarakterinə öz təsirini göstərir , onda müəyyən "naxışlar" (xarakter əlamətləri) vurur. Bu mənada müasir yapon xarakterindəki bəzi əlamətləri coğrafi determinizm prinsipi əsasında izah edilə bilər. Belə ki, Yaponiyanın yerləşdiyi coğrafi ərazi, onun iqlimi, təbiəti və s. amillər yapon xarakterinin formalaşmasında müəyyən rol oynamışdır. Yapon torpaqlarının əksəriyyətinin qeyri məhsuldar olması, təbii sərvət qıtlığı, əlverişsiz iqlim şəraiti, əhali sayının artımı, ölkənin ada dövləti olması, materiklə quru əlaqəsinin olmaması, əcnəbi ölkələrə emiqrasiyanın çox çətin olması və s.obyektiv amillər yaponları gərgin əməklə məşğul olmağa, özünü dolandırmaq üçün vasitələr axtarmağa, yalnız özlərinə ümid etməyə məcbur etmiş, çıxış yolunu çalışmaqda, zəhmətdə görüblər. Bunu nəticəsində yapon milli xarakterində zəhmətkeşlik, əməksevərlik, qənaətcillik, məqsədyönlülük, məqsədə çatmaq üçün xırdaçılıq, daxili intizam hissi, özünənəzarət, çətinliyə qarşı dözümlülük kimi keyfiyyətlər formalaşmışdır.Yaponlar ***son dərəcə işgüzardırlar.*** Yaponlar ad günlərində, işdən kənar vaxtlarda, bayramlarda ən çox ***milli geyimlərə*** üstünlük verirlər.

Millətin, xalqın xarakteri, psixologiyası onun təfəkkür tərzində özünü biruzə verir. Tədqiqatçıların böyük əksəriyyəti yapon təfəkküründə bir-biri ilə birləşə bilməyən cəhətlərin vəhdətdə olduğunu göstərirlər: mücərrəd düşüncəyə meyillilik, yaradıcılıq, rasionalizm və eyni zamanda fikri əməliyyatlarda lənglik, özünə inamsızlıq, təşəbbüskarlıqdan uzaq olmaq.

Yapon xarakteri üçün səciyyəvi olan əsas əlamətlərdən biri ***qrupa, kollektivə, topluma tabe olmaq,*** ona özünü təslim etmək, səcdə etməklə bağlıdır. Başqa sözlə ifadə etsək yaponlar qrupa, kollektivə pərəstiş edir və ona tabe olmağı özlərinə fəxr bilir, bundan zövq alır, bu xüsusiyyəti müsbət qiymətləndirir onu iradə əlaməti hesab edirlər. Əsrlər boyu Yaponiyada fərdin kollektivə tabeçiliyi olmuşdur. Əvvəllər feodala, sonra imperatora, bu gün isə firmanın rəhbərinə. Yapon adət edib ki, "kiminsə adı, şərəfi uğurunda" çalışsın. Yapon özünü şəxsi göstəricilər, naliyyətlər (peşə, ixtisas, yaşayış yeri, vəzifə və s.) əsasında deyil, aid olduğu qrup, kollektiv adından təqdim edir.

Yaponlar üçün fərdi həyat, fərdi xoşbəxtlik o qədər də sevindirici, üzrəkaçan deyil. Yapon həyatını qrupdan kənarda təsəvvür edə bilmir. Ona görə də yaponlar qrup şəklində işləməyə, gəzməyə, istirahət etməyə, səyahət etməyə, oxumağa, əylənməyə, bayram etməyə çox böyük üstünlük verirlər. Hər bir yaponlu qrup üçün faydalı olan iş görməyə, qrupa xeyir verməyə çalışır və bundan qürur hissi keçirir. Qrup mənafeyini şəxsi mənafeydən yüksək tutmaq yapon əxlaqının mühüm xüsusiyyətidir. Dünya xalqları bir-birindən həm də özünün qadağalar sistemi ilə fərqlənir. Ictimai-sosial münasibətlər qadağalar vasitəsilə tənzimlənir.Alman psixoloqu V.Vundt yazır ki, tabu insanlığın yazılmamış ən köhnə qanunudur. Tabu hətta dindən əvvəldir. Bu mənada insanın qrupdan kənar edilməsi, uzaqlaşdırılması, qrupa daxil olmasına qadağanın qoyulması yapon üçün ən sərt cəza hesab olunur. Bu cür cəza nə oğurluğa, dələduzluğa görə yox, qrup marağına xəyanət edildiyi halda verilir. Bu davranış tərzi kiçik yaşlardan uşaqlara tərbiyə olunur. Məsələn, ruslar uşağı evdə saxlamaqla, həyətə buraxmamaqla cəzalandırırlarsa, yaponlar tam əksinə uşağı evə buraxmayacaqları ilə xəbərdarlıq edirlər. Yaponiyada qrup daxilində ünsiyyətdə olarkən mütləq özünü aşağı mövqeydən təqdim edir. Belə olan halda, yapon mədəniyyətini bilməyən insan belə hesab edəcək ki, bu şəxsin heç bir qürur hissi, özünə hörmət etmir. Bu heç də belə deyil. Nəzakətli ünsiyyət, tərəf müqabilinin mövqeyini özündən yüksək tutmaq yaponlar arasında qəbul edilmiş etiket qaydasıdır. Yaponla ünsiyyətdə olarkən diqqətli olmaq lazımdır. Əgər sizə təklif etməyiblərsə, onda əyləşmək olmaz. *A.Hiroyuki* yazır ki, yaponlar natiqlik qabiliyyətini heç də yüksək dəyərləndirmirlər, əksinə belə adamlara qarşı inamsızlıq göstərirlər. Onlar üçün susmaq aktiv ünsiyyət vasitəsidir. Susmaq müxtəlif məna ifadə edə bilər o cümlədən narazılığı, qəzəbi və s. Yapon yaxşı tanımadığı adamlar arasında susmağa üstünlük verir və söhbətə qoşulmaq zərurəti yarananda özünü o qədər də yaxşı hiss etmir.Yapon atalar sözünə görə "***Susmaq gözəl danışmaqdır***".

Hər bir xalqın psixologiyasına dərindən bələd olmaq üçün mütləq o xalqın tərbiyə sistemini öyrənmək lazımdır. Yaponlar uşağa qarşı çox mülayim davranır və tərbiyə edirlər. Uşağı demək olar ki, heç vaxt döymürlər, onların üstünə qışqırmır, yalnız dilə tutmaqla, şəxsi nümunə, valideyn qarşısında borc hissi əsasında tərbiyə edirlər. Yaponiyada uşaqların tərbiyəsi barəsində bir neçə qayda mövcuddur:

I - uşaqla 5 yaşa qədər "kral" kimi rəftar edirlər, yəni bu bir növ tam şəkildə icazə dövrüdür.

II -15-yaşa qədər "qul" kimi davranırlar, yəni sərt məhdudiyyət dövrü.

III -15 yaşdan sonra uşaqla "bərabər" rəftar edirlər. Kiçik yaşda yapon uşaqlarının tərbiyəsi "yumşaq və hər şeyi bağışlayan" qaydada keçirilir. Uşaq meydançasında uşağa qışqırıq eşitməssiniz, xüsusən də cəmiyyətin gözü qarşısında. Yaponiyada heç vaxt uşaqları vurmurlar. Ən ciddi cəza ana tərəfindən hərəkətin bəyənilməməyidir, hansı ki,bu ciddi bir baxış və ya intonasiya ilə ifadə olunur. Yaponiyada uşaqlarə söymək qəbul edilməmişdir, xüsusilə də, 2 yaşa qədər.Tərbiyənin

bünövrəsi birinci olaraq onları əhatə edən insanlara nəzakətli olmağıdır. Bütün tərbiyə qaydası çox əsrlik ənənələrə tabe edilmişdir, hansılar ki , bunları cəmiyyətdə normal şəkildə qəbul edirlər. Beləki, onlar açıq nümunə şəklində şuluqluq edən uşaqlara qarşı bir hiylə işlədirlər. Həmin uşaqları " itirilmiş uşaq " və ya yapon dilində " mayqo" adlandırırlar. Ənənəyə görə, Yaponiyada ictimai yerlərdə və evdə balaca uşaq ananın əlində olur və yaxud da onu xüsusi örpəklə öz üzərinə bağlanılır. Ancaq körpə bütün günü eyni vəziyyətdə olmaqdan bezikir və ayaqlarını dartmağa başlayır. Belə olduqda isə ana onu küçəyə "itməyə" buraxır və ya icazə verir. Xoşbəxtlikdən bu ölkədə uşaqların oğurluq halları olmur və nəqliyyat hərəkəti kifayət qədər təhlükəsizdir. Bütün yaponlar bu hiyləyə yaxşı bələddirlər və körpəni tapmağa kömək edirlər. Bunu sakit tərzdə, polis olmadan asanlıqla həll edirlər. Bu zaman, ana yaxın bir yerdə olanlara nəzarət edir, eyni zamanda da ətrafdakılar ananı görürlər. Onlar körpəni axtarmağa kömək edirlər. Bu zaman onlar uşağa ana istiliyindən və qayğısından məhrum olmağının nə demək olduğunu hiss etdirirlər. Pis " mayqo" olmağın, daha sonra necə "amae"(yapon dilində- qayğı) olub ,ana istiliyinə, qayğısına qovuşmağın hissini yaşadırlar. Bir qayda olaraq bu həmişəlik uşaq üçün dərs olur və o daha anadan uzaqlaşmağa çalışmır, özü "amae"ni yenidən itirməyindən ehtiyat edərək, özünü nadinc aparmır. ***Yapon xaraketirnin əsasını "amae" və həya hissi*** təşkil edir. Yapon anaları öz körpəsini sakitləşdirərkən belə bir fraza işlədirlər -*"Bəyəm sənəcnəbisən?".*Yaponlar üçün bu çox təhqiredici bir şəkildə səslənir, hətta kiçik yaşda belə ən qorxulu vəziyyət odur ki, hamı kimi olmayasan və yaxud " öz şəxsi simanı" itirəsən. Yapon ailəsində 5 yaşdan 15 yaşa qədər körpənin tərbiyəsi kardinal şəkildə dəyişir və o ciddi qaydaların çərçivəsinə düşür. Bu dövrdə şəxsiyyətin sərt sınması başlanır. Uşaqda məhz bu andan bütünlüklə fərdini boğmağa və kollektivist təfəkkürüforma-laşdırmağa çalışırlar. Bu dövrdə məktəbəqədər tərbiyənin və məktəb təhsilinin bütün sistemi bu hədəfə xidmət etməyə yönəldilir. Bu hamı kimi olmaq, seçilməmək, lağa qoyulmamaq və eqoist olmamaqdan ötrü yaranmışdı. Yaponiya məktəblərində " idzime" anlayışı mövcuddur. Bu anlayışda uşaq hamı kimi olmaq istəməyəndə, başqaları onu təqib edirlər, ələ salırlar,hətta döyürlər. Kiçik məktəbdə uşaq müəllimlərin və orada oxuyan böyük siniflərin himayəsi altındadır. Lakin burada şəxsiyyətlə mübarizə artıq tam sürətlə gedir, zahiri görünüşdən başlayaraq, eyni forma, eyni çantalar- oğlanlarda qara, qızlarda- qırmızı olur. Orta məktəblərdə şagirdlərə münasibət daha sərt olur. Nümunə üçün almanlardan ciddi "tabe qaydaları" götürülmüşdür. Səhər sıraya düzülmə və himnin xorla oxunmasından başlanır. Forma və şagirdlərin zahiri görünüşü barəsində isə ciddi nizam-intizama riayət olunur. Artıq burada qruplar şəklində ciddi bölgü olur. Məsələn, əgər uşaq(şagird) yaxşı üzə bilmirsə onu həmin hovuzdakı qrupdan ayırıb, ayrı bir qrup təşkil edirlər. Buna görə də, orta məktəbdə qruplarda yer üstündə mübarizə başlanır və bu səbəbdən də yaşıdların arasında münasibət pozulur. Bu dövr uşaqların həyatında çox ağrılı keçir. Qayğısız uşaqlıqdan böyük həyata keçid dövründə yeniyetmələr tərəfindən tez-tez intihar

halları baş verir. Bunun səbəbi isə stress və sərt çərçivələrdə qoyulmuş şərtlərdir. Yalnız 15 yaş sərhəddinə çatanda, Yaponiyada uşaq böyük insan hesab edilir və onlarla bərabər hüquq və davranışlar çərçivəsində münasibət qururlar. Bu dövrdə uşaqların əksəriyyəti bu kollektivin şüuru ilə uyğunlaşmış olurlar. Yaponiyada oğlanların tərbiyəsi qızların tərbiyəsindən kəskin sürətdə fərqlənir. Oğlan - gələcəyin kişisi və ailə başçısıdır. Onların tərbiyələrinin bünövrəsi samurayların ənənələri ilə sıx bağlıdır: böyük bir cəsarətlə həyatın ağrı və əziyyətlərini daşımağı bacarmalıdır. Ona görə cavan oğlanlara həsr olunmuş bayramlarda havaya müxtəlif rəngli *karpın* təsvirlərini buraxırlar. Yapon mədəniyyətində "*karp*"- simvolik balıqdır. O uzun müddət suyun axınına qarşı üzə bilir. Bununla kişinin həyatın çətinliklərinin öhdəsindən necə gəlməli olduğunu sübut etməyə çalışırlar.Yapon ailəsində qız gələcəyin anası, ailənin qoruyucusudur. Erkən yaşlarında ona sakit, dözümlü olmağı, ailə başçısına (kişiyə) qulaq asmağı öyrədirlər. Konfutsi təliminə görə: "Gənclikdə qadın "anaya", evli olduqda "ərə", qocaldıqda isə "öz oğluna" tabe olmalıdır.

Amelya Notomb "*Qorxu və titrətmə*" adlı kitabında yapon ailəsində qızların tərbiyəsinin maraqlı interpretasiyasını gətirib. Yaponlarda ***ag rəng*** matəm rəngi hesab olunur. Yaponlar erkən yaşda onların yaxşı, mənəvi hissələrini öldürür və qıza hədsiz qadağalar qoyurlar. Beləki qız hər hansı tələblərlə razılaşmırsa ona belə cavab verirlər: "Əgər sənin belə yaşamaq xoşuna gəlmirsə, bircə çıxış yolu var- intihar" . Bu sözlər heç də istehza kimi səslənmir. Çünki Yaponiyada ***intihar- hörmətli aktdır***, yəni bu insanın yaxınları və ailə üzvləri buna hörmətlə yanaşırlar. Həmin şəxsdə özünə layiqli yer tutmuş sayılır. Yaponiyada 18 yaşla 25yaş arası qızlarda pul qazanmaq, oxumaq və özünə karyera qurmaq dövrü başlanır. Əgər 25 yaşdan sonra ailə həyatı qurmayıbsa, özünü ailəsinə həsr etməyibsə öz ailəsini rüsvay etməmək üçün yeganə üsul boz kostyum, ağ corab, dabansız ayaqqabı geyinib saçını kəsdirib,cidi formada olmaq olur. Ancaq düşünməyin ki, yaponlar belə həyatdan əzab çəkirlər. Onlar başqasının həyat tərzini görməyiblər.Onların anaları, nənələri, böyük nənələri də belə yaşayıblar. Yapon tərbiyə sistemi haqqında nəticə çıxardarkən Mark Siseronun sözlərini xatırlayaq:" Hər kəs özunə". Yapon sistemində uşaqların tərbiyəsində minusları və üstünlükləri axtarmaq yanlış olardı. Beləliklə, yapon cəmiyyəti bunu minillik ənənələri ilə qəbul edib. Bu mədəniyyəti olduğu kimi, ittiham etmədən, tənqid etmədən, tərifləmədən və köçürmədən qəbul etmək lazımdır. Yaponların möhkəmliyinə paxıllıqcasına həsəd aparmaq olar. Çünki əsrlik ənənələrini saxlamaqla yanaşı, nəsildən nəsilə ötürməni məharətlə bacarırlar. Ancaq yapon tərbiyəsinin bəzi prinsiplərini aşağıdakı kimi göstərmək olar:

- Yaponiya öz adət-ənənələrini bir qismini bu günə kimi yaşada bilmişdir. Yapon adətlərinin, bayramlarının dəyişilmə-məsinin əsas səbəbi dövlətin özünü təcrid siyasəti olub. ***"Yerində olmayan mismarın başına çəkic dəyər"*** frazasını yaponlar geyim seçərkən istifadə edirlər.

Yapon əxlaqında valideynə və özündən böyüklərə hörmət ən başlıca yerdə durur. Yaşca özündən böyüklərə hörmət özünü təkcə ailədə yox, həmçinin iş yerinlərində, ünsiyyətdə və.s yerlərdə özünü göstərir.

Müasir yapon cəmiyyətində artıq valideynin fikrini nəzərə almaq yavaş-yavaş itməkdədir. Buna səbəb isə yapon gənclərinin avropa və amerika yaşam tərzinə meyil göstərməsidir. Qədim yapon cəmiyyətində valideynin istəyi ilə evlənmək və ya valideynin peşəsinin davam etdirmək indiki dövrdə demək olar ki, yox səviyyəsindədir. Bunu yaşlı yaponlar əsasən yaponiyada yaşam səviyyəsinin yüksək olması və müasir yapon gəncinin hər istədiyini pula əldə edə bilmək fikri ilə izah edirlər.

Müasir Yaponiyada ailə daxilində qalan adətlərdən bir nikah mərasimidir. Yapon gəncləri özləri sevdikləri şəxsi seçsələrdə, onu öz ailəsi ilə mütləq tanış etməlidir. Yapon qızına elçi düşmüş Yapon oğlanı hörmət əlaməti olaraq qızın atasının qarşısında diz çökərək onun qızının qayğısına bundan sonra özünün qalmaq istədiyini bildirir, yalnız qızın atasının onu ayağa durmasını istədikdən və oğlana "mən qızımın qayğısına qalmağı bundan sonra sənə həvalə edirəm"-sözlərini dedikdən sonra oğlan ayağa dura bilər.

Yapon cəmiyyətində valideynə yaxşı baxmaq, onun qayğısına qalmaq hər bir yaponun borcu kimi hesab edilir. Müasir Yaponiyada yaşlıların qocalar evinə qoyulması və ya yaşlıların özlərinin qocalar evində yaşamaq istəməyinə pis baxılmır. Yaşlılar bunu əsasən evdəkilərin vəziyətinin ağırlaşdırmamaq üçün, gənc nəsil isə gərgin iş rejminə görə onlara lazım olan qayğını göstərə bilməyəcəklərindən bunu edirlər. Bu hadisə isə müasir Yaponiyada 70-ci illərə aid olan "bir dam altında üç nəsil"- yəni övlad, ata-ana, baba və nənə- deyimində olan baba-nənə ifadəsinin yoxa çıxmasına səbəb olmuşdur. Artıq əksər yapon uşaqları baba və nənə anlayışının nə demək olduğunu bilmirlər. Onlar baba və nənələrini qocalar günündə ziyarət edirlər, lakin bunu daxildən gələn sevgi hissinə görə deyil ,sadəcə qədimdən qalan yaşlılara hörmət əlamətinə görə edirlər.

Yaponiya dövləti yapon gənclərində yaranmış laqeydlik hissini aradan qaldırmaq və ya ***yaşlı yapon baba və nənələrinin nəvələrinə qarşı isti münasibətini yaratmaq üçün*** 2005-ci ildən fəaliyyət göstərən xüsusi kurslar açmışdır. Bu kurs vasitəsi ilə yaşlı baba və nənələr özlərinin yadan çıxartdıqları kiçik nəvələrinə qarşı necə davranmaq lazım olduğunu öyrənirlər. Həmçinin yaşlılara gənc yapon nəvəsi ilə psixoloji necə davranmaq lazım olduğunuda izah edilir. Burda əsasən ailədə münaqişəli vəziyyətlər düşərkən, konfiliktlərdən necə yayınmaq və məsələni necə düzəltmək lazım olduğu yaşlılara öyrədilir. Bu psixologiya əsasında artıq çətinliyə düşən nəvə özünə qəsd etmək əvəzinə baba və nənəsindən kömək istəyə bilər. Kurslarda iştirak edən baba və nənələrin əksəriyyəti 20 ildən çoxdur ki, qucaqlarına körpə götürməyiblər. Buna görədə onlar körpəni necə çimizdirmək, onun altını necə dəyişdirmək və yatızdırmaq lazım olduğunu bir də öyrənirlər. Bu kursların sayəsində kariyera qurmaq istəyən yapon qadınları öz övladlarını qayğısına qalmağı ata və analrına

tapşırırlar. Beləliklə müasir yapon psixologiyası üç əsas dinin təsiri altında formalaşmışdır: sintoizm, buddizim və konfutsiçilik. Hər bir yapon ailəsində ***uşağa, təbiətə məhəbbətin aşılanması*** sintoizm, buddizm dinləri ilə bağlıdır. Sintoizm və buddizim kimi dinlərdə ***ağacın, daşın, çayın və digər təbiət məhsullarının ruhu*** olduğu qəbul olunur. Sinto yapon xarakterində təbii gözəlliyə həssaslıq, vurğunluq, təmizkarlıq kimi keyfiyyətlər formalaşdırmışdır. Buddizim dözümlülük, möhkəm iradə konfutsiçilik isə şəxsiyyətlərarası münasibətlərdə daima ierarxiyanı gözləmək, yaşlılara və ierarxiyanın yuxarı pilləsində dayananlara tabeçilik, sədaqətlilik kimi keyfiyyətləri aşlamışdır.

Bu ölkənin qədim adı ***Yamoto sözünün mənalarından biri "Dağların yolu" ifadəsi*** rəvayətin mahiyyətini ifadə edir. Çünki, Yaponiya hər şeydən əvvəl dağlar, adalar diyarıdır. Yaponiyada günəş həmişə dağların arxasından doğur və dağların arxasında da qürub edir.

Yapon dilində ölkənin hüdudlarını aşan və əcnəbi vətəndaşın Yaponiya haqqında təsəvvüründə onlar qədər səciyyəvi obraz yaradan sözlərdən biri kimono, qeyşa, samuray, ninza sözləridir. Bu sözlər çoxlarına məlum olsa da mahiyyəti haqqında heç də həmişə düzgün təsəvvür yaratmır. ***"Qeyşa" sözü iki qey - talant, istedad və sya- insan*** heroqlifdən əmələ gəlmişdir və hərfi tərcüməsi incəsənət adamı deməkdir.

3. İngilis xalqının etnik psixoloji xüsusiyyətləri

İngilis xalqlının milli xüsusiyyətlərinin, adət-ənənələrinin, əxlaq normalarının, düşüncə və təfəkkür tərzinin öyrənilməsinin zərurəti

İngilislər ən qədim tarixi olan xalqlardan biridir. Dünyada bir çox müstəmləkələrə məhz ingilislər sahib olmuşdur. Onlar zəhmətkeş, tarazılıqlarını saxlayan, dostcanlı, ehtiyatlı və ləyaqətli insanlardır. Onların idealı müstəqillik, təhsilli olmaq, daxili özünəhörmət, dürüstlük və fədakarlıq, xeyirxahlıq, zərif davranışlı, kübarlıq, yaxşı iş üçün zaman və pul xərcləyən, idarə etməyi və tabe olmağı bacaran, qarşıya qoyulmuş məqsədə çatmaqda əzmli, səs-küyü və öyünməyi sevmirlər.

Bununla bərabər, ingilislərlə gündəlik ünsiyyətdə ingilis milli xarakterini anlamaq çox vaxt çətin olur. Burada konformizm və individualizmin, qəribəlik və yatımlılıq, xoşüzlülük və qapalılıq, yadlaşma və şəfqətlilik, sadəlik və fəxrlilik (snobizm) kimi paradoksların qəribə birləşməsi vardır.

İngilis milli xarakteri alman və fransızdan əsaslı şəkildə fərqlənir. İngiltərənin siyasi fəaliyyəti, sərbəst möhürü, dənizdə ağalığı və nəhəng sənayesi o qədər genişləndirilib ki, hər bir milli xarakterini daşıyan insan ən sakit qərar verməklə bərabər enerjili və həlledici işgüzarlıqları ilə seçilirlər (F.Engels).

Böyük Britaniyanın sakinlərinin mühüm psixoloji xüsusiyyəti onların yüksək praktikliyidir. Müşahidələrə əsasən qeyd edilir ki, onlar həyat və fəaliyyətlərində hədəf tutduqları praktik məqsədlərdən başqa heç nə görmür. Sənaye-ticari fəaliyyətlə uzunmüddətli fəal iştirakı həm yüksək praktiklik, həm də nəzəri və mücərrəd biliklərə məlum laqeydlik gətirdi. Bu isə, öz növbəsində, abstraktlıq hesabına vizual qabiliyyətlərin və obrazlı düşüncənin güclənməsinə kömək etdi. Bir çox tədqiqatçılar qeyd edirlər ki, ingilislərin qeyri-maddi (gözlə görülməyən) kateqoriyalar ingilislərə aydın deyil, onlar yalnız görüb və duyduqlarını

anlayırlar, ingilislərdə təsəvvür zəifdir və abstraktlaşdıra bilmirlər. İngilislərin bütün elmi fənnləri onların praktik əhəmiyyətinə görə nəzərə alınır. Həqiqət onlar üçün yalnız konkret ifadə formasında mövcuddur. Əgər yüksək praktiklik, əməksevərlik və işgüzarlıq, mübahisəsiz olaraq, ingilislərin milli xarakerinin müsbət cəhətləridirsə, onda nəzəriyyəyə laqeydlik, zəif təsəvvür və abstraklaşdırmayı bacarmamaq onların kompromisə meylliliyini gücləndirir. Tarix göstərir ki, qismən də olsa, lakin əhəmiyyətli nəticələr əldə etmək üçün ingilislər uzaq perspektivdə onlara zəif təsvir olunan mücərrəd prinsipləri qurban verməyə hazırdırlar.

Ticari sahədə uzunmüddətli və davamlı fəaliyyəti ilə və digər dövlətləri zəbt etməklə, ingilislərin milli psixologiyasında quru hesablama və məharətlilik, təmkinlilik, dözümlülük və özündən əminlik xüsusiyyətlərini yaratmışdır. BuYaxın keçmişdə olan puritanlıq da özünə sahib olmaq bacarığı və özünə intizam tələb edən prinsipləri ilə buna təkan verdi. İngilislər üçün əsas həyati dəyərlərdən biri də maddi rifahdır. Heç kimin sərvəti bu şərəfdən istifadə etmir. Böyük Britaniyadakı bir şəxsin sosial mövqeyi nə olursa olsun, alim, hüquqşünas, siyasətçi və ya bir din xadimi olsun, ilk növbədə bir tacirdir. Hər hansı sahədə, onun ilk narahatlığı mümkün qədər çox qazanmaqdır.

İngiltərədə ənənələr fetişə, kulta çevrilmişdir, ondan zövq alırlar. Hər bir millətdə olduğu kimi, ingilislərin də bir çox adətləri vardır. Bunların arasında bədən tərbiyəsi, ailədə, məktəbdə, universitetdə, fabrikdə, zavodda ənənəyə çevrilmişdir. İngilislərin sadə, rahat gündəlik geyimlərə ənənəvi marağına əsasən onlar hətta kostyumları ilə fərqlənməyi belə hörmətsizlik kimi qəbul edirlər.

İngilislər qida qaydalarını düzgün şəkildə yerinə yetirirlər. Birinci yeməyi səhər yeyirlər, saat birdə ikinci səhər yeməyi, saat 17-də çay, saat 19-20-də nahar. İngilislər şam yeməyini sevmirlər. Yemək zamanı qadalara ciddi əməl edilir, beləcə də ölçülmüş həyat və iş rejiminə ciddi əməl olunur. İngiltərədə özgələrə gülünc, hətta qəribə görsənən ənənələrə inadla riayət edirlər. İnsanların həyatını korlayan ənənələr də az deyildir.

İngilislərin düşüncəsinə görə, insan xarakterinin əsas üstün cəhətlərindən biri özünə sahib ola bilməkdir.Bu onların başlıca devizidir. ***"Özünü ələ almağı bacar"*** sözləri bu millətin şüarını hər şeydən daha yaxşı ifadə edir. Həyati situasiyalardan asılı olmayaraq, insan ən azından xaricən, daha yaxşı olar ki, daxilən də soyuq və təmkinli olmalıdır.

İngilislər ünsiyyətdə çox mühafizəkardırlar. Onların meteorologları hər gün hava temperaturunu uzun illər bundan qabaq olduğu kimi həm Selsi şkalasıyla, həm də Farengeyt ilə bəyan etməyə davam edirlər. Onlar hələ də kral hakimiyyətinə və kral ailəsinə etiram edirlər, baxmayaraq ki, onları tez-tez istehza mövzusuna da çevirirlər. İngilislər öz evlərini yüksək qiymətləndirirlər, onu çağırılmayan ziyarətçilərdən və yorucu qayğılardan gizlənməyə kömək edəcək bir qala hesab edirlər. Onların milli ehtirası bağbançılıqdır, hobbiləri isə ev heyvanlarıdır.

İngilislər olduqca çevikdirlər, sərt tərələrini yumşalda bilirlər, qarşı tərəfin təşəbbüsünə həvəslə cavab verirlər, belə hesab edirlər ki, tərəfdaşlarının mövqeyini nəzərə almaqla düzgün həll yollarını axtarıb tapa bilirlər.

Qeyd etmək lazımdır ki, yumor Böyük Britaniyanın həyatında çox vacib rol oynayır. Buna görə də, ingilislərlə görüşə hazırlaşarkən, zarafatlara və məzəli hekayələrə üstünlük vermək məsləhətdir. İngilislər özünü tənqid etmək üçün, hakim dairənin ünvanına birbaşa və yumşaq tənqidlər üçün yumordan istifadə edirlər. İngilislər dəqiqdirlər. Onların dürüst sözünə etibar etmək olar.

İngiltərədə söhbətə hava şəraitinin, idman xəbərlərinin, hobbilərin və s. müzakirəsi ilə başlamaq məsləhətdir. İngilis xalqına, onların ideallarına və dəyərlərinə yaxşı münasibət göstərməyi xüsusilə qeyd etmək vacibdir. Həmsöhbətin meylləri və vərdişləri haqqında əvvəlcədən məlumat əldə etmək məsləhətdir. İngilislər ünsiyyətdə ilk öncə, olduqca rəsmi olaraq davranırlar, amma ilk 2-3 görüşdən sonra adı ilə çağırmağa başlayırlar və özlərini rahat hiss edirlər: pencəklərini çıxardırlar, qollarını qatlayırlar və s. Yalnız ilk görüşdə əl verib görüşmək qəbul edilir, sonra isə şifahi Salamlaşma kifayət edir.

İngilislərin daha bir əsas xüsusiyyəti odur ki, həmsöhbətini səbrlə dinləyir, onun sözünü kəsmir, tərəfdaşa etiraz etməmək, həmişə onunla razılaşmaq demək deyil, onu inandıra bildiyinə dəlalət etmir. Buna görə də ingilislərlə səssiz qalmaqdan qorxmaq lazım deyil. Əksinə, uzun-uzadı, fasiləsiz və dayanmadan danışmaq ünsiyyət qaydalarını kobud şəkildə pozmaq və öz fikrini zorla qəbul etdirmək kimi dəyərləndirilir.

İstənilən hər hansı bir şəxsiyyətlərarası qarşılıqlı münasibətlər kommunikasiyada iştirak edənlərin məqsədlərinə çatdıran və ya mane olan amillərin təsirinə məruz qalırlar. Belə ki, bir mədəniyyətin daşıyıcıları arasında kommunikativ gözləmələrin normaları az və ya çox dərəcədə eynicinsli olsa da, fərqli mədəniyyət daşıyıcıları arasında əhəmiyyətli dərəcədə fərqli olur. Buna görə də müxtəlif mədəni məkanlardakı bu və ya digər uğurlu qarşılıqlı təsir strategiyaları eyni və ya universal ola bilməz. Məqsədin əldə olunmasına mane olan və ya onu çətinləşdirən risk amilləri də universal olaraq təsvir edilə bilməz. Bundan əlavə, risk amilləri "uğur amilləri" ilə birbaşa qarşı-qarşıya qoyulmayıb və kommunikasiyanın müəyyən bir qarşılıqlı təsir üçün müvəffəqiyyət şərtlərinə riayət edilməməsinin qaçınılmaz nəticəsi deyildir.

Belə olduğu hallarda ingilis incə gülüşüylə sizinlə əməkdaşlıq münasibətlərini kəsə bilər. İngilislər hər zaman özlərini ələ ala bilir və şərəfini uca tuturlar. İngilis adətləri özlüyündə ideal tərbiyə qaydaları daşıyır.***İngilislərə göə ölçüsüz valideyn məhəbbəti uşaq xarakterini korlayır***

İngilislər çox intizamlı və qaydalara riayət edən xalqdırlar. Onlar çox pozitivdirlər. Ailə Böyük Britaniyada mədəni dəyərdir, onlar vaxtlarını ailəsinin ətrafında keçirməyi sevirlər. Ənənəvi ingilis evində çoxlu ailə şəkilləri vardır.

İngilis mədəniyyətində bağbançılıq əsl britaniyalının həyatının əsas, ayrılmaz hissəsidir. Onlar sevimli hobbilərinə ürəklərini və enerjilərini qoyurlar, ona görə də onların evlərinin ətrafı səliqəli olur və baxan gözlərə xoş gəlir. Xüsusi qayğını ingilislər yalnız bağda deyil, ev heyvanlarına da göstərirlər. Onlar balaca heyvanlarının qeydinə qaldıqları üçün qürur duyurlar və onları dəbli geyim və ya saç kəsimi ilə əzizləyirlər.

İngilislər əsasən rahat bağ evində sobanın yanında bazar günlərini keçirməyi sevirlər. Böyük Britaniyanın istirahət günü adətləri təmiz hava, barbekyu hazırlamaqla keçirməkdir. Piknikə onlar xüsusi dəqiqliklə hazırlaşırlar, lazım olanları praktik və gözəl şəkildə hazırlayırlar. Pikniki onlar şəhər parklarında, evlərinin yaxınlıqlarında qururlar. Cambridge və Oxford kimi məşhur universitetlərin tələbələri cütlüklər olaraq tənəffüslərin arasında məmnuniyyətlə özlərinə piknik qururlar.
İngilislərin hamısı çox ağıllıdırlar, çünki onların ***Kembric və Oksfordları*** vardır. Xeyr, xeyr və bir daha xeyr. Təəssüf ki, ingilislərin hamısı özünü elmə həsr eləmir, Oksford və Kembricdə də onların hamısı təhsil almır.
Bütün bu stereotiplərlə tanış olmaqla yaxşı ifadəni xatırlamaq olar: "Geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar" (Kitabı üz vərəqinə görə mühakimə etməyin. Don't judge a book by it's cover). İnsanları görünüşünə görə mühakimə etmək düzgün deyildir, bütün millətlər unikaldır, hər bir insan təkrarsızdır. İngilislərin mədəniyyəti eyni zamanda digər ölkələrdən fərqlidir. İngilislərin adət və ənənələri təkdir və təkrarolunmazdır. Qaydalarda və stereotiplərdə hər zaman istisnalar mövcuddur.

4. Alman xalqının etnik psixoloji xüsusiyyətləri

Alman milli xarakteri. Hər bir etnosun özünə mənsub olan yaxşı və pis özəllikləri onların xarakteristikası olaraq digərlərindən fərqləndirir. Həqiqət ondadır ki, Avropa coğrafiyasında yaşayan xalqların içərisində digərlərindən fərqlənən almanlar özəl xarakterə mənsubdur. Milli mənsubiyyətinə üstünlük verən, öz adət ənənələrini qoruyub və inkişaf etdirən, hər yaş dövrünə görə özəl həyatlarını yaşayan, dəqiqliyi və sərtliyi sevən xalqların önündə gedirlər. Temperament tipinə görə almanla ***fleqmatik*** heab olunurlar.
Dünyanın ən ücqar diyarlarında yaşlı turistlərlə qarşılaşacaq oluruqsa, onların çox ehtimal ki, alman ola bilər deyə düşünürük, belə ki, almanlar dünya gəzintisinə təqaüd yaşı çatanda çıxırlar. Bunun bir çox səbəbləri var, belə ki, almanlar işləməyi çox sevirlər və nə qədər ki, canlarında qüvvət var, yaşları imkan verir onlar işə daha inamla yanaşırlar. *Almanlar üçün iş otağının qapısının açıq olması iş şəraiti üçün ağılasığmazdır. Çünki onlara görə açıq qapı son dərəcə səliqəsizliyin əlamətdiri. Almanlar dəqiq və səliqəlidirlər.*
Alman millətinin özəl xüsusiyyətlərindən biri də səyahətə çıxmayan insanların bağ evlərində yaşamağa üstünlük verirməsidir. Onlar yaşlaşanda sanki bağbanlıq peşəsinə yiyələnirlər və vaxtlarının çox hissəsini torpaqla ünsiyyətə, əkib-becərməyə, insanlardan daha çox digər canlılara həsr etməyə başlayırlar. Şəhər həyatının stresindən, səs-küyündən uzaqlaşan almanlar kiçik ərazidə özlərinə məxsus cənnət guşəsi yaradırlar. Statistikaya görə Almaniyada yaşlıların saldığı 2 milyona yaxın kişik bağçalar var və bu bağcalar öz füsünkarlığı ilə göz oxşayır. Yaşlı almanlar bu kiçik məkanlarda dostları və yaxınları ilə görüşür, dincəlir, öz həyatlarını yaşamağa davam etdirirlər.
Almanlar hər yerdə qanunlara hörmətlə yanaşır və digərlərinidə bu qanunlara əməl etmələrini istəyirlər. Sadə bir misal

olaraq göstərə bilərik - əgər qırmızı işıqda kimsə cəhd etsə yolu keçməyə, mütləq arxandan səni səsləyirlər: “qırmızıdır, hara keçirsən”! Almaniyada tıxacda və ya da sürücülərin törətdikləri hər hansı bir qayda pozuntusu, yanlışlıqlar digərləri tərəfindən qınanılır, lazım olan distansiyaya çatdırılır. Bunu özləri üçün vətəndaş borcu sayır və içtima “Radar” adlandırırlar.

Almaniyada eyni düşüncəyə və yaşam tərzinə uyğun insanlar dəyişməz məkan seçirlər. Buna almanlar "Stammtisch", yəni “Her zamankı masa” adlandırırlar. Bu dəyişməz masa görüşlərində ədəbi-bədii maraqlarından başlayaraq, siyasi, idman və mədəniyyətlə bağlı söhbətlər edirlər, eləcə də gündəlik hayat hadisələrindən danışırlar. Almanlara məxsus deyim var “ingilislerin çayı varsa, Almanların da pastası var”! Pasta-kəhve mədəniyyəti almanların dəyişilməz və əvəz olunmazlar sırasında gedir, üstelik sadece digər xalqlarda olduğu kimi özel günlerde de deyil, adi vaxtlarda da istifadəyə üstünlük verirlər. Onlarca pasta çeşidinin yer aldığı Alman mətbəxi hər bir turistin və qonağın xoşuna gəlir.

Alman fəlsəfəsi dünyada öndə gedir. Bəs alman fəlsəfəsi derdikdə insanlar nə düşünür? Kimlər göz önünə gəlir? XVIII əsrdən başlayaraq almanların dünyaya baxışı dəyişdi, onlar elmin daha dərinliyinə nüfuz etməyə başladılar. Alman fəlsəfəsinin simaları olan Kant, Hegel, Marks, Nitçe, Heydeger və başqaları öz dünyaviliyi ilə elmin dəyərini, insanlığın varlığını anladanlar arsında böyük bir məktəb yaratdılar.

Alman dəqiqliyi hər bir etnosun özünə mənsub özəlliyi var. Almanları təyin etdikləri vaxta, zamana daim diqqət edirlər. Onlar istər dövlət səviyyəsində, istərsədə ictimai münasibətlərdə daha dəqiq olmağa üstünlük verirlər. Dəqiq olmayan insanlardan xoşları gəlmir və onlardan uzaq durmağa çalışırlar. Belə insanlarla biznes əlaqələri ümumiyyətlə yaratmırlar.

Almanlar 1-ci və 6-cı günlər saat 13:00-15:00 arası və 22:00-07:00 arası hündür səsli musiqi dinləməkdən, maraqlı olsa da iş alətləri ilə, ev əşyaları ilə səs çıxarmaqdan qaçırlar. Səbəb olaraq digərlərini narahat etməmək üçün bu addımı atırlar, əks tədqirdə mədəniyyətdən kənar sayılır, özlərinə rəva bilmirlər.

Alman ailəsində ata arxetipi. Alman ailəsi dedikdə ilk olaraq biz ata obrazı haqqında düşünməli oluruq. Ata ailənin birinci şəxsi olaraq bütün məsuliyyəti öz üzərinə götürür. Bir çox millətlərdən fərqli olaraq alman ailəsində ata həm sevən, həm də cəzalandıran rolunu oynayır. Dünya xalqlarının çoxunda vətənlərinə “Ana Vətən” səsləndirdikləri halda almanlar “Ata Vətən” deyirlər. Övladların tərbiyəsində alman xarakterinin “hərb dili “ termini öz rolunu göstərir. Uşaqların tərbiyəsi bir başa atanın əsas vəzifəsi sayılır. Almanlarda oğlan uşağı uzun müddət atanın diqqət mərkəzində saxlanılır. Oğlanlardan fərqli olaraq qızların tərbiyəsi ilə ana məşğul olur. Oğlanlar Vətənə, milli dəyərlərə, torpağa bağlılıqda, dünyanın harasında olsa da öz milli mənsubiyyətini (almanlığını) unutmamalı olduğunu artıq kiçik yaşlarından özlərində formalaşdırırlar. “Alman harda olsa da, almandır” deyimi milli təfəkkürdə həkk olunub. Alman yazıçısı F.Kafkanın “Atama məktub” əsərində milli təfəkkürün təzahürünündə ata obrazına münasibəti görmək olar. Ata öz soyuqqanlığı ilə oğlan uşaqlarına sanki bir məktəb yaradır.

Almaniyada təhsil. Almaniyada elm orta əsrlərdən bəri sürətlə inkişaf etməkdədir. Hal-hazırda da Almaniyada elmə çox yüksək səviyyədə maddi vəsait ayrılır və bu məqam ölkə iqtisadiyyatının sürətlə inkişafına əsas təkan verən amillərdəndir. Nəticə olaraq indiyə kimi 103 alman Nobel mükafatına layiq görülmüşdür. Müasir dövrdə Almaniyada elmin inkişafına sənaye, universitetlər və dövlət tərəfindən böyük həcmdə yardımlar ayrılır.

Almaniyada təhsil almaq bir çox gənclərin arzusu sayılır və bunun üçün çoxlu səbəblər vardır. Almaniyada 380-ə yaxın universitet və tətbiqi yönümlü ali məktəblər (Fachhoschulen) mövcuddur ki, gənclər uzunmüddətli ənənəsi və yüksək akademik səviyyəsi ilə seçilən bu təhsil ocaqlarında təhsil ala bilərlər. Alman universitetləri texniki cəhətdən çox yaxşı təşkil olunmuş laboratoriyalarla yanaşı, həmçinin zəngin kitabxanaya malikdirlər. Dünya səviyyəsində kitabxana dedikdə alman kitab evlərini və oxu zallarını göz önünə gətirmək olar. Bu məkanlar sanki dünyanın ən sakit bir guşəsidir, insanların davranış tərzlərində alman hegemonluğu burada hiss olunmur.

Hər bir tələbənin aylıq xərci üçün təqribən 800 Avro hesablamalıdır ki, buraya qidalanma, qalma və sığorta xərcləri də daxildir. Hazırda Azərbaycan üzrə DAAD-nin bakalavr təhsili üçün təqaüd təklif etmədiyinə baxmayaraq Almaniyada təhsil almağa dəyər. Almaniya beynəlxalq tələbələr arasında ən çox sevilən təhsil ölkələri siyahısına daxildir.

Almaniyada yüksək səviyyəli və keyfiyyətli təhsil mövcuddur. Burada təhsil ilə əlaqədar işlərə mərkəzi hökümət deyil, federal əyalətlər cavabdehdir. Uşaq bağçalarına gediş könüllü olsa da, orta məktəbdə 9 illik təhsil ölkədəki bütün uşaqlar üçün məcburi xarakter daşıyır. Bu gün Almaniyanın ali məktəblərində 1,98 milyon tələbə təhsil alır. Onların demək olar ki, yarısı, 48 faiz qadınlardır. Ümumilikdə 376 ali məktəb ali təhsil təklif edir və bunlardan 102-si universitet, 170-i ali peşə məktəbi və 69-u özəl ali məktəbdir. Ötən illərdə xarici tələbələrin sayı hiss olunacaq dərəcədə artmışdır.

Bu gün Almaniyanın ali məktəblərində 1,98 milyon tələbə təhsil alır. Onların demək olar ki, yarısı, 48 faiz qadınlardır. Ümumilikdə 376 ali məktəb ali təhsil təklif edir və bunlardan 102-si universitet, 170-i ali peşə məktəbi və 69-u özəl ali məktəbdir. Ötən illərdə xarici tələbələrin sayı hiss olunacaq dərəcədə artmışdır. 160-dan çox şəhərdə 376 ali məktəb gənclərə ali təhsil verir. Elmi cəhətdən güclü olan məktəblər yalnız Berlin və Hambuq kimi böyük şəhərlərdə deyil, Haydelberq kimi balaca şəhərlərdəki təhsil məktəbləri də bütün dünyada tanınır.

Alman ədəbiyyatı və musiqisi. Alman ədəbiyyatı Mərkəzi Avropada yaşayan almanca danışan xalqların ədəbiyyatıdır. Almaniya, Avstriya, İsveçrə və bunların yanındakı xalqların ədəbi yaradıcılığını əhatə edir. Digər Avropa ədəbiyyatı ilə müqayisə edildikdə Alman ədəbiyyatında nisbətən daha çox fərqlilik görsənir. Burada əsas amil kimi XVIII əsrdə paytaxtı Berlinin meydana gəlməsi və buna qədər almanca danışan xalqların fransızların Parisi, ya da ingilislərənin London kimi bir paytaxtlarının olmaması idi. Daha doğrusu Almaniya uzun müddət ayrılıqlar və bölünmələr halında

yaşamışdır. Bu tip bölünmələr 1600-cü illərdəki dini döyüşlər boyunca 1900-cü illərin ortasından başlayan Soyuq müharibələr vaxtı sıx yaşanmış idi. Bildiyimiz kimi Almaniya Reformasiya deyilən dini hərəkatın mərkəzi olması səbəbi ilə 1500-cü illərdə Protestanlıq ortaya çıxdığı yerdir.

Alman humanizmi 1350-ci illərdə universitetlərin yaradılması Bohemyada başladı. Bu dövrün ən bilinən Alman əsəri olan, Johannes von Telp tərəfindən yazlan əsərdir. Humanizmin əsas nöqtəsi 1480-ci ildən 1530-cu ilə kimidir. İnsanlıq üçün yeni ideallar axtarışı içində humanistlər köhnə Yunan tarixini və fəsəfəsini kəşf etdilər. Əsrlərinin çoxunu almancadan çox latınca yazırdılar. Ən məşhur alman humanistləri İbranicənin ən öndə gedən ustalarından Johannes Reuchlin və Reformu başladan Martin Luterin baş köməkçisi Phillip Melanchtondur.

Alman klassizminin banilərindən Frans Kafka, Tomas Mann, Yohan Höte və başqaları dünya klassizminə öz töhfələrini vermişlər. Necə deyərlər Şeksperin İngilis klassizminə etdiyini Şiller öz yaradıcılığı ilə alman mədəniyyətini zənginləşdirmiş və dünyaya bəxş etmişdir. Şillerin böyük tarixi dramları da Alman ədəbiyyatınada klassik tərz olaraq səhnədə qalmışdır. Şillerin sonraki əsərləri,eləcə də bir çox mübahisələrə səbəb olan fəlsəfi mövzuları, Avropa tarixinin qarmaqarışıqlığı, adi düşüncələri, böyük bir ədəbi məktəb yaratmışdır. Onun ən məşhur əsərləri tarixi dramlarıdır. Almanların dünya şöhrətli alimlərindən ***A.Enşteyn,Q.V.Leybnis*** və digərlərinin adlarını cçəkmək olar.

İ.S.Bax, L.Bethoven və R.Vaqner kimi dünya şöhrətli bəstəkarlar alman xalqının nümayəndələridir

Alman xarakteri haqqında maraqlı məlumatlar. Ölkə ərazisində dialekt müxtəlifliyi var, şimalda yaşayanlar cənubda-kıları çətinliklə başa düşür. Almaniyada işləmədən sosial yardımla yaşamaq mümkündür. Demək olar ki, bütün polislər "Mersedes" maşınlarından istifadə edir. Almanlar alman istehsalı olmayan pivəni çox az hallarda qəbul edirlər. Alman qadınlarının bir çoxu yemək hazırlaya bilmir. Alman qadınları kosmetikadan demək olar ki, istifadə etmirlər. Almaniyada sınmış və ya xarab olmuş əşyanın təmirindənsə, yenisini almaq daha ucuz başa gəlir. Alman mentalitetinə görə onlar mübahisəyə birinci başlamırlar. Başladılarsa da, son nəfəsə kimi davam edirlər. Almaniyada məmurlar vergi ödəmirlər. Almanlar çox zaman "R" səsini tələffüz edə bilmirlər. İdman alman həyatının ayrılmaz hissəsidir.

Alman atalar sözü və məsəlləri. Ağıl danışanda çox söz gərək deyil. Ağıllı güzəştə gedər. Ağıllı üçün bir söz axmaqa verilən uzun nəsihətdən mənalı olur. Ananın ağlamağındansa, uşağm ağlamağı yaxşıdır. Atalar sözündə həqiqət deyilir. İşıq kölgəsiz olmur. Kor doğulan işığa inanmaz. Mərd düşmən namərd dostdan yaxşıdır. Mərdliyin itirən hər şeyi itirir. Nifrəti bacarmayan, məhəbbəti də bacarmaz. Uşaqların körpəsi diz ağrıdar, böyüyü - ürək ağrıdar.

1. Alman adət-ənənələrinin, həyat tərzinin, mədəniyyətinin özünəməxsusluğu.. Almaniyada tərbiyə sistemi.

Almanların toy adətləri. Toy mərasiminin əsas mərhələləri elçilik, nişan, toydan əvvəlki axşam (polter abend) və 3-4 gün davam edən toy şənliyindən ibarətdir. Müasir Almaniya da artıq bu

adət və ənənələr özlərini o qədərdə doğrutmur. Elçi adətən, ya qohum ya da bəyin dostu olurdu. Keçmişdə elçi qızın ailəsi ilə hər hansı bir malın alınması haqqda məsələn isti sıyıq haqqında və s. haqqında danışıqlar aparmalı idi. Əgər ailə ona yox cavabı vermək istəyirdisə, elçiyə boş səbət verirdilər. Amma nişan taxılmışdısa, toy mütləq idi və əgər nişan pozulardısa, pozan tərəf pul təzminatı ödəməli idi. Bəzən nişan taxıldıqdan sonra toy bir neçə il də gec ola bilərdi. Bu o zaman ola bilərdi ki, bu müddət ərzində bəy özünə yeni ev, təsərrüfat və ya iş qurmalı idi. XIX əsrin sonlarınadək nikahlar yalnız kilsədə bağlanılırdı. Sonralar vətəndaş nikahları da bağlanmağa başlandı. Polter Abendi qız öz evində, oğlan isə dostları ilə keçiridi. Mərasimin sonunda "xoşbəxtlik" üçün qablar sındırılırdı. Əvvələr toya qonaqların dəvət olunması üçün hazırcavablığı və ağlı ilə seçilən bir şəxs təyin edilirdi. XIX əsrin ortalarında hətta dəvət üçün şeirdə yazılırdı. 1930-cu illərdə dəvət edən şəxsin hətta xüsusi geyimi də mövcud idi. Silindr papaq, ağ rəngli boğaz yaylığı köynəyin altından bağlanılırdı, yaxasmda rəngli lentlərlə bəzədilmiş kiçik gül dəstəsi bağlanılırdı. Kasıb ailələrdə isə toya dəvəti bəy və gəlin özləri edirdilər. Kəndlərdə toy bütün kənd əhalisinin işi hesab edilirdi və toy xərcinin bir qismini öz öhdələrinə götürürdülər. Adətə görə, bəy və gəlin kənd əhalisindən un, yağ, yumurta və s. toplayırdılar. XX əsrdən isə yalnız qonşulardan toplayırdılar. Toy günü gəlinin cehizinin bəy evinə aparılması ilə başlayırdı. Toy süfrəsi oğlan evində açılırdı. Şəhərlərdə isə adətən kiçik yeməkxanalarda toy süfrəsi açılırdı. Toyda gəlinin qaçıldılması, onu geri almaq üçün ödənilən pul, gəlinin bəyin qohumları ilə reqs etməsi, evlilik həyatına keçməsi ilə bağlı gəlinin başının bağlanması və s. adətləri həyata keçiridilər. Toyda adətən gələcək həyat üçün fala baxmalarda olurdu.

Uşaqlarla bağlı adət və ənənələr. Uşaqların anadan olması ilə də bir sıra adətlər da vardı. Çətin doğuş vaxtı qapı, qıfıl və ya düyün açılırdı. Adətə görə ana və yeni doğulmuş uşaq xaç suyuna çəkilərək pis qüvvələrdən və bəd nəzərdən qorunmalı idilər. Bunun üçün nə ana, nə də uşaq evdən bayıra çıxmamalı idi. Dağlıq rayonlarda hətta gənclər. pis ruhlardan qorunmaq üçün havaya atəş də açırdılar. Xaç suyu mərasimindən sonra evdə böyük bayram süfrəsi açılırdı. Xaç atası və xaç anası seçməyə böyük diqqət verilirdi. Xaç valideynlərinin sayı 2-3, 5-6 nəfər ola bilərdi. Oğlanlarda xaç atası, qızlarda isə xaç anasının sayı çox olurdu. Xaç valideynləri uşağın həyatındakı əlamətdar günlərdə məsələn; ad günü, məktəbə gedərkən və ya bitirərkən və s.hallarda mütləq hədiyyələr verirdilər. Katoliklərdə adətən uşağın anadan olduğu günə yox, xaç suyuna çəkilərkən ad qoyulan günə daha çox diqqət verilir. Protestanlarda isə anadan olduğu gün qeyd olunur ki, indi də bu adət bütün almanlarda geniş yayılıb. Ad günlərində hədiyyələr bağışlanır və şamlar yandırılır ki, şamın sayı yaşın sayı qədər və bir dənə də əlavə olunur. Bəzən ad günləri həmin gün deyil, daha əlverişli günə və ya bazar gününə keçirirlər. Lakin, bu gün mütləq ad günündən sonraki günə aidolmalıdır. Çünki, anadan olduğu gündən tez keçirilərsə, bunun bədbəxtlik gətirəcəyinə inanırdılar.

Gənc oğlanlar və qızların həyatında 2-ci əsas hadisə kilsədə yeniyetməliyə qəbul olunmalı idi. Bu mərasimə protestanlar "konfirmasiya", katoliklər isə "kommonion" deyirlər. Həmin gün yeniyetmə gənclər ya təzə paltar, ya da ən gözəl paltarlarını geyinirdilər. Kilsədə keçirilən mərasimdən sonra evdə bayram süfrəsi açılırdı.

Almanlarm yas adətləri. Almanlarda yasla, ölü ilə bağlı çox az adət və inanclar saxlanılmışdır. Qeyri-adi səslər, gurultu, güzgünün sınması, saatın xarab olması bədbəxt hadisə kimi və ölümün yaxınlaşması kimi qəbul olunurdu. Kəndlərdə ev yiyəsinin ölməsi xəbərini birinci heyvanlara və bar verən ağaclara söyləyirdilər. Axirət dünyasına inam olduğu üçün qəbrə ölən insanın əşyaları qoyulurdu. Bayram günlərində mütləq qəbirsanlığa gedib, ölüləri yad edirdilər. Orta əsrlərdə varlı insanlar yas mərasimlərini dəbdəbəli təşkil edirdilər. Basdırma adətlərini çətinləşdiridilər. Dəbdəbəli sərdabələr tikdirir, kilsə ətrafında basdırır, qəbir daşlarının üzərinə epitafiya yazdırırdılar. Hələ XX əsrdə də imkana görə birinici, ikinci və üçüncü dərəcəli dəfn mərasimləri keçirilirdi. Bəzi bölgələrdə ruhları qovmaq üçün qəbirlərdən taxtalar götürərək, körpülərin, yol ayrıclarının, kiçik kilsələrin üzərinə bərkidirdilər.

8. Amerika xalqının etnik psixoloji xüsusiyyətləri

Amerikalılarda ailə. Uşaqlar 16 yaşına çatdıqda evdən ayrılırlar, onlar bizə görə çox erkən yaşda işləməyə başlayırlar. Orada universitetlərdə təhsil haqqı çox bahalı olduğu üçün uşaqlar məktəbi bitirdikdən sonra universitetə girməyə çalışmırlar, təhsil almaq istəmirlər. Universitetdə oxuyan uşaqların çoxu isə yay aylarında müxtəlif işlərdə işləyərək təhsil haqqlarını ödəməyə çalışırlar. Azərbaycan ailələrindən fərqli olaraq onlarda ata-anaya münasibət tamamilə fərqli olur. Ana övladını hər dəqiqə müdafiə etməyə çalışmır, psixoloji olaraq ona dəstək durur, lakin həyatın çətinliklərindən müstəqil olaraq keçməsini daha məsləhətə uyğun hesab edirlər. Kaliforniyada demək olar ki, hər evin qabağında limon ağacı əkilir. Onların əksəriyyəti evlərinin ətrafında özləri üçün lazım olan hər şey edirlər. Əksər amerikalıların həyatları evlərini, evləri isə həyatlarını dəyişir. Meqapolislərdən uzaqlarda yaşayan amerikalıların ailələrində uşaqlar valideynlərinə ev işlərində kömək edir. Bir çox yeniyetmələr xəstəxanalarda işləyərək özlərinin ehtiyaclarını ödəməyə çalışırlar. Amerikalılar qayda qanuna qarşı çox diqqətlidirlər. Siqaret çəkilməyən yerdə siqaret çəkmək, yerə zibil atmaq, qırmızı işıqda yol keçmək, işə vaxtında gəlməmək kimi qanun pozuntularına görə çox ağır cəzalanırlar. İş həyatında çox ciddi qanunlar vardır. Onlar üçün xüsusi iş həyatı və iş əxlaqı vardır.

İnsan münasibətləri. Amerikada insanlar çox gülərüzdürlər, xüsusən də başqa ölkələrdən gələnlərə qarşı çox mehribandırlar, diqqətlidirlər. İngilislər və fransızlar kimi özündən razı və soyuq deyillər. Tanımadığınız bir insan sizə tezdən Salam verə və ya necəsən soruşa bilər, bu sizi təəccübləndirməsin. Onlar hər an sizinlə dialoq qurub, münasibət qura bilərlər. Amerikalılar

avropalılara nisbətən daha istiqanlıdırlar. Hər bir amerikanlı gün ərzində 50 nəfərlə cox qısa və lakonik danışıb, münasibət qura bilərlər. Balaca uşaqları sevələmək, başını sığallamaq onlar üçün adət edilməz bir şeydir. Tanımadıqları insanların uşaqlarına kənar bir adam yaxınlaşarsa bunu çox pis qəbul edərlər. Hətta onu təcavüz belə adlandıra bilərlər. Ona görə də bu məsələdə ehtiyyatlı olmaq lazımdır. Amerikalıya necəsən deyə soruşduqda həmişə müsbət cavab verməyə çalışırlar. Çünki onlar öz problemləri ilə heç kəsi yükləmək istəmirlər. Problemi olan insanlara isə psixoloqa müraciət etməyi tövsiyyə edirlər. Avropalı və amerikalını müqayisə edərkən çox sıx istifadə edilən bir cümləni qeyd etmək yerinə düşərdi. "Avropalılar üçün 100 km çox uzun məsafə, amerikalılar üçün 100 il çox üzün zamandır". Bunun mənasını belə aça bilərik ki, amerikanin qərblə münasibəti çox uzun bir tarixi əhatə etdiyi 100 il çox, avropalıların ölkələri kiçik olduğu üçün 100 km çox uzun məsafəni ifadə edir.

Şiddət bir çox amerikalının həyatının bir hissəsidir. Hər hansı bir qalmaqal zamanı amerikalılar həmən əl-qol davasına başlamırlar. Haqlı olduqda belə polislər tərəfindən nəzarətə götürülə bilərlər. Amerikalılar pis ifadələrdən istifadə edirlər, amma əl qol davası etmirlər. Amerikalılar həyatda hər şeyin ən yaxşısına sahib olmaq üçün çox işləyə bilərlər və çox şeyi fəda edə bilərlər. Amerikalılar onların bacarıq və uğurlarına lağ edən insanları sevmirlər. Amerikalılar çox zaman gülümsəyirlər, onlar sizi sevməsələr belə gülümsəyirlər. Metroda sizi tanımayan biri belə sizə salam verib, gülümsəyə bilər. Amerikada əgər ingiliscə danışmasanız üzünüzə baxar və heç bir şey anlamaz. Bu vəziyyət onlar üçün qəribə gəlir. İspan dili orada çox yayılsa belə onlar yenə də ingiliscə danışmağa üstünlük verirlər. Amerikalılar ABŞ-ın vətəndaşı olan hər bir kəsə qarşı hörmətlə yanaşır və onun keçmişini axtarmırlar, çünki orda yaşayan hər bir insanın kökü onsuz da başqa-başqa yerdəndir.

Daha sonra amerikada barda, oteldə və digər iaşə yerlərində bəxşiş vermək qəbul edilməzdir.

1. Amerikanların işgüzar həyatının xüsusiyyətləri.

Amerikada yaşamaq üçün çox çalışmaq lazımdır. Daha çox çalışırlar, qazanırlar və xərcləyirlər. Necə deyərlər, Nyu Yorkda insanlar yerimir, qaçır. Həyat burda çox tez keçir. Hər kəsin gedəcək bir yeri var. Avtobusdan istifadə edən amerikalılar mütləq kartlarını pulla təmin edirlər. Çünki, avtobusda "mənim yerimə pul verərsiniz", "mən pulunu verərəm" deyə bir məntiq yoxdur. Amerikada avtomobil yolları çox səliqəlidir. Amerikada avtobuslar heç vaxt gecikmir, hər avtobusun dayanacaqdan keçmə vaxtı vardır. Əgər siz 2 dəqiqə gecikmisinizsə növbəti avtobusu gözləməli olacaqsınız. Onlarda Google Maps sistemi çox güclü işləyir.

Amerikan xarakteri. Dəqiqlik çox önəmlidir. Onlar birinə saat 5-də görüşməyə söz veriblərsə, deyilən vaxtda orda olacaqlar. İşə gecikdikdə müxtəlif bəhanələr gətirib özlərini vəziyyətdən çıxaracaqlar kimi bir məsələ yoxdur. Müdriyyət bu bəhanələrin heç birini qəbul etmir və işçiyə töhmət verirlər. Amerikalılar müstəqil düşüncəyə malikdirlər. Onlar üçün ən önəmli şey xoşbəxt olmaqdır.

Bir amerikalı üçün Suriyada nələr baş verdiyinin heç bir mənası yoxdur, əgər xoşbəxtdirsə deməli hər şey yaxşıdır.
Amerikalılar avropalılarla müqayisədə kütlə psixologiyasına malikdirlər. Əgər hər hansı bir məsələ kütləvi informasiya tərəfindən pisləsirsə (məs: müsəlmançılıq) ətrafda hamı bir mənalı olaraq bunu qəbul edir və heç bir araşdırma aparmır.
Amerikalılar marginal düşüncələrə qarşıdırlar. Onların yanında terror, kommunizm, antimilitarizm kimi fikirlər söyləsəniz amerikalı sizə qarşı çıxar. Onlar sizi anlamaz, sizi dinləməz. Hər bir amerika vətəndaşı öz ordusunu sevir və onun ordusunun dünyaya sülh gətirdiyinə inanır. Amerikalı başqa irqdən olan insana qarşı daha tolerantdır, çünki özü də başqa irqdəndir. Amerikada bir yerli amerikalıdan çox çinli və meksikalı görə bilərsiniz. ***Amerikada klassik geyim və klassik rənglər-boz, göy, ag rəngli paltarlar özünə inam və nüfuzun rəmzi hesab olunur***
Amerikalılar idmanın bir şou olduğunu düşünür. Orada bütün insanlar bacardıqları qədər idmanın müxtəlif növlərindən istifadə edirlər. Hətta səhərlər böyük bir insan kütləsinin qaçmasını görə bilərsiniz. Bu səhər yürüşü adlanır. Şəhərdə hər yerdə böyük televizorlar vardır və onlarda spor kanalları açıqdır. Amerikalılar çox rahat geyinməyə üstünlük verən insanlardır. Onlar tərlikdə, cinsdə gəzər, həyata gülümsəyər, gecələr kartof yeməyi çox sevərlər və bunda zövq alarlar.
Amerikada kütləvi informasiya vasitələri çox vaxt xalqa uydurma informasiyalar çatdırır. Bunu əgər bir kanal edirsə, digər kanallar da eyni informasiyanı təkrar edir. Məsələn, "Amerikada terrorist var" xəbəri bütün kanallarda görə bilərsiniz. Bunula da amerika xalqı çox asanlıqla idarə olunur. Amerika xalqı materialist xalqdır. Xüsusilə də, onlar pulu olan adama qarşı insan kimi davranırlar, yox əgər kasıbdırsa amerikan kütləsi sizi əzə bilər. Ona görə də ən yaxşı variantda onlar pullarının olmadığını heç kimə söyləmirlər. *Amerikada klassik geyim və klassik rənglər-boz, göy, ag rəngli paltarlar özünəinam və nüfuzun rəmz hesab olunur*
Amerikan ailəsində tərbiyə. Kiçik amerikalılar özünü doğuşdan azad hiss edirlər: valideynlər özüylə əyləncə gecələrinə, restoranlara və muzeylərə onları həvəslə götürürlər. Bütün ictimai yerlərdə paltarını dəyişmək və uşağı yedizdirmək imkanı var və ətrafdakı heç kəs onun davranışına nə olursa olsun qəzəblənməyə başlamayacaq. Əgər valideynlər körpəni cəzalandırmağı zəruri hesab edirlərsə, onlar adətən onun hansısa bir sevinclərindən məhrum edirlər: kinodan, oyuncaqlardan və ya gəzintilərdən. Lakin oğulu və ya qızı necə lazımdır cəzalandırmaq bütün amerikalılar tərəfindən inkar edilmir.
Təhsil. Amerikan valideynləri çox narahat olmurlar, əgər məktəbə daxil olan zaman uşaq hələ oxuya və yaza bilmirsə onlar əmindirlər ki, onların oğulu və ya qız dəqiq savadsız qalmayacaqlar. Amerikada ibtidai siniflərdə ən vacib fənn ***İfadəli oxudur***. Hazırlıq siniflərində müəllimlər həmçinin körpələrə xüsusilə təlim vermirlər, onlarla mahnı əzbərləyir, plastilini formaya salırlar, şəkil çəkirlər, nağıllar yazırlar. Lakin əgər yuxarı sinif şagirdində oxumağa həvəs yaranmırsa heç kim ona təzyiq göstərməyə başlamayacaq, amerika müəllimləri bu seçimə hörmət edirlər. Əgər insan cəbri və ya ədəbiyyatı öyrənmək istəmirsə, onda bunu etməmək hüququna malikdir. Uşağın müvəffəqiyyəti haqqında müəllim fərdi görüş zamanı valideynlərə deyir, ona görə əlaçı sinif yoldaşını oğluna və ya qızına nümunə

göstərmək şansı yoxdur. Əxlaq və mənəviyyat haqqında anlayışları şagirdlərə öyrətmək üçün böyük insanların aforizmlərindən ibarət müxtəlif plakatlar məktəbin divarlarında asılır.*Amerikanın məşhur yazıçıları* ***M.Tven, T.Drayzer, E.Heminquey, Lonqfello*** *və digərlərinin adını çəkmək olar.*

Böyüklərlə ünsiyyət. Valideynlər həmişə məktəbin həyatında praktik olaraq iştirak edirlər və öz uşaqlarının işləriylə daim maraqlanırlar. Uşağın istənilən nailiyyəti, məktəb konsertində çıxışı və ya yaxşı qiyməti bütün ailənin sevincinə və heyranlığına səbəb olur. Demək olmaz ki, amerika məktəblərində dərslərdə tam xaos hökm sürür, onlardan çoxunda elə qaydalar var ki, riayət etmək lazımdır. Tamamilə sərt intizam da var, lakin uşağın şəxsiyyətinə, onun fikirlərinə, onun inanclarına böyüklər həmişə hörmət edir.

Azadlıq. Amerika uşaqları, öz Avropa həmyaşıdlarıyla müqayisədə, gecə təxminən bir-iki saat daha gec yatırlar. Burada vaxtda fərqi yoxdu valideynlər oğulların və qızların arzularına daha azad yanaşırlar, müəllimlər üçün öz şagirdlərinin qərarlarına baxmaq sadədir: məsələn, hamilə yeddinci sinif şagirdi, heç vaxt "məktəbin utancı" olmayacaq, ona sadəcə məktəbin tibb bacısı diqqət ayıracaqdır. Amerikalılar tez sərbəst olurlar və doğma ailədən ayrılırlar, qohumlardan kömək gözləmirlər amerika nənələri və babaları, məsələn, səyahət etməyə və şəxsi işlərlə məşğul olmağa üstünlük verərək heç vaxt nəvələr ilə oturmurlar.

Amerikada uşaqların tərbiyəsinin əsas xüsusiyyətləri:

1.Ata uşaqlarla oturur, ana ailəni təmin edir. Amerika üçün tamamilə normal hadisədir.

2.Uşaqlar pərəstiş etmənin və heyran olmanın predmetidir.

3. Uşaq ailənin bütün üzvləriylə bərabər səsvermə hüququna malikdir.

4. Uşağa hörmət edirlər və toxunulmazlıq hüququna malikdir.

5. Uşaqlara hərəkətlərin tam azadlığı çox tez verilir. Beləcə onları müstəqilliyə öyrəşdirirlər. Əgər uşaq palçıqda oynamağı arzu edirsə, ana hirslənməyəcək və ata qayışını çəkməyəcək. Çünki hər kəsin öz səhvləri və təcrübə hüququ vardır.

6. Nənələrlə və babalarla nəvələr nadir hallarda görüşürlər, bir qayda olaraq onlar başqa ştatlarda yaşayırlar.

7. Amerikalılar üçün uşağın ətrafında mənəvi atmosfer əhəmiyyətlidir. Məsələn, çimərlikdə hətta balaca qız çimərlik geyimində hökmən olacaqdır.

8. Şəxsi həyata hüquq. Bu qaydaya riayət etməyi amerikalılar hətta körpələrdən tələb edir. Uşaqlar valideynlərdən ayrı otaqlarda yatırlar və hər halda körpə gecə su içmək istəsə və ya valideynin yorğan-döşəyində kabuslardan gizlənmək istəsə də ana- ataya toxunmaq olmaz. Heç kim hər beş dəqiqədə uşaq çarpayısına qaçmır.

9. Uşaq doğulana kimi mövcud olan həyat tərzi doğuşdan sonra da davam edir. Uşaq dostlarla səs-küylü əyləncə gecələrindən və görüşlərdən imtina etmir, onlar bu yerlərə körpəni də özləri ilə götürürlər və onun ağlamağına baxmayaraq, qonağa saxlamağa verirlər.

10.Uşaq tibbinin əsas şüarı "tələşə düşməyin". Təzə doğulmuş körpənin müayinəsi qısa ola bilər "çox gözəl uşaqdır!" deyirlər . Həkimlər

tərəfindən sonrakı müşahidəyə gəlincə körpənin zahiri görünüşü həkim üçün əsas amildir. Əla görünür? Deməli, sağlamdır.

5. Fransız xalqının etnik psixoloji xüsusiyyətləri

Fransız xalqının milli hissləri. Cənublu fransızların hərəkətlərinin arxasında çox vaxt təbii fikirlər və hisslər durur. Burada şəxsi münasibətləri, insanların bir-biri ilə əlaqəsi əsasən tanışlıq üzərində qurulur. Bu qarşılıqlı əlaqələrdən də adətən "müştəri" termini yaranır ki, bu da bəzən dairəvi formada rüşvətxorluqla əlaqələrə gətirib çıxarır. Onun bəhrəsini də yerli klanlar və mafiya qrupları görürlər. Demək olar ki, bütün cənub fransızlarının sifətində sadəlövh cizgisi var. Lakin onlar hiyləgər, lağlağı və danışqan adamlardır. Çox tündməcaz olurlar.

Şimalla Cənub arasındakı fərq onların tarixi taleləri ilə də müəyyən edilir. Ölkənin Cənub hissəsi Roma Qalliyasından əmələ gəlib. Əsasən rum mənbələrində qallar cəsarətli, zirək, fərasətli, gözəl danışmağı bacaran, ünsiyyətcil, lakin ehtiyatsız, şöhrətpərəst, qərarsız, tamamilə qayda-qanuna riayət etməyən xalq kimi təsvir olunmuşdur. Əlbəttə ki, fransızlar öz xüsusiyyətlərini yaxşı bilir, özlərinə hesabat verməyi bacarırlar.

Fransızların təbiətə münasibəti. Fransanın bənzəri olmayan ərazisində çoxlu təzadlar və müxtəliflik görmək mümkündür. Fransada yolun hər döngəsində mənzərə dəyişilir. Aralıq dənizinin Cənubunda bütün rənglər açıq çalarlıdır. Burada çoxlu şam və zeytun ağaclarına da rast gəlinir. Fransa müxtəlif balıq növləri ilə də zəngindir. Bu ərazinin sıldırım dağları, təpələri vardır. Fransanın Cənubu isti iqlimə mənsub olduğundan, aydın təbiət buranın insanlarının da təbiətinə uyğun gəlir. Fransanın şimalında isə əksinə, heç nə günəşli cənubdakı kimi deyildir. Səma tez-tez yağışlı buludlarla örtülür, soyuq küləklər Atlantik okeandan və La-manş boğazından əsir, hər yeri duman bürüyür. Yol qırağında hər iki tərəfdə cərgə ilə alma bağları, qovaq və cökə ağacları salınıb. Uzaq, Şimal-Şərqdə Nord (Şimalda) və Pa-de-Calé (Kale limanı) əhalisi əsasən kartof və çuğundur əkməklə məşğul olur.

Fransızlar alma şərabına daha çox üstünlük verdiklərindən, şimalda üzümlüklər artıq yox olmaq üzrədir. Üzüm tənəklərinin yerini maya göbələyi əvəz edir. Şimalda yaşayan insanların təbiəti də cənubdakılardan tamamilə fərqlənir.

Fransızların temperamentinin təzahür xüsusiyyətləri. Ümumilikdə fransızla ***rasional düşüncəli, sentimental*** xalq hesab olunur. Fransanın cənubunda olan aydın təbiət buranın insanlarının temperamentinə də uyğun gəlir. Cənublular cəld, çevik, ünsiyyətcil insanlardır. İsti iqlimə mənsub olduqlarından onlara evdə oturmaq darıxdırıcı gəlir, həyətə, kafeyə getməyə can atırlar. "Günəş vannası" qəbul edir, çay stolu arxasında son yerli mətbuatı müzakirə edirlər. Kəndlərdə və şəhərlərdə əsasən yaşlı kişilər möhtəşəm Çinar ağaclarının kölgəsində və fantanların kənarında yığışaraq, kart və ya domino oynamaqla günlərini keçirdirlər.

Cənubla şimal insanlarının temperament fərqi də böyükdür. Şimalda yaşayan fransızlar az ünsiyyətli və az danışan olurlar, lakin onlar işdə çox ciddi və bacarıqlı, dostluqda isə çox möhkəm və davamlı olurlar. Onlar öz keşmiş ənənələrini də qoruyub

saxlayırlar. Şimalda yaşayanlar cənubdakılardan fərqli olaraq küçədə vaxt keçirməyi xoşlamırlar. Onlar havanın soyuq keçməsi ilə əlaqədar olaraq rahat evdə oturmağa üstünlük verirlər.

Fransızların adət-ənənələri. Fransızlar öz keçmiş adət-ənənələrini qoruyub saxlamağı bacarırlar. Burada çoxlu həvəskar (fan) klublar, folklor dərnəkləri fəaliyyət göstərir. Bayram günlərində şəhərin küçələrində möhtəşəm karnavallar keçirilir.
Ənənəvi xalq kostyumu olan qadın kostyumu büzməli geniş ətək, qollu köynək, önlük və papaqdan ibarətdir. Kişi kostyumu isə şalvar, köynək, jilet, gödəkcə boyun dəsmalı və şlyapadan ibarətdir. Kənd kişilərinin və fəhlələrinin baş örtüyü kimi indi də beretlərdən istifadə edirlər. Kostyumun əsas elementləri bütün Fransada eynidir. Ənənəvi vilayət kostyumlarının fərqi yalnız müxtəlif önlük və örtüklərlə seçilir.
Fransızlar özlərinin milli mətbəxləri ilə də fəxr edirlər. Hər bir fransız əyalətində ənənəvi xörəklərin olmasına baxmayaraq, fransızların qidasında ümumi xarakterik xüsusiyyətlər daha çoxdur. Onlar çoxlu tərəvəz və meyvələrdən istifadə edirlər. Pendir istehsalında fransızlar böyük ustalıq nümayiş etdirirlər. Fransız stolunun ayrılmaz atributu çaxır olduğundan, fransızlar çaxır istehsalına görə də dünyada birinci yerdə durur. Ən çox alma şərabına üstünlük verirlər.
Fransız xalqının başqa xalqlara münasibəti. Fransızlar daim özünü təsdiqə çalışırlar. Başqalarının qeybətini qırmağı sevirlər. Bununla belə, başqalarının özləri haqqında fikirlərinə həssalıqla yanaşırlar. Onlar qapalı ingilisdən, ciddi almandan daha ünsiyyətcil, italyanlara nisbətən daha ciddidirlər, lakin fransızların ünsiyyətcilliyi heç də birmənalı deyil. Əgər amerikalı tanışlıqdan yarım saat sonra əlini sənin ürəyinə vurur və evinə qonaq dəvət edərsə, fransız bunu etməz. Fransıza "sən deyə" müraciət etmək uzun vaxt tələb edir. Fransızların işğüzar həyatında şəxsi əlaqə və tanışlıq böyük rol oynayır. İşğüzar tanışlıq zamanı fransıza hökmən ***vizit kart*** verilir. Onlar tanışların təhsilinə də xüsusi fikir verirlər. Ona görə də vizit kartda təhsil aldığı müəssisənin adının göstərilməsi vacibdir.
Fransızlar o qədər də dəqiq deyillər. Onların qəbullarının öz qaydası var. Daha yüksək statuslu şəxs bir qayda olaraq görüşə gec gəlir. Tutaq ki, siz firmanın prezidenti ilə şam yeməyinə dəvətlisinizsə, arxayın ola bilərsiniz ki, o, ən azı yarım saat gecikəcək. Stol arxasında ənənəvi mövzu teatr, kino, sərgilər haqqında danışıqlardan ibarət olur.
Fransızlar özlərini təqdim etmək qaydalarına xüsusi əhəmiyyət verirlər. Geyimə qarşı mühafizəkardırlar. Adətən zövqlə geyinirlər. Açıq, parlaq rənglərə üstünlük verirlər. Onlarda əzilmiş, ütüsüz paltarda gəzmək qəbahət sayılır. Qadınlar daş-qaş, zinət əşyaları taxmağı o qədər də xoşlamırlar. Hər kəsin cəmiyyətdə mövqeyi, sosial statusu asanlıqla gözə
çarpır. Görüşərkən əl tutur və bir anlığa bir-birilərinin gözlərinin içinə baxırlar. Adətən işgüzar görüşlərdə yemək verilir. Yemək zamanı siqaret çəkmirlər, belə hesab edirlər ki, siqaret yeməyin dadını qaçırdır.

Əgər siz fransızca danışmasanız, gərək bu dili pis bildiyinizi söyləyə, üzrxahlıq edəsiniz. Fransızlar mahir natiqdirlər. Söhbət zamanı tez-tez mövzuya uyğun zarafatlar edirlər. Fransızların ilk dəfə tanış olduqları adama ilk sualları bu olur: "sən hardasan?". Bu sualla əsasən onlar digər bölgədən olan fransıza müraciət edirlər ki, həmsöhbətinin xarakterik xüsusiyyətlərini müəyyən edə bilsin.

Fransızların ailəyə, uşaqlara münasibəti. Fransızların ailəyə münasibətinin də özünəməxsus xüsusiyyətləri vardır. Övlad məhəbbəti, ona öz nəslinin davamçısı kimi baxmaq istənilən insanın genetik xüsusiyyətidir. Bununla belə, hər bir xalq bu məhəbbəti müxtəlif şəkildə təzahür etdirir. Burada təbii ki, valideynin xarakteri, sosial mühiti, milli xüsusiyyətləri, əxlaq dəyərləri və s. öz təsirini göstərir.

Fransız uşağa məhəbbətini italyanlar kimi hay-küylü şəkildə bildirmir. Ümumiyyətlə, fransızlar rasional düşüncəli sentimental xalqdırlar. Fransızlar uşağa qarşı çox da ürəyi yumşaq deyillər. Uşağa qarşı biganə və sərt olurlar. Onlar uşağın erkən qabiliyyətini daha çox qiymətləndirirlər. Fransada ictimai yerlərdə bərkdən ağlayan uşağa nadir hallarda rast gəlinir. Onlar uşağı həddən artıq əzizləyərək, nazını çəkərək yedizdirməyi xoşlamırlar. Ümumiyyətlə, Fransada öz qabında yemək saxlamaq mədəniyyətsizlik hesab olunduğundan, uşağa da öz yeməyini sonadək yeməyi öyrədirlər. Fransızlar uşağa soyuq dəyməsin deyə onu heç vaxt qalın geyindirmirlər. Anaya hörmət 1-ci dərəcəli vəzifədir. Böyük uşaqlar ev işlərində anaya kömək edirlər. Yad adamların yanında uşaqlar özlərini ciddi və sakit aparır, heç vaxt böyüklərin sözlərini kəsmirlər. Onlara müraciət edilməzsə söhbətə qarışmırlar. Bir sözlə, onlar özlərini inamlı və böyük adam kimi aparırlar. Fransızlar amerikalılar kimi uşaqların pul qazanmaq üçün qəzet paylamağını, maşın yumağını səmərəli vasitə hesab etmirlər. Fransızlar ev işlərində yaxından iştirak etməyi kişi işi hesab edirlər, yəni stol açmaq, qab yumaq, zibil atmaq, ev yığışdırmaq və s. kimi işlərdə kömək etməyi normal qəbul edirlər.

Nənələrin öz nəvələrinin daim qayğısına qalması qəbul edilmir. Yalnız şənbə və bazar günləri nəvə ancaq bir neçə saatlığa nənənin yanında qala bilər. Bundan başqa əgər nənə kənddə yaşayırsa, nəvə yay tətilini nənəsi ilə birgə keçirə bilər.

Fransızların həyat tərzi. Fransızlar pula qarşı çox tələbkardırlar, pul yığmağı xoşlayırlar. Bəzən bu hal onlarda xəsisliyə çevrilir. Fransızlar riskli işə pul yatırmaqdansa, onu qoruyub-saxlamağı üstün tuturlar.

Fransızların işgüzar həyatında şəxsi tanışlıq və şəxsi münasibətlər mühüm yer tutur. Fransızların xarakterindəki fərdilik ünsiyyətli olmaq halına üstün gəlir. Onlar çay stolu arxasında oturaraq hər mövzuda səmimi söhbət etsələr də, öz qəlblərini başqalarına açmağı xoşlamırlar. Fransıza "sən" deyə müraciət etmək uzun vaxt tələb edər. Onlar özləri ilə başqaları arasında həmişə müəyyən məsafə saxlayırlar.

Fransada ali təhsilə xüsusi diqqət yetirirlər. Ölkənin ən görkəmli iş adamları və elitası əsasən məşhur ali təhsil müəssisələrinin məzunları arasından çıxır.

Fransızlar öz ölkələrinin tarixinə, mədəniyyətinə, dilinə çox ehtiramla yanaşırlar. İşğüzar görüşlər zamanı gərək fransızca danışmağa çalışasan, bu dili bilmədikdə isə, üzr istədikdən sonra başqa dildə danışa bilərsən.

Onlar çox dəqiqdirlər və qonağı da təyin edilmiş vaxtda qarşılamağı xoşlayırlar. Fransızlar mətbəxi özlərinin milli fəxri hesab etdiklərindən, masanın üzərindəki yeməklərin və içkilərin keyfiyyətinə də xüsusi fikir verirlər. Stola çox tünd içkilər qoyulur, sağlıq deyilmir, hesabı da dəvət edən şəxs ödəyir. Söhbətə əsasən kofe verildikdən sonra başlayırlar. Adətən masa arxasında kino, sərgilər, kitablar, Fransız mədəniyyəti və incəsənəti, turizim kimi mövzulardan söhbət edirlər.

Fransanın mədəniyyəti və dini. Fransanın şimalı ilə cənubu onların tarixi talelərində də fərqlənir. Ölkənin Cənubu Roma Qalliyasından əmələ gəldiyindən, burada Roma mədəniyyətinin böyük təsiri vardır. Burada mədəniyyətin əsasını Antik Roma mədəniyyəti təşkil edir. Bəzi Cənub şəhərlərində hələ də antik amfiteatrlar, həmçinin rum qullarının tikdikləri möhtəşəm azverdunlar qalmaqdadır. Marselin əsasını da qədim yunanlar qoymuşlar. Fransız ənənəvi mədəniyyəti özünəməxsus cəhətlərini yaşayış məskənlərinin xarakterində, yaşayış evlərinin tiplərində və milli mətbəxində saxlamışdır. Ölkənin Şimal-Şərq hissəsinin Pikardiya, Şampan, Lotoringiya və Elzasın düzənlik və təpəlik rayonları üçün küçə və cərgəvi planlı böyük kəndlər xarakterikdir. Əkin sahələri az olan hissələrdə isə Bretan, Normandiya, Akvitaniya və Pravansda kiçik qəsəbələr üstünlük təşkil edir. Burada kəndli mülkləri bir-birindən hasarlar vasitəsilə ayrılırlar. Fransa kəndlərində əsasən küçə və paralel sırada düzülmüş birmərtəbəli evlər geniş yayılmışdır. Fransanın dağlıq rayonlarında Alp tipli yaşayış evləri geniş yayılıb.

Fransanın əsas dini xristian dinidir. Fransada xristianlığın qolları protestant və katolikdir. Fransızlar həftənin bir günü kilsəyə gedərək ibadət edirlər. Fransanın şimalında dinə etiqad cənuba nisbətən daha çox yayılmışdır. Bundan əlavə Fransada islam dininə də etiqad edənlər çoxdur. Hal-hazırda Fransa əhalisinin 10%-ni müsəlmanlar təşkil edir. Bunlar əsasən Afrikadan gələn ərəblər, misirlilər, tümənlər və əlcəzairlilərdir.

İxtisas ölkə xalqlarının dili. Milli xüsusiyyətlərin formalaş-masının öz qanunauyğunluqları var və ondan yan keçmək olmaz. Bunların içərisində xalqın dili ilə onun ruhu arasında birbaşa bağlılıq vardır. Dil hər bir xalqın öz düşüncəsinin, təfəkkürünün aynasıdır.

Bir ailəyə daxil olan dillər (dil ailəsinə) öz aralarındakı müxtəlif dərəcəli qohumluqlarını saxlayırlar. Bununla əlaqədar olaraq dil ailələri budaqlara, onlar da öz növbəsində qrup və yarımqruplara ayrılırlar. Hind-Avropa dil ailəsi. Bu dil ailəsi 12 budağa ayrılır: Hind, İran, Slavyan, Baltik, Alman, Kelt, İtalyan, Roma, Alban, Yunan, Anadolu, Toxar.

Roman dilləri budağı Roma imperiyasının dağılmasından sonra latın dilinin danışıq dialektlərindən əmələ gəlmişdir. Bunlar: İspan, Portuqaliya, Katalon, Fransız, Provansal, İtalyan, Sardin və Retoraman (Fransız, İtaliyan və Alman dilləri ilə yanaşı, İsveçrənin dövlət dili), Rumin, Moldav dilindən ibarətdir.

German tayfaları olan Frankların, Almanların, Burqunların hücumları Qalliyada Roma hakimiyyətinə son qoydu. Burada Franklar daha möhkəm dövlət yaratmağa müvəffəq oldular. Fransanın ərazisi Frank dövlətinin əsası oldu. 843-cü ildə Karlın (Charle le Man) imperiyasının 3 hissəyə bölünməsi etnik xüsusiyyətləri və dildəki dəyişiklikləri əks etdirir. Müasir Fransanın ərazisini əhatə edən Qərbi Frank krallığının əhalisi latın dili

əsasında formalaşmış roman dilində, Şərqi Frank Krallığının əhalisi isə german dilində danışır. Roman dili burada vahid dil deyildir.
Hazırda fransız dilində (ana dili və dövlət dili kimi) 90 mln-dan çox əhali danışır. Bundan başqa Belçikanın Valloniya əyalə-tində Hunsemburqda, İsveçrədə, Kanadanın Kvebek (Quebec) əyalətində fransız dilində danışırlar. Keçmişdə Fransanın əsarətində olmuş Afrikada, Asiyada Okeaniyada və Karib dənizi sahillərində də fransız dilində danışan əhali az deyil.
Fransızların işğüzar üslubu. Fransada həyat şəraiti çox yüksəkdir. Qərbi Avropa, eləcə də dünya mədəniyyətinin inkişafında Fransızların müstəsna rolu olmuşdur. Fransada təhsilə xüsusi əhəmiyyət verirlər. Burada 400-ə qədər ali təhsil müəssisəsi vardır. Parisdə 13 universitet fəaliyyət göstərir. Fransada ailəyə gəlir gətirən maddi şeylərin 30-dan çox adı var: maaş, yardım, qonorar, gəlir və s. ***Fransızlar yazıçının dövlət qonorarını dövlət qulluqçusunun maaşından daha mötəbər hesab edirlər (hətta dövlət qulluqçunun gəliri dəfələrlə çox olsa belə).***
Fransızların pula, var-dövlətə özünəməxsus münasibətləri vardır. Onlar qənaətçilliyi daha düzgün hesab edirlər. Bəzən isə bu "xəsisliyə" çevrilir. Qənaət edib pul toplamaq və qocalıqda həyatını təmin etmək çoxlarının azusudur. ***Onore de Balzak*** heç də təsadüfi demirdi ki, "***Yoxsulluq qurtaranda xəsislik başlayır".*** Fransızlar riskli maliyyə avantürası etməkdənsə qənaət etməyi üstün tuturlar.
Fransa yüksək surətdə inkişaf etmiş aqrar-sənaye ölkəsidir. O, ən yüksək inkişaf etmiş "Böyük yeddilərdən "biridir. Kənd təsərrüfatı məhsulları istehsalına görə Fransa ABŞ və Kanadadan sonra 3-cü yerdədir. Fransa Avropada ən çox taxıl, ət və süd məhsulları, kərə yağı və pendir istehsal edən ölkələrdəndir. Ölkənin Cənub və Cənub-qərbində günəbaxan, qarğıdalı əkirlər, eləcə də, balıqçılıq əsas sahələrdən sayılır. Ölkə kifayət qədər dəmir, uran, boksit və s. kimi təbii ehtiyatlara malikdir. Burada maşınqayırma, aviakosmik, radioelektronika, dəmirçilik sənayesi yüksək səviy-yədə inkişaf etmişdir.
Meşə təsərrüfatı sənayesi də burada əsas sahələrdən sayılır. Bununla yanaşı ölkənin cənub-qərbində, Bordo yaxınlığında zəngin neft yataqları da vardır.
Fransa yüksək elmi-texniki potensiala malikdir. Ölkə əhalisinin təxminən yarısı xidmət sahələrində səhiyyə, təhsil, maliyyə işi, turizm və s. sahələrində də çalışır. Fransa xarici ticatət sahəsində dünyada ABŞ, Almaniya və Yaponiyadan sonra 4-cü yeri tutur. Milli gəlirin 30%-i sosial sahədə ayrılır. Ölkədə televiziya və kino sənayesi də çox yüksək səviyyədə inkişaf etmişdir.
Fransız filmlərinin bir çoxu dünyanın qızıl fonduna daxil edilmişdir.
Fransızlar hesab edirlər ki, həyatda uğur qazanmaq əməksevərlik yolu ilə mümkündür. Bir qısım fransıza görə düzlük və çeviklik insana uğur qazandırır. Fransızların yarışı hesab edir ki, çox böyük pullar düz yolla qazanılmır. Ona görə də fransız milyarderləri qəzetdə, televiziyada tez-tez görünməkdən çəkinirlər.
İxtisas ölkəsi xalqının cöğrafi mühiti və söykökü haqqında (fransızlar). Fransızlar. Avropa kontingentində ən qədim və bənzəri olmayan, zəngin tarixə və mədəniyyətə malik olan xalqlardandırlar. Fransanın məhdud ərazisində çoxlu təzadlar və müxtəliflik görmək mümkündür, nəinki Avropanın digər ərazilərində. Bəzi ölkələrdə

100 kmlərlə yol gedirsən, lakin yol boyu dekarasiya dəyişilmək qalır. Lakin Fransada yolun hər döngəsində mənzərə dəyişilir.
Aralıq dənizinin cənubunda bütün rənglər açıq-çalarlıdır- mavi səma, qızılı günəş, qırmızımtıl torpaq: uzun və yumşaq iynələri olan cənub Şam ağaclarının budaqlarından və zeytun ağacının yarpaqlarından süzülən gümüşü rənglər, üfüqə yüksələn sıldırım dağlar, təpələr və s. Havadan bəzən yaşıl otların iyi, bəzən də meşə yanğından əmələ gəlmiş otların iyi gəlir: bəzən isə zeytun yağında qızardılmış balıq iyi gəlir.
Aydın təbiət buranın insanlarının temperamentinə də uyğun gəlir. Cənublular cəld, çevik insanlardır.
Fransanın Şimalında isə, əksinə heç nə günəşli cənubdakı kimi deyildir. Səma tez-tez yağışlı buludlarla örtülür. Soyuq küləklər Atlantik okeanından və La Manşdan əsir, hər yeri duman bürüyür. Yol qırağında hər iki tərəfdə cərgə ilə alma bagları, qovaq ağacları və cökə ağacları salınıb. Südündən məşhur normand pendiri hazırlanan inəklər, sanki saqqız çeynəyirlər.
Daha uzaqda şimal şərqdə Nordda (Şimal) və Palekaledə (Pa-de Kale) əsasən tarlalardan yığılmış kartof və çuğundur təpələri piramida şəklində ucalır,evlərin bacalarından tüstülər qalxır. Burada çox hissəsi tərk edilmiş evlərin paslı damları görünür.
Şimalda üzümlüklər yox olur. Üzüm tənəklərini maya göbələyi sıxışdırıb aradan çıxarır. Əslində fransızlar üzüm şərabına deyil, alma şərabına üstünlük verirlər. Şimalda adamlar cənublilardan fərqli olaraq küçələrdə oturmağı xoşlamırlar, onlar pis hava şəraiti ilə əlaqədar olaraq rahat evlərində, mənzillərində olmağı xoşlayırlar. Şimallı fransızlar az ünsiyyətli və az danışan almalarına baxmayaraq, işdə çox ciddi və bacarıqlı, dostluqda isə çox ümidverici və inanılmış olurlar.
Şimalla cənub arasındakı fərq onların tarixi taleləri ilə də müəyyən edilir. Ölkənin cənub hissəsi Roma qalliyasından əmələ gəlib. Burada mədəniyyətin əsası antik (yəni Yunan və Roma dünyası, onun mədəniyyəti və tarixi) - qonşu İtaliyanınkına əsaslanır. Bəzi cənub şəhərlərində hələ də antik amfiteatrlar (qədim Yunan və Romalılarda dairə və yarımdairə şəkilli açıq tamaşaxanalar) həmçinin Rum qullarının tikdikləri möhtəşəm akveduklar (çay, dərə üzərində körpü şəklində çəkilən su kəmərləri) qalmaqdadır. Marselin əsasını da qədim yunanlar qoymuşlar. Provansda kəndlərin sakinlərinin üzü, sanki orta əsrlərdə yaşayan Afrika müsəlmanlarının sifətini xatırladır. Həmin ərəb =sarasın-burada uzun müddət-xaç yürüşünədək hökmranlıq etmişlər. Əsasən Rum mənbələrində Qallar cəsarətli, zirək, fərasətli, gözəl danışmağı bacaran, ünsiyyətli, lakin ehtiyatsız, şöhrətpərəst, qərarsız, tamamilə qayda-qanun riayət etməyən xalq kimi, təsvir olunmuşdur. Əlbəttə ki, fransızlar öz xarakter xüsusiyyətlərini yaxşı bilik və özlərinə hesabat verməyi bacarırlar. Ona görə də, indiki fransızlar tarixdəki öz keçmiş qəhrəmanlarını dövlətin maraqlarına əzmlə qulluq etmiş adamlarını (öz çatışan və ya çatışmayan cəhətləri) sevərək yad edirlər. Ona görə də, qadın düşgünü və qadınların sevimlisi olan, lakin çox dözümlü və ehtiyatlı olan IV Henrix əfsanəvi döyüşlərin qəhrəmanı və

diplomatik bacarığa malik Kardinal Rişelye və ya Fransaya pərəstişi olan general De Qoll (Charle de Goll).

Şimalda fransızların mənşəyi buranı öz əsarətində saxlamış bir çox tayfaların, almanların, keltlərin, vest qotların, frankların, burqundların, normanların mənşəyinə əsaslanır. Ona görə də, fransızlar əvvəl özlərini fransız, sonra isə digər tayfaların törəmələri hesab edirlər. Yəqin ki, fransızların xarakterləri ona görə ziddiyyətlidir ki, onlar özlərində müxtəlif əyalətlərin əhalisinin müxtəlif xüsusiyyətlərini cəmləşdirirlər. Qədim fransız atalar sözündə deyildiyi kimi,"Hər şeydən bir az olmalıdır ki bütöv dünyaı yaradasan".

Başqa xalqlardan fərqli olaraq, fransızlar əsasən oturaq xalq hesab olunurlar. Fransa tarixində kütləvi şəkildə emmiqrasiya olunmaq halına az rast gəlinir. 1685-ci ildə XIV Rüdoviqin "dini-azadlıqların ləvğ edilməsi" qərarını verməsindən sonra dini təqib lərdən qaçaraq Almaniyaya, İsveçrəyə, Hollandiyaya, İngiltərəyə fransız-protestantlarını göstərmək olar. Bir də, XVI əsrdə Jak Kartın Kanadanın Kvebek əyalətini işğal etməsindən sonra buraya süni yerləşdirilən xeyli sayda fransızları misal çəkmək olar. Bu günədək burada-Kvebekdə 6 milyona qədər insan fransız dilində danışır. Hazırda xaricdə yaşayan fransızların sayı 1,5 milyonu ötmür ki, onların da çoxu qocalanda "vətəndə ölməyə" qayıdırlar.